**ISSN 2409-0859**

AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

BAKI DÖVLƏT UNİVERSİTETİ

# SOSİAL VƏ HUMANİTAR ELMLƏRİN MÜASİR PROBLEMLƏRİ

ELMİ ƏSƏRLƏR TOPLUSU

BURAXILIŞ № 30
(I HİSSƏ)

BAKI – 2022

**ISSN 2409-0859**

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi, mətbu nəşrlərin reyestrinə
daxil edilmə nömrəsi: **3885, 25.05.2014-cü il**

**Ünvan:** 1148, Azərbaycan, Bakı, Z.Xəlilov, 23, Bakı Dövlət Universiteti, 2 korpus, otaq 812, tel. 012 438 14 47, sayt http://sociology.bsu.edu.az/
E-mail: q.abbasova@mail.ru

Sosial və humanitar elmlərin müasir problemləri. Ali məktəblərarası elmi əsərlər toplusu. Buraxılış № 30 (I hissə). Bakı: 2022, 204 s.

**Redaksiya heyəti**

**Rəbiyyət Nurullah qızı Aslanova**, fəlsəfə elmləri doktoru, professor, BDU
**Əziz Bəşir oğlu Məmmədov**, fəlsəfə elmləri doktoru, professor, BDU
**İzzət Əşrəf oğlu Rüstəmov**, fəlsəfə elmləri doktoru, professor, BDU
**Rəna Fuad qızı İbrahimbəyova**, psixologiya üzrə fəlsəfə doktoru, professor, BDU
**Zeynəddin Camal oğlu Hacıyev**, fəlsəfə elmləri doktoru, professor, BDU
**Rövşən Əli oğlu Cavadov**, psixologiya üzrə fəlsəfə doktoru, dosent, BDU
**Kamilə Ramiz qızı Əliyeva**, psixologiya elmləri doktoru, professor, BDU
**Tatyana İvanovna Bilenko**, fəlsəfə elmləri doktoru, professor, Droqobıç dövlət pedaqoji universiteti (Ukrayna)
**Sergey Nikolayeviç Volkov,** fəlsəfə elmləri doktoru, professor, Penza texnoloji akademiyası (Rusiya)
**Ləzifə Nağı qızı Qasımova**, pedaqogika elmləri doktoru, professor, BDU
**Hikmət Əbdul oğlu Əlizadə**, pedaqogika elmləri doktoru, professor, BDU
**Qəmər Cəfər qızı Mürşüdlü**, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent, BDU
**Kəmalə Həsən qızı Pənahova,** fəlsəfə üzrə fəlsəfə doktoru, dosent, BDU
**Qızılgül Yasin qızı Abbasova**, fəlsəfə elmləri doktoru, professor,baş redaktor, BDU
**Daxil Cahangir oğlu Vəliyev**, fəlsəfə üzrə fəlsəfə doktoru, redaktor müavini, BDU
**Vüsalə Kərəm qızı Musayeva,** buraxılışa məsul redaktor, BDU

Topluda müasir dövrün aktual problemlərindən bəhs olunur. Məqalələrdə müəlliflər tərəfindən qaldırılan məsələlərin geniş çeşidi dünyamızın tarix, fəlsəfə, politologiya, sosiologiya, pedaqogika, psixologiya, iqtisadiyyat, mədəniyyətşünasliq, sənətşünaslıq və digər sosial-humanitar sahələrdə baş verən proseslərə bir çox yeni aspektlərdən nəzər salmağa imkan verir. Toplunun materiallarından elmi işçilər, ali və orta ixtisas məktəblərinin humanitar fənləri tədris edən müəllimlər, tələbələr və aspirantlar faydalana bilərlər. Məqalələr müəlliflərin redaktəsi ilə çapa verilmişdir.

# HUMANİTAR ELMLƏR

## SOSİOLOGİYA

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ – MƏDƏNİ SİYASƏTİN İNKİŞAFI

***Musayeva Pəri Zaur qızı***
***BDU-nun II kurs magistrantı***
***perimusayeva98@gmail.com***

***Açar sözlər:*** Azərbaycan Xalq Cümhuriyyəti, miili, mədəniyyət, siyasət
***Ключевые слова:*** Азербайджанская Демократическая Республика, национальная, культура, политика
***Keywords:*** Azerbaijan Democratic Republic, national, culture, politics.

Tarix sübut edir ki, dövlətin və millətin inkişafında mədəniyyətin və ideoloji amillərin rolu böyükdür. Belə ki, hər hansı bir xalqa məxsus olan mədəniyyətin məhvi həmin xalqın və onun məxsus olduğu dövlətin dünya siyasi xəritəsindən silinməsinə səbəb ola bilər.

İcitmai hadisə olan mədəniyyət elə bir məfhumdur ki, onu ictimai həyatın digər sferalarından ayrı təsəvvür etmək mümkün deyildir. O, insan həyatının bütün mühüm sahələrinə təsir edir.

Mədəniyyət siyasi amillərdən, siyasi sistemdən asılı olaraq inkişaf edir. Eyni zamanda, mədəniyyət də siyasi sistemə çox mühüm təsir göstərir. Beləliklə də, mədəniyyətlə siyasətin əlaqəsindən mədəni siyasət meydana çıxır. Hər bir dövlətin öz mədəni siyasətini düzgün həyata keçirməsi olduqca vacib faktor hesab olunur [1 s.20-28].

Azərbaycan xalqı böyük tarixə malik olduğu kimi olduqca zəngin qədim mədəniyyətə sahibdir. Azərbaycan mədəniyyət tarixində bu məfhum bəşəri, xüsusən, milli hadisə kimi qiymətləndirilir. Bütün zənginliyi ilə bu günümüzə gəlib çatmış Azərbaycan mədəniyyəti bir çox tarixi sınaqlardan keçmişdir. Azərbaycan mədəniyyət tarixində baş vermiş olduqca önəmli tarixi hadisələrin bir qismi məhz Azərbaycan Xalq Cümhuriyyəti dövrünə təsadüf etmişdir. Belə ki, bu dönəmdə həyata keçirilmiş mədəni islahatlar, mədəni sfera ilə bağlı verilmiş qərarlar, ümumən, mədəni siyasətin inkişafında olduqca mühüm rol oynamışdır.

1918-ci ilin əvvəllərində Azərbaycanda siyasi hakimiyyət uğrunda gedən mübarizədə rus-bolşevik və erməni-daşnak birləşmələrinin müqaviməti qırılmış və 28 may 1918-ci ildə Milli Şura Tiflisdə Azərbaycan Xalq Cümhuriyyətinin qurulduğunu elan etmişdir. Belə bir mürəkkəb dönəmdə milli istiqlalın qorunması və davamlı inkişaf etməsi üçün Azərbaycan Xalq Cümhuriyyətinin rəhbərləri, ictimai xadimləri və eyni zamanda, dövrün ziyalıları mədəni siyasətə xüsusi diqqət vermişdirlər. Ümumən, AXC 23 ay ərzində parlamenti, hökuməti, ordusu olan, dövlət rəmzlərinə malik demokratik, dünyəvi və unitar dövlət kimi formalaşmışdır. Bu dönəm ərzində qəbul olunmuş qərarların böyük qismi elə demokratiyanın, elmin və mədəniyyətin inkişaf etdirilməsi ilə bağlı olmuşdur.

AXC-nin qəbul etdiyi İstiqlal Bəyannaməsində bərabərhüquqluluq öz qanuni təsdiqini tapdı. Nəticədə, Azərbaycan Şərqdə qadına siyasi proseslərdə iştirak etmək hüququ vərən ilk dövlət oldu. Bundan başqa, xüsusilə qeyd olunmalıdır ki, bu dönəmdə Azərbaycan ziyalıları fanatik dindarların hücumlarından qorxmayaraq “qadın bir şəxsiyyət kimi azad olmayınca xalqın problemləri həll olunmayacaq” ideyasını irəli sürüdülər. Bu dönəmdə qızların məcburən evləndirilməsi və kişilərin qadınlara qul kimi baxmasını tənqid atəşinə tutan ziyalılar qadınların təhsil almalarının vacibliyini xüsusilə təbliğ edirdilər. Ümumiyyətlə, qadın problemi

Cümhuriyyət parlamentinin diqqətdə saxladığı aktual mövzulardan biri idi. Azərbaycan Xalq Cümhuriyyətinin qurucularından olan Məmməd Əmin Rəsulzadə müsəlman qadınının azad edilməsini müsəlman xalqlarının milli-azadlıq mübarizəsinin ən mühüm məsələlərindən biri kimi qiymətləndirmişdir [2 s.13-14].

AXC Hökuməti 1918-ci il noyabrın 9-da Dövlət bayrağı haqqında qərar qəbul etməklə tarixi hadisəyə imza atdı. Milli Bayraq haqqında qərara alındı – "mavi, qırmızı və yaşıl rənglərdən, ağ aypara və səkkizbucaq ulduzdan ibarət olan bayraq Milli bayraq hesab edilsin". Milli bayraqda milli-mədəni irsimiz öz əksini tapır.

Dövlət müstəqilliyinin rəmzlərindən biri də gerbdir. AXC qurulduğu gündən dövlət gerbinin layihəsinin hazırlanmasına başlanmışdır, fəqət baş vermiş siyasi proseslər, Azərbaycanın Sovet Rusiyası tərəfindən işğalı bu layihənin tamamlanmasına imkan verməmişdir [8].

Azərbaycan Xalq Cümhuriyyəti illərində ədəbiyyat, teatr və musiqi, təsviri sənət və memarlıq sahələrində mühüm canlanma olmuşdur.

Azərbaycan Xalq Cümhuriyyətinin ictimai-siyasi ideyalarını təbliğ edən, Azərbaycanın mədəni həyatına böyük təsir göstərən, xalqı milli birliyə, milli mədəniyyətə çağıran "Açıq söz", "Dirilik", "Təkamül", "İstiqlal" və s. mətbuat nümunələrinin rolu əvəzsizdir. Ümumən, Azərbaycan Xalq Cümhuriyyətinin ideyalarının təbliğində milli mətbuatın rolu olduqca böyükdür. Mədəni mərkəzlərdə çıxan mətbuat nümunələri Azərbaycan-türk dili ilə yanaşı, rus, gürcü, erməni, fars, alman və başqa dillərdə də nəşr edilirdi. 1918-ci il martın 31-də Azərbaycanda erməni-daşnak və rus-bolşevik birləşmələri tərəfindən türk əhaliyə qarşı törədilən kütləvi soyqırımı bu dövr Azərbaycan milli mətbuatının başlıca mövzusu olmuşdur [4 s.68-78].

Olduqca mürəkkəb şəraitdə fəaliyyət göstərməsinə baxmayaraq Cümhuriyyət Hökuməti və Parlamenti elmin, təhsilin və xalq maarifinin inkişafını diqqət mərkəzində saxlayırdı. Ölkənin hər yerində məktəblər, uşaq baxçaları, gimnaziyalar, qız məktəbləri, qısamüddətli müəllim kursları, kitabxanalar, teatr dərnəkləri açılırdı. Parlamentin 1919-cu il sentyabrın 1-də Bakı Dövlət Universitetinin təsis olunması haqqında qəbul etdiyi qanun xüsusi qeyd olunmalıdır. Belə ki, bu qanun nəticəsində, Azərbaycanda ilk universitet təsis olunmuşdur.

Ölkənin siyasi-iqtisadi, o cümlədən, mədəni inkişafı üçün savadlı kadrların həlledici rolunu nəzərə alan Cümhuriyyət Hökuməti 1919-cu il 1 sentyabr tarixli qərar ilə 100 nəfər azərbaycanlı gənci Avropanın ali məktəblərində təhsil almağa göndərmişdir [5].

Ümumiyyətlə, 1918-1920-ci illərdə AXC olduqca aktiv, genişmiqyaslı mədəniyyət siyasəti yürütmüşdür. Bu dönəmdə ölkənin mədəni həyatında əlamətdar hadisələr baş vermişdir. AXC-nin milli mədəniyyətimizin tərkib hissəsi olan teatr sənətinə göstərdiyi diqqət açıq sezilir. Belə ki, 1918-ci il mart soyqırımı Azərbaycan teatrına da öz mənfi təsirini göstərmişdir. Bakıda fəaliyyət göstərən teatr və aktyor truppaları artıq pərakəndə halda idilər və demək olar ki, fəaliyyətlərini dayandırmışdılar. Yeni qurulmuş Xalq Cümhuriyyəti Bakı ilə yanaşı, ölkənin digər şəhər və qəzalarında, o cümlədən Şuşada teatr truppalarının yaradılmasına nail olmuşdur.

Bu dövrdə tamaşaların göstərilməsi üçün daimi teatr binalarının olmaması Bakıda dövlət teatrının yaradılmasının vacibliyini ön plana çıxarmışdır. 1918-ci il oktyabrın 18-də Cümhuriyyət hökuməti teatr üçün Mayılov Qardaşları Teatr binasını (indiki Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının binası) almaq barədə qərar qəbul etmişdir. Bununla da, Azərbaycan peşəkar teatrı Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət teatrı statusu almış olur.

Qeyd olunmalıdır ki, həlak olmuş əsgər ailələrinin xerinə təşkil olunan xeyriyyə tamaşaları, demək olar ki, ənənəyə çevrilmişdi.

Ümumən, o dövr xalqın mədəni həyatında böyük rol oynayan teatr tamaşaları müstəqilliyi, birliyi, azadlığı, elmi ön səhnəyə qoyaraq təbliğ edirdi. Səhnə əsərlərinin keyfiyyətinə, cəmiyyətdə milli ruhun düzgün formalaşmaına xüsusi diqqət yetirilirdi [6].

XX əsrin əvvəllərində Azərbaycanda cəmiyyətin iqtisadi, ictimai-siyasi, mənəvi həyatında baş vermiş ciddi dəyişikliklər musiqi mədəniyyətinin inkişafında mühüm rol oynamışdır. Qeyd olunmalıdır ki, Azərbaycançılıq ideyaları hələ qədim dövrlərdən başlayaraq milli musiqi mədəniyyətimizdə müxtəlif formalarda təbliğ olunmuşdur. Bu dönəmdə Azərbaycan xalqını milli birliyə, Vətən üçün mübarizəyə, qəhrəmanlığa səsləyən milli marşların, yaradılması zərurət idi. Dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyovun 1917-ci ilin sonlarında sözlərini və musiqisini yazdığı "Milli marş" sonralar elmi ədəbiyyatda "Azərbaycan milli marşı" adı ilə tanındı. Məşhur Azərbaycan şairi Əhməd Cavadın Birinci Dünya müharibəsi illərində yazdığı "Çırpınırdı Qara dəniz, baxıb türkün bayrağına!" misraları ilə başlanan şeirinə Üzeyir bəyin 1918-ci ildə bəstələdiyi mahnı Türkiyədə o zamanlar da dillər əzbəri olmuşdur.

Milli mənlik şüurunun, milli ideologiyanın dirçəlişi və inkişafı AXC-nin əsas təbliğatlarından biri idi. Odur ki, 1918-ci ilin sonlarında Bakıda "Türk gecələri" konsertləri təşkil olunurdu. "Türk gecələri"ndə "Azərbaycanın müstəqilliyi", "Türk qadınının dünyası", "Milli birlik" və s. bu kimi mövzularda tamaşalar göstərilirdi.

İnqilabi fəallığın, demokratik əhavli-ruhiyyənin vüsət aldığı bir dönəmdə "Koroğlu", "Qaçaq Nəbi" kimi tarixi mahnıların xalq arasında sevilib yayılması da təsadüf deyildi.

Müstəqil Azərbaycanın Dövlət himninin sözləri və musiqisinin bəstələnməsi də bu dövrə təsadüf edir. Himnimizin sözlərini 1919-cu ildə Əhməd Cavad yazmışdır və himnin sözləri 1919-cu ildə Azərbaycan Xalq Mətbəəsində nəşr olunmuş "Milli nəğmələr" kitabında "Vətən marşı" adı ilə qeyd olunmuşdur. Elə həmin ildə himnin musiqisini dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyov bəstələmişdir.

Bu dövrdə ölkədə çoxsaylı muzeylərin yaradılmasına da xüsusi diqqət yetirilmişdir. "İstiqlal" muzeyi də 1919-cu ildə Azərbaycan Parlamentinin yaradılmasının ildönümü münasibətilə onun binasında açılmışdır və parlamentin nəzdində fəaliyyət göstərirdi. Qeyd olunmalıdır ki, bu muzey ölkənin tarixini, mədəniyyətini, milli-bədii irsi nümayiş etdirən ilk dövlət muzeyi olmuşdur [7].

Beləliklə, Azərbaycan Xalq Cümhuriyyəti hakimiyyəti dönəmi mədəni siyasətini qısa təhlil edərkən Azərbaycan xalqının milli-mədəni irsinin qorunması və inkişafı nəzərə çarpır. O dövr Azərbaycanın ictimai-siyasi həyatında baş verən dəyişikliklər, gərgin siyasi proseslər mədəni siyasətə daha artıq diqqət və qayğı göstərilməsini tələb edirdi. AXC məhz bütün bunların öhdəsindən layiqincə gəlmiş, qısa müddətdə Azərbaycan mədəniyyətinin inkişafını, daxili və xarici təhdidlərdən qorunmasını uğurla bacarmışdır. AXC nəinki həmin dönəm mədəniyyətinə, eləcə də, mədəni sahənin gələcək inkişafına da olduqca mühüm təsir göstərmişdir [3 s.229-231].

Uluöndər Heydər Əliyev də AXC-nin varlığını çox yüksək qiymətləndirmişdir: "…Azərbaycan Demokratik Respublikası qısa müddətdə böyük işlər görmüş və Azərbaycanın gələcəkdə də müstəqil olması üçün mühüm zəmin yaratmışdır. Azərbaycan Respublikasının hüdudları müəyyən olunmuş, Azərbaycan dövlətçiliyinin atributları qəbul edilmişdi. Azərbaycanın gerbi və digər atributları, Azərbaycan dövlətinin bu gün bu salonda səslənən əzəmətli himni də məhz o vaxt, o şəraitdə yaranmışdır. Dövlətçilik sahəsində bir çox işlər görülmüş, Azərbaycan dilinin – ana dilinin tətbiq olunması, mədəniyyətimizin bir çox sahələrində, təhsil sahəsində tədbirlər görülməsi, iqtisadiyyat sahəsində müəyyən addımlar atılması ilk Azərbaycan Demokratik Respublikasının fəaliyyətini əks etdirən faktlardır".

## ƏDƏBİYYAT

1. Abbasov Namiq. Müasir şəraitdə Azərbaycan Dövlətinin mədəniyyət siyasəti və mənəvi dəyərlərin inkişaf amilləri. Bakı-2008. 239 s.
2. AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ ARXİV İDARƏSİ. AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN QURUCULARI (portret-oçerklər və məqalələr). "Elm və təhsil" Bakı – 2018. 248 s.
3. AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ ELMLƏR AKADEMİYASI FƏLSƏFƏ, SOSİOLOGİYA VƏ HÜQUQ İNSTİTUTU. Müasir Azerbaycanda politologiya və siyasi sosiologiyanın aktual problemləri I hissə. BAXT "TƏKNUR" 2013. 281 s.
4. Mahmudov Yaqub. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, I Cild, Bakı-2004: Lider Nəşriyyatı. 471 s.
5. https://kayzen.az/blog/Az%C9%99rbaycan-tarixi/1193/az%C9%99rbaycan-xalq-c%C3%BCmhuriyy%C9%99ti.html
6. https://science.gov.az/az/news/open/17057
7. https://axc.preslib.az/az/page/vAWgUkoCNB
8. https://www.elibrary.az/docs/qazet/qzt2018_2914.pdf

## AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ – MƏDƏNİ SİYASƏTİN İNKİŞAFI

***Musayeva Pəri***

### XÜLASƏ

Bu məqalədə Azərbaycan Xalq Cümhuriyyəti dönəmində mədəniyyət sahəsinin inkişafı, bütövlükdə bu dövrdə mədəni siyasətdən bəhs olunmuşdur. Bu dövrdə hökumət tərəfindəən mədəniyyət sahəsində görülmüş işlərdən, mədəni sfera ilə bağlı verilmiş qərarlardan və beləiklə də, mədəni siyasətin mahiyyətindən söz açılmışdır. Eyni zamanda, həmin dövrün ziyalılarının mədəniyyətə verdiyi tğfhələrdən bəhs edilmişdir.

## АЗЕРБАЙДЖАНСКАЯ ДЕМОКРАТИЧЕСКАЯ РЕСПУБЛИКА - РАЗВИТИЕ КУЛЬТУРНОЙ ПОЛИТИКИ

***Мусаева Пери***

### АННОТАЦИЯ

В данной статье рассматривается развитие культуры в период Азербайджанской Демократической Республики, а также культурная политика в этот период в целом. Обсуждались работа, проделанная государством в области культуры в этот период, решения, принятые в культурной сфере, а значит, суть культурной политики. В то же время обсуждался вклад интеллектуалов того периода в культуру.

## AZERBAIJANI DEMOCRATİC REPUBLIC - DEVELOPMENT OF CULTURAL POLICY

***Musayeva Pari***

### SUMMARY

This article discusses the development of culture in the period of the Azerbaijan Democratic Republic, as well as cultural policy in this period as a whole. The work done by the government in the field of culture during this period, the decisions made in the cultural sphere, and thus the essence of cultural policy were discussed. At the same time, the contributions of the intellectuals of that period to culture were discussed.

# AZƏRBAYCANDA ŞƏHƏRLƏRƏ MİQRASİYA PROSESLƏRİNİN DİNAMİKASI

***Bayraməli Şaxanım İlqar qızı***
***AMEA-nın Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu- Mədəni Antropologiya ixtisaslaşması üzrə II kurs magistrant***
***xanim.bml@mail.ru***

**Açar sözlər:** Miqrasiya, dinamika, statistika, şəhərlər, immiqrasiya.
**Ключевые слова:** Миграция, динамика, статистика, города, иммиграция
***Keywords:*** Migration, dynamics, statistics, cities, immigration.

Müasir dövrdə miqrasiya prosesləri inkişaf səviyyəsindən asılı olmayaraq bütün dövlətlərin ərazisində baş verir. Bu miqrasiyalar iqtisadi, siyasi, ekoloji, bəzən hərbi təcavüz və digər amillərlə bağlı olub, növünə, xarakterinə,nəticələrinə görə bir-birindən fərqlənirlər. Hansı səbəbdən baş verməsindən asılı olmayaraq qarşısı alınmaz, iradədən kənar, təbii proses halını almışdır. Buna görə də, problemin müzakirəsi zamanı onun qarşısının alınması deyil, dövlətin, cəmiyyətin rifahına, mənafeyinə uyğun addımların atılması müzakirə olunur. Bu məsələ istənilən dövlətin miqrasiya siyasətində qəbul olunan qərarlarda da özünü göstərir. Eyni zamanda, ölkəmizdə də Azərbaycan Respublikasının Dövlət Miqrasiya Proqramının (2006-2008-ci illər) təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamında miqrasiya sahəsində dövlət siyasətinin prioritet istiqaməti *"Azərbaycan Respublikasının milli təhlükəsizliyini və milli maraqlarını qorumaqla miqrasiya axınlarının tənzimlənməsi, nəzarətsiz miqrasiya proseslərinin neqativ nəticələrinin qarşısının alınması, miqrantların öz hüquqlarını həyata keçirmək üçün şəraitin yaradılmasından ibarətdir"* [1] .

XXI əsrdə qlobal problem kimi miqrasiya daha çox müzakirə olunan məsələlərdən biridir. Miqrasiya proseslərinin aktuallığı onu müxtəlif elm sahələrinin tədqiqat predmetinə çevirib. Bunun nəticəsi olaraq bu məsələyə kifayət qədər tədqiqat işi, elmi əsərlər, layihələr, məqalələr həsr olunmuşdur. Qeyd etmək lazımdır ki, Azərbaycanda miqrasiya proseslərinə sosioloji, statistik, demoqrafik tədqiqatlarda kifayət qədər yer verilmişdir.

Azərbaycanda şəhərlərə miqrasiya prosesinin dinamikasını müəyyənləşdirmək ilk baxışda sadə və asan görünsə də, olduqca çətin prosesdir. Burada sadəcə müxtəlif illərdə ölkədaxili və xarici miqrasiyanın tempini müəyyənləşdirmək kifayət etmir. Həmçinin müxtəlif illərdə baş verən daxili və xarici miqrasiyaların həmin illərə xas səbəblərin fonunda tədqiq edilməsi daha məqsədəuyğun hesab olunur. Lakin mənbələrdə daxili miqrasiya prosesləri haqqında məlumatların məhdud olması və ya statistik göstəricilərdə bir sıra miqrasiya istiqamətləri haqqında məlumatın olmaması müxtəlif səbəblərdən baş verən miqrasiyaların ümumi statistik mənzərəsini yaratmaqda çətinlik yaradır.

Problemin qoyuluşu statistik metodlardan, xüsusən də sənədlərin təhlili metodundan istifadəni zəruri edir. Bu baxımdan da məqalənin tərtibi zamanı müxtəlif illərin statistik məlumatları, dövlət statistik məcmuələri araşdırılmış və nəticələr təhlil edilmişdir.

Miqrasiya proseslərinin təhlili onun müxtəlif meyarlar əsasında tip və formalarını müəyyənləşdirməyə imkan verir. Hər bir ölkə daxilində miqrasiya axını daxili və xarici istiqamətdə baş verir. İnkişaf etməkdə olan dövlət kimi Azərbaycanda da bu istiqamətlərin intensiv olduğunu müşahidə edə bilərik.

Daxili miqrasiya dedikdə hərbi, iqtisadi, sosial, siyasi amillərin təsiri altında əhalinin ölkə sərhədləri daxilində bir yerdən digərinə köçü başa düşülür. Bu köçlər kənddən şəhərə (urbanizasiya), şəhərdən kəndə (ruralizasiya), şəhərlərarası və kəndlərarası istiqamətdə baş verə

bilər. Azərbaycanda digər daxili miqrasiya istiqamətlərindən fərqli olaraq urbanizasiya prosesi daha aktualdır. Bunun səbəbi şəhərlərin sisyasi, mədəni, əyləncə mərkəzi olması, regionlarla müqayisədə daha çox inkişaf etməsi və digər amillərlə bağlıdır.

Keçən əsrin sonlarından etibarən Azərbaycanda daxili miqrasiya prosesinin intensivlənməsində rol oynayan başlıca amil erməni təcavüzkarlarının ərazi iddiası nəticəsində Qarabağ bölgəsində yaşayan əhaliyə qarşı aqressiv fəaliyyət olmuşdur. 1988-1994-cü illəri əhatə edən və pik həddə çatan sonuncu münaqişə nəticəsində Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş və ya zərər çəkmiş Ermənistan və Qarabağla həmsərhəd rayonlardan ümumilikdə (138234 ailə olmaqla) 558387 nəfər Azərbaycanın müxtəlif ərazilərinə köçmüşdür. Eyni zamanda, cəbhə xəttinə yaxın yaşayış məntəqələrində yaşayan əhalidən (38024 ailə olmaqla) 128199 nəfər həmin məntəqələrdən geri çəkilmişdir. Bununla da Azərbaycanda məcburi köçkünlərin sayı (176258 ailə olmaqla) ümumilikdə 686586 nəfər təşkil etmişdir. Məcburi köçkünlərdən üçdə biri Bakı, Abşeron-Xızı iqtisadi rayonunda, xüsusən də Sumqayıt şəhərində, yerdə qalan məcburi köçkünlər isə əsasən Mərkəzi Aran, Mil-Muğan iqtisadi rayonunda məskunlaşmışdılar. Xüsusən də, onlar iqtisadi rayonların şəhər, rayon, kənd və qəsəbələrində çadır düşərgələrdə, vaqonlarda, qohum evlərində və digər əlverişli şəraiti olmayan obyektlərdə yaşamağa başlamışdılar. Rayonlarda, kəndlərdə çadır düşərgələrdə yaşayan həm məcburi köçkünlərin, həm də qaçqınların 1996-cı ildən başlayaraq daha yaxşı həyat şəraitinə sahib olmaq məqsədilə Bakıya axını başlayır [2]. Bununla da 90-cı illərin əvvəlində ölkə daxilində miqrasiya edən məcburi köçkünlərin, növbəti daxili- sənayeləşmə (urbanizasiya) miqrasiyası baş vermişdir.

Azərbaycanda son 30 ildə münaqişələrdən yaranan miqrasiya proseslərindən əlavə sosial-iqtisadi daxili miqrasiya axınları intensiv olaraq baş verir. "*Sosial-iqtisadi miqrasiyanın subyektini iqtisadi islahatların həyata keçirilməsi, özəlləşdirmə prosesi, vaxtilə bəzi yaşayış məntəqələrinin enerji ehtiyatları ilə təmin olunmasında yaranan problemlərlə bağlı və mövcud olmuş digər sosial-iqtisadi səbəblərdən rayonlardan iri şəhərlərə, xüsusilə Bakıya və Abşeron yarımadasına köçən əhali təşkil edir"* [1].

Müstəqillik illərinin ilkin dövrlərində daxili miqrasiyalar əsasən kənd əhalisinin şəhərlərə, xüsusən də Bakıya axını hesabına baş verirdi. Sözügedən dövrdə aqrar islahatın keçirilməsi, kollektiv təsərrüfatın (kolxozların) dağılması ilə torpaq sahələri özəlləşdirilmiş və ölkədə 867 minə yaxın ailəyə torpaq payı verilmişdir. Lakin həmin dövrlərdə əhalinin torpağın əkib becərilməsi üçün lazımi texniki avadınlıqları almaq imkanının olmaması, yanacaq və toxumlarla bağlı problemlərin yaranması həmin torpaqlardan istifadəyə imkan vermirdi. Belə olan halda işsiz qalan əhalinin bir qismi iş tapmaq məqsədilə Bakıya miqrasiya edirdi.

Həm daxili, həm də xaricdən miqrasiya prosesində köçənlərin böyük hissəsini əməkçi miqrantlar təşkil edir. Müasir dövrdə regionlardan Bakı, Sumqayıt kimi iri şəhərlərə miqrasiya prosesinin əsas səbəbi kəndli miqrantların yeni iş imkanlarından yararlanmaq istəyidir. Bu məqsədlə Bakıya miqrasiya edən əhalini yaşayış müddətinə görə üç qrupda qruplaşdırmaq olar. Birinci qrup hər gün Bakıya işi ilə əlaqədar gəlib qayıdan, əsasən də bazarlarda kənd təsərrüfatı məhsullarını satmaq məqsədilə rayon və kəndlərdən gələn, eyni zamanda Abşerondan, Sumqayıtdan gündəlik işləri üçün gəlib, iş bitdikdən sonra qayıdan əhali təşkil edir. Ikinci qrup əhali Bakıya uzunmüddətli yaşamaq üçün gələrək mövsümi işləyirlər. Belə olan halda adətən, kişilər miqrasiya edir və ailəsini kənddə, rayonda qoyaraq tikinti sahəsində işləyir və ya ticarətlə məşğul olur. Üçüncü qrup əhali isə daimi yaşamaq məqsədilə ailəsi ilə miqrasiya edir və böyük əksəriyyətinin təhsil səviyyəsi aşağı olduğundan günəmuzd işlərdə çalışırlar.

2015-2020-ci illəri əhatə edən rəsmi statistik göstəricilərə əsasən Bakıda yeni iş yerlərinin sayı digər şəhərlərə nisbətən artan templə inkişaf edir. Azərbaycanın digər iri şəhərləri Gəncə, Sumqayıt, Mingəçevirdə isə əksinə bu göstəricilər azalan templə hərəkət edir. Lakin nəzərə

almaq lazımdır ki, Bakıda həmin illər üzrə işsizlik göstəricisi də artan templə inkişaf etmişdir. Adları qeyd olunan digər şəhərlərdə isə bu göstərici əksinə aşağı enmişdir. Bakının iqtisadi, siyasi və əyləncə mərkəzi olması və digər səbəblərdən əhali üçün əsas miqrasiya istiqaməti Bakıya olsa da, çox zaman gəldikdən sonrakı vəziyyət onları daha çox məyus edir. Kəndli miqrantlarla keçirilən müsahibə zamanı qeyd edirdilər ki, iş tapmaqda yaranan çətinliklər, aylıq qida və digər lazımi xərclərin kənd və rayonlara nisbətən şəhərdə daha yüksək olması, aylıq qazancın isə aşağı olması onların təsəvvür etdikləri şəhər həyat tərzindən uzaq olan reallıqlardır.

Ölkədaxili miqrasiya prosesində mühüm rol oynayan amillərdən biri də miqrantların təhsil almaq arzusudur. Belə ki, hər il, xüsusən də sentyabr aylarında minlərlə gənc universitetlərdə təhsil almaq məqsədilə yaşadığı yerləri tərk edirlər. Azərbaycanda nüfuzlu ali təhsil müəssisələrinin, mədəniyyət mərkəzlərinin böyük bir qismi Bakıda yerləşir. Digər iqtisadi rayonlar məsələn, Mərkəzi Aran, Gəncə-Daşkəsən iqtisadi rayonlarının ərazi və əhalisinin sayına görə böyük iqtisadi rayonlardan olmasına baxmayaraq, bu ərazilərdə ali təhsil müəssisələrinin sayı olduqca azdır. Tələbələrlə keçirilən sorğu nəticəsində aydın olur ki, onların bir qisminin universitet üçün topladığı ballar, hətta, tam qənaətbəxş olmamasına baxmayaraq, ixtisas seçimi zamanı Bakıdakı universitetlərə üstünlük verirlər. Bunun başlıca səbəbini onlar regionlarda olan universitetlərdə bakalavr və magistratura pilləsi üzrə ixtisas sayının məhdud olması ilə izah edirlər. Başqa bir səbəb isə budur ki, regionlarda tələbələrin özlərini inkişaf etdirmələri üçün müxtəlif kurs və təlim mərkəzlərinin sayı az, keyfiyyəti isə o qədər də yüksək deyil. Bakıda isə bu sahələrdə rəqabət olduqca yüksəkdir və tələbələrin inkişafı üçün əlverişli şərait mövcuddur.

Miqrasiya edən tələbələrdən bir qismi təhsil həyatından sonra öz kənd və ya rayonlarına qayıtsalar da, əksəriyyəti Bakıda qalaraq özlərinə yaxşı həyat şəraiti yaratmağa çalışır. Sorğuya cəlb edilən tələbələrdən belə qənaətə gəlmək olar ki, onların böyük əksəriyyəti təhsil həyatından sonra Bakıda qalmağı planlayır. Bunun başlıca səbəbi kimi kənd və rayonlarda yeni iş imkalarının zəif olması, gənclərin kənd təsərrüfatı işlərində çalışmaq istəməməsi, digər işlərdə isə əmək haqqının aşağı olması, tibbi xidmətlərin şəhərə nisbətən zəif olması, asudə vaxtın daha yaxşı və əyləncəli dəyərləndirilməsi üçün şəhərdə əyləncə mərkəzlərinin çox olması və s. qeyd oluna bilər. Bütün bunlardan əlavə kənd və rayonlarda hələ də cinsi fərqləri nəzərə alaraq peşə seçiminə üstünlük verilməsi, yəni *"qız müəllim olar", "qız həkim olar"* kimi fikirlərin qalması nəticəsində əlavə peşələrə yiyələn qızlar üçün kənd və rayon yerləri potensial işsizlik deməkdir. Keçirilən sorğu zamanı aydın olmuşdur ki, bu səbəblərə görə qızlar oğlanlara nisbətən şəhərdə qalmağı daha çox istəyirlər.

Son dövrlərdə aktual miqrasiya problemlərindən biri də ekoloji miqrasiyadır ki, bu da təbii fəlakətlərdən zərər çəkmiş əhalinin müxtəlif ərazilərə köçürülməsini nəzərdə tutur. Daşqınlar, zəlzələlər, torpaq sürüşmələri, dəniz və çayların səviyyəsinin qalxıb-enməsi və digər təbii fəlakətlər nəticəsində evsiz qalan və ya təsərrüfatı zərər çəkən əhali təxliyə edilərək müxtəlif ərazilərdə məskunlaşdırılır. Çox zaman baş verən fəlakətlərdən sonra dövlət fondlarının dəstəyi ilə ziyan dəymiş tikililər bərpa edilərək və ya yenidən tikilərək əhalinin böyük bir qismi qaytarılır. Bu baxımdan Azərbaycanda ekoloji miqrantların sayı digər səbəblərdən miqrasiya etmiş əhaliyə nibətən azdır.

Müasir dövrdə mühüm ekoloji problem qlobal istiləşmə və onun həlli yollarının tapılmamasıdır. Qlobal istiləşmənin səbəb olduğu fəsadlar getdikcə daha geniş miqyas alaraq bütün ölkələr üçün təhlükəyə çevrilmişdir. Son on illiklərdə baş verən qlobal istiləşmə və ekoloji balansın pozulması nəticəsində yağıntı miqdarının azalması suvarmaya yararlı su mənbələrinin səviyyələrinin aşağı enməsinə, əkinə yararlı torpaqların şoranlaşmasına səbəb olmuşdur. Rəsmi məlumatlara əsasən Azərbaycanda da şoran torpaqların ümumi sahəsi ildən-ilə artmaqdadır. *"Ölkədə ümumi şoran torpaq sahəsi 2mln-dan artıqdır* [8] və məsələnin həlli yolu tapılmazsa bu

sahənin artacağı istisna edilmir. Yüksək ehtimallı ssenariyə əsasən qlobal ekoloji problemə görə Azərbaycanda su resursları kəskin şəkildə azalacaq, indiki şoran torpaqların çox olduğu Kür-Araz ovalığı, Abşeronun cənub hissəsi, Naxçıvanın Arazsahili düzənlik ərazilərində səhralaşma prosesi sürətlənəcək və səhra iqlim tipinə keçəcək.

Sürətli səhralaşma, yağıntının miqdarının azalması, fəsillərə uyğun olmayan hava şəraitinə görə və digər ekoloji səbəblərdən kənd və rayon əhalisi üçün mühüm əhəmiyyət daşıyan əkinçilik təsərrüfatı da ciddi zərər çəkir. Kənd təssərrüfatına yararlı torpaqların quraqlaşması nəticəsində kənd və rayon əhalisinin torpaqlarını səmərəli əkib becərə bilməməsi dolanışıqlarını təmin etmək məqsədilə şəhərlərə, xüsusən də Bakıya və digər iri şəhərlərə miqrasiya etməsinə səbəb olur. Rəsmi statistik mənbələrdə təbii fəlakətlərdən baş verən ekoloji miqrantlarla bağlı statistik məlumatlara rast gəlinsə də, quraqlaşma və səhralaşma səbəbindən baş verən miqrasiyalarla bağlı məlumatlara rast gəlmək mümkün deyildir. Bu səbəbdən baş verən miqrasiya prosesləri kütləvi xarakter daşımadığına və ümumi miqrasiya proseslərinin olduqca cüzi bir hissəsini əhatə etdiyinə görə xüsusi tədqiqat predmetinə çevrilməsə də, urbanizasiya prosesinin gələcək tempini müəyyənləşdirmək, səhralaşmanın hansı templə inkişaf etdiyini müəyyənləşdirmək üçün bu sahədə tədqiqatların aparılması olduqca vacibdir.

Azərbaycanda daxili miqrasiya proseslərinin böyük əksəriyyətini urbanizasiya, xüsusən də, Bakı aqlomerasiyasına kütləvi köçlər təşkil etsə də, digər iqtisadi rayonların şəhərlərinə miqrasiyalar da müşahidə edilir. Paytaxtdan sonra Abşeron-Xızı iqtisadi rayonunun ərazisində yerləşən Sumqayıt şəhəri regionlardan miqrasiya proseslərinin əsas istiqamətidir. Xüsusən, 1950-ci illərdən Sumqayıt şəhərində yenidənqurma işlərinin aparılması və sənayenin inkişafı ilə burada şəhərləşmə prosesi sürətlənmişdir. Müasir dövrdə də Sumqayıt şəhərində məskunlaşmanın tempi sürətlə artmaqdadır. Rəsmi statistik məlumatlara əsasən Sumqayıt şəhəri əhalinin sayına görə 2013-cü ilə qədər Bakı və Gəncə şəhərindən sonra üçüncü yerdə dayanırdısa, 2013-cü ildən etibarən ikinci pillədə qərarlaşmışdır [14].

Ölkənin digər iqtisadi rayonlarının şəhərlərinə diqqət yetirdikdə regionlararası miqrasiyanın zəif tempdə hərəkət etdiyini müşahidə edə bilərik. Məsələn, Gəncə-Daşkəsən iqtisadi rayonunda yerləşən respublika tabeli Gəncə şəhərinə miqrasiya prosesi Bakı və Sumqayıt şəhərindən çox geridə qalır. Gəncəyə miqrasiya prosesi əsasən xarakterinə görə müvəqqəti xarakter daşıyır və miqrantların əksər hissəsini əmək miqrantları təşkil edir.

İnkişaf etməkdə olan dövlət kimi Azərbaycanda da xaricdən immiqrant axını intensivlənmişdir. Respublikada xaricdən kütləvi miqrasiya axınlarının subyektini əsasən neft sənayesinin, iqtisadiyyatın inkişafı ilə əlaqədar olaraq inşaat, neft sektorunda işləmək üçün gələn, etnik, milli zəmində münaqişələrdən,siyasi rejimdən, dini təqiblərdən qaçaraq sığınacaq axtaran miqrantlar, çox az bir qismini də təhsil almaq üçün gələnlər təşkil edir.

Azərbaycana hərbi münaqişələr, etnik diskriminasiya, milli-etnik kimliyə qarşı aqressiv fəaliyyətlər nəticəsində keçən əsrin əvvəllərindən etibarən mərhələli şəkildə etnik azərbaycanlıların indiki Ermənistan Respublikası ərazisindən məcburi miqrasiyası baş vermişdir. Bu hadisələr zamanı təxminən 750.000-dən çox azərbaycanlı öz daimi yaşayış məskənlərini tərk etmək məcburiyyətində qalmışdır. SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli və 1948-ci il 10 mart tarixli 754 nömrəli qərarı ilə statistik məlumatlara əsasən 1948-ci ildə (6298 ailə olmaqla) 24.631 nəfər, 1949-cu ildə (12306 ailə olmaqla) 54373 nəfər, 1950-ci ildə isə 65000 nəfər köçürülmüşdür. Ümumilikdə 1948-1953-cü illərdə Ermənistandan 144.654 nəfər öz yurd-yuvalarından didərgin salınaraq Azərbaycana məcburi köç etmişdir[2,s.94]. Ermənistandan deportasiyanın ikinci mərhələsi zamanı əhali əsasən Zərdab, Şirvan, Salyan, İmişli, Sabirabad və Yevlax rayonlarında məskunlaşırdı.

Erməni daşnaklarının azərbaycanlılara qarşı aqressiv fəaliyyətləri, etnik təmizləmə siyasəti nəticəsində 1988-ci ildə azərbaycanlıların növbəti deportasiyası başladı. Həmin ilin yanvar ayının 25-də Ermənistan SSRİ-nin Qafan və Meğri rayonlarından qaçqınların ilk dəstəsi qatarlarla Azərbaycana məcburi köçürüldü. Qeyd olunan məlumatlara əsasən, həmin qaçqınlar Abşeron rayonunda məskunlaşdırılmışdı. Fevral ayında qaçqınların 4.000 nəfərlik növbəti qrupunun Bakı və Sumqayıt şəhərlərinə gəlməsi ilə Ermənistandan qaçqın axınları kütləvi şəkil artmağa başladı [2,s.39]. İlin sonlarına yaxın, noyabr ayının ortalarında təxminən 80 mindən çox azərbaycanlı Ermənistandan qovularaq Azərbaycana gəlmişdi. Daim "Ermənistan yalnız ermənilər üçündür!", "Ermənistan türklərdən təmizlənməlidir!" şüarları ilə hərəkət edən şovinist erməni millətçilərinin aqressiv fəaliyyəti nəticəsində 1988-ci ilin noyabrın 22-dən dekabrın 7-dək 250 min azərbaycanlı öz yurd-yuvalarından qovularaq Azərbaycanda məskunlaşdırılmışdı [17]. Etnik dözümlülüyü olmayan erməni millətçiləri təkcə azərbaycanlıları deyil, 18 min nəfər kürd, min nəfər rusdilli əhalini Azərbaycana qovmuşdu [2]. İkinci deportasiya zamanı əhalinin böyük əksəriyyəti Mərkəzi Aran və Mil-Muğan iqtisadi rayonlarında məskunlaşırdısa, üçüncü deportasiyada əhalinin əksəriyyəti Sumqayıt və Bakı şəhərlərində, eyni zamanda, Abşeron rayonunda məskunlaşdırılmışdı.

Keçən əsrin sonlarından etibarən Gürcüstan respublikasından ölkəmizə minlərlə soydaşımz miqrasiya etmiş və daimi yaşayış üçün müraciət etmişdir. Bu miqrasiyanın başlıca səbəbi orada yaşayan soydaşlarımızın  etnik disskriminasiyaya məruz qalmaları olmuşdur. Ötən əsrin 80-ci illərindən başlayaraq gürcü millətçilərinin lideri olan Zviad Qamsaxurdiyanın azərbaycanlılara və onların artımına qarşı şovinist fikirlərini açıq-aşkar ifadə etməsi, "Gürcüstan gürcülər üçündür"ifadəsinin  gürcü millətçilərinin əlində şüara çevrilməsi etnik münaqişələr üçün zəmin yaratmışdı. 1989-cu ildən başlayaraq gürcü millətçilərinin fəallaşması, azərbaycanlılara qarşı təzyiqlərin güclənməsi ilə *"həmin ilin sentyabr və oktyabr aylarında Bolnisidən təxminən 800 ailə Azərbaycana köçmək məcburiyyətində qalmışdı* [11].

1996-cı ildə Gürcüstanda "kənd təsərrüfatı təyinatlı torpaqların istifadəyə verilməsi haqqında" qanunla yenidən diskriminasiya ilə üzləşən soydaşlarımız pay torpaqlarından məhrum olmuşdur. Vaxtilə əkib becərdikləri əkin sahələrinin auksiyonlara çıxarılaraq Tiflis, Rustavi və Kutaisi şəhərlərinin əhalisinə, svanlara və başqalarına paylanılması və eyni zamanda, həmin ilin mart ayının 22-də gürcü hökümətinin "Kənd təsərrüfatı təyinatlı torpaq haqqında" qərarı ilə sərhəd ərazilərdən 21 km aralı ərazidə torpaqlar özəlləşdirilə bilərdi. Bu qərar məhz orada yaşayan türklərin vəziyyətini daha da pisləşdirmək üçün nəzərdə tutulmuşdu, çünki, sərhədboyu ərazilərdə məskunlaşan türklərin yaşadığı ərazinin eni 21 km-dən az idi [15]. Həmin illərdən başlayaraq Gürcüstanda yaşayan soydaşlarımız Azərbaycana iş tapmaq məqsədilə miqrasiya etməyə başlayırlar. Müasir dövrdə də torpaqla bağlı islahatların qüvvədə qalması, təhsil səviyyəsi və dil biliklərinin zəif olmasına görə Gürcüstanda yaşayan azərbaycanlılar dövlət işlərində çalışa bilmir. Buna görə də tikinti, neft sənayesi və digər sahələrdə işləmək üçün gürcüstanlı soydaşlarımız Azərbaycana, xüsusən də, Bakıya miqrasiya edir. Mənbələrdə qeyd olunan məlumata əsasən 2015-ci ildə Gürcüstanda doğulmuş 50.000 nəfər Azərbaycanda yaşayırdı [12]. Lakin respublikamızda miqrasiya siyasətinin gücləndirilməsi, eyni zamanda, Gürcüstan Respublikası vətəndaşlarının 2018-ci ildən Avropaya vizasız səyahət etmək hüququnun tanınması ilə Bakıya gürcüstanlıların miqrasiya axını nisbətən zəifləmişdir.

Neft sənayesinin inkişafı ilə əlaqədar olaraq Azərbaycana xaricdən əməkçi miqrant axını XIX əsrin ikinci yarısından etibarən intensivlənmişdir.  1859-cu ildə "neft bumu" ilə əlaqədar olaraq Bakıya Rusiyadan, Cənubi Azərbaycandan neft buruqlarında çalışmağa gələn əməkçi miqrantlar hesabına Bakı əhalisinin sayı sürətlə artmağa başladı. Mənbələrdə qeyd olunan məlumatlara əsasən XIX əsrin 50-ci illərinə qədər Bakı əhalisinin sayına görə Şamaxı, Şəki, Gəncə və Şuşa

kimi şəhərlərdən sonra 5-ci yerdə olmuş, "Neft bumu"ndan sonra isə ikinci pilləyə yüksəlmişdir [7]. Növbəti illərdə də neft sənayesinin inkişafı ilə Bakıda miqrasiya hesabına əhalinin sayında artım müşahidə olunmuşdur. 1913-cü ildə keçirilmiş əhali siyahıya alınmasının məlumatlarına əsasən Bakı şəhərində əhalinin sayı 3 dəfə artaraq 334 min nəfərə yüksəlmişdir[6,s.64]. Miqrantlar arasında ruslar üstünlük təşkil etsə də, həmin dövrdə erməni və cənubi Azərbaycandan gələn miqrantların da sayında artım olmuşdu. Növbəti illərdə etnik-milli zəmində baş verən münaqişələr, I Dünya müharibəsi ilə əlaqədar olaraq xarici miqrantların Bakıya axınının tempi zəifləmiş, əhalinin sayında da azalma müşahidə olunmuşdur. 1994-cü ildə Ulu öndər Heydər Əliyevin uğurlu siyasəti nəticəsində nüfuzlu neft şirkətləri ilə "Əsrin müqaviləsi" imzalanandan sonra milli iqtisadiyyata xarici investisiyaların həcmi artmış, müxtəlif sahələrdə baş verən inkişafla əlaqədar olaraq əmək miqrantlarının ölkəyə axını prosesi sürətlənmişdir [5].

Azərbaycanda neft sənayesində XXI əsrin əvvəllərində, xüsusən 2008-ci ildə baş verən artım, yeni yataqların kəşfi iqtisadiyyata müsbət təsir göstərmişdi. Sözügedən ildə dünya iqtisadiyyatı böhran yaşadığı bir dövrdə Azərbaycan iqtisadiyyatı 11% artmışdı. Bunun nəticəsində yeni müəssisələr açılmış, həm dövlət investisiyaları, həm də özəl sektorun fəaliyyəti nəticəsində infrastruktur layihələri icra olunmuş, tikinti-quraşdırma işlərinin həcminin artması istehsal, sosial-mədəni, yaşayış təyinatlı obyektlərin tikintisində artım baş vermişdi. Nəticədə həm daxili, həm də xaricdən Bakıya işləmək üçün gələn əməkçi miqrantların sayında artım olmuşdu. Təxminən 2007-2008-ci illərdə Çin, Pakistan, Türkiyə və digər ölkələrdən işləmək üçün əməkçi miqrantların axını sürətlənmişdi. Sözügedən illərdə çinli, pakistanlı səyyar satıcılara, tikinti sahəsində işləyənlərə Bakıda tez-tez rastlamaq olurdu. Statistik məlumatlara əsasən həmin illərdə təkcə çinli əməkçi miqrantların sayı 4000-4500 nəfər olmuşdur[16]. Eyni zamanda, həmin illərdə şəhərdə tikinti sahəsində də inkişafın baş verməsi ilə müxtəlif binaların tikintisi zamanı xarici mütəxəssislərin cəlb edilməsi ilə immiqrantlar arasında cüzi bir hissəsini yüksək ixtisaslı miqrantlar təşkil edirdi.

Azərbaycana gələn immiqrantlar arasında müəyyən bir qismini təhsil almaq üçün gələn miqrantlar təşkil edir. Hazırda dünyanın 100-dən çox ölkəsindən olan tələbələr Azərbaycanda təhsil almaq üçün miqrasiya edirlər. Lakin statistik məlumatlara nəzər yetirdikdə aydın olur ki, Azərbaycanda təhsil almaq məqsədilə gələnlərin artımında kəskin dəyişiklik olmamışdır. 2021-2022-ci ilin statistik məlumatlarına əsasən ölkədə ali və orta ixtisas təhsili müəssisələrində təhsil alan tələbələrin sayı 101 ölkədən olmaqla 7400 nəfər təşkil edir. 2017-2019-cu illərin məlumatlarına əsasən əcnəbi tələbələrin sayı 5541 nəfər təşkil edirdi. Əcnəbi tələbələrin böyük əksəriyyəti təhsil həyatından sonra öz ölkəsinə qayıdır. Azərbaycanda qalmaq istəyən tələbələrin əksəriyyəti isə ailəsi ilə ölkədə uzun müddətdir yaşayan, lakin vətəndaşlığı mənşə ölkəsinə aid olan şəxslərdir.

Müasir dövrdə baş verən hadisələr onu deməyə əsas verir ki, miqrasiya proseslərinin dinamikasında rol oynayan başlıca amillər sosial-iqtisadi inkişaf və dövlətlərarası iqtisadi-siyasi münasibətlərin keyfiyyətcə yeni müstəviyə keçməsi, o cümlədən, milli, irqi, regional münaqişələrdir. Hazırda Rusiya-Ukrayna münaqişəsi nəticəsində milyonlarla ukraynalı məcburi miqrasiyaya məruz qalmaqdadır. Statistik məlumatlara əsasən təkcə Polşaya miqrasiya edən ukraynalıların sayı 2 milyondan çoxdur. O cümlədən, Dövlət Miqrasiya Xidmətindən verilən məlumata əsasən Azərbaycana müharibə səbəbindən iki həftə ərzində 9500-dən çox şəxs təxliyyə edilib ki, onların da 2500-ə yaxını Ukrayna vətəndaşıdır. Eyni zamanda, nəzərə almaq lazımdır ki, müharibənin mənfi təsirlərinə tərəflərin hər ikisi məruz qalır. Xüsusən də, Rusiyanın müharibəni dayandırması üçün Avropa dövlətlərinin tətbiq etdiyi sanksiyalar nəticəsində enerji, nəqliyyat, əyləncə və texnologiya, idman, maliyyə və digər sektorlarda transmilli şirkətlərin

Rusiya bazarından çəkilməsi, bankların Swift-dən çıxarılması, milli valyuta məzənnəsinin azalması iqtisadiyyata ciddi zərbə vurmaqdadır. Bunların nəticəsində ölkədə bir neçə gün ərzində 10 minlərlə insan işsiz qalmışdır. Müharibənin davam edəcəyi müddətdə də göstəricinin artacağı istisna edilmir. Rusiyada iqtisadi vəziyyətin pisləşməsi vaxtilə dolanışıq üçün bu ölkəyə gedən vətəndaşlarımızın geri miqrasiyasına səbəb ola bilər. Bunun başlıca səbələrindən biri Rusiyada azərbaycanlıların ticarətlə məşğul olmalarıdır ki, münaqişə nəticəsində ən çox zərər çəkən sahə də elə budur. Yaxın gələcəkdə gözlənilən qeyri-müəyyənlik isə Rusiyada yaşayan əhalini ancaq qida və əsas gündəlik tələbat məhsullarının tədarükünə vadar edir. Bununla da digər sahələrdə çalışan hamı kimi həmyerlilərimiz üçün də vəziyyət günbəgün çətinləşir. Vəziyyətin belə davam edəcəyi təqdirdə iş yerlərini itirmək məcburiyyətində qalan soydaşlarımızın yenidən ölkəmizə geri qayıdışı proqnozlaşdırıla bilər ki, artıq belə faktlara da rast gəlinir [13].

Beləliklə, miqrasiya proseslərinin dinamkasını nəzərdən keçirməklə belə qənaətə gəlmək olar ki, urbanizasiyanın tempi Azərbaycanda hər ötən il daha da sürətlənməkdədir. Aparılan tədqiqatlara əsasən, ölkəmizdə əhalinin 52%-i şəhər və şəhər tipli qəsəbələrdə yaşayır. Bu göstəricilərə əsasən əhalinin məskunlaşmasına görə Bakı şəhəri üstünlük təşkil edir. 2015-2020-ci illərdə aparılan statistikaya görə, paytaxt sakinlərinin sayının artımı nizamsız və planlaşdırılmamış miqrasiyalar hesabına baş verib. Bunun əksinə olaraq, təbii artım faizi azalan templə müşahidə olunub.

Prosesin belə davam etməsi ölkədə urbanizasiyanı sürətləndirməklə yanaşı, sosial, demoqrafik, iqtisadi problemlərin dərinləşməsinə də zəmin yarada bilər. Problemin həlli üçün müvafiq dövlət strukturlarının əsaslandırılmış təklifləri əsasında real addımların atılması zəruridir.Bu istiqamətdə aidiyyatı dövlət orqanlarının qarşılıqlı əməkdaşlığı və konsolidasiyalı şəkildə fəaliyyəti problemin həllində açar rolunu oynaya bilər.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Dövlət Miqrasiya Proqramının (2006-2008-ci illər) təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı
2. Abdulla R.Q. Azərbaycan şəhərlərində müasir etnososial proseslər: (Bakı materialları əsasında). Bakı, 2009, 166 s.
3. Arzumanlı V., Mustafa N. Tarixin qara səhifələri: Deportasiya, soyqırım, qaçqınlıq. Bakı: Qartal, 1998, 279 s.
4. E.M.Nəsibov. Miqrasiyanın əsasları. Miqrasiologiya. Miqrasiya prosesləri. Dünya miqrasiya mərkəzləri. I Kitab. Bakı, “Elm və Təhsil” nəşriyyatı, 2014, 240 səh.
5. Q.Sadıqov, M.Məhərrəmov, E.Ağayev, R.Talıblı. “Ermənistanda aparılan etnik təmizləmə və Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın 20% ərazisinin işğalı nəticəsində yaranmış bir milyonadək qaçqın və məcburi köçkünlər haqqında məlumat(1988-2005-ci illər). Bakı: Qismət, 2005, 152 s.
6. Muradov Ş.M., Baxış Ç.Ə. Azərbaycan Respublikasında etno-demoqrafik proseslər: tarixi dəyişikliklər və reallıqlar. Bakı, 2013, 135 səh.
7. https://stm.az/ru/news/651/azerbaycanda-urbanizasiya-baki-nece-boyuyur
8. http://eco.gov.az/index.php?ln=az&pg=297
9. https://iravan.preslib.az/1988-1989_deportasiyasi.html
10. https://migration.gov.az/az/press_detail/288
11. https://azlogos.eu/gurcustanda-az%C9%99rbaycanlilara-qarsi-diskriminasiya/
12. https://www.icmpd.org/file/download/54141/file/Baseline%2520Study%2520on%2520Migration%2520in%2520Azerbaijan_AZ.PDF

13. https://www.bizimyol.info/az/news/391132.html
14. https://stm.az/storage/common/1620818220.25d09-hesabat-miqrasiya-6.pdf
15. http://anl.az/el/b/bdbs.pdf
16. https://musavat.com/news/kucelerde-ne-alsan-1-manata-deyen-cinli-ve-pakistanlilar-niye-yoxa-cixib_504813.html
17. https://files.preslib.az/projects/azerbaijan/gl7.pdf

## AZƏRBAYCANDA ŞƏHƏRLƏRƏ MİQRASİYA PROSESLƏRİNİN DİNAMİKASI

***Bayraməli Şaxanım***

### XÜLASƏ

Dövlətlər daxilində və ya dövlətlərarası iqtisadi, siyasi münasibətlər sistemində baş verən istənilən dəyişiklik əhalinin yerdəyişməsinə, miqrasiyasına səbəb ola bilir. Həm ölkə daxilində regionlardan şəhərlərə, həm də bir ölkədən digərinə miqrasiya formasında baş verərək demoqrafik, statistik göstəricilərə təsir edir. Əksər dövlətlərdə olduğu kimi Azərbaycan üçün də istər regionlardan, istərsə də xarici ölkələrdən şəhərlərə miqrasiya prosesi aktual məsələlərdəndir.

Məqalədə Azərbaycanda şəhərlərə miqrasiya prosesinin dinamikasından, daxili və xarici miqrasiya proseslərinin xüsusiyyətlərindən bəhs olunur. Məqsəd miqrasiyanın nəticələrini statistik mənbələrin köməyi ilə diqqətə çatdırmaq və baş vermə səbəblərini qeyd etməkdən ibarətdir.

## ДИНАМИКА МИГРАЦИОННЫХ ПРОЦЕССОВ В ГОРОДА АЗЕРБАЙДЖАНА

***Байрамали Шаханим***

### АННОТАЦИЯ

Любое изменение системы экономических и политических отношений внутри государства или между государствами может привести к перемещению населения. Он влияет на демографические и статистические показатели как в виде миграции из регионов в города, так и из одной страны в другую внутри страны. Как и в большинстве стран, для Азербайджана актуален процесс миграции из регионов и из-за рубежа в города.

В статье рассматривается динамика миграционного процесса в города Азербайджана, особенности внутренних и внешних миграционных процессов. Цель состоит в том, чтобы довести до сведения читателя результаты миграции на основе информации, представленной в статистических источниках, и показать причины их возникновения.

## DYNAMICS OF MIGRATION PROCESSES IN AZERBAIJANI CITIES

***Bayramali Shakhanim***

### SUMMARY

Any change in the system of economic and political relations within states or between states can lead to the displacement of the population. It occuring both in the form of migration from regions to cities and interstate, and affects demographic and statistical indicators. As in most countries, the process of migration from region to cities, as well as from foreign countries, is a topical issue for Azerbaijan.

The Article discusses the dynamics and the features of internal and external migration processes in Azerbaijan. The purpose is to highlight the dynamics of migration processes and the reasons for its occurrence.

# GƏNCLİK ANLAYIŞINA ÜMUMİ BAXIŞ – TARİXİ VƏ MÜASİR YANAŞMALAR

***Ömərzadə Nəzrin***
***BDU-nun II kurs magistrantı***
***nezrinomerzade@gmail.com***

***Açar sözlər:*** gənc, gənclik, yaş, yetkinlik yaşı, tədqiqat.
***Ключевые слова:*** молодой, юность, возраст, взрослый возраст, исследование.
***Keywords****:* young, youth, age, adult age, research.

Gənclik yaş qrupunun ümumi razılaşdırılmış beynəlxalq tərifi, gənclik yaşı ilə bağlı hər kəs tərəfindən qəbul edilmiş qəti bir razılıq və konseptual razılaşma yoxdur. Bununla belə, statistik məqsədlər üçün Birləşmiş Millətlər Təşkilatı üzv dövlətlər tərəfindən verilən hər hansı digər təriflərə xələl gətirmədən "gəncləri" 15-24 yaş arasında olan şəxslər kimi müəyyən edir. Beynəlxalq Gənclər İlinə (1985) hazırlıq kontekstində yaranan bu tərif BMT Baş Assambleyasının 1981-ci il tarixli 36/28 saylı qətnaməsində təsdiq edilmişdir. BMT-nin Baş katibi ilk dəfə 1981-ci ildə Beynəlxalq Gənclər İli üzrə Baş Assambleyaya verdiyi hesabatda bu tərifə istinad etdi və sonrakı 1985-ci ildəki hesabatında da bunu təsdiqlədi. Bununla belə, hər iki hesabatda Baş Katib həmçinin etiraf edib ki, bu statistik tərifdən başqa, "gənclik" termininin mənası dünyanın müxtəlif cəmiyyətlərində fərqlidir.

Baş Assambleya 1995-ci ildə 50/81 saylı qətnaməsi ilə "Gənclər üçün 2000-ci il və sonrakı illər üçün Ümumdünya Fəaliyyət Proqramını" qəbul edərkən, Birləşmiş Millətlər Təşkilatının gəncləri 15-24 yaş qrupu kimi müəyyən etdiyini bir daha vurğuladı. BMT-nin demoqrafiya, təhsil, məşğulluq və sağlamlıq sistemi tərəfindən nəşr olunan illik statistik məcmuələrində əks olunduğu kimi, gənclərlə bağlı BMT-nin bütün statistikaları gənclik yaşının bu tərifinə əsaslanır. Gənclik yaşının bu statistik yönümlü tərifi, öz növbəsində, uşaqların 14 yaşına çatmamış şəxslər hesab edilməsini də nəzərdə tutur.

Eyni zamanda bir çox ölkələr insanın qanun çərçivəsində bərabər rəftar gördüyü yaşla əlaqədar olaraq, gənclik yaşını sərhədləyir. Bir çox ölkələrdə gənclik yaşı 18-də başlayır. Belə ki, adətən insan bu yaşa çatdıqdan sonra yetkin yaşına çatmış sayılır. "Gənclik" termininin operativ tərifi, nüansları və gənclik yaşı anlayışı sosial-mədəni, institusional, iqtisadi və siyasi amillərdən asılı olaraq, ölkədən ölkəyə dəyişir. Gənclik xüsusən demoqrafik, maliyyə, iqtisadi və sosial-mədəni şəraitdə baş verən dəyişikliklərlə dəyişsə belə, 15-24 yaş qrupundan gənclik kimi istifadə edən tərif gənclərin ehtiyaclarını qiymətləndirmək və gənclərin inkişafı üçün təlimatları təmin etmək üçün ədalətli şəkildə statistik məqsədlərə xidmət edir.

BMT daxilində ziddiyyətlər var və dəyişən zamana uyğun olaraq gənclərin yenidən müəyyənləşdirilməsinə daimi ehtiyac var. Birləşmiş Millətlər Təşkilatının Gənclər üzrə Elçisinin (2015-ci il) qismən qəbul olunmuş gündəliyində gənclərin qlobal gənclər məsələlərində iştirakını artırmaq üçün gənclərin yaş həddi 15-24 yaşdan 15-35 yaşa qədər genişləndirilməsi tövsiyə olunur. Birləşmiş Millətlər Təşkilatının demək olar ki, bütün üzv ölkələri əslində Birləşmiş Millətlər Təşkilatının gənclərin müəyyən edilməsində icazə verdiyi əsnəklikdən istifadə etmişlər.

Uşaq Hüquqları Konvensiyasına əsasən uşaqlar 18 yaşına çatmamış şəxslər olaraq qəbul edilir. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) yeniyetmələri 10-19 yaş arası şəxslər kimi müəyyən edir. Eyni zamanda, ÜST gənc insanlar anlayışına yeniyetmələri və gəncləri aid edərək, onları 10-24 yaş aralığına daxil edir. Gəncləri isə spesifik olaraq 15-24 yaş aralığında şəxslər hesab edir.

Beynəlxalq Əmək Təşkilatı öz hesabatlarından birində BMT-nin gənclərə verdiyi tərifi gəncləri 15-24 yaş arasında olan şəxslər hesab edərək qəbul etmişdir. Bununla belə, qeyd olunur ki, tərif yalnız yaşa görə deyil, sosioloji baxımdan araşdırılarsa, gənclik mərhələsi 10 yaşında başlayıb, 30 yaşların ortalarında və ya sonlarında başa çata bilər. Hesabatda həmçinin qeyd olunur ki, yoxsul cəmiyyətlərdəki insanlar üçün uşaqlıqdan yetkinliyə keçid uzun müddət çəkə bilər. Birlik Gənclər Proqramı gəncləri 15-29 yaş arasında olanlar hesab edir.

2020-ci il noyabrın 11-də Rusiya Federasiyasının Dövlət Duması gənclərin yaş həddinin 30-dan 35-ə layihəsini təsdiqləyib. Hal-hazırda Rusiya Federasiyasında gənclik yaşı 14-36 yaş aralığındadır. Statistik məqalələr toplusu olan Eurostatın "Bu gün Avropada gənc olmaq" adlı nəşrində Avropa İttifaqı (Aİ) üzrə uşaqlar 0-14 yaşlı və gənclər 15-29 yaşlı şəxslər olaraq təqdim edilir. Müxtəlif ölkələrdə gənclik yaşı müxtəlif yaş aralıqlarını əhatə edir:

a. 14/15/16 yaşlarında başlayan və 29/30 yaşlarında bitən - üstünlük təşkil edən Avropa modelidir. Bura aid olan ölkələr: Andorra, Albaniya, Ermənistan, Azərbaycan, Belarusiya, Bosniya və Herseqovina, Bolqarıstan, Danimarka, Gürcüstan, İtaliya, Litva, Macarıstan, Moldova, Almaniya, Polşa, Rusiya , Sloveniya, Serbiya, Türkiyə, Xorvatiya, Monteneqro, Çexiya və İspaniya;

b. 12/13 yaşlarında başlayan və 30 yaşında bitən - daha erkən başlayan və daha gec bitən gənclik yaşı modeli. Bura aiddir: Böyük Britaniya, Lüksemburq, Malta, Norveç və Portuqaliya;

c. 12/14/15/16 yaşlarında başlayan və 32/35 yaşlarında bitən — uzadılmış gənclik yaşı modeli. Bura aiddir: Yunanıstan, Kipr, Rumıniya, San Marino və Ukrayna;

d. 3/6/7 yaşlarında başlayan və 25/26/30 yaşlarında bitən — uşaqlıq yaşını da əhatə edən gənclik yaşı modeli. Bura aiddir: Fransa, Estoniya və İslandiya;

e. 0 yaşında başlayan və 25/29/30 yaşlarında bitən — uşaq və gənclərin birləşməsi modeli. Bura aiddir: Avstriya, Belçika, Lixtenşteyn, Slovakiya, Finlandiya və Hollandiya.

"Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə" Azərbaycan Respublikasının 5 may 2007-ci il tarixli Qanununa əsasən isə Azərbaycanda gənclər 14-29 yaşlarında hesab edilir.

Gənclərin bəzi qərarlar və ya hərəkətlər etmək üçün azad, müstəqil və ya qanuni səriştəli olmadığı müxtəlif minimum yaş hədləri var. Bu məhdudiyyətlərdən bəziləri bunlardır: səsvermə yaşı, namizədlik yaşı, yetkinlik yaşı, cinayət məsuliyyəti yaşı, spirtli içki qəbul etmə yaşı, sürücülük yaşı və s. Gənclər bu həddə çatdıqdan sonra bu fəaliyyətləri etməkdə sərbəst hesab edilirlər.

Gənclik anlayışı kimi gənclərin cəmiyyət həyatında və siyasi həyatda iştirak etmək hüququ da qanunlarla müəyyən edilir. Gənclərin siyasi və iqtisadi baxımdan yaşlıların arasına girməsi də müxtəlif ölkələrə görə dəyişir. Qanunlar gənclərin səsvermə hüququ ilə kollektiv qərar qəbul etməkdə iştirak etmək hüququnun olmasını müəyyənləşdirir. Demokratik ölkələrdə səsvermə hüququ bərqərar olanda, ümumiyyətlə, səsvermə yaşı 21 və daha yuxarı müəyyən edilirdi. 1970-ci illərdə bir çox ölkələr səsvermə yaşını 18-ə endirdi.

Gənclərin səs vermək və seçilmək hüququna sahib olmaq yaşları müxtəlif siyasi kontekstlərdə dəyişir, lakin əksər ölkələrdə 18 yaşında səs vermək hüququ qazanılır. Əksər ölkələr minimum səsvermə yaşını müəyyən etmişlər, bu da əksər hallarda konstitusiyalarında müəyyən edilmişdir. Bir sıra ölkələrdə səsvermə səs vermək hüququ olanlar üçün məcburidir, əksər ölkələrdə isə istəyə bağlıdır. Bir sıra ölkələrdə səsvermə yaşının 18 və ya daha aşağı salınması təklifləri ilə bağlı müzakirələr davam edir. Məsələn, Braziliyada 1988-ci il konstitusiyasında minimum yaş həddi 18-dən 16-ya endirilmişdir. Argentina, Avstriya, Braziliya, Kuba, Ekvador, Nikaraqua, Malta kimi ölkələrdə səs vermək hüququ 16 yaşdan başlasa da, bunun əksinə olaraq isə, Livan,

Malayziya, Tonqa krallığında və Sinqapurda bu yaş senzi 21-dir. Azərbaycan Respublikasında isə seçki günü 18 yaşına çatmış şəxslərin aktiv seçki hüququ vardır.

Bütün müşahidələr üçün ümumi olan gənclik dövrünün mühüm həyat dəyişiklikləri ilə əlamətdar olmasıdır: təhsildən iş bazarına, valideyn evindən müstəqilliyin qorunmasına, maddi asılılıqdan öz pulunu idarə etməyə, oğul/qız olmaqdan uşaq böyütməyə keçid və s. Bununla belə, “gənclər” və ya “gənclər” kateqoriyasındakı yaş qruplarını 15-24 və ya 15-29 yaş qrupu kimi müəyyən edən milli qanunvericiliklər bu nəslin meyllərini, problemlərini və ehtiyaclarını qiymətləndirmək üçün daha çox statistik və müqayisəli məqsədlərə xidmət edir.

Nümunə üçün, statistik məqsədlər üçün Birləşmiş Millətlər Təşkilatı gəncləri Üzv Dövlətlərin digər təriflərinə xələl gətirmədən 15-24 yaş arasında olan şəxslər kimi müəyyən edir, Avropa İttifaqı isə öz strateji çərçivələrində 15-29 yaş arası gəncləri hədəf alır. Daha çox və ya daha az düzgün və ya əsaslandırılmış həll yoxdur – gənclik yaşı  daha geniş Avropa və ya qlobal kontekstdə necə mövqe tutduqlarına dair daha aydın təsəvvür əldə etmək üçün öz milli gənclər siyasəti nailiyyətlərini digərləri ilə müqayisə etməyə çalışan ölkələr arasında yalnız konsensus məsələsidir.

Gənclik termini gündəlik həyatda təsadüfi mənalarda istifadə olunsa da, tədqiqat və siyasət qərarları baxımından isə məna dəqiq olmalıdır. Gənclik, gənclər  mənasını verən ingilis dilindəki “Youth” sözündən götürülüb. Bu termin alman dilindəki "Jugend" sözündən yaranıb, bu da hollandca "Jeugd" sözü ilə bağlıdır. Daha sonra köhnə ingilis dilinə keçdi və "geogut" adlandı, bunların hamısı gənclik deməkdir.

Oksford Lüğəti gəncliyi uşaqlıq və yetkinlik yaşı arasındakı dövr kimi təyin edir.  Merriam Webster Lüğəti gəncliyi insanın gənc olduğu və ya gəncin hələ yetkin olmadığı dövr kimi təyin edir.  Collins Lüğəti gəncliyi uşaqlıq və yetkinlik yaşı arasındakı dövr, gənc, yetişməmiş və ya təcrübəsiz olma keyfiyyəti və ya vəziyyəti kimi təyin edir.

Psixologiyaya gəldikdə, bir çox psixoloq gəncliyi təsvir etməyə çalışıb.  Ən məşhur psixoloqlardan biri Erik Erikson da onlardan biridir. O, gəncliyi 12 yaşdan 18 yaşa qədər baş verdiyi deyilən şəxsiyyətə qarşı rol çaşqınlığının baş verdiyi, fərdin öz şəxsiyyətini yenidən nəzərdən keçirdiyi və tam olaraq kim olduğunu öyrənməyə çalışdığı bir mərhələ kimi təsvir edir. Ziqmund Freyd psixoseksual inkişafın mərhələləri nəzəriyyəsində inkişafın dördüncü və son mərhələsinin genital mərhələ olduğunu qeyd etmişdir. Bu mərhələ yeniyetməlikdən – 12 yaşından başlayır və yetkinlik illərində də davam edir. Burada gənclik dövrünün neçə yaşda başladığını və bitdiyini göstərən müəyyən bir yaş göstərilməmişdir. Psixologiya sahəsinin digər nəhəngi Carl Jung gənclik dövrünün həyatın tələblərinin uşaqlıq xəyallarına sərt şəkildə son qoyduğu bir dövr olduğunu ifadə etmişdir.  Əgər fərd bu dövrə kimi yaxşı hazırlanıbsa, bu mərhələyə keçid rəvan baş verə bilər. Lakin gənclik reallığın əksi olan illüziyalarla ilişib qalırsa, o zaman problemlər yaranır. Daha spesifik olmaq üçün Jung gəncliyi 15 yaşında başlayan və 40 yaşında bitən bir dövr olaraq təyin etmişdir.  Hurlocka görə, 16-17 yaş arasında olan şəxslər 18 yaşa çatana qədər göstərdikləri yetkinliyə görə gənc adlandırıla bilər.  Erkən yetkinlik mərhələsinin 18 yaşından başladığı, 40 yaşında bitdiyi deyilir və bu mərhələdəki fərdlər gənc yetkinlər adlanır. Amerika Psixoloji Assosiasiyası gəncləri  bir qrupa birləşdirərək, onların yaş qruplarını 10-24 yaş olaraq təyin edir.

Sosial təhsildə gənclik və ya gənclik kateqoriyası Jan Jak Russo fiquru ilə silinməz şəkildə bağlıdır. Onun fikrincə gənclik uzaqlaşmağa çalışdığı böyüklər dünyasının antitezisidir, o, yetkinliyin təsəvvür edilən dünyasını pozğun, amansız və mühafizəkar hesab edir. Daha sonra gənclik “yaxşılıq, dostluq, təbiət və sevgi” kimi qəbul edilir.

Bu mənada gəncliyin öyrənilməsi son illər və onilliklərlə məhdudlaşmır. On doqquzuncu və iyirminci əsrlər boyu öz nəzəriyyəsi və praktikasında özünü gəncliyə həsr edən müəlliflər

arasında A.S.Makarenko, L.N.Tolstoy, Ch.Bühler, P.F.Lazarsfeld, H.Schelsky, H.Krautz, E. Erikson, S.N.Eisenstadt, M.Montessori, T.Adorno və R.R.Belli göstərmək olar.

Əksər hallarda gənclər təhsil prosesi və asudə vaxt fəaliyyəti ilə bağlı öyrənilmişdir. Bununla belə, diqqət bəzən gənclər arasında geniş şəkildə təzahür etdiyi düşünülən üsyan, itaətsizlik və tənqidi münasibət, hətta narkotik istifadəsi, azğınlıq, intihara meyllilik, vandalizm, aqressivlik, alkoqolizm və cinayət kimi sosial cəhətdən patoloji olan hadisələrə cəlb olunma kimi müəyyən münasibətlərə yönəlib. Bəzi müəlliflər antisosial və cinayətkar davranışlar haqqında, daha çox gənclər dəstələri ilə bağlı yazırdılar.

Gənclərin tərifləri çox olsa da, cəmiyyətdə onlar çox vaxt "on beşdən iyirmi beş yaşa qədər olan, artıq uşaq rolunu yerinə yetirməyən, lakin hələ də böyüklər rolunu qəbul etməyən insanlardan ibarət sosial qrup" hesab olunurlar. Gəncliyin özünəməxsus düşüncə və davranış tərzi, fərqli modellər, normalar və dəyərlər sistemi var. Kuchta üçün, gənclik on səkkizdə bitir.

Qeyd etmək lazımdır ki, "gənclik" sosial-mədəni cəhətdən şərtlənmiş bir anlayışdır və cəmiyyətin tipik sosiallaşma modeli onun gəncliyi dərk etməsinə təsir göstərir. Gənclərin kim olması bir cəmiyyətdən digərinə, bir qrupdan digərinə əhəmiyyətli dərəcədə fərqlənir; həqiqətən də gənclərə ilk dəfə yalnız bir neçə onilliklər əvvəl kollektiv sosial fenomen kimi baxılmışdır.

Gəncləri təsnif etmək üçün fenomenə yanaşma üçün istifadə olunan elm sahəsindən asılı olaraq, dəyişən çoxlu alternativ perspektivlər tətbiq oluna bilər. Sosial psixologiyada, məsələn, gənclik yetkinlik və yeniyetməlik kateqoriyaları ilə əlaqələndirilir. Yetkinlik adətən on bir ilə on beş yaş arasında müəyyən edilir. Yeniyetməlik on beşdə başlayır və iyirmi və ya iyirmi ikidə bitir. Yeniyetməliyin başlanğıcı reproduktiv sistemin yetkinliyi ilə əlaqələndirilir və yeniyetməlik dövründə bədən böyüməsi tamamlanır. Lakin bioloji meyarlar yeniyetməlik dövrünün sonunu müəyyən etmək üçün daha az əhəmiyyət kəsb edir; burada psixologiya (şəxsi muxtariyyətə nail olmaq), sosiologiya (böyüklərin rolu) və təhsil (təhsil əldə etmək və peşəkar keyfiyyətlər əldə etmək) meyarları ön plana çəkilir.

Sosiologiya gənclərin daxili fərqləndirilməsinə hörmətlə yanaşır, ona sosial-tarixi hadisə kimi baxır. Beləliklə, gənclik uşaqlıq və yetkinlik arasında körpü quran, fiziki, lakin daha da əhəmiyyətlisi psixososial inkişafın, o cümlədən peşə hazırlığının əldə edildiyi hər hansı bir yaş qrupuna aid edilə bilər.

İctimaiyyətin fikrincə, "hər kəs özünü hiss etdiyi qədər gəncdir". Bütün bu fərqliliklərdən isə aydın olur ki, bu anlayış fərqli baxış perspektivləri və kontekstlərlə dəyişir. Beləliklə, gəncliyin ümumi qəbul edilmiş tərifini vermək və müasir gəncliyi lakonik şəkildə xarakterizə etmək çətin prosesdir.

## ƏDƏBİYYAT

1.C. G. Jung, Gerhard Adler, Michael Fordham, Herbert Read. (1973). "The Collected Works of C.G. Jung".
2. Jade Mazarin. (2016). "Pioneers in Human Development Theory: Freud, Piaget & Jung"
3. Elizabeth Hurlock. (1981). "Developmaental Psychology: A Life - Span Approach"
4. Boudon R., Bernard P., Charkaoui M., Lécuyer B.-P. (2004). "Sociological dictionary"
5. Macek P. (2003). "Adolescence"
6. Buriánek J. (1996). "Sociology. For secondary and higher vocational schools"

# GƏNCLİK ANLAYIŞINA ÜMUMİ BAXIŞ – TARİXİ VƏ MÜASİR YANAŞMALAR

***Ömərzadə Nəzrin***

## XÜLASƏ

Gənclərin kim olduğunu müəyyən etmək onların problemlərini həll etmək və onları gücləndirmək üçün siyasətin formalaşdırılmasında ilk addımdır. Gəncliyin tərifi, xüsusən də yaş həddi ilə bağlı hər kəs tərəfindən qəbul edilmiş qəti bir razılıq və konseptual razılaşma yoxdur. Gənclərlə bağlı qərarların və sənədlərin qəbul edilməsində gənclik yaşının təyin edilməsi xüsusi əhəmiyyətli məsələdir. Yaş yetkinliyə keçidi xarakterizə etmək üçün faydalı, lakin qeyri-kafi göstərici ola bilər. İndiyə qədər gəncliyin müəyyən edilməsində daha çox yaş fərqi üstünlük təşkil edən yanaşma kimi qəbul edilir, lakin sosial statusun və həyat vəziyyətlərinin də əhəmiyyəti rol oynadığını unutmaq olmaz.

# OVERVIEW OF THE CONCEPT OF YOUTH - HISTORICAL AND MODERN APPROACHES

***Omarzade Nazrin***

## SUMMARY

Identifying young people is the first step in formulating policies to address and strengthen their problems. There is no definitive agreement or conceptual agreement on the definition of youth, especially on age. Determining the age of youth is a particularly important issue in making decisions and documents related to youth. Age may be a useful but insufficient indicator to characterize the transition to adulthood. Until now, the age difference has been widely accepted as the dominant approach in determining youth, but it should not be forgotten that social status and living conditions also play an important role.

# ОБЗОР КОНЦЕПЦИИ МОЛОДЕЖИ - ИСТОРИЧЕСКИЙ И СОВРЕМЕННЫЙ ПОДХОДЫ

***Омарзаде Назрин***

## АННОТАЦИЯ

Выявление молодых людей является первым шагом в разработке политики, направленной на решение и усиление их проблем. Не существует окончательного согласия или концептуального согласия в отношении определения молодежи, особенно в отношении возраста. Определение возраста молодежи является особо важным вопросом при принятии решений и документов, касающихся молодежи. Возраст может быть полезным, но недостаточным показателем для характеристики перехода к взрослой жизни. До сих пор в качестве доминирующего подхода к определению молодости широко признавалась разница в возрасте, однако не следует забывать, что важную роль играют также социальный статус и условия жизни.

# ЭКОНОМИЧЕСКИЕ РИСКИ В СОВРЕМЕННОМ АЗЕРБАЙДЖАНЕ

***Муталлимова Лейла***
***магистрант II курса БГУ***
***l.agazade97@gmail.com***

***Açar sözlər:*** risklər, iqtisadi risklər, beynəlxalq vəziyyət, ekoloji risklər, pandemiya
***Ключевые слова:*** риски, экономические риски, международное положение, экологические риски, пандемия
***Key words:*** risks, economic risks, international position, ecological risks, pandemic.

На сегодняшний день наша страна является одной из самых безопасных стран в регионе. Но даже этот факт не исключает существования определенных проблем, которые входят в группу рисков.

Среди таковых можно перечислить разные группы рисков: экологические, пандемия, экономические и гуманитарные кризисы, и т.д.

На фоне перечисленных тех или иных глобальных факторов риска успешный путь, который Азербайджан преодолел последние несколько лет.

События, происходящие на глобальном уровне и у соседних государств имеют влияние на положение дел в стране. К примеру, военные действия между Украиной и Россией имеют определенное влияние на экономическую политику Азербайджана. В ежемесячном обзоре банка по экономике Азербайджана отмечается, что это негативное влияние будет проявляться в следующих аспектах: потеря потенциального рынка ненефтяного экспорта в России, проблемы с импортом из РФ, ускорение внутренней инфляции, потеря активов. Украинский кризис также приведет к сокращению азербайджанских инвестиций в Россию и Украину.

Говоря о роли и месте Азербайджана в этих глобальных процессах, эксперты в первую очередь отметил значимость того факта, что международные институты, роль которых заключается в обеспечении безопасности, абсолютно перестали выполнять свои роли. Азербайджан же сохраняет свой нейтралитет, поскольку обеспечение безопасности и стабильного состояния в государстве является приоритетом. «Одним из важных приоритетов азербайджанской внешней политики всегда было то, чтобы не допустить превращения Азербайджана в такое пространство» говорят эксперты.

Фархад Мамедов полагает, что первые отголоски нынешней эскалации мир почувствует на себе в течение ближайших шести месяцев. «Плохо будет всем. В Азербайджане, как и в других странах мира, появятся новые беженцы, усложнение расчетов приведет к уменьшению товарооборота», – сказал он.

ВБ отмечает, что в феврале-марте наблюдался рост цен на энергоносители, фьючерсы на нефть марки Brent достигали отметки $130/барр. «Государственный бюджет Азербайджана на 2022 год рассчитан из цены на нефть в $50 за баррель и, следовательно, рост цен на энергоносители обеспечат непредусмотренную выгоду для фискального и внешнего балансов Азербайджана», - считают эксперты банка.

Однако перед Азербайджаном открываются и некоторые возможности, в частности в энергетическом и логистическом секторах.

Пандемия, которая является одной из самых ярко выраженных проблем во всем мире последние несколько лет оставила свои следы так же и на экономике Азербайджана, и не только на экономике. Многие локальные бизнесы пострадали во время карантина, что

отразилось на общем фоне экономического состояния. Так же ограничения на международном уровне привели к неприятным последствиям в сфере международной торговли и туризма.

Экономические риски в Азербайджане на данный период так же связаны с послевоенным состоянием. Вторая Карабахская война 2020 года так же, в свою очередь оказала влияние на экономику страны. В послевоенный период политика и экономические ресурсы страны направлены на восстановление освобожденных территорий и обеспечение безопасности по границам.

В послевоенный период для Азербайджана стали актуальны не только вопросы об экономических проблемах, но также и экологические риски.

В течение 30 лет на оккупированной территории вырубались и сжигались леса, незаконно использовались различные источники и природные ресурсы, оказывался ущерб флоре и фауне территории. Экологическим последствиям незаконной экономической деятельности на ранее оккупированных территориях посвящена отдельная глава в отчете МИД Азербайджана под названием «Незаконная экономическая и иная деятельность на оккупированных территориях Азербайджана».

Перед тем, как покинуть Кельбаджарский район, армяне сжигали дома, вырубали деревья и поджигали леса, уничтожали школы и больницы, а также скот.

Согласно отчету "Окружающая среда и безопасность: трансформация рисков в сотрудничество на примере Южного Кавказа", подготовленного Организацией по безопасности и сотрудничеству в Европе (ОБСЕ), Программой развития ООН (ПРООН), Программой ООН по окружающей среде (ЮНЕП) в октябре 2004 года, оккупация представляла собой серьезные трудности для экологии и безопасности Азербайджана и вызвала определенные проблемы, такие как долгосрочные последствия чрезмерного выпаса на пастбищах, вырубки лесов, накопления отходов и нерационального использования земель в Нагорный Карабах.

В результате оккупации Нагорный Карабах подвергся массовому разрушению экосистемы, которое можно охарактеризовать как "экоцид", что требует привлечения виновных к уголовной ответственности.

В связи с этим, на данный момент идет оценка ущерба и возможных рисков не только на территории ранее оккупированных земель, но так же влияние этих ущербов на общий экологический фон. На данный момент активно высаживаются деревья, идут работы по восстановлению экосистемы на освобожденных землях.

Реализация Распоряжения Президента Ильхама Алиева «О мерах по созданию зоны «зеленой энергии» на освобожденных от оккупации территориях Азербайджанской Республики» от 3 мая 2021 года создает широкие возможности для работы в этой сфере.

Экологические риски в Азербайджане связаны не только с освобожденными территориями. На всей территории страны существуют источники экологических рисков, включая сели, наводнения, оползни, демографические и техногенные нагрузки, загрязнение поверхностных и подземных вод, нарушение уровня Каспийского моря, засоление, заболачивание, климатические риски, опустынивание и землетрясения.

Говоря об экологических рисках нельзя не упомянуть проблемы связанные с загрязнением воздуха. Функционирование предприятий нефтеперерабатывающего комплекса и добыча нефти на близлежащих к Баку территориях оказывает серьезное влияние на загрязнение атмосферного воздуха как в столице, так и по всей стране. Усугубляют ситуацию с каждым днем возрастающее количество автомобилей, которые тоже загрязняют атмосферу.

Риски в сфере экологии имеют место быть в вопросах о водных ресурсах. Экологическая ситуация в бассейне реки Куры, обеспечивающей питьевой водой большинство населенных пунктов республики, включая Баку, все более усложняется.

В условиях ограниченных запасов водных ресурсов и формирования свыше 70% водного стока бассейна р. Куры и его транзита в нашу республику из сопредельных государств (Турция, Иран, Грузия, Армения), а также непрекращающегося трансграничного загрязнения ее вод, резко усугубляется положение с бесперебойным обеспечением пресной водой нужд населения и различных отраслей народного хозяйства. Поступающие в пределы Азербайджана реки приносят воду, в составе которой содержание загрязняющих веществ превышает установленную норму. В связи с решением проблем, связанных с водными запасами в стране, за счет бюджетных средств и при финансовой поддержке международных организаций различных проекты претворяются в жизнь. В малых городах, претворяются в жизнь проекты по водоснабжению и очистке сточных вод.

В целом, политика страны направлена на учет всех существующих и возможных рисков для государства, а так же предупреждение этих рисков, что отражается в принимаемых государством мерах в различных сферах.

## ЛИТЕРАТУРА


1. КРАТКИЙ ДОКЛАД СООТВЕТСТВИИ С ПРОТОКОЛОМ ПО ПРОБЛЕМАМ ВОДЫ И ЗДОРОВЬЯ
2. https://story.karabakh.center/ru/ekotsid-v-karabakhe
3. https://1news.az/news/20220307073713730-Azerbaidzhan-kak-ostrovok-bezopasnosti-v-nespokoinom-regione-vyzovy-riski-i-vozmozhnosti-dlya-Baku
4. https://vestikavkaza.ru/amp/329539


## ЭКОНОМИЧЕСКИЕ РИСКИ В СОВРЕМЕННОМ АЗЕРБАЙДЖАНЕ

***Муталлимова Лейла***

## АННОТАЦИЯ

В данной статье рассматриваются наиболее актуальные на данный момент риски в Азербайджане. Перечисляются самые важные проблемные сферы в стране. Приводятся отзывы и мнения экспертов в различных сферах о существующих проблемах и возможных путях их решения.

## AZƏRBAYCANDA MÜASİR İQTİSADİ RİSKLƏR

***Mütəllimova Leyla***

## XÜLASƏ

Bu məqalə hazırda Azərbaycanda ən aktual risklərdən bəhs edir. Ölkədə ən mühüm problemli sahələr sadalanıb. Mövcud problemlər və onların həlli yolları ilə bağlı müxtəlif sahələr üzrə ekspertlərin rəyləri və rəyləri verilir.

## ECONOMY RİSKS İN MODERN AZERBAİJAN

***Mutallimova Leyla***

## SUMMARY

This article discusses the most relevant risks in Azerbaijan at the moment. The most important problem areas in the country are listed. Reviews and opinions of experts in various fields on existing problems and possible ways to solve them are given.

# İSLAM DİNİNDƏ HARAMLAR: NARKOMANİYA VƏ ALKOQOLİZM

***Qədirova Gülnar***
***Naxçıvan Dövlət Universitetinin magistrantı***
***7gulnar@mail.ru***

***Açar sözlər:*** cəmiyyətin qorxunc bəlası, alkoqolizm, narkomaniya, milli- dini-mənəvi dəyərlər, ailənin və cəmiyyətin birgə məsuliyyəti, din xadimlərinin vəzifəsi
***Ключевые слова:*** страшная беда общества, алкоголизм, наркомания, национально-религиозно-нравственные ценности, совместная ответственность семьи и общества, долг религиозных деятелей
***Keywords:*** terrible misfortune of society, alcoholism, drug addiction, national-religious-moral values, joint responsibility of family and society, duty of religious figures

Müasir dövrümüzün ən qorxunc bəlalarından biri kimi, alkoqolizm, narkomaniya və narkotik vasitələrin qanunsuz dövriyyəsi haqlı olaraq, cəmiyyət həyatımız üçün çox ciddi təhlükə mənbəyi hesab edilir. Bu, bizim milli genofondumuza, ailə institutumuzun sabitliyinə və dinamik tərəqqisinə, demoqrafik inkişafımızla yanaşı ictimai asayişimizə və dövlətçilik maraqlarımıza sarsılmaz bir zərbədir. Belə həyəcanlı və qorxunc durumdan xilas yollarının axtarılıb tapılması üçün Azərbaycan ictimaiyyəti böyük məsuliyyətlə ailənin və cəmiyyətin rolunun əlaqələndirilməsinin danılmaz vacibliyi qənaətindədir. “Heç kim üçün sirr deyil ki, alkoqolizm və narkomaniya insanlıq üçün çox böyük təhlükə yaradır” (1, s.176). Ona görə də “gələcək nəslin sağlam təməllər üzərində milli, dini-mənəvi dəyərlərə istinadən formalaşdırılması cəmiyyətimiz üçün bütün dövrlərdə mühüm istiqamətlərdən biri olmuşdur. Gənc nəslin həm fiziki, həm ruhi saglamlığı, ictimai fəallığı və sosial faydalılığı kimi məqamların reallaşmasında” (6) ailənin, cəmiyyətin birgə məsuliyyətli əlaqəsi danılmazdır.

Tədqiqatçılara görə, narkomaniya sağlamlıq baxımından, həmçinin mənəvi-əxlaqi cəhətdən həyatımızın iflic olmasına gətirib çıxarır, imanı isə əldən alır. Yəni, “cəmiyyətimizdə ciddi təhlükə törədən problemlər içərisində narkotizm və narkobiznes daha ağır faciələrə gətirib çıxaran bir məsələdir” (3,s. 166). Odur ki, Qafqaz Müsəlmanları İdarəsinin bu bəlaları önləyəcək müvafiq tapşırıq və tövsiyələrinin nəzərə alınması ona görə vacib və əhəmiyyətlidir ki, “cəmiyyətin tərkib hissəsi olan din xadimlərinin vəzifəsi Uca Allahın müqəddəs Kitabımız “Qurani-Kərim”də buyurduğu həqiqətləri, dinimiz İslamın dəyərlərini daha israrlı maarifləndirmə işi vasitəsilə cəmiyyətimiz üçün kamil insan tərbiyəsi prosesinə öz töhfələrini verməkdir. Müqəddəs Qurani-Kərimin bizə buyurduğu kimi: “Rəbbinin yoluna hikmətlə və gözəl öyüd-nəsihətlə dəvət et” (8, Nəhl surəsi, ayə 125).

“Qurani-Kərim” Aləmlərin Rəbbinin-Uca Allahımızın (c.c.) sözü, bütün İslam dünyasının və bəşəriyyətin mənəviyyat, əxlaq toplusudur. “Quranda bizə aşılanan gözəl əxlaqi prinsiplər var. İnsanlar xoşbəxt olmaq üçün bu prinsiplərə əməl etməlidirlər” (5, s.288). O, bütün bəşəriyyət üçün göndərilmişdir və Adəmövladının mənəvi həyatının əxlaq kodeksidir. İnsanın, ümumilikdə isə, bütün bəşəriyyətin imanıdır, inam və güvən yeridir. Odur ki, XXI əsrin sivilizasiyası-dünyanın dörd bir yanındakı cəmiyyətlər mənəvi iztirablara düçar olmamaq üçün bu müqəddəs kitabı-Allah sözünü eşitməli və ona tamamilə əməl etməlidirlər. Çünki Allahu-Təala-Aləmlərin Uca Rəbbi Adəmoğlunun hər cür bəlalarla gətirib doldurduğu qlobal dünyamızda bağ verənlərin ən Böyük Şahidi kimi, insanoğlunun törətdiyi qəbuledilməz qlobal problemlərdən xilas yolunu ona göstərməkdədir. Çünki İslam bəşəriyyətə insanın bu dünyadakı-yaşadığı cəmiyyətdəki və axirəti üçün səadətindən ötrü lazım gələn hər şeyi özündə ehtiva edir, cəmləşdirir.

Narkomaniya vəalkoqolizm dünyanın ən ciddi və ən kəskin həllini gözləyən bəlalarından biri olmaqla yanaşı, eləcə də, artıq onun ən amansız düşmənlərindən birinə çevrilmişdir. Onlar sağlam cəmiyyətləri xəstəlik mənbəyinə çevirən viruslar mənbəyi olmaqla bitib qalmaqda deyil. Odur ki, bu xəstəlikdən xilaq olmaq üçün, ondan yaxa qutarmağı asanlaşdırmaq üçün müqəddəs İslam qaynağı olan "Qurani-Kərim"ə üz tutub orada buyurulanlara əməl etməklə birdəfəlik və həmişəlik olaraq xilas yolunun yolçusuna çevrilmiş olarıq. Bu, bizim sağlam və xoşbəxt gələcəyimizə sahib olmaq istəyimizi reallaşdıran ən doğru yoldur!

İnsan dininin ona buyurduqlarına əməl etməklə bütün günahlardan uzaq qalar. Çünki "müasir dünyada din mənəvi istinad nöqtəsi olmaqla yanaşı, mədəniyyətlərarası münasibətlər, qloballaşma və təhlükəsizlik baxımından da strateji əhəmiyyətə malikdir. Xüsusilə XX əsrin sonlarından etibarən beynəlxalq aləmdə din güclü ideoloji təsirə malik olan amilə çevrildi" (2, s.5). Yəni, insan hər əməlində cəmiyyətin hər bir üzvünə etdiyi xeyirlərlə özünə də xeyirlər gətirmiş olar. Amma onun alkoqolizm və narkomaniya ilə dostluğu- aludəçiliyi onu elə günahlara apara bilər ki, insan yaşadığı-mənsub olduğu cəmiyyətdəki öhdəliyini-məsuliyyətini itirər, özünün vəzifə borclarını birdəfəlik unudar, bununla da, günahkar olub, günah işlər görməklə cəmiyyəti də günahlara bulaşdırar. Amma cəmiyyətdə günahkar olmamaq, qınaq obyektinə çevirlmək istəməməklə özünü və cəmiyyəti də qorumuş olar.

Allahu-Təalanın insana verdiyi ağıl-kamal onun ən böyük sərvətidir, Uca Rəbbimizin insan üçün bəxş etdiyi ən böyük sərmayə-yatırımıdır. Yəni, insan əlindəki bu sərvəti ilə özünü və cəmiyyəti irəliyə aparar, onun işıqlı gələcəyinə təminat yaradar. Amma onun bu yoldan uzaqlaşmaması, yəni ağlından yetərincə istifadə etmək istəməməsi fəlakətlər gətirər ki, onlardan ən bəlalısı da narkomaniya və alkoqoliuzmdir. Elə ona görə də insanın ağlını onun ixtiyarından çıxaranı, onu az qala dəli edən, ağılsıza çevirən hər şey dində Allah (c.c) tərəfindən qadağan olunmuşdur. Çünki belə insanların ağıllarını başlarından itirmələri ilə cəmiyyət hər cür bəlalar ilə üz-üzə qalar və hər cür çətinliklərlə qarşılaşa bilər. Məhz alkoqolizm və narkomaniya, içki və qumar yəni insanın ağlına hakim ola bilməsinə maneçilik törədə bilən hər bir zərərli vasitə insanı özündən asılı edir, onu arxasınca süründürür və cəmiyyət üçün bəlaya çevrilir.

Bütün zərərli vərdişlər kimi, alkoqolizm və narkomaniya da cəmiyyətin sağlam vücuduna vurulan zərbədir, onu yaradan, məhvə doğru aparan vasitələrə yaşıl işıq yandıran, əlverişli imkan yaradan vasitələrdəndir. İnsan bunu etməkdə haqq sahigibi sayıla bilməz. Deməli, onun bu hərəkəti yararsız sayılır, həm Allah (c.c) yanında, həm də cəmiyyət həyatında-insanların arasında cinayət halıdır ki, onun da mütləq mənada cəzası vardır. Yəni insanın sağlam canına edilən hər cür qəsd Allah (c.c) tərəfindən haram sayılmışdır. İslam dini universaldır. Allah (c.c.) göndərdiyi "dinlər arasında dil, ərazi, məlumata və zaman fərqliliklərinə rəğmən, inancı əsasları və ibadət anlayışı ilə ədalət, doğruluq, sevgi,köməklik göstərmək kimi anlayışların yaxşı, buna ziddiyət təşkil edənlərin pis olması kimi təməl və universal həqiqətlər ilahi dinlərin ortaq özəlliyidir" (4, s.18).

"Qurani-Kərim"də Allah (c.c) yaratdığı Adəmoğlunu-insanları yaxşı işlər görməyə çağırar, onları pis işlərdən uzaq durmağı əmr edər, pis əməlləri onlar üçün qadağan edər, onları haram və murdar şeylərdən kənar olmağa çağırar. "Qurani-Kərim"də belə buyurulur: "O Peyğəmbər onlara yaxşı işlər görməyi buyurar, pis əməlləri isə qadağan edər, onlara pak şeyləri halal, murdar şeyləri isə haram edər" (8, əl-Əraf surəsi, 157-ci ayə). Yəni, Uca Rəbbimmizin bəyənmədiyi insanlar, onları etməkdən çəkindirdiyi pis şeylər vardır. Bunlar insanın etdiyi pis əməllərdir ki, qadağan olunmuşdur və murdar sayılırlar. Ona görə də haramdırlar. Elə ona görə də "İslam dini dedikdə ağıla ilk gələn "Qurani-Kərim"dir. Qurani- Kərim bir milyarddan artıq insanın etiqad etdiyi islam dininin müqəddəs kitabı, ərəb ədəbi dilinin ən möhtəşəm abidəsi və səmavi kitabların sonuncusudur " (7, s.33).

Surədə buyurulmuş haram olan şeylər ilk növbədə insanın başından ağlını alan, onu yerindən çıxaran hər nə vardırsa, elə hamısıdır.Yəni, belə qəbul olunmalıdır ki, bütün sərxoşedici içkilər insanın ağlını başından alır, onu düşünə bilmək qabiliyyətindən məhrum etməklə, onu düşüncəsiz, ağılsız, nəticədə isə cinayətə qədər gedib çıxa biləcək əməllərə təhrik edə bilir. Burada bunları ifadə edən hər şey vardır. Nəzərə alınmalıdır ki, İslam dininin yarandığı yeddinci yüzillikdə istifadə olunan içki növlərindən söhbət gedərsə, o zamanlarda bütün belə içkilər "ağlın üstünü örtən" mənalarında idi. Yəni, həm spirtli içkilər, həm də narkotik maddələrin hər hansı biri, növündən asılı olmayaraq, istifadə müddətindən sonra "ağlın üstünü ortən" və onu öz qabiliyyətindən, gücündən uzaq edən, onu o qabiliyyətdən məhrum edən şeylər hesab edilməkdədir. Deməli, istifadəsindən sonra insanın ağlını yerində durmağa qoymayan, onu başdan aparan şeylər, ilk növbədə isə, alkoqollu içkilər və insanın huşunu başından alan, onu huşsuza çevirən, onu huşsuz vəziyyətə gətirən narkotikliyi olan hər şey pislənmişdir, haramdır. "Qurani-Kərim"də Uca Rəbbimiz bizlərə buyurmuşdur: "...Yaxşılıq etməkdə və Allahdan qorxmaqda bir-birinizə yardım edin. Günah işlər görməkdə və düşmənçilikdə bir-birinizə köməkçi olmayın..." (8, Əl-Maidə surəsi, ayə 2).

İslam dinində insanın bütün haqsız əməlləri necə qınanırsa, cəmiyyət həyatında alkoqol və narkotik aludəçisi olan insan özünə, eləcə də, cəmiyyətə etdiyi zərərlərə görə cavab verməlidir. Yəni, onun haqsızlığının layıqli bir cəzası da olmalıdır. İslam prinsipinə görə, cana, mala, dövlətə, cəmiyyətə bilərəkdən- qəsdən vurulan zərər haramdır, yəni, onun cəzalandırılması haqdır, doğrudur. Bunu da bilə- bilə edən insan cəzasız qala bilməz. Bütün söylənilənlərn hamısı onun istifadəçisi olan insanın bağışlana bilməsi üçün olan hər şeyin üstündən qara xətt çəkir. Yəni, alkoqol və narkotik maddə istifadəçəsinin onu istehlak etməsi, yəni, onsan istifadə etməsi onun ağlının yerində olmağa qoymamasına səbəb olduğu üçün ondan qazanc məqsədi güdməsi (yəni, onu başqalarına satmaq yolu ilə onları da bu işə qoşması), eyni zamanda da, cəmiyyət üçün müxtəlif çətinliklər törətməsi İslam dinində haram sayılmışdır. İslam dini insana bu yoldan tamamilə kənar durmağı, ondan uzaqlaşmağı buyurmuşdur. Çünki Allah (c.c) və "Qurani-Kərim" insana yalnız ən yaxşı işləri görməyi buyurmuşdur, pis işləri isə haram saymışdır. Eləcə də, İslam alimlərinin söylədikləri səhih, tamamilə doğru sayılan hədislərin hamısı sərxoşluqla nəticələnən hər şeyi haram saymışdırlar.

Çünki belə sərxoşedici, ağılı başdan alan hər şey haram sayılmaqla cəmiyyəti fəlakətə apara bilən hər şeydən uzaq dayanmağa bir ilahi çağırış sayılmaqdadır. Həm alkoqolizm, yəni alkoqolik içkilər, həm də narkotik maddələr- narkomaniya, yuxarıda qeyd etdiyimiz xüsusiyyətlərə malik olduqlarına görə, istifadə üçün zərərlidir, haramdır, qadağandır. Axı, o, son nəticədə cəmiyyətdə hədiz- hesabsız fəlakətlərə, qarşısıalınmaz cinayətlərə yol açır, xoşbəxt gələcəyi zərbə altına qoyur və hər zaman, hər yerdə sosial gərginliklərə yol açır. Bunların hamısı isə son nəticədə cəmiyyətin minillik mənəvi-əxlaqi dəyərlər xəzinəsinə ləkə salır, onu qoruyub saxlamağa çətinlik törədir, minilliklərdən süzülüb gələn şərəf və ləyaqəti tapdalayır, onu pozur, cəmiyyətə zidd olan şeyləri onun gündəlik həyatına gətirməklə böyük faciələrə yol açır.

İnsan Uca Rəbbinin ona bəxş etdiyi ən böyük sərvət olan ağlından istifadə etməsə, düşünə bilməsə, istənilən halda onun günahkar əməlləri cinayətə apara bilər. Odur ki, alkoqollu içkilər və narkotik maddələrdən istifadə insan sağlığına təkcə zərər verməklə qalmır. Eyni zamanda da, beləliklə, insanı ictimai təhlükəli əməllərə sövq edir. Bu, ilk növbədə insanın öz həyatını təhlükəyə sürükləməsinə səbəbdir. Yəni,insanın öz həyatı üçün təhlükəlidir,digər tərəfdən isə onun başqaları üçün reahl təhlikə mənbəyinə çevrilməsinə imkan və şərait yaranmasına səbəb olur,Bu haqda Qurani-Kərimin ikinci, ən böyük "əl-Bəqərə" surəsində buyurulur: "Öz əllərinizlə özünüzü təhlükəyə atmayın" (8, surə 2, ayə 195).

Deməli, insanın törətdiyi hər bir pis əməldən yaranan təhlükə, zərər, eyni zamanda da, başqalarına, cəmiyyətə edilən zərərdir, ona təhlükə yaratmaqdır. Bununla da, hamı alkoqollu içkilərin-alkoqolizmin və narkomaniyanın insanın özünü, ətrafdakılarını, bütövlükdə cəmiyyəti necə təhlükə mənbəyinə çevirməsinin şahidi olur və bu təhlükə mənbəyindən xilas yolları aramalıdır. "Qurani-Kərim"də Uca Allahmızın (c.c.) heç zaman sevmədiyi və bağışlamadığı israfçılıq bəyənilməyəcək əməldir. Alkoqolik və narkomanın əməlləri təkcə zərərli əməllər olmaqla bitmir, eyni zamanda da, o, israfçılıq nümunəsidir. Yəni, insan malını, sərvətini gərəksiz- boş şeylərə sərf etməməlidir. Bu da İslam aləmində heç zaman bəyənilməmişdir. Alkoqolizm və narkomaniya buna bariz sübutdur. Onun istifadəçiləri- istehlakçılar, Allahu-Təalanın haqq yolundan uzaqlaşanlar, eləcə də, ona düşmən olanlardandırlar, yəni, şeytanın yolu ilə gedənlərdirlər. Onlar isə heç zaman doğru yolda ola bilməzlər. Allahın (c.c) verdiyi nemətlərə şükr etməz və onun qədrini bilənlərdən olmayan nankordurlar. Söylədiklərimiz "Qurani-Kərim"də Uca Allahu-Təala tərəfindən belə buyurulmuşdur: "Həqiqətən, israfçılar şeytanların qardaşlarıdır. Şeytan isə Rəbbinə qarşı nankordur" (8, əl-İsra surəsi, ayə 27).

Deməli, İslamda narkomaniyanın və alkaqolizmin gətirdiyi bəlalara, törətdiyi fəsadlara, faciələrə görə haram buyurulması açıq-aşkar dəlillərlə sübuta yetirilmişdir. Narkotik maddələr insanlkarı doğru yoldan çıxarır, onları yaxşı işlər görməkdən kənarda saxlayır, onun bütün həyatına, can sağlığına qəsd edir. Digər tərəfdən isə, Allahu-Təalanın azad, hürr yaratdığı insan qeyri- ixtiyari olaraq, onların quluna, köləsinə çevrilərək, alkoqolun və narkotikin asılılığında qalmış olur. Bu, onun özünün maddi və mənəvi aləminin tədricən getdikcə daha da puç olmasına səbəb olur, onu göz görə- görə mənəvi heçliyə çevirir və onun bundan xilası üçün heç bir yer saxlamır. Bu əməllər ilə insan şeytanın- pis əməllərin, murdar işlərin yolçusuna çevrilir, öz əməlləri ilə nankorluq edərək, Allahın (c.c.)verdiyi nemətlərdən düzgün istifadə etməməklə israfçılıq yolunu tutur, gərəksiz yerə malını, sərvətini puça çıxarır, sanki onları havaya sovurmaqla etdikləri hərşeyin sonda boş bir şey olduğuna, heçliyə apardığına sübut olur.

Alkoqolizmin və narkomaniyanın insana verdiyi zərərlər, gətirdiyi fəlakətlər bir fərd olaraq, onda hansı zərərlərə səbəb olursa olsun, ondan daha artıq dərəcədə cəmiyyətdəki zərərlərə yol açmış olur. Yəni, insanın alkoqolizm və narkomaniya aludəçiliyi cəmiyyətin əsas sütunu, özəyi olan ailənin daxilində bitib- tükənməyən, qarşısıalınmaz problemlərə gətirib çıxarır, ailənin süquta getməsinə, dağılmasına, boşanmalara səbəb olur. İş təkcə bununla bitmək bilmir. Ağlı başında olmayan insan və ya istifadə etdiyi məhsulların asılılığında qalan aludəçi məxluq bunlara sahib çıxa bilmək üçün müxtəlif cinayət əməllərinə əl atır, oğurluqdan, quldurluqdan, yol kəsməkdən, gücü çatarsa, soyğunçuluqdan belə çəkinmir. Cəmiyyətdə özünə layiqli bir yer tapa bilmir, heç kəs tərəfindən qəbul olunmadığından pis bir nümunəyə çevrilir. Onda heç bir ənənəvi- əxlaqi dəyərə sahib çıxmaq gücü qalmır, özünə inamı- özgüvəni ola bilmir. İnsana məxsus olan mənəvi- əxlaqi keyfiyyətlərinin getdikcə korlanması onu hamının gözündən salır, uşaqlarını cəmiyyət içərisində utandırır, pis vəziyyətdə qoyur.

Amma İslam dini hər hansı alkoqolikin və ya narkomanın, belə bəlalara düçar olan insanların, o cümlədən də, müsəlmanların xilasına, cəmiyyətin digər azad, bərabərhüquqlu vətəndaşları ilə bir daha eyni sırada dayanmalarına hər cür köməklik göstərməyə qadirdir. Cəmiyyət həyatında bir qism insanların bu bəlalardan xilas olmasının, qurtarmasının şahidi olanlar çoxdurlar. Çünki insanın öz əməllərinə sahiblik etməsi İslam dinində tamamilə rəğbətləndirilməkdədir. Bu cür insanların bəlalardan xilası onun özünün istəyi ilə bərabər, həm də onun bu işdə güclü səbr, iradə nümayiş edirməsinə də çox bağlıdır. İslam dini də insana özünün bu dünyadakı və axirətdəki səadətini daim nəzərində saxlamağı buyurur. İslam dini bunları insana bildirir ki, insan Allah (c.c) tərəfindən ona verilən ağıl, kamalın gücü ilə kamilləşə bilir. İnsan imanın gücü ilə Allahına sığınır, Ona tərəf dönür, Allahın (c.c) köməyi, yardımı ilə bu bəladan qurtula bilməsi üçün dualar

edir, Allah (c.c) qarşısında vəfa borcu kimi, bu işlərə qoşulmayacağına, davamlı olaraq o yoldaq uzaq dayanacağına özündə əminlik yaradır. Alkoqol və ya narkotik istifadəçisi Allahu-Təalanın onu nə üçün yaratdığını, borc və vəzifələrini anladıqca, yəni xeyri ziyanlı, zərərli olanlardan üstün tuta biləcək gücə yavaş-yavaş sahiblənə biləcək gücü əldə etməyə çalışmaqla özü üçün yaratdığı, öz əli ilə özünü atdığı mühitdən özünü uzaq tutmağa çalışmağı ağlından leçirməlidir. Yəni, insan bütün yaxşı ola biləcək, yaxşılıqla nəticələnə biləcək hər şey üçün Allahı(c.c.) zikr etməli, daim Ona doğru əllaərini açmalı və Ona tərəf addım atmalıdır. Onun bu zikrləri onu pisliklərdən daşındırar, şeytandan uzaqlaşdırmağa yönləndirər. Aləmlərin Rəbbi "Qurani-Kərim"də buyurmuşdur: "Ey iman gətirənlər! Səbr edin, dözmlü olun, sərhəd boyu növbə ilə keşik çəkin və Allahdan qorxun ki, bəlkə nicaq tapasınız!" (8, Ali-İmran surəsi, ayə 200).

## ƏDƏBİYYAT


1. Əhmədova Jalə. Alkoqolızm və narkomanıyadan asılılığın yaranma səbəbləri və problemın həllı yolları haqda. Bakı Dövlət Universiteti. Sosial və humanitar elmlərin müasir problemləri. Elmi əsərlər toplusu. Buraxılış № 8, 2012., 229 səh. (səh.176-180).
2. Heydərov Səyavuş, Qənbərov Asəf, Qafarov Anar. Din və ideoloji təhlükəsizlik. Ön sözün müəllifi: Mübariz Qurbanlı. Bakı, "Tuna," - 2020, 276 səh.
3. İnqilabzadə Fizzə. Azərbaycanda narkotizm və narkobiznesə qarşı mübarizə. "Sosial və humanitar elmlərin müasir problemləri". Baki Dövlət Universiteti. Elmi əsərlər toplusu. Buraxılış № 22, 2019, (I hissə), 548 səhifə. (səh.166-168).
4. Məmmədova Aynurə. Gənc nəslin formalaşmasında islam dəyərlərinin rolu və əhəmiyyəti. "Azərbaycanda İslam həmrəyliyi: İslam dəyərləri və Azərbaycan gəncliyi" mövzusunda tələbə, magistrant və doktorantların respublika elmi-nəzəri konfransının Materialları. Bakı, "Qaya" nəşriyyatı, 2017. 80 səh. (s.18-20).
5. Məmmədova Samirə."Qurani-Kərim"də əxlaq məsələlərinin qoyuluşuna dair. Azərbaycan Respublikasının Təhsil İnstitutu. Elmi Əsərlər, cild 84, № 6, 2017. 332 s. (s.288-290).
6. Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə ...https:// qafqazislam. com › ... 2 sen 2021
7. Qəmbərli Sədəfxanım. Müasir Azərbaycan gəncliyi və İslam dəyərləri. "Azərbaycanda İslam həmrəyliyi: İslam dəyərləri və Azərbaycan gəncliyi" mövzusunda tələbə, magistrant və doktorantların respublika elmi-nəzəri konfransının Materialları. Bakı, "Qaya" nəşriyyatı, 2017, 80 səh.(s. 33-35).
8. Qurani-Kərim. Ərəb dilindən tərcümə edənlər: Z.M.Bünyadov, V.M.Məmmədəliyev. Bakı: "Şərq- Qərb" nəşriyyat evi, 2012. 696 səh.


# İSLAM DİNİNDƏ HARAMLAR: NARKOMANİYA VƏ ALKOQOLİZM

***Qədirova Gülnar***

## XÜLASƏ

Müasir dövrümüzün ən qorxunc bəlalarından biri kimi, alkoqolizm, narkomaniya və narkotik vasitələrin qanunsuz dövriyyəsi haqlı olaraq, cəmiyyət həyatımız üçün çox ciddi təhlükə mənbəyi hesab edilməkdədir. Bu, bizim milli genofondumuza, ailə institutumuzun sabitliyinə və dinamik tərəqqisinə, demoqrafik inkişafımızla yanaşı ictimai asayişimizə və dövlətçilik maraqlarımıza sarsılmaz bir zərbədir. Belə həyəcanlı və qorxunc durumdan xilas yollarının axtarılıb tapılması üçün Azərbaycan ictimaiyyəti böyük məsuliyyətlə ailənin və cəmiyyətin

rolunun əlaqələndirilməsinin danılmaz vacibliyi qənaətindədır. Heç kim üçün sirr deyil ki, alkoqolizm və narkomaniya insanlıq üçün çox böyük təhlükə yaradır.

Elə ona görə də gələcək nəslin sağlam təməllər üzərində milli, dini-mənəvi dəyərlərə istinadən formalaşdırılması cəmiyyətimiz üçün bütün dövrlərdə mühüm istiqamətlərdən biri olmuşdur. Gənc nəslin həm fiziki, həm ruhi saglamlığı, ictimai fəallığı və sosial faydalılığı kimi məqamların reallaşmasında ailənin, cəmiyyətin birgə əlaqəsi və məsuliyyəti danılmazdır.

Tədqiqatçılara görə, narkomaniya həyatımızı sağlamlıq baxımından, həmçinin mənəvi-əxlaqi cəhətdən iflic olmasına gətirib çıxarır, imanı isə əldən alır. Odur ki, Qafqaz Müsəlmanları İdarəsinin bu bəlaları önləyəcək müvafiq tapşırıq və tövsiyələrinin nəzərə alınması ona görə vacib və əhəmiyyətlidir ki, "cəmiyyətin tərkib hissəsi olan din xadimlərinin vəzifəsi Uca Allahın müqəddəs Kitabımız "Qurani-Kərim"də buyurduğu həqiqətləri, dinimiz İslamın dəyərlərini daha israrlı maarifləndirmə işi vasitəsilə cəmiyyətimiz üçün kamil insan tərbiyəsi prosesinə öz töhfələrini verməkdir.

## ЗАПРЕТЫ В ИСЛАМЕ: НАРКОМАНИЯ И АЛКОГОЛИЗМ

***Гадирова Гульнар***

## АННОТАЦИЯ

Алкоголизм, наркомания и незаконный оборот наркотиков, как одна из самых страшных бед современности, по праву рассматриваются обществом как источник очень серьезной опасности для нашей жизни. Это непоколебимый удар по стабильности и динамичному прогрессу нашего национального генофонда, института семьи, а также по нашему демографическому развитию, нашему общественному порядку и интересам государственности. Азербайджанская общественность убеждена в неоспоримой важности согласования роли семьи и общества с большой ответственностью за поиск путей выхода из такого тревожного и страшного положения. Ни для кого не секрет, что алкоголизм и наркомания представляют огромную опасность для человечества.

Поэтому формирование будущего поколения на здоровых основах, опираясь на национальные, религиозно-духовные ценности, во все времена было одним из важных направлений для нашего общества. В реализации таких моментов, как физическое и психическое здоровье, социальная активность и социальная полезность подрастающего поколения неоспоримы совместная связь и ответственность семьи, общества.

По мнению исследователей, наркомания приводит к параличу нашей жизни с точки зрения здоровья, а также морально-этических аспектов, а Вера выходит из-под контроля. Поэтому учет соответствующих поручений и рекомендаций Управления Мусульман Кавказа, которые предотвратят эти бедствия, важен и полезно потому, что задача религиозных деятелей, являющихся частью общества, внести свой вклад в процесс воспитания совершенного человека для нашего общества посредством более упорного просвещения истин, предписанных Всевышним в нашей священной книге "Коран", ценностях Ислама нашей религии.

# PROHIBITIONS IN ISLAM: DRUG ADDICTION AND ALCOHOLISM

***Gadirova Gulnar***

## SUMMARY

Alcoholism, drug addiction and drug trafficking, as one of the most terrible evils of our time, are rightfully considered by society as a source of very serious danger to our lives. This is an unshakable blow to the stability and dynamic progress of our national gene pool, the institution of the family, as well as to our demographic development, our public order and the interests of statehood. The Azerbaijani public is convinced of the indisputable importance of coordinating the role of the family and society with great responsibility for finding ways out of such an alarming and terrible situation. It's no secret that alcoholism and drug addiction pose a huge danger to humanity.

Therefore, the formation of the future generation on healthy foundations, based on national, religious and spiritual values, has always been one of the important directions for our society. In the realization of such moments as physical and mental health, social activity and social usefulness of the younger generation, the joint connection and responsibility of the family and society are indisputable.

According to researchers, drug addiction leads to a paralysis of our life in terms of health, as well as moral and ethical aspects, and Faith is out of control. Therefore, taking into account the relevant instructions and recommendations of the Caucasus Muslim Board that will prevent these disasters is important and useful because the task of religious figures who are part of society is to contribute to the process of educating a perfect person for our society through more persistent enlightenment of the truths prescribed by God in our holy book ”The Koran", the values of Islam of our religion.

# ТЕОРЕТИЧЕСКИЕ ПРОБЛЕМЫ ДОСУГА

***Дамирова Эльвира***
***Магистрант 2-го курса БГУ***
***vika_d-va@mail.ru***

***Ключевые слова:*** досуг, активный и пассивный отдых, принципы и функции досуга.
***Açar sözlər***: asudə vaxt, aktiv və passiv istirahət, asudə vaxtın funksiyaları və prinsipləri.
***Key words:*** leisure. active and passive rest, principles and functions leisure.

Досуг одна из составляющих частей жизни любого человека, вне зависимости от пола, возраста, национальности и т.д. Так что же такое досуг? Досуг это часть времени, которая остается у человека, после того, как он выполнил свою трудовую деятельность, а также неприложные задачи. Досуг это то время, которое каждый человек проводит по-своему, то есть, занимается тем, что ему по душе и выбор тех или иных форм досуговой деятельности зависит от предпочтений личности.

В литературе существует множество подходов к данному понятию и каждый из них отличается своеобразием.

Часто, досуг отождествляют со свободным временем, внеучебной деятельностью, однако, не всегда можно приравнять эти понятия. Так как досуг может включать в себя не только отдых, но и учебную деятельность, образование, продуктивное проведение свободного времени и т.д. Таким образом досуг объединяет в себе и отдых и труд. Плодотворное использование досуга является одной из важных задач современного общества, так как в условиях трансформации общества, изменения ценностных ориентиров, досуг является той сферой, где молодежь может проявить себя, найти себя.

Имеются четыре основные группы определения понятия досуг:(1)

- Досуг как деятельность - обычно характеризуется как деятельность, не связанная с работой. Ценности самореализации включаются в это определение досуга.
- Досуг как созерцание, связанное с высоким уровнем культуры и интеллекта; это состояние ума и души. В этой концепции досуг обычно рассматривается с точки зрения эффективности, с какой человек делает что-либо.
- Досуг, как свободное время, время выбора. Это время может быть использовано различным образом, причем оно может быть использовано для деятельности связанной с работой или не связанно с ней. Досуг рассматривается как время, когда человек не занимается тем, что входит в его обязанности.
- Досуг интегрирует три предыдущих определения , стирает грань между «работой» и «не работой» и в целом оценивает досуг как действия, описывающие человеческое поведение. Включает в себя понятия времени и отношения к времени.

Таким образом, разные ученые высказывали свое мнение и давали определения касательно понятия «досуг». Так, по мнению Орлова, российского исследователя «досуг - это совокупность занятий человека в свободное время, с помощью которых удовлетворяются непосредственные физические, психические и духовные потребности, в основном восстанавливающего характера, а также специфический социальный способ дальнейшего развития человеческих сил (3). В исследованиях Э.В. Соколова досуг рассматривается как особое время, когда возможен свободный выбор занятий, в которых отдых перемежается с физической и умственной активностью»(4).

Onlayn dərsin idarəetmə sistemlərində və müzakirə şurasının interfeysində pedaqoji dizayn elementləri iştiraka və öyrənməyə təsir göstərə bilər. Onlayn dərslərdə şagirdlər müzakirə interfeysi ilə qarşılıqlı əlaqəsindən təsirlənir. C.Hevit, öyrənənlərin cavab nümunələrini və müzakirələrin zamanla necə inkişaf etdiyini öyrəndi [5, s.32]. O, bir çox müzakirə iştirakçılarının "oxunmamış" mesajları araşdırma strategiyasını qəbul etdiyini və köhnə mesajlara nisbətən az diqqət yetirdiyini müdafiə etdi. O qeyd etdi ki, köhnə mesajlardan imtina nəticəsində iştirakın böyümə modelləri öyrənənlər üçün sıx müzakirə və məlumat yüklənməsinin öhdəsindən gəlmək üçün strategiya ola bilər. C.Hevit daha sonra iddia etmişdi ki, köhnə mövzuların və ya mesajların tərk edilməsi mövzuda dəyişikliklər yarada bilər [5, s.35]. Onun tədqiqatları onlayn dərsləri effektiv şəkildə qurmaq üçün interfeysin və öyrənənlərin iştirak vərdişlərinin təlim nəticələrinə təsirini anlamaqda əhəmiyyətlidir. Şagirdin iştirakı fəal və məşğul öyrənmə üçün vacib elementdir. Şagirdlər yeni şəxsiyyətlər qəbul edə bilər və bir-birlərini görmədikdə özlərini onlayn ünsiyyətdə iştirak etmək məcburiyyətində və ya təzyiq altında hiss edə bilməzlər.

Onlayn mühitdə iştiraka təsir edən məsələlərin başa düşülməsi onlayn dərslərin effektiv şəkildə qurulması və asanlaşdırılması üçün vacibdir. Bu zaman aşağıdakı sualları müəyyən etmək lazımdır:

• Şagirdin iştirakına hansı amillər təsir edir?
• Sinifdə şagirdlər arasında onların iştirakına təsir edən amillərdə hər hansı fərq varmı?
• Şagirdin iştirak modellərində hər hansı fərq varmı?

Onlayn dərslərin təlim prosesində şagirdin şəxsiyyəti üçün müsbət və mənfi cəhətləri var. Aşağıdakı aspektlər şəxsiyyətə müsbət təsir göstərir:

1) virtual dünya real dünyanı təmsil edir, sosial reallıqda baş verənləri simulyasiya etməyə, bacarıqları inkişaf etdirməyə, minimal risklə bilik və təcrübə qazanmağa imkan verir;

2) virtual qarşılıqlı əlaqə psixoloji stressi azalda bilər, psixoloji təhlükəsizlik hissi və iştirakçıların kommunikativ fəallığının artması ilə əlaqəli olan psixoloji narahatlığın qarşısını alır;

3) qarşılıqlı əlaqənin anonim iştirakçısı olmaq və ya uydurma ad altında görünmək imkanı, bu, rol oynayan eksperimentləri stimullaşdırır, özünü daha yaxşı tanımağa, fərdiləşdirmənin açılmasına kömək edir [3, s.163].

Onlayn dərslərdə şagirdlərin şəxsiyyətinin inkişafına təsir edən mənfi psixoloji tərəflərinə aşağıdakılar daxildir:

1) şagirdlərlə müəllim arasında birbaşa emosional, enerjili, təklifedici əlaqənin olmaması (sosial-mədəni təcrübənin ötürülməsi prosesini çətinləşdirir, təhsil subyektlərinin xarizmatik imkanlarını azaldır, şagirdlərin qrup və peşəkar identifikasiyasına, öyrənmə motivasiyasına mənfi təsir göstərir);

2) mexanikilik, real dünyanın qanunlarının virtual mühitə proyeksiyası və əksinə;

3) təhsil prosesinin subyektlərinin şəxsiyyətsizləşdirilməsi (virtual dünya təkcə anonimliyə deyil, həm də ünsiyyətdə sensor deqradasiyaya kömək edir) [3, s.168].

Bununla belə, onlayn dərsdə birbaşa əlaqənin olmaması təlimin səmərəliliyini böyük ölçüdə müəyyən edən informasiya təşkilinin psixoloji xüsusiyyətlərinin nəzərə alınmasının vacibliyini vurğulayır. Təlimin səmərəliliyinin ən mühüm amillərindən biri də şagirdin tədris materialını başa düşməsi, yəni alınan məlumatlara "özü üçün" məna bəxş etməsidir [4, s.277]. Bu prosesdə əks əlaqə də mühüm rol oynayır. Onlayn dərsin mühüm komponenti təhsil prosesinin subyektləri arasında əlaqədir. Hazırda informasiya texnologiyaları və virtual mühit hələ ümumi mədəni təcrübəyə çevrilməsə də, təhsilin inkişafında böyük potensiala malikdir.

Araşdırmalar göstərdi ki, şagirdin onlayn iştirakı nümunələri aşağıdakı amillərdən təsirlənir:

- texnologiya və interfeys xüsusiyyətləri;
- məzmun sahəsi təcrübəsi;
- şagird rolları və tapşırıqları;
- məlumat yüklənməsi [1, s.246].

Texnologiya, kurs interfeysi, qrupun davranışı və şagirdlərin onlayn öyrənmədə keçə biləcəyi şəxsiyyətlər iştiraka və öyrənmə nəticələrinə təsir edə bilər. Onlayn rolların və tapşırıqların diqqətlə qurulması və öyrənmə icmalarının necə inkişaf etdiyinə dair fikirlər mühüm əhəmiyyət kəsb edir. Qrup prosesləri, qrupların necə inkişaf etməsi və rolların necə ortaya çıxması (məsələn, onlayn qrupda liderlik) və effektiv iştiraka təsir haqqında əlavə araşdırmalar müəllimlərə onlayn dərslərdə qrup dinamikasını anlamağa və dərslərini buna uyğun qurmağa kömək edə bilər.

İnterfeys dizaynı, şagirdin iştirak nümunələri və onlayn dərsdə idrak yükü məsələlərini araşdıran tədqiqat təlimatçı dizaynerlərə və pedaqoqlara effektiv onlayn öyrənmə dizayn etməyə imkan verə bilər. İdrak yükü nəzəriyyəsi informasiyanın intellektual performansını optimallaşdıran öyrənən fəaliyyətlərini təşviq edəcək şəkildə təqdim edilməsinə kömək etmək üçün təlimatlar verə bilər. Bu nəzəriyyənin onlayn dərsdə necə işlədiyini başa düşmək üçün idrak yükü nəzəriyyəsinin yenilənməsi lazımdır. Şagirdlər texnologiya, təlimin idarə edilməsi,

pedaqoji təcrübə və onlayn öyrənmə üçün tələb olunan sosial rollara psixoloji baxımdan hazır olmalıdırlar. Effektiv onlayn öyrənmə cəmiyyətində öyrənmə məqsədlərinin ümumi anlaşılması üçün qarşılıqlı asılılıq tələb edir. Şagirdlərin iştirak nümunələrini yaxından izləmək müəllimlərə şagird ehtiyaclarını müəyyən etməyə və buna uyğun olaraq öyrənmə imkanlarını genişləndirməyə kömək edə bilər.

## ƏDƏBİYYAT

1. Бухаркина М.Ю. Теория и практика дистанционного обучения. М.: Академия, 2014. 416 с.
2. Иванов Д.В. Виртуализация общества. СПб.: «Петербургское Востоковедение», 2009. 96 с.
3. Носов Н.А. Виртуальная психология. // Труды лаборатории виртуалистики. Вып. 6. М.: Аграф, 2016. 432 с.
4. Anderson T. Teaching in an online learning context. In T.Anderson & F.Bloumi (Eds.), Theory and practice of online learning, 2015. P. 273–294.
5. Hewitt J. How habitual online practices a ect the development of asynchronous discussion threads. Journal of Educational Computing Research, 28(1), 2013. P.31-45.
6. Mason R. Using communication media in open and flexible learning. London: Kogan Page, 2014. 139 p.
7. Taylor J.C. Teaching and learning online: The workers, the lurkers and the shirkers. Paper presented at the Conference on Research in Distance & Adult Learning in Asia, 2018. P.1-5.

## ONLAYN DƏRSLƏRDƏ TƏLİM GÖSTƏRİCİLƏRİNƏ TƏSİR EDƏN AMİLLƏR

***Aysel Məmmədova***

## XÜLASƏ

Onlayn dərslər, o cümlədən virtual mühitdə müxtəlif texnologiyaların tətbiqi ənənəvi təhsilin bir çox problemlərinin (ərazi və vaxt məhdudiyyəti, şagirdlərin qeyri-kafi müstəqil fəaliyyəti, təlimin yönləndiriciliyi və s.) aradan qaldırılmasına, habelə şagirdlərin fərdi təhsil ehtiyaclarını ödəməyə və onun yaradıcı potensialını reallaşdırmağa imkan verir. Virtual təhsil prosesi subyektin özü üçün seçdiyi sahələrdə inkişaf edən şəxsin təhsil potensialından istifadə edir. Onlayn dərs şagird şəxsiyyətinin bütün sahələrinin qarşılıqlı əlaqəsini əks etdirir: intellektual, emosional, dəyər-semantik, davranış və s.

## ФАКТОРЫ, ВЛИЯЮЩИЕ НА РЕЗУЛЬТАТЫ ОБУЧЕНИЯ В ОНЛАЙН-КЛАССАХ

***Айсель Мамедова***

## АННОТАЦИЯ

Онлайн-уроки, в том числе с использованием различных технологий в виртуальной среде, позволяют преодолеть многие проблемы традиционного образования (пространственные и временные ограничения, недостаточная самостоятельная активность

учащихся, учебная направленность и др.), а также удовлетворить индивидуальные образовательные потребности учащихся. потребности и реализовать свой творческий потенциал. Процесс виртуального обучения использует образовательный потенциал человека, развивающийся в выбранных субъектом направлениях. Онлайн-урок отражает взаимодействие всех сфер личности ученика: интеллектуальной, эмоциональной, ценностно-смысловой, поведенческой и др.

## FACTORS INFLUENCING LEARNING OUTCOMES IN ONLINE CLASSES

***Aysel Mammadova***

## SUMMARY

Online lessons, including the use of various technologies in a virtual environment, allow to overcome many problems of traditional education (space and time constraints, insufficient independent activity of students, learning orientation, etc.), as well as to meet students' individual educational needs and realize their creative potential . The virtual learning process uses the educational potential of the person developing in the areas chosen by the subject. The online lesson reflects the interaction of all areas of student personality: intellectual, emotional, value-semantic, behavioral, etc.

# AVROPA HUMANİST PEDAQOGİKASINDA TƏRBİYƏNİN ROLUNUN TARİXİ VƏ NƏZƏRİ ƏSASLARI

***Umarova Aygün Əli qızı***
***BDU-nun II kurs magistrantı***
***umarovaaygun51@gmail.com***

***Açar sözlər:*** humanist tərbiyə, humanist tərbiyə üsulları, humanizm tarixi, humanizm tarixi mərhələləri.
***Ключевые слова:*** гуманистическое образование, гуманистические методы воспитания, история гуманизма, исторические этапы гуманизма.
***Keywords:*** humanistic education, humanistic methods of education, history of humanism, historical stages of humanism.

Humanist pedaqogikanın inkişafı uzun əsrlər davam edən tarixi və mədəni prosesdir. Tədris və öyrənmənin humanist nəzəriyyəsi "bütün" uşağı öyrənməyə inanan təhsil nəzəriyyəsidir. Humanist yanaşma tələbələrin emosional rifahına güclü diqqət yetirərək və əbədi olaraq uşaqları fitri olaraq "əsasda" yaxşı hesab edən yanaşmadır. Humanist təhsilin kökləri humanitar elmlərin öyrənilməsini vurğulayan İntibah filosoflarında dayanır: qrammatika, ritorika, tarix, poeziya və əxlaq fəlsəfəsi; bunlar öz növbəsində Klassik təhsil modelləri üzərində qurulmuşdur.

Şotlandiyada humanistdən ilhamlanan təhsilə artan diqqət 1496-cı il Təhsil Qanununun qəbulu ilə toplandı.

Müasir humanist pedaqogikanın inkişafında üç mərhələni ayırmaq olar.

Birinci mərhələ 19-20-ci əsrlərin əvvəllərində kütləvi dövlət məktəbinin formalaşması, "yeni tərbiyə" uğrunda gedən ictimai hərəkat və bunun nəticəsində yaranan yeni pedaqoji sistemlərlə bağlıdır. Bu dövrün humanist pedaqogikasının istiqamətləri arasında uşaqlığın daxili dəyərini və azad şəraitdə uşağın fərdi inkişafına ehtiyacı elan edən, pedoqoji prosesin inkişaf psixologiyasının qanunlarına uyğunluğunu tələb edən pedosentrizm var. Sosial fəaliyyətin əhəmiyyətini artıran və tərbiyə üçün demokratiya elementlərindən və ümumi yataqxanalardan istifadə edən sosial-pedaqoji yeniliklər (Frenet,  Dewey, Soroka-Rosinsky) və insanın mahiyyəti və təbiəti haqqında bu və ya digər ideyanı irəli sürən kulturoloji yanaşma. onun mədəniyyətə daxil olmasının xüsusiyyətləri və bu fikirləri pedaqoji prosesin əsasını qoyması (antroposofik pedaqogika, Q.Vineken).

30-40-cı illərdə dünya iqtisadi böhranı, bir sıra Avropa və Asiya ölkələrində rejimlərin totalitarlaşması, İkinci Dünya Müharibəsinin qırğınları ilə yanaşı, humanist idealların ictimai həyatda rolu azaldı. Bir çox ölkələrin təhsil sistemləri dövlət nəzarətinin gücləndirilməsi, maksimum mərkəzləşdirilməsi, təhsilin məqsədləri, məzmunu və formalarının unifikasiyası istiqamətində yenidən qurulur; pedaqogikada prioritet funksional yanaşmaya verilir.

Humanist pedaqogikanın inkişafının ikinci mərhələsi 50-60-cı illərə düşür. Bu zaman kulturoloji istiqamət ideyaları daha da inkişaf etdirilir, ilk növbədə, həm intellektual sferada – "tənqidi təfəkkürün" inkişafı, həm də sosial sferada – dəyər yönümlülük və insan azadlığı problemlərinin inkişafı. başqa bir şəxsə qayğının təzahürü üçün şərtlər.

Bütün didaktik üsullar dialoqa, əks etdirməyə, qarşılıqlı əlaqəyə, ünsiyyətə əsaslanır. Pedosentrizm ideyalarının inkişafı kimi, şəxsiyyətyönümlü öyrənmə idealı, insanın doğulduğu andan qoyulan, kəşf edilməli və mümkün olan maksimum inkişafını alacaq ideyasına əsaslanır. pedoqoji proses, pedosentrizm ideyalarının inkişafı kimi xidmət edir. Birinci mərhələnin sosial və pedaqoji yeniliklərinə əsaslanaraq, pedaqogikada kommunikativ istiqamət inkişaf etdi, qrup

üzvlərindən qarşılıqlı asılılıq və məsuliyyət mühitinin yaradılması yolu ilə şagird və digər insanlar arasında uğurlu qarşılıqlı əlaqə bacarıqlarını formalaşdırmağa çalışır. ümumi məqsədə çatmaq üçün birləşmək.

XX əsrin son rübündən davam edən üçüncü mərhələdə, dəyişən sosial-mədəni şəraitdə əvvəlki mərhələlərin pedaqoji layihələrinin ideya və prinsiplərinin dərk edilməsi və şərhi aparılır. Aşağıdakı istiqamətlər xüsusilə populyardır: vahid məktəb, kommunikativ istiqamət (V.Karakovski, A.Tubelski), kulturoloji istiqamət (L.Kolberq, V.Bibler, Ş.Amonaşvili), "inkişaf edən təhsil" (L. Zankov, B. Elkonin, G. Selevko) və "ailə pedaqogikası", o cümlədən "divarsız məktəblər" və "açıq məktəblər" (D. Bayard və R. Bayard, S. Lupan, B. Nikitin).

Humanist təhsil (şəxs mərkəzli təhsil də adlanır) humanist psixoloqların, xüsusilə Abraham Maslow və Carl Rogersin işinə əsaslanan təhsilə yanaşmadır. Rocers humanist psixologiyanın banisi kimi qəbul edilir və səylərinin çoxunu psixoloji tədqiqatlarının nəticələrini empatiyanın, tələbələrə qayğının və öyrənmə vasitəçisinin səmimiliyinin aşkar edildiyi şəxs mərkəzli tədrisə tətbiq etməyə həsr etmişdir. O, Harold C tərəfindən "Öyrənmək azadlığı və Hiss etməyi öyrənmək - Öyrənməyi hiss etmək - Bütün insan üçün humanist təhsil" kitabını daxil edən "Şəxs Seriyasının Tədqiqatları"nda humanist təhsilə aid bir sıra kitabları redaktə etdi. Lyon, Jr 1970-ci illərdə "humanist təhsil" termini mühafizəkar qruplar onu "dünyəvi humanizm" ilə eyniləşdirdikdən və Harold Lyonun yazılarına anti-xristianlıq kimi hücum etdikdən sonra daha az populyarlaşdı. Bu, Aspy, Lyon, Rogers və başqalarının "humanist təhsil" terminini əvəz edərək, onu yenidən "şəxs mərkəzli tədris" adlandırmaq üçün uğurlu cəhdə başladı.

Daha ümumi mənada bu termin Rudolf Steiner və Maria Montessori kimi digər humanist pedaqoqların işini əhatə edir. Bütün bu yanaşmalar "bütün insanı" cəlb etməyə çalışır : intellekt, həyatı hiss etmək, sosial imkanlar, bədii və praktiki bacarıqlar böyümə və inkişaf üçün vacib mərkəzlərdir. Əhəmiyyətli məqsədlərə uşaqların özünə inamının inkişaf etdirilməsi, onların müvafiq məqsədlər qoymaq və onlara nail olmaq bacarığı və tam müstəqilliyə doğru inkişafı daxildir.

Humanist pedaqogika daha çox şəxsiyyət yönümlü olub, təlim – tərbiyə prosesi zamanı şagirdlərin özünü dərk etməsinə, zəif və güclü tərəflərini müəyyənləşdirməsinə kömək edir. Humanist təhsilin beş əsas prinsipi var:

1) Şagirdlər öyrənmək istədiklərini seçə bilməlidirlər. Humanist müəllimlər, tələbələrin ehtiyac duyduqları və bilmək istədikləri bir mövzunu öyrənmək üçün motivasiya olacağına inanırlar.

2) Təhsilin məqsədi şagirdlərdə öyrənmək istəyini artırmaq və onlara necə öyrənməyi öyrətmək olmalıdır. Tələbələr öz dərslərində motivasiyalı olmalı və özləri öyrənmək arzusunda olmalıdırlar.

3) Humanist pedaqoqlar qiymətlərin əhəmiyyətsiz olduğuna və yalnız özünü qiymətləndirmənin mənalı olduğuna inanırlar. Qiymətləndirmə tələbələri şəxsi məmnuniyyət üçün deyil, qiymət üçün işləməyə təşviq edir. Bundan əlavə, humanist pedaqoqlar obyektiv testlərə qarşıdırlar, çünki onlar şagirdin yadda saxlama qabiliyyətini yoxlayır və müəllim və şagirdə kifayət qədər təhsil rəyi vermirlər.

4) Humanist pedaqoqlar həm hisslərin, həm də biliyin öyrənmə prosesi üçün vacib olduğuna inanırlar. Ənənəvi pedaqoqlardan fərqli olaraq, humanist müəllimlər koqnitiv və affektiv sahələri ayırmırlar.

5) Humanist pedaqoqlar təkid edirlər ki, məktəblər şagirdləri öyrənmək üçün təhlükəsiz hiss etmələri üçün onlara təhlükə yaradan mühit təmin etməlidirlər. Tələbələr özlərini təhlükəsiz hiss etdikdən sonra öyrənmə daha asan və mənalı olur.

Humanist pedaqogikanın əsas axınında olan və 20-ci əsrin əvvəllərində yaranan müxtəlif pedaqoji sistemlərin ideoloji əsasları arasında bu cür neo-humanist anlayışlar var.

- insanın formalaşması xarici dünya və insanlarla qarşılıqlı əlaqə ilə həyata keçirilir və ətraf mühitin və onun daxili təbiətinin şüurlu şəkildə dəyişdirilməsini tələb edir.
- İnsan azadlığı onun hərəkətlərinin seçiciliyində təzahür edir, yaradıcı fəaliyyətlə əlaqələndirilir və hərəkətlərin nəticəsi üçün məsuliyyəti dərk etməyi və qəbul etməyi tələb edir.
- insan özünü, ətrafındakı dünyanı və bu dünya ilə qarşılıqlı əlaqəsini dərk edir və bu bilik həm intellektual, həm də intuitiv komponentləri ehtiva edir.

## ƏDƏBİYYAT

1. Crain, W. (2015). *Theories of Development: Concepts and Applications: Concepts and Applications.* London: Routledge.
2. Duchesne, S. & McMaugh, A. (2016). *Educational Psychology for Learning and Teaching*. Melbourne: Cengage Learning.
3. Khatib, M., Sarem, S. N., & Hamidi, H. (2013). Humanistic Education: Concerns, Implications and Applications. *Journal of Language Teaching & Research, 4*(1), pp. 45 – 51.
4. Fərrux Rüstəmov Humanist pedaqogika, yoxsa pedaqogikada humanizm? Azərbaycan müəllimi.-2017.-9 noyabr.-№43.-S.13.
5. Məmmədəli Hənnan oğlu Ağayev .Pedaqoji fikir tarixində tərbiyə və təhsil.2011
6. Антонова Ю.С. Особенности речевого взаимодействия между учителем и учеником во внеурочной деятельности. 2015
7. Валеева Р.А. Педагогическое кредо Януша Корчака / Р.А. Валеева // Народное образование. – 2003. – №10. – С. 205–213

# AVROPA HUMANİST PEDAQOGİKASINDA TƏRBİYƏNİN ROLUNUN TARİXİ VƏ NƏZƏRİ ƏSASLARI

***Aygün Umarova***

## XÜLASƏ

Humanist pedaqogikanın fəlsəfi-ideoloji istiqaməti pedosentrizm, yeni tərbiyə və “proqressivizm” ideyalarına yaxındır. Humanist Pedaqogikanın diqqət mərkəzində özünü həyata keçirməyə çalışan, yeni təcrübəni dərk etməyə, yeni biliklər axtarmağa açıq olan unikal vahid şəxsiyyətdir. Məqsədi öz şüurlu seçiminin predmeti olmayan biliyin və sosial normaların şagirdə formal şəkildə ötürülməsi olan ənənəvi pedaqogikadan fərqli olaraq, humanist pedaqogika şəxsi potensialı üzə çıxarmağa, tələbələrin ehtiyaclarını reallaşdırmağa şərait yaratmağa və tələbələrin öz ehtiyaclarını həyata keçirməsinə şərait yaratmağa yönəlmişdir. Beləliklə, humanist müəllimlərin əsərlərində təhsilin bir insanın tərbiyəsində, azad, hərtərəfli inkişaf etmiş bir fərdin formalaşmasında həlledici rolu ifadə olunmuşdur. Humanist pedaqoqlar uşağın uşaqlıqdan istər ailədə, istərsə də məktəbdə aldığı tərbiyənin onun gələcək həyatında dərin iz buraxdığını, şəxsiyyətini formalaşdırdığını nəzərə alaraq, müəllimlərin və valideynlərin uşaqlarla ünsiyyətlərində daha həssas olmalarını, onları bir fərd kimi dəyərləndirmələrini, hüquq və azadlıqlarını tanımalarını öz nəzəriyyələrində əks etdirmişlər.

# ИСТОРИЧЕСКИЕ И ТЕОРЕТИЧЕСКИЕ ОСНОВЫ РОЛИ ОБРАЗОВАНИЯ В ЕВРОПЕЙСКОЙ ГУМАНИСТИЧЕСКОЙ ПЕДАГОГИКЕ

***Айгюн Умарова***

## АННОТАЦИЯ

Философско-мировоззренческое направление гуманистической педагогики близко идеям педоцентризма, нового образования и «прогрессивизма». Он уникальный человек, который стремится реализовать себя в фокусе гуманистической педагогики, открыт для понимания нового опыта и поиска новых знаний. В отличие от традиционной педагогики, целью которой является формальная передача студенту знаний и социальных норм, что не является предметом его сознательного выбора, гуманистическая педагогика направлена на раскрытие личностного потенциала, создание условий для реализации студентами своих потребностей и создание условий для студентов. чтобы реализовать свои потребности. Таким образом, в трудах педагогов-гуманистов выражается решающая роль образования в воспитании человека, в формировании свободной развитой личности. Педагоги-гуманисты отразили в своих теориях, что учителя и родители более чувствительны в своем взаимодействии с детьми, ценят их как личности и признают их права и свободы, учитывая, что воспитание, которое они получают с детства, как в семье, так и в школе, оставляет желать лучшего. глубокий след в их будущей жизни.

# HISTORY AND THEORETICAL BASIS OF THE ROLE OF EDUCATION IN EUROPEAN HUMANIST PEDAGOGY

***Aygun Umarova***

## SUMMARY

The philosophical and worldview direction of humanistic pedagogy is close to the ideas of pedocentrism, new education and "progressivism". He is a unique person who seeks to realize himself in the focus of humanistic pedagogy, is open to understanding new experience and seeking new knowledge. Unlike traditional pedagogy, the purpose of which is the formal transfer of knowledge and social norms to the student, which is not the subject of his conscious choice, humanistic pedagogy is aimed at revealing personal potential, creating conditions for students to realize their needs and creating conditions for students. to fulfill your needs. Thus, the decisive role of education in the upbringing of a person, in the formation of a free developed personality is expressed in the works of humanist teachers. Humanist educators reflected in their theories that teachers and parents are more sensitive in their interactions with children, value them as individuals and recognize their rights and freedoms, given that the upbringing that they receive from childhood, both in the family and at school , leaves much to be desired. deep mark in their future life.

# QADIN TƏHSİLİ VƏ AZADLIĞI UĞRUNDA MÜBARİZƏDƏ ŞƏFİQƏ ƏFƏNDİZADƏNİN ROLU

***Muradova Lamiyə Fərahim qızı***
***BDU-nun II kurs magistrantı***
**muradovalamiye@icloud.com**

***Açar sözlər:*** qadın təhsili, təhsil, maarifçilik, azadlıq
***Ключевые слова:*** Женское образование, образование, просветление, свобода
***Keywords:*** Women’s education, education, enlightenment, freedom.

XX əsrin əvvəllərində azərbaycanlı qadınlar arasında təhsilin, maarifçiliyin yayılması çətin, kəşməkəşli bir yol keçib. Bu işdə yeniliklərdən tərəddüd edən və geri çəkilənlər də çox olsa da ancaq təşəbbüs göstərən, bu işə dəstək verən maarifçi qadınlar da az deyildi. Həmin maarifpərvər qadınlardan biri də dövrün məşhur yazıçı və jurnalisti Şəfiqə Əfəndizadə idi. O, Azərbaycan Cümhuriyyəti parlamentinin ilk qadın əməkdaşı, həmçinin Cənubi Qafqazın ilk qadın jurnalistidir. Şəfiqə xanım Cümhuriyyət dövründə ən fəal qadınlardan idi. O, ali təhsil almamasına baxmayaraq, həm publisist, həm də pedaqoq kimi çox dəyərli fəaliyyətlə məşğul olub.

Azərbaycanın ilk maarifpərvər qadınlarından biri, pedaqoq, publisist və yazıçı Şəfiqə Məmmədəmin qızı Əfəndizadə 1882-ci ildə Gürcüstanın tarixən türklərin yaşadığı Cavatexiya bölgəsində, Axaltsixe rayonunun Azqur kəndində anadan olmuş və ilk təhsilini də elə evdə öz atasından almışdır. Onun atası dövrünün müasir və mütərəqqi fikirli ziyalılarından olan pedaqoq Məmməd Əmin Əfəndizadə olmuşdur. O dövrün şərtləri və imkansızlıqlar ucbatından Şəfiqə xanım məktəbdə təhsil ala bilməsə də, tanınmış pedaqoq Məmməd Əmin Əfəndizadə ona oxumağı və yazmağı öyrətmiş, Şəfiqə xanım isə bununla kifayətlənməmiş, atasından həm də müəllimlik peşəsinin sirlərinə yiyələnmişdir (2).

1896–cı ildə 14 yaşında ikən Şəkiyə gələn Şəfiqə xanım burada atasının işlədiyi "Darrüssiyada məktəbinin nəzdində qızlar üçün açılmış xüsusi məktəbdə, cəsarət və vətənpərvərlik nümayiş etdirərək Azərbaycan dili müəllimi kimi dərs deməyə başlayır. Lakin burada çox qalmır. Azərbaycan qızlarının oxumasını və maariflənməsini istəyən məşhur xeyriyyəçi və milyonçu Hacı Zeynalabdin Tağıyev Bakıda ilk qızlar məktəbini açır. Bununla da, müsəlman Şərqində qadınların yüksək təhsil almasının təməli qoyulur.

Görkəmli ictimai-siyasi xadim Nəriman Nərimanov Məmmədəmin Əfəndizadəyə məktub yazaraq, ondan qızını həmin məktəbdə dərs deməyə göndərməsini xahiş edir. Şəfiqə xanımın atası bu dəvətdən məmnun qalır. Ancaq qızının dövlət məktəbində təhsil almadığı üçün belə bir hüququ olmadığını bildirir. Belə olan halda Şəfiqə xanım 1901-ci ildə Tiflisə gedir. O, Tiflisdə Zaqafqaziya Ruhani İdarəsində imtahan verərək müəllimlik attestatı alır. Sonra yenidən Bakıya qayıdaraq Rus-Müsəlman Qızlar Məktəbində ana dilindən dərs deyir və qadın savadsızlığına qarşı mübarizə aparan ziyalılarla çiyin-çiyinə çalışır (5).

Şəfiqə Əfəndizadə bədii-publisistik yaradıcılıqla məşğul olmuş, ilk dəfə 1903-cü ildə "*Şərqi-rus*" qəzetində (1903-cü il, № 7) başlamışdır. Sonralar o "*Dəbistan*", "*Məktəb*", "*Füqara füyüzatı*", "*Dirilik*" jurnalları və "*Açıq söz*" qəzeti ilə əməkdaşlıq etmiş, təlim-tərbiyə mövzularına dair məqalələr, uşaqlar üçün hekayələr dərc etdirmişdir. Eyni zamanda mətbuatda yazıçı kimi də çıxış etmiş, adları çəkilən nəşriyyatlarda bədii əsərlərini çap etdirmişdir.

1914-cü ildə onun yazdığı "İki yetim" yaxud "*Kərimin himməti*" povesti isə ayrıca kitab şəklində "*Kaspiy*" tipoqrafiyasında ("*Azərbaycan kitabı*", Bakı, 1963., s.139) nəşr olunmuşdur.

1916-cı ildə o "*Açıq söz*" qəzetində (№ 187, 17 may 1916-cı il) Cəlil Məmmədquluzadənon "*Ölülər*" pyesinə ilk rəyi dərc etdirmişdir (1)

1917-ci ildə o, Cənubi Qafqaz müsəlmanlarının I qurultayında Şərq qadınlarının hüquqsuzluğu barədə danışır, yeni məktəblərin, teatrların açılmasını tələb edir. Tarixçi M.Oruclu bu barədə yazıb: Şəfiqə Əfəndizadə və S.Talışxanova adlı iki azərbaycanlı qadının çıxışından sonra vəziyyət qurultay nümayəndələrini qadın məsələsinə ciddi münasibət bildirməyə vadar etdi. Qadınların çıxışından sonra keçmiş Bakı qazısı Ağa Məhəmməd Kərim tribunaya çıxdı. Onları qadınları şəriət qanunlarına zidd olaraq kişilər qarşısında üzüaçıq çıxış etdiklərinə görə mühakimə etdi. Bütün zal qızışaraq ayağa qalxdı. Qazi tribunadan düşməyə məcbur oldu...".

"Azərbaycan" qəzetinin 5 iyun 1919-cu il tarixli nömrəsində dərc olunmuş "Milli bayram və qadınlarımız" adlı məqaləsində isə Şəfiqə xanım mayın 28-də Azərbaycanın istiqlaliyyətinin bütün dünyaya çatdırılmasından fərəhlə yazır. Hər bir azərbaycanlının bundan böyük qürur duyduğunu qeyd edir: "Mayın 28-də Azərbaycan istiqlalı sənayi-dövriyyəsi münasibətilə milli bayram təşkil olundu. O günün şərəfindən, təsirindən hər kəs, hər kəs məğrur idi" (3).

Şəfiqə xanım cəhalətin hökm sürdüyü bir vaxtda müəllimə, rəfiqəsi Səkinə Axundzadə ilə birlikdə dram dərnəyi yaradaraq, qızlara teatr mədəniyyəti, aktyorluq sənəti barədə məlumatlar verir, dövrün mətbuat xülasələri ilə tanış edirdi. O, qızlara nəinki ədəbi əsərləri, dərslikləri oxumağı, eyni zamanda, sərbəst, aydın, savadlı yazmağı da öyrədirdi.

Gənc qızların yüksək təhsil almasına çalışan Şəfiqə Əfəndizadə 1910-cu ilədək bu məktəbdə müəllimə işləyir. Fars, rus və ərəb dillərini, Şərq klassik ədəbiyyatını dərindən öyrənən Şəfiqə xanım, eyni zamanda, qadın pedaqoji məktəbindəki müəllimlik kurslarında da dərs deyirdi (2).

Yazıçı dramaturq Cəlil Məmmədquluzadənin məşhur "Ölülər" əsərinə ilk rəyi yazan da pedaqoq, yazıçı və publisist Şəfiqə xanım Əfəndizadə idi. C.Məmmədquluzadənin "Ölülər" pyesi ilk dəfə Bakıda 1916-cı ildə tamaşaya qoyulub. Tamaşa zamanı Şəfiqə xanım salonda bir qadının ağladığını görərək, ona yaxınlaşıb. Nə üçün ağladığını soruşanda qadın "Bu ki, mənim həyatımdır, çəkdiyim əzablardır", deyə kövrək səslə cavab verib. "Ağlama, bacım. Bu, təkcə sənin yox, bütün Azərbaycan qadınlarının həyatıdır", deyən Şəfiqə xanım onu sakitləşdirib. Bu hadisə onu çox təsirləndirib və "Açıq söz" qəzetində "Ölülər" pyesi haqqında məqalə yazıb. Şəfiqə xanımın məqalələri "Dirilik", "Dəbistan", "Füqara – Füyuzat", "Açıq söz" və digər mətbuat orqanlarında dərc edilmişdi (4).

1917–ci ilin aprel ayında Bakıda Zaqafqaziya Müsəlmanlarının Qurultayı keçirilmişdi. İslamiyyə binasında keçirilən qurultayda kişilərlə bərabər üç qadın da iştirak etmişdi. Bunlar, Tiflisdən Sara Talışinskaya, Bakıdan Şəfiqə Əfəndizadə və Sara Vəzirova idi. Qurultayda iştirak edən qadınlar arasında ən fəalı Şəfiqə xanım idi. Onun çıxışı o dövrdə təhsil almasına əngəllər yaradılan Şərq qadınlarının maariflənməsi, qadın məktəblərinin və teatrlarının açılması ilə bağlı olduğu üçün müzakirəyə səbəb oldu.

Fars, rus və ərəb dillərini yaxşı bilən, şərq ədəbiyyatını mükəmməl öyrənən, Avropa mədəniyyəti ilə yaxından tanış olan Şəfiqə xanımın səlis, aydın və savadlı çıxışı hamını heyran etmişdi. Şəfiqə xanım çıxışının sonunda qadınların maariflənməsi üçün yeni məktəblərin və teatrların açılmasının vacibliyini vurğulamışdı (1).

Şəfiqə xanım həm parlamentdə stenoqramçı işləyir, həm gimnaziyada dərs deyir, həm də publisistik fəaliyyət göstərirdi. Azərbaycan qadınlarını daim təhsilli, savadlı, dünyagörüşlü görmək istəyən Şəfiqə xanım Əfəndizadə "Analar! Qızlarınızı oxudun!" deyə qadınlara müraciət edirdi (1).

Sovet hakimiyyəti illərində də o, maarifpərvər qadın kimi qızların yüksək təhsil alması naminə əvəzsiz xidmətlər göstərib. 1920-ci ildə Əli Bayramov klubunun təşkilində fəal iştirak

edib, orada yaradılmış savadsızlığın aradan qaldırılması kurslarında dərs deyib. Bu illərdə də müəllimliklə yanaşı, publisistik fəaliyyətini davam etdirib (3).

## ƏDƏBİYYAT

1. Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası, I cild, "Lider nəşriyyat", Bakı-2004
2. Feyzulla Qasımzadə XIX əsr Azərbaycan ədəbiyyatı
3. https://modern.az/az/news/146685/ - - -
4. https://umayclub.com/qizlar-arasinda-dunyəvi-təhsilin-ilk-qaranquslari
5. https://aze.media/azerbaijani-woman-a-hundred-years-ago/

## QADIN TƏHSİLİ VƏ AZADLIĞI UĞRUNDA MÜBARİZƏDƏ ŞƏFİQƏ ƏFƏNDİZADƏNİN ROLU

***Muradova Lamiyə***

### XÜLASƏ

Bu məqalədə XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanda qadın təhsili və azadlığı uğrunda mübarizə aparmış Şəfiqə Əfəndizadənin xidmətlərindən bəhs edir. Həmin dövrdə qadınların coxu təhsildən, elmdən kənarda qalmışdır. Dövrün görkəmli maarifçiləri kimi maarifpərvər Şəfiqə Əfəndizadə də bu məsələdən yan keçməmişdir. Məktəblərdə pedaqoji fəaliyyətlə məşğul olaraq cəhalətin hökm sürdüyü bir vaxtda qadınların təhsil almasına çalışmışdır. Yeni məktəblərin , teatrlatın açılmasına çalışmış, qadın savadsızlığına qarşı mübarizədə ziyalılarla çiyin-çiyinə vuruşmuşdur.

## РОЛЬ ШАФИГИ ЭФЕНДИЗАДЕ В БОРЬБЕ ЗА ОБРАЗОВАНИЕ И СВОБОДУ ЖЕНЩИН

***Мурадова Ламия***

### АННОТАЦИЯ

В данной статье рассматриваются заслуги Шафикы Эфендизаде, боровшейся за образование и свободу женщин в Азербайджане в конце 19-начале 20 веков. В то время большинство женщин остались за бортом образования и науки. Подобно видным просветителям того времени, просветитель Шафика Эфендизаде не оставил без внимания этот вопрос. Она работала учительницей в школах и пыталась обучать женщин во времена невежества. Она пыталась открывать новые школы и театры, боролась плечом к плечу с интеллигенцией в борьбе с женской безграмотностью.

## THE ROLE OF SHAFIGA EFENDIZADE IN THE STRUGGLE FOR WOMEN'S EDUCATION AND FREEDOM

***Muradova Lamiya***

### SUMMARY

This article discusses the services of Shafiqa Efendizadeh, who fought for women's education and freedom in Azerbaijan in the late 19th and early 20th centuries. At that time, most women were left out of education and science. Like the prominent enlighteners of the time, the enlightener Shafiqa Efendizadeh did not ignore this issue. She worked as a teacher in schools and tried to educate women at a time of ignorance. She tried to open new schools and theaters, and fought shoulder to shoulder with intellectuals in the fight against women's illiteracy.

# MİLLİ-MƏNƏVİ DƏYƏRLƏR SİSTEMİ VƏ AZƏRBAYCANÇILIQ İDEOLOGİYASININ FORMALAŞMASI

***Qubadova Ülkər Şövqi qızı***
***BDU-nun II kurs magistrantı,***
***qubadova_ulker@mail.ru***

***Açar sözlər:***, azərbaycançılıq, ideologiya, adət-ənənə, milli-ideoloji fikir, milli-mənəvi dəyərlər.
***Ключевые слова:***, азербайджанство, идеология, обычаев и традиций, национально-идеологическая мысль, национальные и моральные ценности
***Key words:***, Azerbaijanism, ideology, customs and traditions, national-ideological thought, national and moral values.

Dünyada zəngin milli-mənəvi dəyərləri və adət-ənənələri ilə tanınan xalqlar sırasında Azərbaycan xalqı da öz möhtəşəm yerini tutur. Ölkəmizin ərazisində tarixən müxtəlif ictimai-siyasi quruluşların təşəkkül tapmasına baxmayaraq, xalqımız özünün mənəvi dəyərlərini hifz edə bilmiş, ona ən qiymətli və əvəzsiz sərvəti kimi baxmışdır. Xalqımızın milli-mənəvi dəyərlərinin tarixi olduqca qədimdir.

İctimai şüurun formalaşmasında və vətəndaş həmrəyliyinin təmin olunmasında milli-mənəvi dəyərlər mühüm rol oynayır. Tarixin ən keşməkeşli mərhələlərində xalqımız milli-mənəvi dəyərlərini hifz edərək onlara sadiq qalmışdır. Keçmiş Sovetlər İttifaqı dönəmində hakim ideologiyanın qadağalarına baxmayaraq milli-mənəvi dəyərlərimiz müəyyən inkişaf yolu keçməyə müvəffəq olmuşdur.

Milli dövlətçiliyimizin möhkəmləndirilməsi baxımından vacib əhəmiyyət kəsb edən azərbaycançılıq ideyasının irəli sürülməsi, onun milli diasporun təşkilatlanması üçün ideoloji təmələ çevrilməsi Ulu Öndər Heydər Əliyevin Vətən və xalq qarşısında göstərdiyi əvəzsiz xidmətlərindən biridir (5, s.7). Ulu Öndər xarici ölkələrdə səfərlərdə olarkən azərbaycanlılarla saysız-hesabsız görüşlər keçirmiş, xaricdə yaşayan soydaşlarımızı hər zaman milli ideya ətrafında birləşib həmrəy olmağa, təşkilatlanmağa, icmalar və milli cəmiyyətlər yaratmağa çağırmışdır. Ümummilli lider hər zaman səy göstərmişdir ki, həmvətənlərimiz yaşadıqları ölkənin ictimai-siyasi həyatında aktiv iştirak etsinlər, eyni zamanda, Ana Vətənlə - doğma Azərbaycanla sıx əlaqə saxlasınlar, bir an belə Azərbaycanı təmsil etdiklərini unutmasınlar. 1997-ci ildə, dahi lider ABŞ-da rəsmi səfərdə olarkən Azərbaycan diasporu qarşısında çıxışı zamanı əsas prinsipləri bu yöndə müəyyən etmişdir: “Siz düşünməyin ki, Azərbaycan bizim üçün nə edib, düşünün ki, biz Azərbaycan üçün nə etmişik. Onda Azərbaycan da irəli gedər, Azərbaycan diasporu da inkişaf edər... Harada doğulmağın fərqi yoxdur, əsas odur ki, sən azərbaycanlısan, Azərbaycan dilinin, mədəniyyətinin daşıyıcısısan” (1, s.159).

Milli-mənəvi dəyərlərin xalqımızın tərəqqisində mühüm rol oynaması, dünya mədəniyyətinin zənginləşməsinə töhvə bəxş etməsi, vətəndaş həmrəyliyinin təmin olunmasında kommunikativ funksiya yerinə yetirməsi səbəbilə onların hifz edilməsi və inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən birini təşkil edir. Hələ Sovet İmperiyasının hakim olduğu dövrdə Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə milli-mənəvi dəyərlərimizin zənginləşməsi yolunda diqqətəlayiq addımlar atılmış, xalqımızın bədii irsi, mədəniyyəti, incəsənəti və ana dilinin inkişafı istiqamətində yeni mərhələnin təməli qoyulmuşdur. Respublikamızda milli özünüdərk hissinin güclənməsi, milli kimlik və düşüncə sistemi ilə bağlı baxışların formalaşması məhz həmin illərdə baş tutmuşdur. Adət-ənənələrlə müasirlik arasında körpü olan mənəvi-ideoloji bağlılıq milli mənlik şüurunun inkişafına əhəmiyyətli təsir göstərmişdir. Milli-mənəvi

dəyərlər zənginləşmiş, humanitar və ictimai elm sahələrində iri miqyaslı irəliləyişlərə nail olunmuş, xalqımızın azadlıq istəyini simvolizə edən əsərlər siyasi-ideoloji hücumlardan müdafiə edilmişdir (3,s.137).

Ədəbiyyat və incəsənət milli-mənəvi dəyərlərin inkişafında əhəmiyyətli rol oynayır və insanların dünyagörüşünün formalaşmasında, ali əxlaqi dəyərlərin möhkəmlənməsində əlahiddə yer tutur. Milli-mənəvi dəyərlərin zənginləşməsi, insanlarda özünütərbiyə və özünənəzarət hissinin formalaşması ədəbiyyat və incəsənət əsərlərindən kənarda mümkün ola bilməz. Cəmiyyətin tərəqqisinə böyük stimul verən bu əsərlər milli-ədəbi irsin nəsillərdən-nəsillərə ötürülməsini təmin edən mühüm vasitələr qismində çıxış edir.

Qədim yazılı abidə olan "Kitabi-Dədə Qorqud" xalqımızın milli düşüncəsini, adət-ənənələrini, ümumi olaraq azərbaycançılıq ideologiyasının mühüm tərkib hissələrini daha çox əks etdirdiyi üçün, XX əsrin 20-50-ci illərində sovet ideologiyası tərəfindən dastanın öyrənilməsi qadağan edilmiş, uzun illər bu abidənin unutdurulması istiqamətində xeyli əmək sərf edilmişdir. Ümummilli lider bu qadağanı tamamilə aradan qaldıraraq dastanın araşdırılması və tədqiqi üçün normal şərait yaratmışdır. "Azərbaycan ədəbiyyatı çoxəsrlik tarixi "Kitabi-Dədə Qorqud" kimi ədəbi abidələrlə, Nizaminin nəhəng yaradıcılığı ilə, Xaqaninin və Nəsiminin, Füzulinin və Vaqifin, söz sənəti bahadırlarının dahiyanə əsərləri ilə, aşıq poeziyasının həmişə canlı nümunələri ilə zəngindir" (1, s.170) – deyən Ulu Öndərin göstərişi əsasında "Kitabi-Dədə Qorqud" eposu ilə bağlı tarixi və ədəbi araşdırma və tədqiqatların sayı artmış, bu mövzuda bədii film də ekranlaşdırılmışdır.

Azərbaycan xalqının milli düşüncə sisteminin bədii-poetik nümunəsi olan folklorun inkişafına yönəlik atılan addımlar da Ümummilli liderin milli-mənəvi dəyərlərə bəslədiyi həssas münasibətindən irəli gəlir. Və milli özünüdərkə, milli ictimai şüurun oyanışına xidmət göstərmişdir. Ulu Öndər xalqın istiqlal düşüncələrinin, azadlıq ideyalarının lirik-emosional ifadəsi olan aşıq poeziyasının və musiqisinin dirçəldilməsinə də biganə qalmamışdır.

Ulu Öndər azərbaycançılıq məfkurəsinin ictimai fikirdə özünə önəmli yer tutması istiqamətində prinsipial fəaliyyət göstərmiş, xalqımızın tarixi, dili, ədəbiyyatı və mədəniyyətinin müfəssəl şəkildə, dərindən öyrənilməsi sahəsində müvəffəqiyyətlər əldə edilmiş, gənc nəslin milli-mənəvi dəyərlər ruhunda yetişdirilməsi diqqət mərkəzində olmuşdur. Kommunizm ideologiyası tərəfindən qoyulan məhdudiyyətlərə baxmayaraq, milli-mənəvi dəyərlərin komponentlərindən olan ana dilinin inkişaf etdirilməsi istiqamətində çox sayda işlər görülmüşdür. Ulu Öndər milli-mənəvi dəyərlərin təbliği üçün, ilk öncə, xalqımızın öz ana dilinə sevgi bəsləməsinin vacib olduğunu xüsusi vurğulamışdır (2,s.123).

Ana dilinə bəslənilən həssas münasibət Ulu Öndərin Azərbaycan xalqı qarşısındakı misilsiz xidmətlərindən biridir. Xalqın milli-mənəvi dəyərlərinin yaşadılması və inkişaf etdirilməsi istiqamətində ana dilinin əvəzsiz rol oynadığını dərindən anlayan, onu bilməyənləri şikəst hesab edən müdrik rəhbərin bu məsələyə münasibəti olduqca ciddi olmuşdur. Ümummilli lider, ilk dəfə Azərbaycanda hakimiyyətə gəldikdən dərhal sonra Azərbaycan Dövlət Universitetinin 50 illik yubileyinin keçirilməsini qərara almış, 1969-cu il noyabrın 1-də bu təntənəli tədbirdə çıxış edərkən totalitar sovet rejimi tərəfindən tətbiq edilən bütün sərhədləri yararaq Azərbaycan dilində nitq söyləmişdir. Bu nəcib addımı ilə dahi lider cəmiyyətə milliləşmənin zəruri olması ismarıcını ötürmüş, milli dilə, dinə, dəyərlərə bağlı olmağı, tarixi irsi yaşatmağı ictimai fikrə böyük müdrikliklə aşılamışdır.

Milli-mənəvi dəyərlərin yaşadılmasından danışarkən, XX əsrin 70-ci illərinin ortalarında Azərbaycan dilinin tədqiqi və öyrənilməsi istiqamətində dövlət səviyyəsində bir sıra mühüm tədbirlərin həyata keçirilməsini qeyd etməmək olmaz. "Müasir Azərbaycan dili" dərsliyinin işıq üzü görməsi də Heydər Əliyev dühasının ana dilinə böyük ehtiramla yanaşmasının bariz

göstəricisidir. Ana dilinin ictimai-siyasi nüfuzunun möhkəmləndirilməsi, ana dilinin tarixinə, dialektologiyasına dair bir çox tədqiqatların ərsəyə gəlməsi məhz o dövrdə Azərbaycan Elmlər Akademiyasının Dilçilik İnstitutunun yaradılması sayəsində mümkün olmuşdur.

Milli-mənəvi dəyərlərlə ziddiyyət təşkil edən hallara qarşı hər zaman barışmaz mövqe tutan Ulu Öndərin cəmiyyətin mənəvi-əxlaqi sahədə vüsət alan prosesləri ilə bağlı 2001-ci il 13 avqust tarixli bəyanatında qarşıya qoyulmuş məqsəd və vəzifələr xüsusi əhəmiyyət kəsb edir (4, s.5). Sənəddə mənəvi-əxlaqi dəyərlərə neqativ təsir göstərən meyllər, onların təşəkkül tapma səbəbləri və həlli yolları göstərilmişdir. Sənəddə, həmçinin, ölkəmizdə yaradılmış demokratik şəraitdən, fikir və söz azadlığından sui-istifadə etməklə insanların şərəf və ləyaqətinin təhqir edilməsinin yolverilməzliyi, cəmiyyətin mənəvi həyatındakı xoşagəlməz halların aradan qaldırılmasının zəruriliyi də öz əksini tapmışdır. Ulu Öndərin həmin bəyanatı verməsinin bir sıra səbəbləri vardı. Məlum olduğu kimi, xalqımızın milli-mənəvi dəyərlərinin ümumbəşəri dəyərlər əsasında təşəkkül tapması sosio-mədəni ilkin şərtlər çərçivəsində baş verir ki, onların da içərisində ölkəmizin demokratik, hüquqi, dünyəvi dövlət olması xüsusi olaraq vurğulanmalıdır. Lakin demokratik şəraitin verdiyi sərbəstlik dedikdə "ictimai rəy məni maraqlandırmır, özüm bilərəm nə edərəm" düşüncəsi ilə milli-mənəvi dəyərlərlə təzad təşkil edən davranışlara bəraət qazandırılması başa düşülməməlidir.

Ümummilli lider milli-mənəvi dəyərləri azərbaycançılıq ideyasının komponentlərindən biri kimi səciyyələndirmişdir. "Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq" deyən Ulu Öndər milli-mənəvi dəyərlərin inkişafını müstəqil dövlət quruculuğunun əsas istiqamətlərindən biri kimi dəyərləndirmişdir (1, s.175).

Milli-mənəvi dəyərlərin inkişafının əsasında varislik prinsipi dayandığını da unutmaq olmaz, bu prinsip vasitəsilə keçmişin tarixi-mənəvi irsi gələcək nəsillərə çatdırılır. Özündə mənəvi ünsiyyətin ən mühüm formalarını ehtiva edən tarixi varislik əlaqəsi, ictimai şüurun bütün səviyyələrini əhatə etməklə onun inkişafının mühüm tərəfi kimi çıxış edir. Milli-mənəvi dəyərlərin komponentlərindən biri olan ənənələrlə müasirlik arasındakı qarşılıqlı təsirin öyrənilməsi hər zaman aktual olmuşdur. Ənənələrin mahiyyəti onlara yalnız neçə-neçə yüzilliklərlə toplanmış təcrübəni hifz emək qabiliyyətini deyil, eyni zamanda yeni şəraitə adaptasiya olmaq və zənginləşmək xüsusiyyətini verir. Mənəvi təcrübənin nəsillərdən-nəsillərə ötürülməsi milli-mənəvi dəyərlərin ənənələr vasitəsilə kommunikativ funksiyasını yerinə yetirməsi sayəsində mümkün olur.

İstər gündəlik həyatda, istərsə də elmi-nəzəri səviyyədə müzakirə olunan məsələlərdən birini də müasir cəmiyyətimizdə milli-mənəvi dəyərlərin mövcud vəziyyəti təşkil edir. Dünya birliyində qədim tarixə, mədəniyyətə və zəngin milli-mənəvi dəyərlərə malik olan dövlət kimi tanınan ölkəmizdə mənəvi-əxlaqi sahədə cərəyan edən proseslərin tənzimlənməsi, ictimai şüurun xalqın maraqları çərçivəsində formalaşması üçün ardıcıl dövlət siyasəti öz tətbiqini tapmaqdadır. Milli-mənəvi dəyərlərin hifz edilməsində və zənginləşməsində dövlətin tənzimləmə funksiyası xüsusi rol oynayır.

Hər bir xalqın milli-mənəvi irsini, mental-əxlaqi dəyərlərini hifz etmək, genetik yaddaşını, tarixi kimliyini, özünəməxsusluğunu gələcək nəsillərə çatdırmaq kimi çətin missiya onun taleyində əvəzsiz rol oynamış fenomenal şəxsiyyətlərin fəaliyyəti nəticəsində mümkün olmuşdur.

Bu gün hansı siyasi baxışları daşımasından asılı olmayaraq, hər birimiz etiraf edirik ki, Ümummilli liderin 1993-cü ildə xalqın təkidi və istəyi ilə hakimiyyətə qayıdışından sonra ölkəmizdə bərqərar olmuş milli birlik respublikamızın ən qiymətli mənəvi-ideoloji sərvətlərindən biridir.

Azərbaycan xalqının nadir şəxsiyyətlərindən olan Heydər Əliyev dühası milli dövlətçilik düşüncəsini – XX əsrin 70-ci illərinin əvvəllərindən etibarən əsrin sonlarına doğru – müstəqil Azərbaycan dövləti kimi əzəmətli reallığa qovuşdurmuşdur. Milli şüurun oyanışı istiqamətində istər açıq, istərsə də gizli şəkildə həyata keçirilən böyük işlər olmasaydı, biz bu gün Azərbaycanın müstəqil dövlət kimi mövcudluğundan söz aça bilməzdik.

## ƏDƏBİYYAT


1. Əliyev, H. Müdrik fikirlər [Mətn]: /Heydər Əliyev; Heydər Əliyev Fondu. Bakı: Çaşıoğlu, 2009. Kitab 2. S.159-175.
2. Heydər Əliyev və azərbaycançılıq məfkurəsi. Bakı. “Azərbaycan Universiteti” nəşriyyatı. 2002. 232 səh.
3. İsmayılov, N. Heydər Əliyev və milli-mənəvi dəyərlərimiz [Mətn]. Bakı: Səda, 2003.
4. Qocayeva, A. Milli-mənəvi dəyərlərə sadiqlik hər bir insanın vətəndaşlıq borcudur [Mətn]: 13 avqust 2001-ci il tarixdə ümummilli lider Heydər Əliyev kütləvi informasiya vasitələrində milli-mənəvi dəyərlərin qorunması və sosial ədalət haqqında bəyanatla çıxış etmişdi /A.Qocayeva //Azərbaycan. 2009. 13 avqust. S.5.
5. Mehdiyev R. “Azərbaycançılıq – milli ideologiyanın kamil nümunəsi”. “Azərbaycan” qəzeti, Bakı. 7 noyabr, 2007.
6. Milli-mənəvi dəyərlərin pozulması xalqımıza qarşı bağışlanmaz xəyanətdir [Mətn]: Azərbaycan Prezidenti Heydər Əliyevin Bəyanatı, 13 avqust 2001-ci il //Azərbaycan. 2001. 14 avqust. S.1.
7. Yusifov, M. Azərbaycançılıq [Mətn] /M.İ.Yusifov; red. İ.İsmayılov; Yeni Azərbaycan Partiyası, Gəncə şəhər təşkilatı. Bakı: Elm və təhsil, 2010. 132 səh.


# MİLLİ-MƏNƏVİ DƏYƏRLƏR SİSTEMİ VƏ AZƏRBAYCANÇILIQ İDEOLOGİYASININ FORMALAŞMASI

***Qubadova Ülkər***

## XÜLASƏ


Məqalədə xalqımızın çoxəsrlik tarixə malik milli-mənəvi dəyərləri və milli mədəniyyəti barədə söz açılmış, milli şüur və milli kimliyin formalaşdığı mümkün şərait diqqətə çatdırılmışdır. Xalqın milli-mənəvi irsinin, mental-əxlaqi dəyərlərinin hifz edilməsi, genetik yaddaşının, tarixi kimliyinin, özünəməxsusluğunun gələcək nəsillərə çatdırılmasının vacibliyi vurğulanmışdır.

Milli dövlətçiliyimizin möhkəmləndirilməsi baxımından vacib əhəmiyyət kəsb edən azərbaycançılıq ideyasının irəli sürülməsinin, onun milli diasporun təşkilatlanması üçün ideoloji təmələ çevrilməsinin Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olması diqqətə çatdırılmışdır.

Milli-mənəvi dəyərlərin mövcud vəziyyətinin istər gündəlik həyatda, istərsə də elmi-nəzəri səviyyədə müzakirə olunan məsələlərdən biri olması göstərilmişdir.

# СИСТЕМА НАЦИОНАЛЬНО-ДУХОВНЫХ ЦЕННОСТЕЙ И ФОРМИРОВАНИЕ АЗЕРБАЙДЖАНСКОЙ ИДЕОЛОГИИ

***Губадова Улькер***

## РЕЗЮМЕ

В статье были затронуты многовековые национально-духовные ценности и национальная культура нашего народа, а также доведены до внимания возможные условия формирования национального самосознания и национальной идентичности. Подчеркивалась важность сохранения национального и духовного наследия, ментальных и нравственных ценностей людей, передачи их генетической памяти, исторической самобытности и особенности будущим поколениям.

Было отмечено, что идея азербайджанства, важная с точки зрения укрепления нашей национальной государственности, и превращение ее в идеологическую основу для организации национальной диаспоры, связана с именем Общенационального лидера Гейдара Алиева.

Показано, что современное состояние национально-нравственных ценностей является одним из вопросов, обсуждаемых как в повседневной жизни, так и на научно-теоретическом уровне.

# SYSTEM OF NATIONAL AND SPIRITUAL VALUES AND FORMATION OF AZERBAIJANI IDEOLOGY

***Gubadova Ulker***

## SUMMARY

In the article, the centuries-old national and spiritual values and national culture of our people were talked about, and the possible conditions for the formation of national consciousness and national identity were brought to attention. The importance of preserving the national and spiritual heritage, mental and moral values of the people, transmitting their genetic memory, historical identity and pecularity to future generations were stressed.

It was noted that the idea of Azerbaijanism, which is important in terms of strengthening our national statehood, and its transformation into an ideological basis for the organization of the national diaspora is related with the name of National Leader Heydar Aliyev.

It has been shown that the current state of national and moral values is one of the issues discussed both in everyday life and at the scientific and theoretical level.

# О ВЗАИМОДЕЙСТВИЯХ В ИНТЕРАКТИВНОМ ОБУЧЕНИИ

***Санг Жике,***
***магистрант II курса БГУ***
***jikesang@gmail.com***

***Ключевые слова***: ИКТ, интерактивное обучение, актуальные требования, альтернатива, образование.
***Açar sözlər***: İKT, interaktiv təlim, cari tələblər, alternativ, təhsil.
***Key words:*** ICT, interactive learning, current requirements, alternative, education.

Образование как система отвечает на традиционные вопросы: зачем учить, чему учить, кого учить, как учить, кому учить. Ясно, что в каждую эпоху содержание ответов подвергается определенной реформе.

На современном этапе применение информационно-коммуникационных технологий (ИКТ) на занятиях стало актуальным требованием. В этом случае педагоги, которое используют различные мультимедийные средства, уверены, что они реализуют интерактивное обучение.

Интерактивное обучение является одним из актуальных направлений современного образовательного процесса.

Большинство теоретиков и практиков сходятся в следующей последовательности этапов организации занятия в интерактивном режиме: вычленение проблемы в учебном материале, поиск решения проблемы в группах, обсуждение представленных решений, выбор наиболее оптимального, обязательная рефлексия. Также в качестве системообразующих компонентов такого занятия называют диалог. В этих занятиях есть возможность использования современных информационно-коммуникационных технологий (ИКТ) в образовании.

Определить занятие с применением интерактивных средств обучения как интерактивное, то есть построенное на практике активного взаимодействия субъектов образовательного процесса, так же неправомерно, как назвать «проблемной» лекцию, если на ней прозвучал один-другой вопрос проблемного характера. Это относится и к самому определению «интерактивное обучение». Несмотря на популярность его использования у практиков и теоретиков, мало кто в трактовке этого явления отражает сущностные характеристики обучения, построенного на межличностном взаимодействии.

Для поиска истины важно обратиться к символическому интеракционизму (работы Г. Блумера, Дж. Мида, Т. Шибутани и др.), в котором, согласно позиции Дж. Мида, взаимоотношения между людьми представляет собой процесс общения, в котором субъекты получают информацию друг о друге, более или менее интерпретируют ее, что отражается в поведении человека.

В этом случае, в символическом интеракционизме априори заложена позиционная активность всех включенных во взаимодействие. И поэтому главной целью становится обретение согласия, которое, по мнению Т. Шибутани, должно быть сведено к «установлению общей картины мира у тех, кто объединен в совместном действии; это непрерывный процесс, который состоит из последовательного ряда взаимодействий» [4, с. 123]. В этом случае процесс действительного взаимодействия носит не односторонний, линейный характер, а двусторонний, предполагающий переработку, принятие другой

информации, ее переосмысление, импровизацию, возможно, изменение направленности, коррекции содержания контакта и т.д.

Наличие ИКТ делает более эффективными иллюстративную и информативную стороны обучения, но при этом сокращая время и «живого» общения субъектов образовательного процесса. Здесь и скрывается противоречие между ответами на вопросы «зачем учить?» и «как учить?»: при внешнем соблюдении требования к технологической оснащенности урока («как учить?») затруднена реализация миссии образования («зачем учить?»).

В современных стандартах общего и высшего образования развитию коммуникативной компетенции обучающихся уделяется внимание: формирование действий по организации и планированию учебного сотрудничества с учителем и сверстниками, умений работать в группе и приобретению опыта работы, практическому освоению морально-этических и психологических принципов общения и сотрудничества, готовность включаться во взаимодействие с родителями, коллегами, социальными партнерами.

Поэтому, что необходимо подготовить учащихся к социализации, к продуктивным взаимодействиям в обществе, однако при этом нужно выбирать формы и средства, предполагающие усиление самоактивизации, индивидуализации, а не взаимодействия.

При ситуации интерактивности всегда предполагает равноактивность участвующих сторон. Но такая равная — субъектная, инициативная, творческая — активность не всегда наблюдается на занятиях с использованием ИКТ.

Прежде всего, уточнить определение интерактивного обучения: это особая форма организации обучения, которая основана на межличностном взаимодействии субъектов, направленная на обеспечение их взаимоактивности в решении учебно-познавательных, коммуникативно-развивающих и социально-ориентационных задач. Конкретно-познавательная задача связана с необходимостью, осознать и разрешить непосредственную учебную, проблемную, творческую ситуацию, понять логику и последовательность учебных действий; коммуникативно-развивающая предполагает отработку навыков работы интерактивного общения в процессе совместного познания; и, социально-ориентационная направлена на воспитание гражданских качеств, необходимых для социализации индивида.

Р.Л. Хон к базисным характеристикам учебного сотрудничества относит положительную взаимозависимость членов группы, непосредственное взаимодействие, связанное при этом с индивидуальной ответственностью каждого за совместную работу, что, в итоге, приводит к развитию у обучающихся навыков совместной работы [3, с. 538].

На учебных занятиях с применением ИКТ почти всегда реализуется не интерактивное обучение, а обучение с помощью интерактивных средств, в котором решаются не все вышеперечисленные задачи, а преимущественно — учебно-познавательная.

Самым хорошими показателем — на оптимальном уровне —оказалось содержание занятия, опытный преподаватель вуза сможет отобрать, выстроить материал, разнообразить его примерами и т. д.

Обычно всего при использовании ИКТ опираются на их возможности презентации, их роль оказывается сведена в основном к иллюстрированию: кинофрагменты, фотографии, слайды, интерактивная доска и т. д. Можно сказать, что в этом случае технические средства реализуются в группе методов, мотивирующих и стимулирующих обучение. но внешне обусловленный интерес, не поддерживаемый другими методами и средствами, через определенное время угасает, снижая продуктивность обучения. Значить не реализуется главная направленность мотивационно-стимулирующих методов, которая

заключается в обеспечении условий для перехода от внешней учебной мотивации у студентов вуза к внутренней, осознанной, самостоятельности, самоконтроля и т. д.

ИКТ с успехом применяются в качестве методов контроля, что позволяет очень быстро и объективно получить преставление об уровне освоенности учащимися темы, раздела и т. д.

В итоге возможности мультмедийных средств обучения реализуются на начальном (мотивационном) и итоговом (контролирующем) этапах образовательного процесса. Что же касается организации и осуществления учебно-познавательной деятельности, которая составляет основу обучения и еще одну самостоятельную группу методов.

Продуктивность современного технологического оснащения с точки зрения учебного взаимодействия, интерактивности, исследована явно недостаточно.

Умениям и навыкам взаимодействия, на которые опираются возможности мультимедийного оборудования, надо научить и преподавателей, и студентов.

Так, педагог готовит текст, организует слайдовый показ, но на занятии он выступает как ведущий, а не лектор. Главным приемом работы с этим материалом является комментируемое чтение «по цепочке», которое осуществляют обучающиеся. Студенту необходимо прочесть текст, интерпретировать его, привести примеры. Преподаватель при необходимости задает уточняющие вопросы. Если студент испытывает трудно при комментировании, нужно обратиться.

В слайдовом режиме используется и прием «опережающего обучения»: когда студентам выдается будущая слайдовая лекция, и они сами готовят полноценный, научноориентированный комментарий представленного содержания и т. д.

Семинары контрольного характера можно сделать интерактивными, ориентированными на межличностное взаимодействие студентов. Такое занятие подразделяется на две-три части: индивидуальное тестирование студентов с использованием возможностей «онлайнового» тестирования; групповое прохождение того же теста, при этом все члены группы должны дать единый ответ; и, наконец, открытое фронтальное прохождение тестовых заданий с разбором.

Такое обучение обладает большей степенью интерактивности по сравнению с закрытым индивидуальным или фронтальным тестированием. Взаимодействие здесь оказывается не квазиинтерактивным — линейным (вопрос-ответ), дискуссионным, объемным, выходящим за пределы диалогической формы (беседа двух субъектов: преподаватель — обучающийся) в ситуацию полилога и т. д. Как показала практика, двойное (тройное) прохождение теста повышает количество правильных ответов, поскольку групповое обсуждение делает их более осознанными.

В итоге можно прийти к выводу, что для обеспечения продуктивного взаимодействия на занятиях с применением ИКТ преподавателю стоит учитывать: Необходимость методической обработки информации подкрепления закрепления предлагаемой информации. Значимость введения системы символов (знаков), позволяющих фиксировать и настраивать на конкретный из перечисленных этапов работы с предлагаемой информацией и др.

В.И. Кудашов считает, что «учебный процесс должен строиться так, чтобы способствовать сознательному соучастию осваивающей его личности в воспроизводстве его содержания в процессе образования» [2, с. 5]. Понятие «сознательное соучастие» приводит роль учащегося за пределы имитационного сотрудничества, определяя иные — ответственные, инициативные, социально ориентированные — позиции субъектов в режиме интерактивного обучения.

Полноценное интерактивное обучение, с использованием ИКТ, реализует и учебно-познавательную, и коммуникативно-развивающую, и социально-ориентационную задачи, дает возможность сформировать у обучающихся главные поведенческие ориентиры — активную и осознанную позицию в сообществе, готовность к содействию, конструктивных решений в ситуациях межличностной коммуникации и т. д. В режиме такого интерактивного обучения студент становится не пассивным слушателем, но активным соучастником образовательного процесса.

## ЛИТЕРАТУРА

1.Интерактивность. Википедия. [Электронный ресурс] — Режим доступа:http://ru.wikipedia.org/ (дата обращения: 14.08.2012).
2.Кудашов В.И. Диалогичность сознания как фактор развития современного образования: сущность и специфика взаимосвязи: автореф. дис. … докт. пед. наук / Иркут. гос. ун-т. Иркутск, 1999. 44с.
3.Хон Р.Л. Педагогическая психология. Принципы обучения. М.: Деловая книга, 2002. — 736 с.
4.Шибутани Т. Социальная психология. Ростов н/Д.: Феникс, 1998. — 544 с.

## О ВЗАИМОДЕЙСТВИЯХ В ИНТЕРАКТИВНОМ ОБУЧЕНИИ

***Санг Жике***

## АННОТАЦИЯ

Статья посвящена изучению возможностей применения ИКТ. Рассмотрены современные технологии в образовательном процессе вуза, показана значимость мультимедийных технологий в образовательном процессе.

## İNTERAKTİV TƏLİMDƏ QARŞILIQLI ƏLAQƏLƏR HAQQINDA

***Jike Sang***

## XÜLASƏ

Məqalə İKT-dən istifadə imkanlarının öyrənilməsinə həsr olunub. Universitetin tədris prosesində müasir texnologiyalar nəzərdən keçirilir, multimedia texnologiyalarının tədris prosesində əhəmiyyəti göstərilir.

## ABOUT INTERACTIONS IN INTERACTIVE LEARNING

***Sang Jike***

## SUMMARY

The article is devoted to the study of the possibilities of using ICT. Modern technologies in the educational process of the university are considered, the importance of multimedia technologies in the educational process is shown.

# TƏHSİLDƏ YENİ PEDAQOJİ TEXNOLOGİYALARDAN İSTİFADƏ DÖVRÜN TƏLƏBİDİR

***Məmmədova Aysun Ramiz qızı***
***BDU-nun II kurs magistrantı***
***mammadovaysun@mail.ru***

***Açar sözlər:*** Təhsil strategiyası, müasir təlim, yeni pedaqoji texnologiyalar.
***Ключевое слово:*** Стратегия образование, современное образование, новые педагогические технологии.
***Keywords:*** The strategy of education, modern education , new educational technology.

Müasir dünyamızda hər gün artan informasiya, məlumatlar, yeniləşən texnologiyalar müxtəlif fəaliyyət sahələrinin - o cümlədən təhsilin yeniləşməsini, təkmilləşməsini, dövrə uyğun qurulmasını tələb edir.

Mütərəqqi pedaqoji təcrübəsi sübut edir ki, bu gün təlimin keyfiyyətinin yüksəldilməsində yeni pedaqoji texnologiyalar və onların imkanlarından düzgün istifadə xüssusi əhəmiyyət kəsb edir. Bu məsələ 24 oktyabr, 2013-cü il "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" - ölkə Prezidenti cənab İlham Əliyevin sərəncamında xüsusi aktuallıqla təhsil işçilərinin qarşısına qoyulmuşdur [1].

Bu mühüm dövlət sənədinin ikinci istiqamətində deyilir: "Bu istiqamət innovativ təlim metodlarını tətbiq edən, təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən səriştəli təhsilverənin formalaşdırılmasına xidmət edir və özündə təhsilverənlərin peşəkarlığının yüksəldilməsi, təhsilalanların nailiyyətlərinin qiymətləndirilməsi üzrə yeni sistemlərin qurulmasını, təhsilalanların istedadının aşkar olunması və inkişafı ilə bağlı, habelə xüsusi qayğıya ehtiyacı olanlar üçün inklüziv təlim metodologiyasının yaradılmasını ehtiva edir... Təhsil müəssisələrində internetə çıxış imkanları genişləndirilməklə, təhsildə informasiya-kommunikasiya texnologiyalarının səmərəli tətbiqi inkişaf etdirilməlidir" [1].

Təhsil Strategiyasının həyata keçirilməsi üçün fəaliyyət planı sərəncamının da imzalanması və bu fəaliyyət planında konkret olaraq təhsil müəssisələrinin, təhsil işçilərinin vəzifələrinin müəyyənləşdirilməsi ölkə prezidentinin bu məsələyə xüsusi diqqətindən irəli gəlməkdədir.

Hazırda ənənəvi təlim metodları müasir pedaqoji problemləri tam həll etməyə qadir deyil. Belə ki, təlimin məzmununun sürətlə dəyişməsi, hazırkı ənənəvi təlim ünsürləri, yeni tədris prosesinin əvvəlcədən hazırlanmış formalarda, özü də indiki tələbləri nəzərə almadan aparılması təlimin səmərəsinin yüksəldilməsini, öyrənən və öyrədənlərin təhsildə fəal iştirakını tam təmin etmir. Təlimdə müasir informasiya-kommunikasiya texnologiyalarına tətbiqi zamanı hər bir öyrənən istənilən formada və məzmunda fəal olaraq fərdi şəkildə bilik və bacarıq əldə edə bilər. İnformasiya-kommunikasiya texnologiyalarının– peyk antena, video, komputer, İnternet, mobil telefon və digərlərinin hər biri təlimin səmərəsinin yüksəldilməsində mühüm rol oynayır.

Ötən əsrin ortalarından başlayaraq yeni pedaqoji texnologiyalar məktəbə ayaq açmışdır. Müasir texnologiyalar əsasında yaradılmış təhsil ənənəvi təhsil sistemində olan çatışmazlıqları tezliklə aradan qaldırmış və təlimdə köklü dəyişikliklər əmələ gətirmişdir. İnformasiya və müasir pedaqoji texnologiyalar inkişaf etməkdə olan ölkələr üçün nailiyyət meyarına çevrilmişdir. Lakin, təlimin inkişafı və səmərəliliyinin artırılması üçün təkcə İKT yenilikləri kifayət etməmişdir. Müasir pedaqoji texnologiyalar özündə həm də metodları, üsul və vasitələri cəmləşdirmək məcburiyyətində qalmışdır. Bu gün artıq Ümumtəhsil məktəblərində təlimin səmərəsinin yüksəldilməsində mühüm əhəmiyyət kəsb edən müasir texnologiyalardan: interaktiv

metodlardan, fəal və yaradıcı təlim texnologiyalarından sərbəst iş prosesində ünsiyyət və əməkdaşlıqdan, kollektiv, qrup, cüt, fərdi halda öyrənmək, əqli hücum, dəyirmi masa, əməkdaşlıq, layihələr müxtəlif səviyyəli təlim, konstruktiv təlim, fəal diskussiya, təfəkkürün fəallığı, işgüzar oyunlar, söz assosasiyaları, problemli təlim, inkişafetdirici təlim kimi yeni təlim metodlarından söhbət açılır. Təlimin səmərəsinin yüksəldilməsində onların imkanları araşdırılır.

Hazırda müasir təlim metodlarının təhlilinə xüsusi fikir verilir. Hazırki dövrdə təlim metodları təhsil, tərbiyəedici, inkişafetdirici, stimullaşdırıcı, nəzarət, qiymətləndirmə [3, s. 265] və b. funksiyaları yerinə yetirir, interaktiv metodlar (müsahibə, dialoq) öyrədən və öyrənənlər, həm də öyrənənlərin özləri arasındakı fəal, qarşılıqlı münasibətlərin daha geniş formada baş verməsini nəzərdə tutur. Əməkdaşlıq şəraitində təlim metodunun başlıca ideyası nəyi isə birlikdə icra etmək olmayıb, birlikdə öyrənməkdir. Bu prosesdə şagirdlər materialı kiçik qruplarla birlikdə öyrənir, ayrı-ayrılıqda icra edirlər.

Digər bir aktual metod olan layihələr metodu şagird fəaliyyətinin müstəqilliyinə xidmət edir, fərdi, cüt, qrup halında, müəyyən zaman kəsiyi müddətində həyata keçirilir. Müxtəlif səviyyəli təlim metodu şəxsiyyətə yönəldilmiş təlim ideyasına əsaslanır. Bu metodun başlıca qayəsi təlimi şagirdlərin xüsusi qabiliyyətlərinə, istedadlarına, imkanlarına görə diferensiallaşdırmaq və fərdiləşdirməkdir.

Ümumtəhsil məktəblərində təlimin səmərəsinin yüksəldilməsində təlim vasitələri də mühüm əhəmiyyət kəsb edir. Əslində, bu vasitələr öyrədənin öyrətmə, öyrənənin öyrənmə prosesində istifadə etdiyi texnologiyadır. Metod işi "necə öyrətmək?", vasitə isə "nə ilə öyrətmək" suallarına cavabdır. Müasir təlimdə makro və mikrotexnologiyaların: komputer, internet, multimedia müşahidə vasitələri, ixtisaslaşdırılmış dərsliklər, elektron dərsliklər, komputer treninq proqramlarının daxil olduğu elektron-tədris-metodik komplekslərin istifadəsi xüsusi əhəmiyyət kəsb edir. Bütün bunlardan istifadə şagirdlərin müstəqilliyini, sərbəst fikir söyləyə bilmək qabiliyyətlərini, təfəkkür müstəqilliyinin inkişafını təmin etmək, onların informasiya cəmiyyətində gələcək həyata hazırlanması məqsədini daşıyır. Bununla müəllimlər həm də müasir pedaqoji texnologiya metodlarından və vasitələrindən ağılla istifadə edib, təlim-tərbiyə prosesinin səmərəliliyini yüksəldə bilərlər.

Müasir dövrdə pedaqoji texnologiyalar tədris proqramlarında qarşıya qoyulan təhsil məqsədlərinin daha səmərəli yerinə yetirilməsini nəzərdə tutan metod və vasitələr sistemi kimi nəzərdə tutulur.

Ötən əsrin 60-cı illərindən ABŞ, Böyük Britaniya, Almaniya, Rusiya, İtaliya, Yaponiya və başqa ölkələrdə təlimin texnoloji vasitələri kimi təhsil prosesinə gətirilən və az müddət ərzində böyük nəticələr əldə edilən pedaqoji texnologiyalar, xüsusən komputer, internet, veb şəbəkə, elektron öyrənmə vasitələri bu gün öyrədən və öyrənən arasında müntəzəm və operativ əlaqə, əks əlaqə, dialoq yaradan əhəmiyyətli vasitələr kimi təsbit olunmağa başlamışdır. Bu texnoloji vasitələr elmi biliklərin didaktik dəyişməsinə, müəllim və şagirdlərin, rəhbər işçilərin təhsil sahəsində innovasiyaları nəzərə almaqla tədris prosesinin elmi təşkilinə gətirib çıxarır [4, s.7].

Təlim prosesində informasiya texnologiyaları şagird və müəllimlərin müxtəlif fəaliyyət növlərində tətbiq olunur və hər bir şagirdin psixi inkişafına güclü təsir göstərir.

Ayrı-ayrı fənlər və mövzular üzrə məşğələlərdə informasiya texnologiyalarından istifadə şagirdlərin psixi fəaliyyətini gücləndirir. Müəllim şagirdlərin idrak fəallığını gücləndirmək və təlimin səmərəsini yüksəltmək məqsədilə təlimə bir sıra pedaqoji texnologiyalar daxil edərək məktəblilərin psixi funksiyalarını da dəyişmiş olur. Qavrama prosesində iştirak edən görmə və eşitmə analizatorları tədris materialı haqqında daha dolğun və dəqiq təsəvvürlərin qazanılmasına imkan verir. Pedaqoji texnologiyalar vasitəsilə alınan məlumatlar həm də qısa müddətli hafizədən uzunmüddətli hafizə fonduna ötürülür. Təhlil-tərkib, ümumiləşdirmə, nəticə çıxarmaq

əsasında qazanılmış materiallar saf-çürük edilir, daha əhəmiyyətliləri yaddaşda möhkəmlənir, az əhəmiyyətli olanlar isə yaddaşdan silinir.

Pedaqoji texnologiyaların təlim prosesinə tətbiqi, eyni zamanda, hissi obrazların yaranmasına şərait yaradır.Şagirdlər informasiya və pedaqoji texnologiyaların köməyilə cisim və hadisələr haqqında verilən məlumatı dərk edərkən onlara müəyyən münasibət göstərirlər. Tədris materiallarının qavranılmasında, dərk olunub, başa düşülməsində təbii ki, qavrayışın tamlığı, mənalılığı, çevikliyi və nisbi sakitliyi də mühüm əhəmiyyət daşıyır. Şagirdlərdə iradənin bir sıra xüsusiyyətləri özünü büruzə verir. İnformasiya texnologiyalarının tətbiq olunduğu dərslərdə hər hansı bir qərar qəbul edərkən hər bir müəllim və şagirdlər məntiqi-psixoloji əməliyyatı yerinə yetirmə, funksional-dinamik və qərar qəbul etmə prosesinin formalaşdırılması istiqamətlərini nəzərə almalıdırlar. Komputer təlimində şagirdlərin psixi fəaliyyəti qüvvətlənir. Təlim uğurları təkcə şagirdin təlimə qabilliyi, bütövlükdə qabiliyyəti ilə deyil, həm də təlim motivasiyası ilə şərtlənir.

Öyrənmə motivasiyası didaktik prosesin səmərəliliyini, məhsuldarlığını müəyyən edən, artıran amillər kimi prosesin aparıcı və hərəkətverici qüvvəsidir. Təbii ki, təlimdə şagirdin tələbat və maraqları, arzuları və emosiyaları, durumları və idealları da böyük rol oynayır Müasir pedaqoji texnologiyalardan tədris prosesində müxtəlif məqsədlər üçün, xüsusən təlimin səmərəliliyini yüksəltmək və onun keyfiyyətini artırmaq məqsədi ilə istifadəsi ən aktual problemlərdəndir. Təhsil sferasında səmərəlilik və keyfiyyət, təlim nəticələrinin əvvəlcədən müəyyən edilmiş normativlər əsasında şagirdlərin mənimsəmə səviyyəsini, ümumi halda təhsil sisteminin durumunu müəyyən edən ən vacib göstəricidir [4, s. 108]. Tədris prosesində təlimin səmərəliliyinin yüksəldilməsi, tədris-təlim prosesinin keyfiyyətinin artırılması yeni təlim və pedaqoji texnologiyalarının; interaktiv, fəal, komputer, internet, əməkdaşlıq, layihələr, müxtəlif səviyyəli təlim, problemli təlim, inkişafetdirici təlim, pedaqoji oyun və modul texnologiyaların tətbiqinin genişləndirilməsi ilə bağlıdır.

Müasir dövrdə cəmiyyətdə intensiv olaraq dəyişən sosial-iqtisdi və mənəvi münasibətlər təhsil sisteminin və onun tərkib hissəsi olan müəllimlərin bu prosesə çevik, dinamik adaptasiya olunmasını tələb etdiyindən, ümidvaram ki, pedaqoji texnologiyalardan düzgün, yerində və məqamında istifadə müəllimlərin prioritetinə çevriləcəkdir.

## ƏDƏBİYYAT


1. "Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət strategiyası" 24 oktyabr 2013-cü il tarixli sərəncamı. "Xalq" qəzeti, 25 oktyabr 2013-cü il.
2. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı. Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 19 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmişdir / "Xalq" qəz. 21 Yanvar, 2015-ci il.
3. Təlim prosesində informasiya texnologiyalarından istifadə müasir dövrün tələbi kimi. "Tarix və onun problemləri". 2008, s.406-409.
4. Öyrənmə prosesində internetin rolu. "Dil və ədəbiyyat" jurnalı, № 4, 2009, s.264-26

# TƏHSİLDƏ YENİ PEDAQOJİ TEXNOLOGİYALARDAN İSTİFADƏ DÖVRÜN TƏLƏBİDİR

***Məmmədova Aysun***


## XÜLASƏ

Müasir dünyamızda daim artan informasiya, bilik və bərpa olunan texnologiyalar müxtəlif fəaliyyət sahələrinin, o cümlədən təhsilin yenilənməsini, təkmilləşdirilməsini və müasirləşdirilməsini tələb edir.

Məqalədə müasir pedaqoji texnologiyalardan istifadənin pedaqoji şərtləri, təlimin səmərəliliyini artırmaq məqsədilə müasir pedaqoji texnologiyalardan istifadə yolları açıqlanır.


## ИСПОЛЬЗОВАНИЕ НОВЫХ ПЕДАГОГИЧЕСКИХ ТЕХНОЛОГИЙ В ОБРАЗОВАНИИ – ТРЕБОВАНИЕ ВРЕМЕНИ

***Мамедова Айсун***


## АННОТАЦИЯ

В нашем современном мире постоянно увеличивающийся объем информации, знаний и возобновляемых технологий требует обновления, совершенствования и модернизации различных сфер деятельности, в том числе и особенно образования.

В статье раскрывается педагогические условия применения современных педагогических технологий, пути использования современных педагогических технологий с целью повышения эффективности обучения.


## THE USE OF NEW PEDAGOGICAL TECHNOLOGIES IN EDUCATION IS A REQUIREMENT OF THE AGE

***Mammadova Aysun***


## SUMMARY

In our modern world, the ever-increasing volume of information, knowledge and renewable technologies requires the renewal, improvement and modernization of various fields of activity, including and especially education.

Ways for the use of modern educational technology. In the article is revealed the pedagogical conditions of application of modern educational technology, ways of using modern educational technology to enhance the effectiveness of training.

# UŞAQLARIN VƏTƏNƏ MƏHƏBBƏT RUHUNDA TƏRBİYƏSINDƏ AİLƏNİN ROLU

***Hacıyeva Pınar Famil qızı***
***BDU -nun II kurs magistrantı***
***haciyevapinar64@gmail.com***

***Açar sözlər:*** Ailə, tərbiyə, vətənpərvərlik, mühit, valideyn.
***Ключевые слова:*** Семья, воспитание, патриотизм, среда, родитель.
***Keywords:*** Family, upbringing, patriotism, environment, parent.

Bu gün yetişən gənc nəslin milli vətənpərvərlik ruhunda tərbiyəsi xüsusi böyük aktuallıq və əhəmiyyət kəsb edir.

Ulu öndər Heydər Əliyev yetişən gənc nəslin vətənpərvərlik tərbiyəsi haqqında Azərbaycan Gənclərinin Ümumrespublika forumundakı nitiqndə çox dəyərli fikirlər söyləmiş və demişdir: *"...Gənclərimiz milli- mənəvi ruhda tərbiyə olunmalıdır, bizim milli- mənəvi dəyərlərimizin əsasında tərbiyələnməlidir. Gənclərimiz bizim tariximizi, ədəbiyyatımızı yaxşı bilməlidir, keçmişi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz" (5,5).*

Bu dəyərli fikirlər vətənpərvərlik tərbiyəsinin əsas məzmununu, əsas istiqmətlərini əhatə edir ki, hər bir pedaqoji prosesdə o cümlədən ailə tərbiyəsində bu amillər nəzərə alınmalıdır. Yəni ailədə böyüyən hər bir uşaq, dilimizi, adət və ənələrimizi, tariximizi, ədəbiyyatımızı, mədəniyyətimizi, milli- mənəvi dəyərlərmizi yaxşı öyrənməlidir. Bunu isə ilk növbədə ailə tərbiyəsindən, valideyn tərbiyəsindən almalıdır. Ailə tərbiyənin, insan şəxsiyyətinin formalaşmasının təməlidir. Bu təməl nə qədər möhkəm olarsa "ucaldılacaq bina" bir o qədər möhkəm olar.

Göründüyü kimi ailə xüsusi quruluşa və məzmuna malik olaraq tərbiyə işində və xüsusilə uşaqların vətənə məhəbbət ruhunda tərbiyəsində böyük rol olynayır. Buradan o qənaətə gəlmək olur ki, ailə dövlətin təməlidir. Ailələr güclü olarsa, dövlət də güclü olar. Ailə özü də kiçik bir dövlətdir. Onun da başçıları, üzvləri, büdcəsi, müdafiəsi, qayda, qanunları və s. vardır. Ailə özünün üzvləri üçün bir yaşayış, rahatlıq və istirahət yeri , güvənli, etibarlı əziz bir məkandır.

Ailənin möhkəm olması, cəmiyyətin möhkəm olmasına səbəb olacaqdır. Ailə - deyə bilərik ki, bütün inkişafın, bütün sivilizasiyanın beşiyi olmuşdur. Uğurlu ailə uğurlu iş, uğulu təhsil, uğurlu sosial ünsiyyət və münasibət və uğurlu tərbiyə almış vətənpərvər şəxsiyyət deməıkdir. .

Ailə iki tərəfin - ər və arvadın bir birinə inamı, etibarı, məhəbbəti, hörməti üzərində qurulmuş əziz, rahat, təhlükəsiz məkandır. Prof. Rüfət Hüseynzadə ali məktəb tələbələri üçün nəzərdə tutulmuş "Ailə pedaqogikası" dərsliyində yazır ki, *"ailə" sözünün mahiyyəti və mənası ərəbcə "Avl" kökündən əmələ gəlmiş "Etibar", "İnam", "Dayanmaq", Söykənmək" mənalarını verir[8,s.14]* .

Ailə yalnız insanın yaşayış yeri, təminatlı məkanı, qorunacaq, müdafiə olunacaq yeri deyil, həm də insanın ən əziz, ülvi hisslərlə, duyğularla yaşaması, sevməsi, qayğı və mərhəmət göstərməsi, hörmət göstərməsi və digər hissləri özündə ehtiva edir.

Ailə yetişən gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasında ən mühüm və ilkin sosial institutdur. Məhz ilkin olaraq uşaq ailədə dil açıb ünsiyyətə girir, ana və atası ilə müəyyən ünsiyyət və münasibətdə olur, vətən haqqında, vətənpərvərlik haqqında məlumatlar alır. Uşaqların Vətənə məhəbbət ruhundaə tərbiyə olunmasında ilkin şərt yenə də valideynlərin uşaqlarla düzgün ünsiyyət və münsibəti, vətənin milli- mənəvi dəyərləri haqqında, təbiəti, coğrafiyası, görkəmli şəxsiyyətləri, qəhrəmanaları haqqında ardıcıl məlumatların alınmasıdır.

Bu ailədə böyüyın uşağın ilkin mənəvi sosial tələbatıdır. Valideyn- övlad arasında ünsiyyət və münaisbətin düzgün qurulması isə pedaqoji psixoloji, və sosial elmlərin tədqiqat sahəsidir ki, bu barədə prof. Əbdül Əlizadə[6], prof. Akif Abbasov [1; 2], prof. Sərdar Quliyev [9], prof. Nurəli Çələbiyev [4], prof. Oruc Həsənli [7], prof. Rüfət Hüseynzadə [8], dosent F.M. Allahverdiyeva [3] və başqaları dəyərli əsərlər yazmışlar. Respublikamızın hazırkı inkişaf dövründə ölkə vətəndaşlarının, o cümlədən böyüməkdə olan nəsli milli əxlaqımızın tələbləri əsasında, milli vətənpəvərlik ruhunda tərbiyə etmək böyük əhəmiyyət kəsb edir.

44 günlük Vətən müharibəsi xalqımızın sonsuz sevincinə və qüruruna səbəb olmuş və müharibə böyük Zəfərlə başa çatmışıdr. Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin və ordumuzun ətrafında sıx birləşən xalqımızın iradəsi, əzmkarlığı bizi Qələbəyə aparan yolun əsas amilinə çevirdi. Bu yolun təməli də ailədən başalamışdır. Gənclərimizin milli vətənpərvərlik ruhunda döyüşə yollanması, əzmkarlıq, yüksək iradə, dözümlülük nümayiş etdirərək, şücaət və qəhrəmanlıqlar göstərərək işğal olunmuş torpaqlarımızı düşməndən azad etdilər. Onlar fədakarlıq göstərdilər, şəhid oldular amma bir addım da geri çəkilmədlilər. Hər gün irəli getdilər. Bu qələbə həm də Azərbaycan ailəsinin qələbəsi, ailə tərbiyəsinin bariz nümunələri idi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərlik etdiyi Azərbaycan ordusu Vətən müharibəsi zamanı göstərdiyi şücaəti, nümayiş etdirdiyi döyüş hazırlığı, döyüş texnikası, yüksək vətənpərvərlik əhval ruhiyyəsi ilə bütün dünyanı heyran etdi.

Yetişən gənc nəsildə yüksək mənəvi-əxlaqi keyfiyyətlərin formalaşdırılması, onların milli vətənpərvərlik ruhunda tərbiyəsi və ümumiyyətlə bir şəxsiyyət kimi hərtərəfli ahəmgdar inkişafı üçün ailə pedaqogikasının tələblərinə əməl edilməli, pedaqoji şərtlər, qaydalar ailə tərbiyəsində ciddi nəzərə alınmalıdır.

## ƏDƏBİYYAT


1. Abbasov, A.N. Milli əxlaq və ailə etikası: Universitetlərin magistratura səviyyəsi üçün dərslik / A.N.Abbasov. – Bakı: Mütərcim, – 2016. – 324 s.
2. Abbasov A.N. Ailə pedaqogikası. Dərslik/A.N.Abbasov. – Bakı: Mütərcim, – 2016. – 324 s.
3. Allahverdiyeva, F.M. Kiçikyaşlı məktəblilərin mənəvi tərbiyəsində məktəb və ailənin əlbir işi: / pedaqogika üzrə fəlsəfə doktoru dis./ – Bakı, 2004. –151 s.
4. Cələbiyev, N.Z. Ailə psixologiyası / N.Z. Cələbiyev. – Bakı: Mütərcim, – 2015. – 424 s.
5. Əliyev, H. Ə. Gənclərin Birinci Ümumrespublika Forumunda nitq. 2 fevral, 1996 – cı il/ Xalq, 5 fevral, 1996 cı il.
6. Əlizadə, Ə.Ə. Ailə /IX siniflər üçün dərslik. Ə.Ə.Əlizadə, A.N.Abbasov –Bakı: Maarif, – 1989. –256 s.
7. Həsənli, O.Q. Ailənin psixoloji problemləri // –Naxçıvan: Naxçıvan Müəllimlər İnsitutunun Xəbərləri, – 2013. № 2.
8. Hüseynzadə, R.L. Ailə Pedaqogikası. Dərslik. /R.L. Hüseynzadə. - Bakı: ADPU, - 2016.- 340 s.
9. Quluyev, S.M. Ailə pedaqogikasının mühüm problemləri / S.M.Quluyev. –Bakı: Nurlan, – 2005. –416 s

## UŞAQLARIN VƏTƏNƏ MƏHƏBBƏT RUHUNDA TƏRBİYƏSINDƏ AİLƏNİN ROLU

***Hacıyeva Pınar***

### XÜLASƏ

Yetişən gənc nəsildə yüksək mənəvi-əxlaqi keyfiyyətlərin formalaşdırılması, onların milli vətənpərvərlik ruhunda tərbiyəsi və ümumiyyətlə bir şəxsiyyət kimi hərtərəfli ahəmgdar inkişafı üçün ailə pedaqogikasının tələblərinə əməl edilməli, pedaqoji şərtlər, qaydalar ailə tərbiyəsində ciddi nəzərə alınmalıdır.

## РОЛЬ СЕМЬИ В ВОСПИТАНИИ ДЕТЕЙ В ДУХЕ ЛЮБВИ К РОДИНЕ

***Гаджиева Пынар***

### АННОТАЦИЯ

Необходимо соблюдать требования семейной педагогики для формирования у молодого поколения высоких нравственных качеств, воспитания их в духе национального патриотизма и всестороннего развития личности в целом, учитывать в семейном воспитании педагогические условия и правила.

## THE ROLE OF FAMILIES IN RAISING CHILDREN IN THE SPIRIT OF LOVE TO THE COUNTRY

***Hajiyeva Pinar***

### SUMMARY

It is necessary to comply with the requirements of family pedagogy for the formation of high moral qualities among the younger generation, their upbringing in the spirit of national patriotism and the comprehensive development of the personality as a whole, and take into account pedagogical conditions and rules in family education.

## PSİXOLOGİYA

# TƏLƏBƏLƏRİN TƏLİM PROSESİNDƏ ÜNSİYYƏT VƏ KOMMUNİKATİV FƏALİYYƏTININ TƏZAHÜR XÜSUSİYYƏTLƏRİ

***p.ü.f.d Eyyubova Mehriban Niyaz qızı***
***Səhrabova Səkinə Ehtibar qızı***
***BDU-nun II kurs magistrantı***
***sakina.sahrabova@gmail.com***

***Açar sözlər:*** ünsiyyət, təlim, birgə fəaliyyət, tələbə gənclər.
***Ключевые слова:*** общение, обучение, совместная деятельность,студенческая молодежь.
***Key words:*** communication, education, joint action, student youth

Ünsiyyət iki və ya daha çox adamın münasibətləri aydınlaşdırmaq və ümumi nəticə əldə etmək məqsədilə öz səylərini əlaqələndirməyə və birləşdirməyə yönəldilmiş qarşılıqlı təsiridir. Ünsiyyət təhsil, əmək, oyun fəaliyyətlərinin ən önəmlə komponenti olmaqla insanların qarşılıqlı münasibətlərinin əsasını təşkil edir. Ünsiyyət insanlara həqiqəti anlamağa (başqaları vasitəsilə dərk etmə), bu həqiqətə qarşı münasibətin formalaşması (şəxsi mövqe), əldə olunmuş bütün təcrübələr əsasında düzgün davranış modelinin yaradılması (davranış mədəniyyəti) və digər bu kimi imkanlar verir. B.Q.Ananev bu barədə belə yazmışdır: " Ünsiyyət fərdi olduğu qədər də sosialdır. Buna görə də sosiallıq və fərdilik əlaqəli şəkildə ünsiyyətin vacib vasitəsi olan fərdi təzahürü və mexanizmi nitq olan dildə cəmlənir. Davranışın ifadə qüvvəsi kommunikativ funksiyanı yerinə yetirdiyi halda ünsiyyətin pantomimika və jestikulyasiya kimi nitqsiz formaları o vaxt yaranır (6 səh. 195).

Ümumiyyətlə, ünsiyyət işgüzar (rəsmi) və şəxsi (qeyri-rəsmi) olmaqla iki yere ayrılır. İşgüzar ünsiyyət hər hansı müəyyən birhə fəaliyyətin təşkilinə yönəlmiş ünsiyyət hesab olunur. Burada partnyorların şəxsi maraqları, istək və arzuları, simpatiya və antipatiyaları və s. Bu kimi hislərindən daha çox onların iş maraqları, müəyyən uğurlu nəticə almaq üçün onların hər birinin özünəməxsus təşəbbüsləri və s. Bu kimi amillər üstünlük təşkil edir. Şəxsi ünsiyyətin mərkəzində isə məhz tərəflərin fizioloji, psixoloji, mənəvi və digər şəxsi problemləri durur. Pedoqoji prosesdə, təlim mühitində işgüzar və şəxsi ünsiyyət bir-birindən ayrılmazdır və bir-biri ilə sıx əlaqəlidir. Müəllim tələbənin yalnız onun tapşırığını yerinə yetirməsinə deyil, həm də onun sağlamlıq durumu, emosional vəziyyəti, daxili həyəcanının olub olmaması və s bu kimi amillərə diqqət yetirir. Bu və bu kimi sadalanan amillər təcrübəli pedoqoqun nəzərindən qaçmır.

Tələbələrin bir-birilə ünsiyyətində ilk təsir edici amil xarici amillər və bu amillərdən yaranan ilkin təəssüratlardır. Bunlara- tələbələrin geyimi, davranışı, jestləri, mimikası və başqa bu kimi emosianal vasitələr aiddir. Tədricən tələbələr arasındakı münasibətlər dərinləşdikcə bu amillər xarici amillərdən daha mürəkkəb amillərə doğru gedir.Tələbələrin qarşılıqlı münasibətlərinin arzuolunan istiqamətə yönəlməsi onların ünsiyyətinin motivasıyasından asılıdır. Məsələn, hər hansı bir tələbə öz yoldaşından adekvat qarşılıqlı münasibət görmək ümidi ilə ona hər hansı maraqlı informasiya verir, lakib burada o bunun əskinə olan situasiya ilə üzləşir.Həmin situasiya dəfələrlə təkrarlandıqda isə qarşılıqlı münasibətlərdə neqativ hallar, qarşılıqlı etinasızlıq və s. Yarana bilər.

Ünsiyyətin insanların bir-birilə qarşılıqlı təsir prosesində daha mühüm rol oynadığını və bu zaman ünsiyyətin birgə fəaliyyətdə şəxsi ünsiyyətə çevrilməsini Ə.S.Bayramov və Ə.Ə.Əlizadə

belə izah edirdilər: "Ünsiyyət fəaliyyətin-əmək, təlim, oyun və s. Zəruri tərkib hissəsidir. Bu fəaliyyət sahələrinin hər biri ancaq qarşılıqlı təsir şəraitində mümkündür" (2 s. 260).

Ünsiyyət prosesində kimisə özünə yaxın buraxmaq və yaxud uzaqlaşdırmaq lazım gəlir. A.Piz bunu " ünsiyyət zonası" adlandıraraq dörd yerə bölür:

- 1-ci intim zona (15 sm-dən 46 sm-ə qədər). Bu zonaya məhz ən yaxın emosional təmasda olan insanlar daxil ola bilər.
- 2-ci şəxsi zona (46 sm-dən 1,2 m-ə qədər). Bu sahədə dostluq münasibətləri təzahür edir.
- 3-cü ünsiyyət zonası (1,2 m-dən 3,6 m-ə qədər). İşgüzar ünsiyyət bura aiddir.
- 4-cü kütləvi zona (3,6 m-dən çox). Bu sahə ictimai yerlərdə bir-birini tanıyan və tanımayan insanların olduğu sahədir.

Tələbələrdə qarşılıqlı münasibət, birgə fəaliyyət və ünsiyyət prosesində cinsi fərqlər özünü öz təsirini göstərir. Məhz buna görə bu yaş dövründə ünsiyyət prosesində cinsi fərqlərin öyrənilməsinə xüsusi önəm verilir. Müasir psixologiya üçün aktual olan qızlar və oğkanlar arasında ünsiyyət problemi ilə maraqlı tədqiqatların müəllifi olan Ə.Ə.Əlizadə yazır: "Cinsi identifikasiya, mənlik şüuru, həya hissi və əks cinsə maraq da ünsiyyət prosesində formalaşır" (7 s. 95).

Tələbəlik dövründə qızlarla oğlanlar arasındakı ünsiyyətin məzmunu onların cinsi identigikasıyasına əsaslanır. Cinsi identifikasiya prosesi dedikdə subyektin özünün digər subyekt və ya obyektlərlə eyniləşdirməsi, yaxud oxşatması nəzərdə tutulur.

Tələbələr üçün yalnız həmyaşıdları ilə birlikdə olmaq deyil, həm də onların arasında qaneedici yer tutmaq vacibdir.Bəzi tələbələr üçün bu qrupda liderlik etmək, bəzi tələbələr üçün sevimli yoldaş kimi özünü göstərmək, bəziləri üçün isə hansısa müəyyən işdə nüfuza sahib olmaq arzusunu reallaşdırmağa yönələ bilər. Tələbələrin yaşıdları ilə ünsiyyəti olduqca mürəkkəb məzmuna malikdir. Bu münasibətlər bir-birindən yaxınlıq səviyyəsinə görə fərqlənir. Əvvəlcə tələbələrin bir-birilə tanışlığı, yaxınlığı, dostluq münasibətləri olur. Daha sonralar isə məhz bu fərqlər artır, tələbə gəncin dünya görüşü təkmilləşir, mürəkkəbləşir. Artıq burada simpatiya və antipatiyalar müəyyənləşir, müəyyən qruplar, xütlüllər və s. yaranır. Tələbələrin yoldaşları ilə münasibəti zaman keçdikcə təhsil, təlim çərçivəsindən çıxır, yemi məşğuliyyətlər, maraqlar, əyləncələr meydana çıxır. Beləliklə də tələbə gənclərin birgə fəaliyyətində ünsiyyət vacib və müstəqil amilə çevrilir.

Tələbə gənclər üçün həmyaşıdları ilə ünsiyyətin vacibliyi əksər hallarda onların məhz yaşlılarla, xüsusən də valideynləri ilə qarşılıqlı münasibətlərdə yaranmış olan problemləri arxa plana salır. Bu problemlərin yaranma səbəblərindən biri tələbə gənclərin daxili aləminin yaşlılar tərəfindən başa düşülməməsi, tələbə gənclərin arzu-istəkləri, dəyərləri, davranışları haqqında səhv və yaxud primitiv düşünmələridir. Göründüyü kimi, tələbələrin təlim və birgə fəaliyyəti prosesində ünsiyyət özünəməxsus əhəmiyyəyə malikdir. Bu bir tərəfdən onların fəaliyyətinin səmərəliliyinə təsir göstərirsə, digər tərəfdən tələbələrin kollektiv həyatına uyğunlaşmasına, ümumi bir məqsəd uğrunda birlikdə işləmələrinə müsbət təsir göstərir. Tələbələrin təlim prosesində birgə fəaliyyətə alışması onların bütövlükdə ali məktəb həyatına, professional fəaliyyət tələb edən yeni məzmunlu vərdiş və bacarıqlar tələb edən tapşırıqlara, hərəkətlərə adaptasiyası ilə şərtlənir. Tələbələrin ünsiyyətinin məzmunu qrupun cinsi tərkibi ilə bilavasitə bağlıdır. Belə ki, tələbə qruplarında ünsiyyət oğlan və qızların qarşılıqlı münasibətlərindən asılı olaraq tənzimlənir.

## ƏDƏBİYYAT


1. Abbasov A.N., Əlizadə H.Ə. Pedoqogika. Ali məktəb tələbələri üçün dərs vəsaiti. Bakı 2000
2. Bayramov Ə.S., Əlizadə Ə.Ə Sosial psixologiya Bakı 2003

3. Əliyev B.H., Cabbarov R.V. Təhsildə şəxsiyyət problemi Bakı 2008
4. Əliyev R.İ. Şəxsiyyət və onun formalaşmasının etnopsixoloji əsasları Bakı, Araz 2000
5. Əzimov Q.E. Yaş və pedoqoji psixologiyanın müasir problemləri Bakı 2006
6. Ананьев Б.Г. Человек как предмет познания. Л., ЛГУ. 1968
7. Əlizadə Ə.Ə. Uşaq və yeniyetmələrin cinsi tərbiyəsi. Bakı Maarif 1986

## TƏLƏBƏLƏRİN TƏLİM PROSESİNDƏ ÜNSİYYƏT VƏ KOMMUNİKATİV FƏALİYYƏTININ TƏZAHÜR XÜSUSİYYƏTLƏRİ

***Eyyubova Mehriban, Səhrabova Səkinə***

### XÜLASƏ

Tələbələrin təlim fəaliyyətində ünsiyyət və kommunikasiya prosesləri olduqca vacib əhəmiyyətə malikdir. Bu onların həm təlim fəaliyyətində, həm də təlimdən kənar birgə fəaliyyətinin keyfiyyətini tənzimləyən əsas amillərdən biridir. Tələbə qruplarında ünsiyyət səmərəli qurulduqda tələbələrin müstəqil fəaliyyət imkanları genişlənir, onlarda təhsil aldıqları peşə sahəsi üzrə dəyərli keyfiyyətlər formalaşır. Bu keyfiyyətlərə işgüzarlıq, əməkdaşlıq, komandada çalışmaq, uğurlu birgə fəaliyyət, özünüfəallaşdırmaq kimi xüsusiyyətlər aiddir.

## ОСОБЕННОСТИ РАЗВИТИЯ ОБЩЕНИЯ И КОММУНИКАТИВНОЙ ДЕЯТЕЛЬНОСТИ СТУДЕНТОВ В ПРОЦЕССЕ ОБУЧЕНИЯ

***Эйюбова Мехрибан, Сахрабова Сакина***

### АННОТАЦИЯ

Общение и коммуникативные процессы очень важны в учебной деятельности студентов. Это один из основных факторов, регулирующих качество как их тренировочной деятельности, так и внетренировочной совместной деятельности. Когда общение в студенческих коллективах налаживается эффективно расширяются возможности студентов для самостоятельной деятельности, формируются у них ценные в своей области качества качества. Эти качества включают деловую хватку, сотрудничество, командную работу, успешное сотрудничество и самомотивацию.

## THE FEATURES OF THE DEVELOPMENT OF COMMUNICATION AND COMMUNICATIV ACTIVITY OF THE STUDENTS IN THE LEARNINQ PROCESS

***Eyyubova Mehriban, Sahrabova Sakina***

### SUMMARY

Communication and communication processes are very important in students' learning activities. This is one of the main factors regulating the quality of both their training activities and non-training joint activities. When communication in student groups is established effectively, students' opportunities for independent activity expand, and valuable qualities in their field of study are formed in them. These qualities include business acumen, cooperation, teamwork, successful collaboration, and self-motivation.

# ВЛИЯНИЕ ИСКУССТВА НА РАЗВИТИЕ ЛИЧНОСТИ ШКОЛЬНИКА

***Наджафова Пярвин Фархад***
***Магистрант 2-ого курса БГУ***
***polinanadjafova@gmail.com***

***Ключевые слова:*** воздействие искусства на личность, изобразительное искусство, художественный образ, эстетика, эстетическое воспитание.
***Açar sözlər:*** sənətin şəxsiyyətə təsiri, təsviri incəsənət, bədii obraz, estetika, estetik tərbiyə.
***Keywords:*** the impact of art on personality, arts, artistic image, aesthetics, aesthetic education.

Актуальность данной темы обусловлена, прежде всего, влиянием искусства на эмоциональную и духовную жизнь школьников, формирование стойких эстетических интересов, влияющих на развитие культуры в целом. Знакомство со структурой художественного произведения и с законами восприятия искусства позволяет актуализировать исследовательскую позицию учащегося, благодаря которой он сможет самостоятельно, через постижение внутренних законов построения и структуры художественного произведения последовательно приближаться к пониманию смысла; освоить способы художественного мышления.

Развитие человечества напрямую зависит от уровня развития каждого из представителей нашего сообщества. Поэтому, начиная с древних времен мыслители и педагоги уделяли огромное внимание воспитанию разносторонне развитой личности, способной не только к физическому труду, но и к умственной и творческой деятельности. Именно эстетическое воспитание, прежде всего, лежит в основе воспитания духовной культуры личности современного школьника. Духовная культура формируется в процессе усвоения личностью общечеловеческих ценностей и развития собственной творческой деятельности, направленной на создание новых ценностей. Формирование духовной культуры подрастающего поколения целенаправленно осуществляется на всех возрастных этапах, поэтому особенно большая роль в этом процессе отводится школе. Воспитание духовной культуры в современной школе признается одной из важнейших функций системы образования.

Приоритетное значение в формировании духовной культуры имеют этические и эстетические духовные ценности, закрепленные в образе жизни людей и в произведениях искусства. Очень верно звучат слова В.П.Зинченко, утверждавшего, что образование без души опустошает душу.

Искусство – это особая составляющая часть духовной культуры, отражающее в художественной форме представление человека о мире, об окружающей действительности. Причем каждый вид искусства обладает индивидуальными средствами гуманистического воздействия на личность человека. Развитие эстетического вкуса у школьников, помогает развивать положительные личные качества учащихся и прививать морально-нравственные принципы.

Искусство – неотъемлемая часть культуры человека. В любое время духовно-нравственное воспитание школьников занимают важную роль в процессе обучения. Одним из важнейших методов воспитания принято считать искусство. Для этого в школьную программу введены такие уроки, как изобразительное искусство, музыка, МХК. Помимо этого, воспитание осуществляется путем введения во внеурочную

деятельность таких предметов как танцевальное искусство, театральное искусство и т.д. Все эти предметы тесно связаны друг с другом.

Анализ методов преподавания изобразительного искусства на различных этапах развития общества показывает, что во все времена процесс обучения базировался на творческом обобщении опыта прошлого, использовании устоявшихся художественно-эстетических традиций изобразительного искусства. Этот важный принцип сохраняет актуальность и на современном этапе художественного образования и эстетического воспитания школьников.

Искусство не только отражает реальность, но и дарит свою реальность, передает эмоции, настроения. Творения искусства всегда несут с собой определенный культурно – исторический опыт человека. Прежде чем говорить об искусстве с детьми, педагог сам должен знать, как развивалось искусство и какие при этом выявлялись закономерности. «Понятие «культурно-историческая эпоха» было введено в обиход европейскими мыслителями 1-й половины XIX века, прежде всего философами Й. Гердером и Г. В. Гегелем» [1, с 23]. В современных словарях это определение дается сочетанием разных факторов: экономического, духовного, социального, культурного и т.д.

Л.С. Выготский, вскрывая специфическую функцию искусства, отмечает, что при воздействии на личность оно как бы просветляет чувства. Используя термин «катарсис» - как очищение, он указывает на духовность в содержании искусства.

В силу своей природы, искусство ненавязчиво, образно помогает передавать и осваивать мир по законам добра и красоты. «Искусство стремится истолковать природу и человека… Художник стремится открыть и в природе и в человеке прекрасное…» [2, с. 56]. (Вахтеров В.П.). «Прекрасное - в искусстве имеет своим источником прекрасное в природе. Поэтому чрезвычайно важно пробудить в детях эстетическую впечатлительность по отношению к природе…» [4, с. 11], - отмечал П.Ф. Каптерев.

Художественный образ может рассматриваться как структурная единица. Структурно-функциональный подход к изучению художественного сознания заключается в анализе именно такой единицы, ибо она моделирует особенности, присущие художественному сознанию в целом.

В.А. Сухомлинский считал природу «азбукой познания живописи: чтобы понимать, переживать и любить живопись, человеку необходимо пройти длительную школу чувств именно в мире природы» [6, с. 41].

Философ Л.Н. Столович, изучая роль искусства в человеческой жизни, утверждает, что «искусство действует не на одну какую-либо человеческую способность и силу, будь то эмоции или интеллект, а на человека в целом. Оно формирует саму систему человеческих установок, действие которых может проявиться зачастую непредсказуемо» [4, с. 76]. Ю.Б. Бореев так уже указывает, что именно искусство формирует целостную личность: воспитательное воздействие морали, философии, политики носит частный характер, а искусство действует комплексно на ум, сердце и душу.

Роль искусства в развитии личности неоценима, еще с детства неосознанно окружающие нас люди прививают нам представления о красоте. Мама, ведя ребенка в сад, рукой указывает на распустившийся цветок и говорит: «Посмотри какой красивый цветочек распустился!». Именно в этот момент у ребенка начинает формироваться представление о прекрасном. И с каждым годом оно будет развиваться все сильнее, с познанием нового мира, он все чаще будет сталкиваться с его красотой. Научившись

рисовать, он столкнётся с новой прекрасной реальностью, а научившись читать – с целым миром открытий.

«Ребенок мыслит формами, красками, звуками, ощущениями» [3, с. 68] - это природная его особенность (Ушинский К.Д.). И если в учении будут присутствовать формы, краски и звуки, то будет доступность к детской душе, а сами взрослые смогут войти в этот мир детского мышления. «Воображение создало этот мир для ребенка» [8, с. 91], - отмечал Н.И. Пирогов. Но воображение вещь опасная для детей, его нужно направлять. Именно этим занимаются взрослые, которые его окружают, сначала родители, после еще и учителя.

«Вызвать в себе раз испытанное чувство, и, вызвав его в себе, посредством движений, линий, красок, звуков, образцов… передать это чувство так, чтобы другие испытали то же чувство - в этом состоит деятельность искусства» [9, с. 32]. Этим Л.Н. Толстой подчеркивал эмоционально-оценочный характер воздействия искусства на личность, где основную роль играют чувства. Продолжая данную мысль, В.П. Вахтеров в своих педагогических сочинениях характеризует взаимодействие, сочетание чувств и воли. «Лучшим средством для воспитания чувств вообще, для пробуждения чувств красоты, для развития творческого воображения, является само искусство» [5, с. 14], - указывал ученый-психолог Н.Е. Румянцева.

## ЛИТЕРАТУРА

1. Анисимов В.П., Сметанина А.Ю. Арт-педагогическое сопровождение духовно-нравственного развития личности: Монография. – Тверь: Изд-во Твер. гос. ун-т, 2008. – 280с.

2. Бабанский Ю.К., Сластенин В.А., Сорокин Н.А. и др.Педагогика: Учеб.пособие для студентов пед. Институтов. Под ред. Ю.К.Бабанского – 2-е изд., доп. И перераб. – М., Просвящение, 1988 – 479 с.,

3. Болдырев Н. И. Нравственное воспитание школьников: (Вопросы теории).-М.: Педагогика, 1979. - 224с.

4. Болдырев Н.И. Методика воспитательной работы в школе. – М.,1984, с.54

5. Большаков В.П. Культура как форма человечности. Учебное пособие., 2000.- 92 с.

6. Большая Советская Энциклопедия. 3-е изд.кн.1/Ред. А.М.Прохоров.М.: Советская энциклопедия, 1976.2, с. 224

7. Борев Ю.Б. Эстетика. М.: Русь-Олимп: АСТ: Астрель, 2005.-829с.

8. Брунер, Дж. Психология познания: за пределами непосредственной информации / Дж. Брунер; предисл и общ. ред. А.Р. Лурия. -М.: Прогресс, 1977. - 412 с

9. Бычков В.В. Эстетика: Учебник, 2-е издание. - М: Гардарики, 2008-573.

10. Выготский Л. С. Воображение и творчество в детском возрасте. М., 1967.-93с

11. Галин А. Л. Личность и творчество. – Новосибирск, 1989.6. Михайлов Н.Н. О потребности личности в самореализации. Научный доклад высшей школы. // Философские науки, 1982. - № 4.

12. Грибоедова Г.Н. Нравственное воспитание личности школьника: подходы к диагностике. Новокузнецк 2001г.

## ВЛИЯНИЕ ИСКУССТВА НА РАЗВИТИЕ ЛИЧНОСТИ ШКОЛЬНИКА


### АННОТАЦИЯ

В данной статье рассматривается формирование искусствоведческих и эстетических знаний и представлений школьников в процессе восприятия и анализа произведений искусства. Статья оценивает насколько формирование художественного вкуса школьника влияет на формирование его личности.


## SƏNƏTİN TƏLƏBƏ ŞƏXSİYYƏTİNİN İNKİŞAFINA TƏSİRİ


### XÜLASƏ

Bu məqalədə bədii əsərlərin qavranılması və təhlili prosesində məktəblilərin sənətşünaslıq və estetik bilik və ideyalarının formalaşmasından bəhs edilir. Məqalədə şagirdin bədii zövqünün formalaşmasının onun şəxsiyyətinin formalaşmasına necə təsir etdiyi qiymətləndirilir.


## THE INFLUENCE OF ART ON DEVELOPMENT OF STUDENTS' PERSONALITY


### SUMMARY

The article discusses the formation of art history and aesthetic knowledge and ideas of schoolchildren in the process of perception and analysis of works of art. The article evaluates how the formation of a student's artistic taste affects the formation of his personality.

# ONLAYN DƏRSLƏRDƏ TƏLİM GÖSTƏRİCİLƏRİNƏ TƏSİR EDƏN AMİLLƏR

***Məmmədova Aysel Vaqif qızı***
***BDU-nun II kurs magistrantı***
***aysel_mammadova99@mail.ru***

***Açar sözlər:*** onlayn dərs, təlim göstəriciləri, asinxron müzakirə, interfeys dizaynı.
***Ключевые слова:*** онлайн-уроки, показатели обучение, асинхронное обсуждение, дизайн интерфейса.
***Keywords:*** online lessons, training indicators, asynchronous discussion, interface design.

Bu məqalənin məqsədi, onlayn dərslərdə təlim göstəricilərinə təsir edən amilləri müəyyən etməkdir. Pedaqoqlar, tədqiqatçılar və təlimat dizaynerləri onlayn öyrənmənin pedaqoji nəticələrini anlamaq vəzifəsi ilə üzləşirlər. Onlayn dərslərin qiymətləndirilməsi üçün meyarlar, onlayn müzakirələrin yazılı xarakteri, kurs dizaynı və təlimatçı müdaxilələri, öyrənənlərin əsas bilikləri təlimə təsir göstərə bilər [2, s.41].

Bir neçə tədqiqatçı şagirdlərin onlayn dərslərdə iştirak modellərinin fərqli olub-olmadığını araşdırıb. Mason, öyrənənlərin onlayn iştirakında üç fərqli qrupa bölündüyünü aşkar etdi:

- aktiv iştirakçılar;
- gizli axtarış aparanlar (mesajları oxuyan, lakin mesaj göndərməyənlər);
- iştirak etməyənlər [6, s.29].

Tədqiqatçı C.K.Taylor tərəfindən şagirdlərin onlayn dərslərə daxil olmaq və onlara töhfə verməkdə iştirak modelləri, bu iştirak nümunələrinin akademik nailiyyətlərə təsir edib-etmədiyini müəyyən edilmişdir. O, tapdığı üç qrupun adını çəkdi:

4. fəal iştirak qrupu;
5. periferik iştirak qrupu;
6. mərhəmətli iştirak qrupu [7, s.2].

С первого класса успешность протекания процесса адаптации во многом зависит и определяется семейным окружением, ожиданием и выбранным стилем воспитания родителей [1]. Ученые, занимавшиеся изучением данной проблематики, также обратили свое внимание на такой аспект, как влияние развода родителей на успешное приспособление детей к учебному заведению. Результат вышеуказанного исследования показал, что развод родителей имеет прямую связь с плохой успеваемостью, снижением мотивации, самостоятельностью детей, а также с возникновением затруднений в адаптации [2]. Данный результат ясно демонстрирует важность гармоничных внутрисемейных и детско-родительских отношений для социально-психологической адаптации и успеваемости младших школьников.

Темп протекания школьной адаптации учащихся в основном определяется ожиданиями и подходами семьи, когнитивными и социально-эмоциональными особенностями ребенка, степенью совпадения семейных и школьных установок. При отсутствии соотношения

между семейными установками и школьными, у ребенка может сформироваться поведение, которое не приемлемо в образовательном учреждении, в результате чего ребенок начинает чувствовать давление. Данное состояние нередко приводит к срывам и дезадаптации [3].

Воспитание и стиль воспитания, используемые родителями в семье, являются одними из элементов, влияющих на ход развития ребенка и его школьную адаптацию. В процессе воспитания родители часто включают ребенка в трудовые дела, таким образом формируя такие качества, как усидчивость, прилежание, добросовестность, порядок, дисциплина и другие ценные качества, которые необходимы в школе. Данным подходом дети учатся быть самостоятельными, и у них формируется самооценка [4]. Делая основной акцент на воспитании, необходимо отметить стиль воспитания, который имеет прямую связь с процессом адаптации. Часто неправильно выбранный стиль воспитания приводит к затруднению формирования навыков адаптации у ребенка, что в свою очередь нарушает процесс приспособления.

Дети, которые лучше адаптируются к школе в первом классе начальной школы, имеют более высокие успехи в учебе и более высокую самооценку, лучше ладят со сверстниками и реже бросают школу, по сравнению с другими детьми, имеющими проблемы с адаптацией [5, 6]. Исследования ученых показали, что процесс адаптации подвергается влиянию семейных отношений и косвенно влиянию социально-экономических факторов. Родители с низким уровнем социально-экономического состояния часто испытывают экономический стресс, в результате чего, они становятся более пренебрежительными или контролирующими по отношению к своим детям, потому что у них нет сил заниматься ими и заботиться о них [7]. Подобные типы отношения приводят к незрелости и низкой саморегуляции, что формирует более низкий уровень социально-поведенческой компетентности у детей [8, 9]. У детей, родители которых внимательны к их потребностям и проявляют нежное воспитание, вырабатывается доверие к своим родителям. Доверие в детско-родительских отношениях формирует чувство защищенности. Данное чувство защищенности отражается на других отношениях детей, что помогает им ощутить чувство родства со школой и сформировать безопасную готовность адаптироваться и учиться в школе [10, 11].

**Исследование.** Цель исследования состоит в оценке родителями уровня адаптации своих детей, определении особенностей, которые указывают на степень их приспособленности, и указать на важность участия и поддержки родителей в периоде адаптации. Для реализации исследования была использована «Анкета для родителей первоклассников» М. Р. Битяновой [12]. В экспериментальной работе участвовали 25 родителей 1-го и 2 классов, среди них 13 учащихся 1-го класса и 12 учащихся 2-го класса.

Ниже на рисунке 1 дана диаграмма, которая иллюстрирует показатели по анкете М. Р. Битяновой.




Рис.1. Результаты анкеты для родителей первоклассников «Адаптация ребенка к школе» - М. Р. Битяновой.

Результаты исследования определили, что среди 25 учеников 56% школьников полностью адаптированы к новой среде, и связано это с тем, что они успешно приняли школьный режим, часто делятся своими впечатлениями о школе с родителями. Также отмечается, что они довольно самостоятельные в выполнении домашней работы и не нуждаются в помощи.

У 24% школьников было выявлено ВДА – возможная дезадаптация. У данных учащихся наблюдается отсутствие желания посещать уроки, и они без особой охоты участвуют на них, а также имеются трудности в приспособлении к школьному режиму, учащиеся редко делятся своими школьными впечатлениями с семьей. Ответы родителей утверждают, что дети около 35-40 минут тратят на выполнение домашней работы, довольно часто обращаются за помощью и при столкновении с учебной нагрузкой иногда проявляется перенапряжение.

У 20% детей была выявлена полная дезадаптация. Данные ученики испытывают серьезные проблемы в приспособлении к школьному режиму, отсутствие переживания учебных успехов и неудач; как и дети с возможной дезадаптацией, они не предпочитают делиться своими школьными впечатлениями, но даже если это происходит, то в основном преобладают негативные эмоциональные впечатления, учащиеся часто жалуются на одноклассников; выполнение домашних заданий занимает более 45 минут, и часто учащиеся нуждаются в помощи. Необходимо отметить, что в основном дети не бывают настойчивыми в решении проблемы, а сразу же пасуют перед трудностями.

Согласно вышеприведенным результатам участников, при сравнении детей с возможной дезадаптацией и полной дезадаптацией с полностью адаптированными детьми, можно определить основные причины нарушения процесса приспособления у школьников, которые в свою очередь показывают важность роли родителей в данном процессе. В первую очередь необходимо отметить, что по данным исследования, дети с дезадаптаицией, по сравнению с адаптированными детьми, сталкиваются с проблемой приспособления к школьному режиму и ее установкам, так как они кардинально отличаются от того режима, который соблюдался в семье. Исследование также показало, что дезадаптированные дети редко делятся своими школьными впечатлениями независимо от того, что они положительные или негативные, чего нельзя сказать о детях с успешной адаптацией, которые открыты с родителями и предпочитают делиться своими эмоциями и впечатлениями о школе. Необходимо указать, что родители, дети которых имеют проблемы с адаптацией, в своих ответах отметили, что их дети менее самостоятельны и настойчивы перед трудной работой и часто чувствуют перенапряжение

при учебной нагрузке. Опираясь на ответы экспериментальной работы, стоит отметить то, что данные особенности не наблюдаются у детей с полной адаптацией, которые самостоятельны и с легкостью могут находить ошибки в своих работах, а также они более настойчивы в трудной работе.

**Заключение.** Ученые, занимающиеся изучением влияния детско-родительских отношений на приспособление детей к школе, разработали рекомендации, которые направлены на поддержку и помощь родителям младших школьников. К данным рекомендациям относятся [13]:

- Желательно, чтобы родители проходили обучение и посещали занятия, направленные на обогащение знаниями о социально-психологической адаптации, а также получили помощь специалистов;
- Необходимо сформировать благоприятное отношение к познавательной деятельности, поддерживать интерес ребенка и желание учиться;
- Важно проводить больше времени с ребенком, обращать внимание на его физическое и психическое состояние;
- С помощью специалистов необходимо научить ребенка адекватно оценивать себя и других, контролировать агрессию;
- Критика в адрес ребенка должна быть справедливой и строго дозированной;
- Демократический стиль воспитания позволит ребенку научиться самостоятельно принимать решения, воспитывать ответственность в них.

Семья несет особую ответственность, потому что она должна подготовить ребенка к школе и, конечно же, поддержать его успешное начало. Родителям необходимо помочь ребенку найти свое место в коллективе и научиться приспосабливаться к нему и чувствовать себя частью класса. Важно разработать программы для родителей, чтобы помочь правильно подбирать стратегии в воспитании для эффективного и безболезненного приспособления ребенка к школе. Особенно данная помощь необходима для родителей с низким образовательным уровнем и экономическим статусом.

## ЛИТЕРАТУРА


1. Borbelyova, D. Adaptation to the School Environment in Early Elementary Education / D. Borbelyova // Paidagogos. – 2016. – V. 2, № 13. - P. 206 - 228.
2. Nusinovici, S. Impact of parental separation or divorce on school performance in preterm children: A population-based study / S. Nusinovici, B. Olliac, C. Flamant, J.-B. Müller, M. Olivier, V. Rouger, G. Gascoin // PLoS ONE. – 2018. – V. 13(9). URL: https://doi.org/10.1371/journal.pone (accessed: 11.06.2019).
3. Brizuela, B.M. School Adaptation: A Triangular Process / B.M. Brizuela, M.J. Garcia-Sellers // American Educational Research Journal Summer. – 1999. - V. 36, № 2. - P. 345-370.
4. Venelin Terziev., Family's role in the adaptation of children in school., 56th International Scientific Conference on Economic and Social Development – Aveiro, 02-03 July 2020
5. Haynes, N.M., Ben-Avie, M., & Ensign, J. (2003). How social and emotional development add up: Getting results in math and science education. NY: Teachers College Press.
6. Reynolds, A.J. (1989). A structural model of first-grade outcomes for an urban, low socioeconomic status, minority population. Journal of Educational Psychology 81, 594–603.
7. McLoyd, V. C. (1990). The impact of economic hardship on black families and children: Psychological distress, parenting, socioemotional development. Child Development, 61, 311-346.

8. Brooks-Gunn, J., & Duncan, G.J. (1997). The effects of poverty on children. In R. Behrman (Ed.), The Future of Children: Children and Poverty, 7, 55-71.
9. Gurland, S. T., & Grolnick, W. S. (2005). Perceived threat, controlling parenting, and children's achievement orientations. Motivation & Emotion, 29, 103- 121.
10. Deci, E. L., Vallerand, R. J., Pelletier, L. G., & Ryan, R. M. (1991). Motivation and education: The self-determination perspective. The Educational Psychologist, 26, 325-346.
11. Lynch, M., & Cicchetti, D. (1997). Children's relationships with adults and peers: An examination of elementary and junior high school students. Journal of School Psychology, 35,1,81-99
12. Битянова М.Р. Адаптация ребенка в школе: диагностика, коррекция, педагогическая поддержка. – М.: Образоват.центр "Педагогический поиск", 1997
13. Filshtinskaya E., Aborina M., The role of family in the success of the school adaptation of first graders., The scientific heritage No 53 (2020), 72-74

## РОЛЬ СЕМЬИ В АДАПТАЦИИ ДЕТЕЙ МЛАДШЕГО ШКОЛЬНОГО ВОЗРАСТА

***Гусейнова Гюльнара , Джабраилова Раксана***

### АННОТАЦИЯ

В исследовании изучается такой актуальный феномен, как влияние внутрисемейных и детско-родительских отношении на школьную адаптацию. В статье рассматривается, как отношение родителей между собой и к ребенку, а также выбранный стиль и экономический статус, может улучшить или ухудшить процесс приспособления детей младшего школьного возраста. Целью данной статьи состоит в том, что предоставить информацию о роли семьи в школьной адаптации и рекомендации родителям, с помощью, которых они могут помочь своему ребенку легко приспособиться к классу.

## İBTİDAİ MƏKTƏB YAŞLI UŞAQLARIN UYĞUNLAŞMASINDA AİLƏNİN ROLU

***Hüseynova Gülnarə, Cəbrayılova Rəqsanə***

### XÜLASƏ

Tədqiqat ailədaxili və uşaq-valideyn münasibətlərinin məktəbə uyğunlaşmasına təsiri kimi aktual bir fenomeni araşdırır. Məqalədə valideynlərin bir-birinə və uşağa münasibəti, həmçinin seçilmiş tərbiyə üslubu və iqtisadi vəziyyətin ibtidai məktəb yaşlı uşaqların uyğunlaşma prosesini necə yaxşılaşdıra və ya pisləşdirə biləcəyi müzakirə olunur. Bu məqalənin məqsədi məktəbə uyğunlaşmada ailənin rolu haqqında məlumat vermək və valideynlərə uşağının sinifə asanlıqla uyğunlaşmasına necə kömək edə biləcəkləri barədə məsləhət verməkdir.

## THE ROLE OF THE FAMILY IN THE ADAPTATION OF PRIMARY SCHOOL AGE CHILDREN

***Guseynova Gulnara, Jabrayilova Raqsana***

### SUMMARY

The study examines such a topical phenomenon as the influence of interfamilial and parent-child relationships on school adjustment. The article examines how parents' attitudes towards each other and the child, as well as the chosen parenting style and economic status, can improve or worsen the process of adaptation of primary school-age children. The purpose of this article is to provide information about the family's role in school adjustment and tips for parents on how they can help their child adjust easily to the classroom.

# AZƏRBAYCAN AİLƏLƏRİNDƏ YENİYETMƏ VƏ VALİDEYN MÜNASİBƏTLƏRİNİN PSİXOLOJİ TƏHLİLİ

***Həbilova Xatimət Qurban qızı***
***BDU-nun II kurs magistrantı***
***Elmi rəhbər: dos. Azər Mustafayev***
xatimathabilova@gmail.com

***Açar sözlər:*** yeniyetməlik yaş dövrü, "böhranlı dövr", müstəqillik, özünüqiymətləndirmə, yeniyetmə - valideyn münasibəti, uşaqların tərbiyə olunması, həmyaşıdlarla ünsiyyət tələbatı.
***Ключевые слова:*** переходной возраст подростка, "кризисный период", независимость, самооценка, отношения подростков с родительями, воспитание детей, потребность в общении с ровесниками.
***Key words:*** adolescence, "crisis period", independence, self-assessment, adolescent-parent relationship, parenting, communication demand.

Uşaqlıq dövründən yaşlılığa keçid bu dövrün əsasını təşkil edir.Yeniyetmələrdə eqonun qabarması, heç kəsi qəbul etməmə, özünü hamıdan ağıllı hesab etmək və s. kimi xüsusiyyətlər özünü aydın şəkildə biruzə verir. Valideyn üçün də əsas problem məhz övladının aqressiv davranış sərgiləməsi, sıx şəkildə özünü göstərən qeyri-mütənasibliyidir. Valideyn dünənə qədər uşaq saydığı bugünkü yeniyetmə ilə ünsiyyət qura bilməmək, onu idarə edə bilməməkdə çətinlik çəkir. Halbuki, 2-3 il öncə öz arzu və istəklərini asanlıqla həyata keçirə bilirdi. Bu zaman valideyn və övlad arasında mübahisələr yaranır. Valideyn-övlad münasibətləri müşkülə çevrilir".

Yeniyetməlik dövrü həm yeniyetmə üçün, həm də yeniyetmənin ailəsi üçün çətin bir mərhələdir.Bu dövrdə ailə yeniyetməni başa düşməkdə çətinlik çəkirsə, yeniyetmə ətrafındakıların onu başa düşmədiyini düşünür. Valideyn bu dövrdə uşağını nə qədər tanıyarsa və bu mərhələnin xüsusiyyətlərini nə qədər dərindən bilərsə, valideyn-yeniyetmə münasibətləri bir o qədər mülayim olar. Valideynlərin bu mərhələ haqqında məlumatlı olmaqları, lazım gələrsə araşdırıb məlumat toplayaraq bu dövrə uyğun övladıyla münasibət qurması daha yaxşı olardı. Yeniyetməlik dövrünə girmiş şəxs özünü fərqli hiss edir, bir çox problemlərlə qarşılaşır və çox zaman özünü ifadə etməkdə çətinlik çəkir. Bu dövrdə emosionallıq, fəallıq,oyanıqlıq, aktivlik daha çox üstünlük təşkil edir. Bu inkişaf mərhələsində yeniyetmələr çox həssas olurlar və müstəqil olmağa can atırlar. Onların psixoloji əhval-ruhiyyələri münasibətlərə və içərisində yer aldıqları mühitə görə dəyişir [7].

Şəxsiyyətin formalaşmasında ailənin xüsusi ilə valideynlərin rolu əvəzsizdir. Şəxsiyyət sosial mühitdə münasibətlər quraraq, özünü tanıyaraq formalaşmağa başlayır. Ailədə uşağın sosial inkişafına təsir edir. Ailədə uşaqların sosial cəhətdən inkişafı müxtəlif amillərlə şərtlənir, onlardan əsas ikisi aşağıda qeyd olunmuşdur: Birinci tip amillər sırasına ailə münasibətləri ata və ananın münasibəti, valideyn və uşaq münasibəti, bacı və qardaş münasibətləri aiddir. İkinci tip amillər sırasına ailənin maddi vəziyyəti, yaşayış şəraiti, quruluşu, sosial vəziyyəti, cəmiyyətdə yeri daxil edilir.İkinci tip amillər uşaqların tərbiyəsinə müəyyən təsir göstərir. Lakin psixoloji tədqiqatların nəticəsində görünür ki, onlar gənc nəslin tərbiyəsində həlledici rol oynamırlar.

Valideynlə yeniyetmə arasında ən kəskin konfliktlər daha çox erkən yeniyetməlik dövrünə təsadüf edir. Çünki valideyn övladının böyüməsindən xəbərsiz olur. Valideyn hər zamankı tələbkarlıqla övladına yanaşır, amma əvəzində etiraz görür, çaşqınlığa düşür və nə edəcəyini bilmir. Bu vəziyyətdə o, aqressiv davranış nümayiş etdirmək əvəzinə övladının böyüdüyünü qəbul eləsə, vəziyyət onun üçün daha asan olar.

Bir qrup ailələrdə valideynlər övladlarına qarşı cəza üsulu kimi şiddət və zorakılıq tətbiq edir və bunun müsbət nəticə verəcəyini düşünürlər. Lakin belə ailələrdə uşaqda mənəvi psixoloji problemlərin yaranma riski daha böyük olur. Bəzi ailələrdə uşaqları ana və ya ata ilə qorxudurlar. Bu da "yeniyetmə faciəsi" ilə nəticələnir. "Çünki belə ailələrdə uşaqda ana-ata sevgisini qorxu əvəz edir. Valideyn övladına sevgi, güvən, inam vermirsə, övlad tədricən ailədən və evdən uzaqlaşır. Bu da onun sonradan küçələrdə yaxşı olmayan qruplara qoşulmasına səbəb ola bilər".

Mövcud psixoloji ədəbiyyatlarda yeniyetmələrin özünüqiymətləndirmələrinin tiplərindən biri kimi qeyd olunmuşdur ki, uşağın "özünüqiymətləndirməsi" ananın verdiyi qiymətin birbaşa təkrarı kimi özünü göstərir. Adətən uşaqlar özlərində birinci növbədə valideynlərinin onlar haqqında qeyd etdikləri keyfiyyətləri görürlər. Əgər valideynlər tərəfindən neqativ surət təlqin olunur və uşaq bu nöqteyi - nəzəri qəbul edirsə, onda özünün yararsızlıq, pislik hissinə üstün gəlməsinə qarşı davamlı neqativ münasibət formalaşır. Uşağın ailədən kənar sosial təmas dairəsinin məhdudluğu valideyninin güclü nüfuzu sayəsində verdiyi qiymət onun üçün yeganə daxili özünüqiymətləndirməsinə çevrilir [1].

"Bu gün Azərbaycanda ailə institutunun inkişafında müəyyən çətinliklər var. Bu da ailə dəyərlərinin zəifləməsinə gətirib çıxarır". Bu gün Azərbaycan ailəsində vəhdət hissinin yaradılması, valideyn-uşaq münasibətlərinin düzgün qurulması çox vacibdir: "Məsələn, uşaqların hərəsi bir kompüterin arxasına keçir, valideyn isə qəzet oxumağa başlayır. Bu isə onunla bağlıdır ki, müasir uşaqlar bir çox baxımdan əvvəlki nəsillərdən fərqlənirlər: "Hər şeydən əvvəl, onlar texnologiya və informasiya əsrinin uşaqlarıdır. İndi artıq uşaqlarda hələ dünyaya gəlmədən, ana bətnində ultrasəslər vasitəsilə frekanslara qarşı vərdiş formalaşır. Dünyaya gəldikdən sonra isə özünü çoxsaylı texniki avadanlığın əhatəsində olan uşaqda texnologiyaya qarşı əl və beyin vərdişi formalaşır.

Bu mənada indiki uşaqların bu qədər yeni texnologiyaları tez qavramaları təəccüblü görülməməlidir. Lakin bu prosesin uşaqların inkişafı və sosializasiyası baxımından mənfi fəsadları da mövcuddur. Ələlxüsus, uşaqların vaxtlarının böyük hissəsinin kompyuter ve mobil telefonların ekranları qarşısında oyun oynayaraq, söhbət edərək keçirmələri həm böyük vaxt itkisinə səbəb olur, həm də onların virtual məkana bu qədər aludəçiliyi onları real həyatdan uzaqlaşdırır". Uşağın yetkin şəxsiyyət ola bilməsi üçün cəmiyyətlə bütünləşməsi vacibdir: "Bu mərhələlər arasında ailə, məhəllə və yaxud ətraf mühit və məktəb üçbucağı əhəmiyyətli rol oynayır. Bu gün diqqətlə nəzər yetirdikdə hər üç mərhələdə də ciddi nöqsanlar özünü büruzə verir.

Valideynlər vaxt çatışmazlığı və başqa obyektiv və subyektiv səbəblər ucbatından bu funksiyanı yerinə yetirməkdə çətinlik çəkirlər. Onların boşluğunu televiziya, internet kimi qeyri-formal qurumlar doldurur. Halbuki ailənin funskiyasını bu qurumların əvəzləməsi mümkün deyil. Nəzərə alsaq ki, bu gün televiziya kanallarında yayımlanan proqramlar nəinki uşaqların inkişafına xidmət edir, əksinə, onların həm zehni, həm də mənəvi baxımdan korlanmasına səbəb olur ki, bu zaman da vəziyyətin nə qədər təhlükəli olduğu aşkar olur. Bunun nəticəsində uşaqlarda natamamlıq kompleksi, aqressiya, eqoizm inkişaf edir.

Azərbaycan ailələrinin böyük qismində biz belə bir tendensiyaları- valideyn-övlad münasibətlərindəki pərdə, tərəflərin bir-biri ilə ünsiyyətə girə bilməməsi, hər hansı problemi olduqda onu valideynə açıq şəkildə etiraf edə bilməməsi və s. müşahidə edə bilərik. Övladı maddi cəhətdən təmin etmək heç də valideynlik missiyasını tam yerinə yetirmək kimi başa düşülməməlidi. Təəssüflər olsun ki, valideynlərin bir qismi düşünür ki, bir planşet, ya da ki smartfon telefon almaqla övladlarımızı susdura bilərik. "Sus, böyüklərin yanında danışmaq eyibdi" kimi fikirlər illərdir ki,bizim beynimizə yeridilib. Valideyn-övlad münasibətlərinin

normal şəkildə qurulmaması,ailədaxilindəki disharmoniya gələcəyə də öz dağıdıcı təsirini göstərir. Zaman keçdikcə anidən arzuolunmaz mühitə düşən, təkbaşına dəf edə bilməyəcəyi hər hansı çətinliklə üzləşən övlad ilk olaraq ona yardım əli uzadacaq şəxsə, valideyninə müraciət edə bilmir. Çünki qorxu, çəkingənlik hissi onu valideynindən uzaqlaşdırır. Nəticədə problemlər və bundan yoğrulan faciələr ortaya çıxır. Övlad insan alverinin, ya narkobiznesin, ya da ki bir başqa yolun qurbanı olur. Bu gün baş verən son neqativ hadisələrində də maraqlı bir tendensiya diqqətdən qaçmır. Yeniyetmələrin böyük qismi öz fikirlərini, ürək sözlərini, etirazlarını belə, Facebook-da paylaşır. Bir qismi üstü örtülü, bir qismi isə üstü açıq formada valideynini günahlandırır. Əlbəttə, bütün bunlar Azərbaycan cəmiyyətində valideyn-övlad münasibətlərindəki problemlərin olmasından xəbər verir.

Azərbaycan reallığında "Valideyn-övlad münasibətləri ya həddindən artıq açıq olur, ya da ki qapalı olur. Belə hallarda uşaqlar böyüklərdən qorxub çəkinirlər. Problemlər, böyük fəsadların yaranmaması üçün valideyn kifayət qədər övladı ilə münasibətdə yaxın olmalıdır. Belə olarsa, övlad valideyni ilə daha açıq olar, sirlərini bölüşüb onlardan məsləhət alar". Uşağa öz məsuliyyətini hiss elətdirmək lazımdır ki, getdikcə o, bunu daha yaxşı dərk etsin. Bu baxımdan nəinki valideynlərin, o cümlədən cəmiyyətin də üzərinə məsuliyyət yükü düşür.

## ƏDƏBİYYAT

1. Seyidov S.İ., Həmzəyev M.Ə. Psixologiya - Bakı, 2007. Səh 493
2. Qədirov Ə.Ə. Yaş Psixologiyası - Bakı 2008. Səh 327
3. Ebra Uraloğlu. “Ergenin anne-baba ve yakın arkadaşı ile bilgi paylaşma ve sır saklama davranışı ile psikolojik esenlik hali: Değişken ve birey odaklı inceleme”- 2017
4. Pınar Erçelik. “Beliren yetişkinlik döneminde temel psikolojik ihtiyaçların karşılanmasının ve kimlik statülerinin iki sosyal çevrede incelenmesi.”- 2016
5. Esen Dinçel. “Ergenlik dönemi gelişimsel ödevleri ve psikolojik problemler” -2006
6. Vəliyev M.V.,Mustafayev A.M.,İnkişaf və yaş psixologiyası Bakı 2016, Səh 156.
7. Кон. И.С. Психология старшеклассника. 1982
8. Выготский Л.С., Педагогическая психология М.,1991 480с.

# AZƏRBAYCAN AİLƏLƏRİNDƏ YENİYETMƏ VƏ VALİDEYN MÜNASİBƏTLƏRİNİN PSİXOLOJİ TƏHLİLİ

***Xatimət Həbilova***

## XÜLASƏ

Məqalədə Azərbaycan ailələrində yeniyetmə-valideyn münasibətlərinin ümumi şəkildə psixoloji təhlili verilmişdir. Yeniyetməlik insan həyatındakı ən kritik dövrlərdən biridir və bu dövrdə valideynlərin onlara qarşı duyarlı olması, diqqətdən və qayğıdan kənar buraxmaması ön planda verilmişdir.

# ПСИХОЛОГИЧЕСКИЙ АНАЛИЗ ПОДРОСТКОВ И РОДИТЕЛЬСКИХ ОТНОШЕНИЙ В АЗЕРБАЙДЖАНСКИХ СЕМЬЯХ

***Хатимат Габилова***

## АННОТАЦИЯ

В статье проводится общий психологический анализ подростково-родительских отношений в азербайджанских семьях. Подростковый возраст – один из самых критических периодов в жизни человека, и важно, чтобы родители чутко относились к ним и не игнорировали их.

# PSYCHOLOGICAL ANALYSIS OF TEENAGERS AND PARENTS 'RELATIONS IN AZERBAIJANI FAMILIES

***Khatimat Habilova***

## SUMMARY

The article provides a general psychological analysis of adolescent-parent relations in Azerbaijani families. Adolescence is one of the most critical periods in a person's life, and it is important that parents are sensitive to them and do not ignore them.

# UŞAQLARIN PSİXİ, FİZİKİ VƏ İNTELLEKTUAL İNKİŞAFINDA OYUNLARIN ROLU

***Həsənova Aytəkin İlqar qızı***
***BDU-nun II kurs magistrantı***
***ahasanova2029@outlook.com***
***Elmi rəhbər: p.ü.f.d. Aslanova Şahnaz***

***Açar sözlər:*** Uşaq, oyun, psixoloji inkişaf, intellektual inkişaf, fiziki inkişaf.
***Ключевые слова:*** Ребенок, игра, психологическое развитие, интеллектуальное развитие, физическое развитие.
***Keywords:*** Child, play, psychological development, intellectual development, physical development.

Uşaqların psixi, fiziki və intellektual inkişafında vıə xüsusilə onların məktəbə hazırlanmasında, sadə əmək vərdişlərinə yiyələnməsində, istedad və qabiliyyətlərinin üzə çıxarılmasında, sağlamlığının inkişafında, yaradıcılıq qabiliyyətlərinin və həyati bacarıqların formalaşmasında oyunun son dərəcə böyük əhəmiyyəti vardır.

Ümumtəhsil üzrə təhsil Konsepsiyasında (kurikulum) yazılır: *"Ümumtəhsil müəssisələrində uşaqların fiziki inkişafi, sağlamlığının qorunması və təhlükəsizliyi təmin olunmalıdır. Şagirdlərdə sağlamlığın möhkəmləndirilməsi, orqanizmin müqavimət qabiliyyətinin yüksəldilməsinin əhəmiyyəti haqqında anlayışlar yaradılmalıdır. Fiziki inkişafa böyük, kiçik və hissi (sensor) motor hərəkətlərinin inkişafı daxildir. Uşaqların hərtərəfli inkişafı üçün daha səmərəli vasitələrin müəyyən edilməsi, gigiyenik tələblərə cavab verən şəraitin yaradılması (rasional qidalanma, düzgün təşkil edilmiş rejim, fiziki mədəniyyət məşğələləri və s.), bunların qarşılıqlı əlaqədə olması, düzgün qamət, hərəkət texnikası, hərəkətli oyunların qaydaları, eləcə də, hərəkət vərdişləri ilə yanaşı, uşaqlarda fiziki keyfiyyətlərin inkişaf etdirilməsi təmin olunmalıdır"(1).*

Uşaqların həyatının ilk illərində fiziki və psixi, idraki, sosial, kommunikativ, estetik inkişafın düzgün təşkilində, uşaqların məktəbə təliminə hazırlanması sahəsində ilk növbədə ailənin və məktəbəqədər təhsil müəssisələrinin üzərinə böyük vəzifələr düşür. Oyun uşaq fəaliyyətinin çox vacib və ciddi vasitələrindən biri olmaqla uşaqların hərtərəfli inkişafına, psixoloji, fziloloji və intellektual inkişafına xidmət edir. Oyun uşağı bir şəxsiyyət kimi formalaşdırır. Oynamayan uşaq inkişaf edə bilməz. Oyun uşağın ilk həyati tələbatıdır. Bu dəyərli fikirlər ümumi şəkildə klassiklərimizin əsərlərində, müasir pedaqoqlarımız əsrlərində öz əksini tapmışdır.

Ölkəmizin möhtərəm prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" Sərəncamında təhsilin inkişafına xüsusi diqqət və əhəmiyyət verilmiş və bu deəəyərli dövlət sənədində də uşaq oyunlarının əhəmiyyəti, uşaq həyatının mənalı məzmunlu təşkili qeyd edilmişdir(2).

Oyun uşaqların zehni və psixi fəaliyyətini inkişaf etdirməklə uşaq qabiliyyətinin bütün növlərinin formalaşmasına, istedadının və yaradıcılıq potensialının inkişafına xeyli dərəcədə müsbət təsir göstərir.

Oyun zamanı uşaqların ətraf aləm haqqında anlayışları genişlənir və zənginləşir. Oyun vasitəsilə uşaqlarda dostluq, vətənpərvərlik, əməksevərlik kimi müsbət xarakter keyfiyyətləri formalaşır. Bu baxımdan oyunun müsbət tərbiyəvi, əxlaqi əhəmiyyəti də vardır. Uşağın gələcək müvəffəqiyyətinin əsasları kiçik yaşlardan məhz oyun prosesində qoyulur.

Məktəbəqədər dövrdə uşaqların həyatında oyun aparıcı fəaliyyət növü hesab edilir. Uşaqlarda formalaşdırmaq istədiyimiz keyfiyyəti oyun vasitəsilə həyata keçirə bilərik.

Məşhur pedaqoq alimlər, psixoloqlar haqlı olaraq uşaqlıq dövrünü "oyun dövrü" adlandırmışlar.*Oyunların uşaqların həyatında böyük rol oynadığını qeyd etmiş, oyunlarının mahiyyəti və əhəmiyyətini xarakterizə edərək yazmışlar ki, oyunun məktəbəqədər yaşlı uşaqlar üçün bir təlimdir, tərbiyədir, hərtərəfli inkişaf üçün ciddi bir fəaliyyət növüdür. Oyun böyüməkdə olan orqanizmin təbii tələbatıdır. GöBöyük yazıçı Maksim Qorki oyunun uşaq həyatı üçün zəruriliyini yüksək qiymətləndirərək yazırdı ki, uşaq on yaşına qədər əyləncələr tələb edir və onun tələbi bioloji, psixoloji cəhətdən qanunidir. O, oynamaq istəyir, o, bütün şeylərlə oynayır, onu əhatə edən dünyanı hər şeydən əvvəl və hər yeşdən asan oyunda görür və oyunla dərk edir. Oyunu uşaqların düşüncə və iradəsinin inkişfında birinci məktəbdir.(3, s. 68).*

Görkəmli pedaqoq K.D.Uşinski uşağın oyun fəaliyyətini yüksək qiymətləndirərək belə yazır: *"Uşaq üçün həqiqi həyat çox mürəkkəbdir, o, burada heç bir müstəqilliyə malik deyildir. Oyunda isə o, öz qüvvəsini tətbiq edir, yoxlayır. O, özünün yaratdığının üzərində müstəqil olaraq hakimlik edir"(4, 122).*

K.D.Uşinski qeyd edirdi ki, oyun izsiz keçmir, o, cəmiyyətdəki adamların xarakterini, davranışını özündə əks etdirir. O, uşaqlarla birgə keçirilən oyunu daha yüksək qiymətləndirir, onun ictimai münasibətləri əks etdirdiyini qeyd edirdi (4, s. 123). Bununla yanaşı, Uşinski müstəqil həyata keçirilən oyunlara da diqqətlə yanaşır, belə oyunlara rəhbərlik, ona əxlaqi istiqamət verilməsini zəruri bilirdi. O, qeyd edirdi ki, oyun uşaqları psixoloji və inlellektual cəhətdən inkişaf etdirir və həyata hazırlayır. Onun pedaqoji görüşlərində fiziki tərbiyə və oyunlar mühüm yer tuturdu. O, hərəki oyunlara daha çox üstünlük verirdi. Oyun prosesində uşaqlar ictimai həyata hazırlanır. Bu cəhətdən xalq oyunlarının təsir qüvvəsi daha güclü olur (4, s. 152).

Məlumdur ki, kiçik məktəbyaşlı məktəblilər fiziki cəhətdən o qədər də möhkəm olmurlar. Onların ürək-damar və sinir sistemi, dayaq hərəkət aparatı, tənəffüs, görmə və eşitmə üzvləri formalaşmış olmur. Ona görə də kiçik yaşdan başlayaraq həmin üzvlərin, sistemlərin inkişaf etdirilməsində, onların funksional fəaliyyətinin artırılmasına xüsusi diqqət yetirilməlidir. Oyun isə uşağın sağlamlığını, fiziki hazırlığını, ümumi inkişafını təmin edən, orqanizmin həyat fəaliyyətini artıran mühüm vasitələrdəndir.

Oyun yalnız uşaqların fiziki hazırlığına deyil, o, həm də zehni qabiliyyətinin inkişafına, estetik zövrün yaranmasına, psixoloji hisslərin inkişafına kömək edir ki, bu da baş beynin ali hisslərinin fəaliyyətini gücləndirir, uşaqlarda psixoloji iradə və psixoloji dayanqlıq yaradır.

Oyun uşaqların psixoloji cəhətdən əhvali-ruhiyyəsini yaxşılaşdırır, emosionallığını və həssalığını artırır. Bütün bunlar isə fiziki hərəkətlərin düzgün icrasına, verilən tapşırıqların yerinə yetirilməsinə musbət təsir göstərir.

Görkəmli pedaqoq A.S.Makarenko "Tərbiyə haqqında mühazirələr" adlı kitabında oyunun uşağın həyatındakı rolunu belə qiymətləndirir və yazırdı:

*"Yaşlı adamın həyatında iş, fəaliyyət, qulluq nə kimi əhəmiyyətə malikdirsə, uşağın da həyatında oyun o qədər vacib və əhəmiyyətlidir. Uşaq oyunda necədirsə, böyüyəndən sonra işdə də bir çox cəhətdən elə olacaqdır. Ona görə də gələcək xadimin tərbiyəsi hər şeydən əvvəl oyun prosesində keçir (5, s.134).*

A.S.Makarenko oyunla işin arasında o qədər də fərq olmadığını göstərir: *"Yaxşı oyun yaxşı işə bənzəyir, pis oyun pis işə bənzəyir. Bu bənzəyiş çox böyükdür: cəsarətlə demək olar ki, pis iş yaxşı işdən daha artıq pis oyuna oxşayır"(5,s.132).* O, uşaqlıq illəri üçün oyunu normal və təbii hesab edərək, uşaqlarda oyuna olan həvəsi təmin etmək vacib olduğunu həmişə vurğulayırdı. O, qeyd edirdi: uşağa *"...nəinki oynamaq üçün vaxt vermək, hətta oyunu onun bütün həyatına nüfuz etdirmək lazımdır" (5,s. 134).*

Bundan əlavə, oyun uşaqda kollektivçilik, dostluq, təşəbbüskarlıq, qoçaqlıq, dözümlülük və vətənpərvərlik kimi ən yüksək mənəvi - əxlaqi keyfiyyətlər də yaradır. Görkəmli pedaqoq A.S.Makarenko uşaqların inkişafında oyunun çox böyük rol oynadığını qeyd edərək, oyunu yaşlıların həyatında əməyin oynadığı rola bərabər hesab edir. Böyük pedaqoq bu məqsədlə yazırdı: *"Yaşlı adamın həyatında iş, fəaliyyət, qulluq hansı əhəmiyyətə malikdirsə, uşağın da həyatında oyun bir o qədər vacib və əhəmiyyətlidir" (5, s.134).* Uşaq oynayaraq öyrənir, onun həyata münasibəti, baxışları tədricən dəyişir, intellektual səviyyəsi inkişaf edir.

Deyə bilərik ki, oyun uşaqların yaşadıqları və dəyişməli olduqları aləmi dərketmə, öyrənmə vasitəsidir. Oyun bir fəaliyyət növü olmaqla uşağın yetişməsində, psixoloji, fiziki, əqli və əxlaqi inkişafında müstəsna əhəmiyyətə malikdir. Oyun vasitəsilə uşaq müəyyən bacarıq və vərdişlərə yiyələnir, həm də müstəqil nəticə çıxarmağa məcbur olur. Onun həyata münasibəti, baxışları dəyişir, inkişaf edir .

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasında məktəbəqədər təhsilin proqramı (kurikulumu). Bakı, 2012, 72 s.
2. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət strategiyası" 24 oktyabr 2013-cü il tarixli sərəncamı/ Xalq qəzeti, 25 oktyabr 2013-cü il.
3. Qorki A.M. Həyatın dibində. Bakı: Yazıçı, 2012. 276 s.
4. Uşinski K. D. Seçilmiş pedaqoji əsərləri –Bakı, Azərnəşr, 1953.–302səh.
5. Makarenko A.S. Seçilmiş əsərləri. Bakı: Maarif, 1983, 398 s.

## UŞAQLARIN PSİXİ, FİZİKİ VƏ İNTELLEKTUAL İNKİŞAFINDA OYUNLARIN ROLU

***Həsənova Aytəkin***

## XÜLASƏ

Uşaqların psixi, fiziki və intellektual inkişafında və xüsusilə onların məktəbə hazırlanmasında, sadə əmək vərdişlərinə yiyələnməsində, istedad və qabiliyyətlərinin üzə çıxarılmasında, sağlamlığının inkişafında, yaradıcılıq qabiliyyətlərinin və həyati bacarıqların formalaşmasında oyunun son dərəcə böyük əhəmiyyəti vardır. Oyun uşaqların zehni və psixi fəaliyyətini inkişaf etdirməklə yanaşı, uşaq qabiliyyətinin bütün növlərinin formalaşmasına, istedadının və yaradıcılıq potensialının inkişafına xeyli dərəcədə müsbət təsir göstərir. Uşağın gələcək müvəffəqiyyətinin əsası kiçik yaşlardan oyun prosesində qoyulur.

## РОЛЬ ИГР В ПСИХОЛОГИЧЕСКОМ, ФИЗИЧЕСКОМ И УМСТВЕННОМ РАЗВИТИИ ДЕТЕЙ

***Гасанова Айтекин***

## АННОТАЦИЯ

Игра имеет большое значение в умственном, физическом и интеллектуальном развитии детей, и особенно в их подготовке к школе, приобретении простых трудовых навыков, раскрытии талантов и способностей, развитии здоровья, формировании творческих способностей и жизненной навыки. Помимо развития умственной и интеллектуальной деятельности детей, игра оказывает существенное положительное влияние на

формирование всех видов способностей детей, развитие одаренности и творческого потенциала. В процессе игры с раннего возраста закладывается фундамент будущих успехов ребенка.

## THE ROLE OF GAMES IN THE PSYCHOLOGICAL, PHYSICAL AND INTELLECTUAL DEVELOPMENT OF CHILDREN

***Hasanova Aytekin***

**SUMMARY**

Play is of great importance in the mental, physical and intellectual development of children, and especially in their preparation for school, the acquisition of simple work habits, the discovery of talents and abilities, the development of health, the formation of creative abilities and life skills. In addition to developing children's mental and intellectual activity, play has a significant positive impact on the formation of all types of children's abilities, the development of talent and creative potential. The foundation of a child's future success is laid in the process of play from an early age.

## FİLOLOGİYA

# ФОРМЫ РЕЧЕВОГО ОБЩЕНИЯ

***Санани Гюляр, старший преподаватель кафедры русского языка по естественным факультетам, БГУ***

***Ключевые слова:*** Диалог, разговор, деловой, быт, мимика, молчание, жест, речь.
***Açar sözlər:*** Dialoq, danışıq, işgüzar, məişət, mimika, susmaq, işarə, nitq.
***Keywords:*** Dialog, conversation, business, life, facial, expressions, silence, gesture, speech.

Все мы знаем, что в общении друг с другом – в семье, на работе, в школе – существуют определенные правила речевого поведения. Однако, на практике оказывается, что люди не знают как поддержать, помочь, ободрить собеседника. Это происходит видимо, потому, что никто этому не учит: литературы, в какой можно было бы найти советы, как вести беседу, очень мало.

С очки зрения речевого воспитания наибольший интерес представляют диалоги – семейные, деловые.

Но, к сожалению, о том, какой должна быть речь, например, между старшими и младшими в семье, в быту, на службе – между руководителем и подчинёнными, между друзьями и знакомыми и др., исследований почти нет.

То же можно сказать о бытовых диалогах, включая разговоры на улице между незнакомыми людьми, в транспорте, в магазине, в разных сферах обслуживания – в парикмахерской, прачечной и т.д. Умение вести диалог надо учить и учиться.

Это осознают теперь не только специалисты – филологи, но и все, кто заинтересован в повышении культуры общения.

Представители старшего поколения говорят, что раньше общение людей было легче и проще, потому что многие бытовые и житейские ситуации регулировались устоявшимися традициями.

В статье Роботовой А.С. рассматриваются диалог, монологи и молчание, как педагогические явления.

Автор считает, что внимание современных преподавателей ВУЗ-ов и ученых с идеей диалога и диалоговым технологиям одновременно сопровождаются снижением интереса к монологу.

Однако, у монолога есть свои бесспорные достоинства. Диалог и монолог должны взаимодействовать в педагогическом процессе.

Внимание заслуживает и молчание, как компонент речевой деятельности, обладающий уникальным педагогическим смыслом.

Автор делает вывод о необходимости  системного изучения диалога, монолога и молчания в педагогике высшей школы.

К форме речевой деятельности можно отнести зрительное и слуховое восприятие собеседнике, которое имеет огромное значение как фактор, определяющий восприятие речи. Например: «Кончается, - сказал доктор. И лицо доктора было таким серьёзным, что жена больного поняла «»кончается» в смысле – «умирает». Здесь понимание смысла слова определяется восприятием лица собеседника.

Мимика и жест иногда играют роль реплики в диалоге, заменяя словесное выражение. Часто мимическая реплика даёт ответ раньше, чем речевая.

Мимика и жест имеют часто значение, сходное со значением интонации. Фраза может иметь разное значение в зависимости от той интонации, с котором мы её произносим.

Мимика и жест, являясь постоянными спутниками всяких реагирований человека, оказываются постоянными сильным сообщающим средством.

Когда смотришь на сцену, или на оратора в бинокль, не только лучше видишь, но и лучше слышишь и понимаешь, потому что лучше видишь.

Мы инстинктивно говорим смотря друг на друга; ребёнок часто поворачивает ручками лицо матери, когда говорит и ждёт ответа.

Именно это инстинктивное стремление видеть друг друга при разговоре и использовать, таким образом, все возможности понимания послужило, может быть, одной из причин обычая, о «неприличности» сидеть спиной к кому-нибудь в гостиной, которая и есть место для беседы.

Зрительное и слуховое восприятие собеседника играют большую роль в диалогическом речевом общении.

В диалогах нужно учитывать и бытовой шаблон. Всем известен разговор двух кумушек, из которых одна глухая: «здорова, кума. – На рынке была; - Аль ты глуха? – Купила петуха; - Прощай, кума. – Полтину дала».

Разговор этот пародирует ответы глухих «невпопад», но тем не менее в «ответах» глухой можно найти известную последовательность, «закономерность», они в известной мере «правильны», но правильны не по отношению к вопросам, а по отношению к определённому бытовому положению.

В сущности, глухая сделала одну первоначальную ошибку: она забыла, это при встрече здороваются; остальные же её ответы были рассчитаны на шаблонную последовательность вопросов: где была, что купила, сколько дала, и в этом отношении догадка её очень жизненна, и «разговор» должен был бы протекать так: Здорово, кума, - здорово, кума где была? – на рынке была. Что купила? – купила петуха. Сколько дала? – полтину дала; первая кума и не догадалась бы, что вторая – глухая, разговор прошёл бы вполне благополучно.

Другой пример подобного же диалога: я кричу утром из своей комнаты: «А сегодня сильный мороз!» – мне отвечают: «Уже десять часов»; ответ «невпопад» объясняется тем, что обычно первое, что от меня слышат по утрам, это – который час.

Итак, можно сделать вывод: при диалогическом общении бытовая обстановка есть один из факторов восприятия речи, имеющий сообщающее значение.

Диалогическая речь является наиболее употребительной формой речевого общения. Для участия в диалоге требуется умение говорить и понимать речь на слух. Реплики диалога требуют быстрой реакции. От быстроты реакции на реплики зависит эффективность беседы.

В обычной жизненной обстановке диалогическая речь чаще всего является неподготовленной, спонтанной, протекает без определённого плана.

Диалогическая речь бывает эмоциональна. Эмоциональность выражается, прежде всего, интонацией, обильным использованием восклицательных предложений, междометии, частиц, фразеологических единиц, соответствующих жестов, мимики и других средств.

Например: - Подполз он ближе к разбитой птице, и прошипел он ей прямо в очи: что, умираешь? – Да, умираю! – ответил Сокол, вздохнув глубоко. –Я славно пожил!.. Я знаю счастье !.. Я храбро бился (М. Горький).

В этом примере эмоциональность выражается обилием восклицательных предложений.

Речь существует на протяжении тысячелетий. Это часть нашего мышления, ведь человеку свойственно облекать свои мысли в слова. Однако речевая деятельность не однородна; её можно разделить на четыре вида. Каждый из нас стремится быть понятым окружающими людьми. Поэтому иногда речевую деятельность называют общением или коммуникацией.

Устная речь имеет ряд особенностей: она спонтанна, отличается упрощённым синтаксисом, богатством невербальных (несловесных) средств выразительности: мимика, жесты, тембр голоса и т.д.

Говорящий видит адресата речи и ориентируется по его реакции, подстраивая речь под собеседника.

Из устных жанров беседа отличается большей непринужденностью по сравнению с лекцией. Но любой устный жанр создаётся и тотчас воспринимается. Он не живёт долго.

Если надо, чтобы текст был доступен на протяжении долгого времени, его записывают. В этом случае мы имеем дело уже с письменной речью.

Письменная речь отличается большей обдуманностью. Она может многократно корректироваться в процессе создания. Но пишущий не видеть своего адресата и не может определить, насколько его речь понятна. Он не может дополнить высказывание мимикой или телодвижением. Поэтому пишущий стремится выражать свои мысли предельно понятно.

Устной речи свойственны такие характеристики, как спонтанность, эмоциональность, упрощенный синтаксис. Однако в зависимости от жанра они могут проявляться в большей или меньшей степени.

Например, в дружеской беседе речь говорящего обычно представляет собой неподготовленный текст, который рождается непосредственно в процессе говорения. Но, допустим, лекция профессора в университете также является говорением, но она обычно подготавливается заранее, эмоциональность её ниже, чем у дружеской беседы, а разговорный стиль ей не свойственен – обычно лекций создаются в научном стиле.

Слушание или аудирование – ещё один из основных видов речевой деятельности. Он предполагает внимательное восприятие речи другого человека на слух. Это требует значительной сосредоточенности. Во многих пословицах отразилось уважительное отношение к слушанию: «Слова-серебро, молчание - золото», «у человека один рот и два уха, значит он должен вдвое больше слушать, чем говорить» и т.д.

Чтение – это восприятие текстов написанных от руки или напечатанных. Это основная форма получения информации в ряде случаев. Например, значительная часть учебной информации воспринимается именно в процессе чтения.

Именно таким образом мы знакомимся с произведениями художественной литературы.

Обычно выделяют три вида чтения: ознакомительное, поисковое изучающее.

В ознакомительном случае, читающий стремится получить общую информацию о содержании текста.

В поисковом случае читающий просматривает текст с целью найти интересующую информацию, какая часто не является основным содержанием текста.

Изучающее чтение предполагает скрупулезное восприятие всех вопросов, поднятых в тексте со стопроцентным усвоением материала.

Письмо – это процесс создания собственного письменного текста. Итак, создаются тексты разных функциональных стилей, в том числе разговорного.

Приведем примеры жанров, существующих в рамках этого вида речевой деятельности.

Разговорный стиль: дружеское письмо, записка. Научный стиль: диссертация, энциклопедическая статья.

Официально – деловой стиль: заявление, акт.

Публицистический стиль: очерк, полемическая статья.

Стиль художественной литературы: поэма, сказ.

Речевая деятельность есть объект, изучаемый лингвистикой и другими науками: язык есть специфический предмет лингвистики, реально существующий как составная часть объекта и моделируемый в виде особой системы для тех или иных теоретических или практических целей.

Виды речевой деятельности лежат в основе процесса речевой коммуникации. От того, насколько у человека с формированы навыки этих видов речевой деятельности, зависит эффективность, успешность речевого общения.

Речь – неотъемлемая часть социального бытия людей, необходимое условие существования человеческого общества.

Речь используется в процессе совместной трудовой деятельности для согласования усилий, планирования работы, проверки и оценки её результатов.

Речь является необходимым условием познавательной деятельности человека. Благодаря речи человек усваивает, приобретает знания и передаёт их.

Речь – средство воздействия на сознание, выработки мировоззрения ф

вкусов. В этой функции речь используется для того, чтобы повлиять на взгляды и убеждения людей, изменить их отношение к определенным фактам и явлениям действительности, склонить их к действиям и поступкам.

Речь – средство удовлетворения личных потребностей человека в общении к определённой группе лиц. Человек, будучи по своей природе существом социальным, не может жить вне связи с другими людьми: он должен советоваться, делиться мыслями, переживаниями, сопереживать, искать понимания и т.д. В целом речь имеет основополагающее значение становлении человеческой личности.

Важнейшим достижением человека, позволившим ему использовать общечеловеческий опыт, как прошлый, так и настоящий, явилось речевое общение, которое развивалось на основе трудовой деятельности.

**ЛИТЕРАТУРА**

1. В.И.Аннушкин – Хорошее слово – половина счастья. Жур. Культура речи, 1990, №2.
2. Н.И.Формановская – Теория общения и речевой этикет. Русский язык за рубежом, №1, 2009 г.
3. Л.П. Якубинский – О диалогической речи. Избранные работы. Язык и его функционирование. М., 1985.
4. А.Н.Щукин – Русский язык в диалогах. М., Русский язык, 1984.
5. Л.Г.Павлова – Спор, дискуссия, полемика. М., 1991.

# ФОРМЫ РЕЧЕВОГО ОБЩЕНИЯ

***Санани Гюляр***


## АННОТАЦИЯ

В статье говорится о важности речи, которая существует на протяжении тысячелетий. Это часть нашего мышления. Человеку свойственно облекать свои мысли в слова. Однако, речевая деятельность не однородна а разнообразна. Из этой статьи можно сделать вывод о необходимости системного изучения диалога, монолога, молчания, мимики и жеста в педагогике высшей школы.


# NİTQİN KOMMUNİKASİYA FORMALARI

***Sənani Gülər***


## XÜLASƏ

Bu məqalədə nitqin vacibliyi və minillər ərzində mövcudluğu haqqında söhbət gedir. Nitq təfəkkürümüzün hissəsidir. Çünki insan öz fikrini sözlərlə aydın ifadə edir. Lakin nitq fəaliyyəti oxşar yox, müxtəlifdir. Bu məqalədə dialoqun, monoloqun, susmağın, mimikanın, işarənin ali məktəblərdə sistemli öyrənilməsinin lazım olduğu göstərilir.


# FORMS OF SPEECH COMMUNICATION

***Sanani Gular***


## SUMMARY

In this article is spoken about the significance of has existed for thousands of years, It’s part of our thinking ability, It is natural for a man to express his thoughts into words, Ho waver, speech activity is not homogeneous. From this article we can reach a conclusion about the necessity of systematic study of dialogue, monologue, silence, facial expression, gesture at the high school pedagogy.

**UOT: 821.512.162**

# MƏHƏMMƏD ƏMİN DİLSUZ YARADICILIĞININ SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ

***Samirə Gəncəli***
***Əlyazmalar İnstitutu Böyük elmi işçi***
***samiregenceli@gmail.com***

***Açar sözlər:*** Cənubi Azərbaycan, Məhəmməd Əmin Dilsuz, Təbriz, qəsidə, qəzəl.
***Ключевые слова:*** Южный Азербайджан, Мухаммед Амин Дилсуз, Тебриз, гасыда, газель.
***Keywords:*** South Azerbaijan, Mohammed Amin Dilsuz, Tabriz, Kasida, gazelle.

***Giriş.*** XIX əsrdə Şimali Azərbaycanda olduğu kimi, Cənubi Azərbaycanda da ədəbiyyatda klassik poeziyanın ənənələri inkişaf etdirilirdi. Bununla bərabər ədəbiyyatda yeni təmayüllər də özünü göstərməkdə idi. Tədqiqatçılar yazırlar: "XIX əsrin ikinci yarısında ötən dövrlərdə olduğu kimi poeziya, xüsusilə onun lirik formaları Cənubi Azərbaycan ədəbi prosesində mühüm mövqe tutdu. Bu mərhələdə yaradıcılıq aləminə gələn Əbülhəsən Raci, Mirzə Əlixan Ləli, Mirzə Mehdi Şükuhi, Məhəmməd Bağır Xalxali, Məhəmməd Hidəci, Hacı Rza Sərraf, Seyid Rza Sabir, Məhəmməd Əmin Dilsuz, Rürğəm, Məhəmməd Xəlifə Aciz Nazim Ərdəbili və b. Şərq və Azərbaycan şeirinin zəngin tarixi təcrübəsinə, demokratik ənənələrə istinad edir, onun mütərəqqi keyfiyyətlərindən bol-bol bəhrələnirdilər. Bu özünü klassik poeziyanın mövzularına, ümumibəşəri ideyalarına, bədii təsvir və ifadə vasitələrinə varislikdə qabarıq surətdə təzahür etdirirdi. Bununla yanaşı ədəbi mərhələdə orta əsrlərin dini-mistik məfkurə axınlarının təsvirindən qurtarır, sufizmin, hürufizmin, panteizmin simvolik ifadələri və təsvirləri, akademik Mirzə İbrahimovun dediyi kimi, "insan qəlbinin təbii hiss və həyəcanlarını bildirmək üçün işləyirdi" (1, s.642).

Bu deyilən xüsusiyyətlər xeyli dərəcədə dövrünün istedadlı şairi Məhəmməd Əmin Dilsuza da aiddir. O, klassik ədəbiyyatla bağlı olan, klassik poeziya janrlarında şeirlər yazan, bununla bərabər, əsərlərində XIX əsrin, yeni dövrün gerçəkliklərini əks etdirən sənətkar olmuşdur. Şairin həyatı barədə əlimizdə çox az məlumat vardır. Görkəmli Azərbaycan ədəbiyyatşünası Məhəmmədəli Tərbiyət "Danişməndani-Azərbaycan" əsərində Dilsuzun tanınmış ustad sənətkar olması barədə yazır: "Ustad" ləqəbi ilə tanınmış Məhəmməd Əmin Təbrizi Azərbaycanın məşhur söz ustadlarından olmuşdur. Məşhur şairlərdən olan Mirzə Süruş və Mirzə Məzhər onun şagirdlərindəndir. Dilsuzun şeir divanı türk və fars dillərində Təbrizdə dönə-dönə çap edilmişdir" (2, s.83).

Şairin Təbrizdə doğulduğu, ömrü boyu burada yaşadığı, burada vəfat etdiyi məlumdur. Şeirlərindən onun yoxsulluq içində yaşadığı, keşməkeşli bir ömür sürdüyü məlum olur. Bəzi mənbələrdə Məhəmməd Əminin 1834-cü ildə vəfat etdiyi göstərilib. Üç cildlik "Cənubi Azərbaycan ədəbiyyatı" antologiyasında qeyd olunmuşdur ki, şair XIX əsrin ikinci yarısında yaşayıb-yaratmışdır. M.Ə.Dilsuzun harada təhsil alınası barədə məlumatımız yoxdur. Şeirlərindən görünür ki, o, dövrünün savadlı, bilikli şəxslərindən olmuşdur.

Dilsuz təvazökar bir adam olmuş, özünü şair sələflərindən aşağı tutmuşdur.

Şair ana dilində gözəl şeirlər yazdığı kimi fars dilində də yazıb yaratmışdır. O, bir sıra şeirlərində ana dilində yazdığını qürurla elan edir.

Dilsuz bəzi ana dilində yazdığı şeirlərə farsca beytləri məharətlə əlavə etmişdir.

Son vaxtlara qədər Şimali Azərbaycanda şairin şeirlər toplusu bir kitab halında nəşr edilməmişdi. 2006-cı ildə Malik Qarazadə onun şeirlərini müasir əlifbada ön söz, izahlar və lüğətlə çap etdirmişdir. Kitabın elmi redaktoru filologiya elmləri doktoru, professor Tərlan

Quliyevdir. Kitabı çap etdirən 1870-ci ildə Təbrizdə nəşr edilən daşbasma kitabından istifadə etmişdir. Kitabın birinci hissəsi farsca yazılmış şeirlər toplusudur.

İkinci hissə Məhəmməd Əmin Dilsuzun ana dilində divanından ibarətdir. Divan bötövlükdə 149 səhifəni əhatə edir. Sonda onun h.1287, m.1870-ci ildə Hacı Molla Abbas Əli adlı şəxsin sifarişi ilə yazılıb tamamlandığı göstərilir.

**Əsas hissə**

Məhəmməd Əmin Dilsuzun ana dilli divanı onun əsərlərinin mövzu dairəsi, janr əlvanlığı barədə fikir söyləməyə imkan verir. Görkəmli ədəbiyyatşünas alim Firudun bəy Köçərli "Azərbaycan ədəbiyyatı" əsərində şairin yaradıcılığının ən önəmli cəhətləri barədə fikri söyləmişdir. O, yazır: "Dilsuzun əsli təbrizlidir. Əşarü kəlamından belə məlum olur ki, Dilsuz bir fəqirü xoşxülqü haqsevən bir şəxs imiş:

Hoqqı gör, haqqı danma, haq söz danış,
Bəsdir, ey tirəqəlbi-kəcbünyad!" (3, s. 388).

Doğrudan da, həqiqətpərəstlik şairin yaradıcılığının ən səciyyəvi xüsusiyyətlərindəndir. Dilsuz şeirlərində xalqının, sıravi insanların, zəhmətkeşlərin vəziyyətinin təsvirinə xüsusi fikir vermiş, özünün yoxsul həyatından da bəhs etməyi unutmamışdır. Firudun bəy Köçərli şeirlər toplusu-divanı, müraciət etdiyi janrlar barədə yazır: "Dilsuzun divanında şairin öz əhvalından və seyrü sülukundan və tarixi təvəllüdü vəfatından bir xəbər yoxdur. Amma belə anlaşılır ki, şair hicrətin 1250 sənələrində (m.1834) hali-həyatda imiş və özü dəxi müsmin halında vəfat edibdir. Buna şahid özünün bir para əşarıdır.

Məcmuəsinin başından, iyirminci səhifəyə kimi dərc olunan kəlamın cümləsi fars dilindədirvə onlar Həzrət Əlinin mədhində yazılan qəsidələrdən və Kərbəla müsibətinə dair növhəvü sinəzənlərdən ibarətdir. İyirminci səhifədən başlanır türk dilində yazılan qəsidə, növhə və sinəzənlər və ədəbiyyatın şair qismləri qəzəliyyat, müxəmməs, saqinamə, mədhnamə, rübaiyyat, bahariyyat və qeyrə.

Türk lisanında yazılan qəsidələrin bərgüzidəsi xatəmül-ənbiya mədhində və həzrət Əlinin şənində tənzim olunan qəsidələrdir. Ən gözəl şivədə və rəvan dildə yazılan "Hədisi-mərdi – qəssab"dır ki, onda cənab Əmirin bir para möcüzələri bəyan olunur. Burada şairin təb və elminin dərəcəsini göstərməkdən ötrü hamam hədisi ibtidasından neçə sətir yazmağı lazım gördük (3, s. 391).

Şairin keşməkeşli həyat yaşaması əsərlərindən görünür. Onun həyatı maddi ehtiyac içində keçmişdir. Dolanmaq üçün müxtəlif peşələrə əl atmış, lakin heç bir yerdə bəxti gətirməmişdir. O gah baqqallıq, gah dükançılıq etmiş, gah da tütün satmaqla məşğul olmuş, ancaq güzəranını kifayət qədər təmin edə bilməmişdir. Şairin şeyxülislama müraciətən yazdığı qəsidəsindən görünür ki, o bir erməniyə görə həbsxanaya da düşmüş və hətta nökərçilik də etmişdir. Şair bir erməniyə görə həbsxanaya salınması və dükanda işlədiyi zaman şəriklərinin ona yardım edəcəklərini vəd etmələrinə baxmayaraq çətin məqamda onu qoyub qaçmalarını "Gərək" rədifli tərcibəndində təəssüf hissi ilə yada salır:

Çün şəriklər qoydular yalquz dükanda bəndəni,
Aşinalar söylədilər qoymarıq pulsuz səni,
Biri təvid eyliyib, birisi etdi kisəni,
Xəlqə xatircəm olub həm belə urduq daməni,
Başladuq borclulara "vəzvariyyatü" "əmməni"
Axırı zindanə saldı bəndəni bir erməni,

Böylə dərdi xəlq ara daim bəyan etmək gərək (4, s.211).

Təəssüf ki, şairin doğum və ölüm tarixləri dəqiq məlum deyil.

**Əsas hissə**

Qeyd etdiyimiz kimi, Məhəmməd Əmin Dilsuz lirik-aşiqanə, dini, ictimai, məişət mövzularında şeirlər yazmışdır. Şairin lirik-aşiqanə şeirlərində klassik irsin, xüsusilə də Füzuli yaradıcılığının güclü təsiri özünü göstərməkdədir. Qəzəllərində, o, tez-tez özünü və sevgilisini klassik Şərq poeziyasının ənənəvi obrazlarına bənzədir, bununla eşqində çəkdiyi hicran qəminin böyüklüyünü göstərməyə çalışır:

Dilbərim, Leyli, yəqin, sən kimi məstanə degil,
Qeys aləmdə bu gün mən kimi divanə degil.
Gərçi bu aləm ara çox gözəlin şöhrəti var,
Baxaram heç biri sən kimi dürdanə degil.
Dolanım başına, öz əhdini inkar eləmə,
Hər kim öz əhdini inkar edə, mərdanə degil (4, s.142).

Göründüyü kimi, eşqdə sədaqət Dilsuzun lirik-aşiqanə şeirlərində təbliğ etdiyi əsas xüsusiyyətdir. Tədqiqatçılar şairin yaradıcılığındakı bu cəhətə xüsusi fikir vermişlər: “M.Ə.Dilsuz əhdi-peymanı sındıran aşiqləri namərdlikdə ittiham edirdi. Ona görə də insan təbiətinin ali keyfiyyəti məhəbbətin birinci şərti olaraq sevgilisinə əhdə vəfa etməyi tövsiyə edirdi (1, s.651).

Lirik şeirlərində Məhəmməd Əmin dünyəvi məhəbbətdən danışır, real, həyati gözəlləri vəsf edir. O, sevgilisini gözəllikdə günəşlə müqayisə edir, təəccüb etdiyini bildirir ki, necə olur ki, günəş onun məşuqəsinin gözəlliyini görüb utandığından gizlənmir:

Görəndə böylə rüxi aftabi-aləmtab,
Təəccüb eylərəm, etməz nədən hicab, çıxar.
Ze bəs ki, atəşi-eşqi edibdü sinəm dağ,
Əgərçi çak qulum, bu cigər kabab çıxar.
Əgərçi şükuh qılam yar cövrü zülmündən,
Bu qəmli sivədən hər ləhzə bir kitab çakar (4, s.143).

Qəzəllərindən birində şair sevgilisinin nazından danışır, lakin ondan şikayət etmir, o eşqi yolunda daha çox əzab çəkmək istədiyini bildirir:

Dilbərim, qəmzə oxun at, bu bişirin canə dəgə,
Bəlkə can şövq ilə ol navəki-peykanə dəgə.

Etmədim şükrini vəslin bu fəraq atəşinə,
Yanaram böylə ki, bir şöləyə pərvanə dəgə (4, s.145)

Şairin lirik qəhrəmanı aşiq eşqi, sevgilisi uğrunda hər cür əzab çəkməyə, fədakarlıqlara hazırdır. Əslində bu cür əzablar onun üçün böyük bir ləzzət mənbəyidir. Dilsuz sevgilsinin etinasızlığı ilə güzəranının ağır keçməsini birləşdirir, bununla vəziyyətinin nə qədər çətin olduğunu anladır:

Günüm qara, əməlin nalə, dilbərim birəhm,
Yoxumdu kimsənə yetsün bu gündə imdadə.
Ze bəs ki, sübhü məsa ağlaram fəraqində,
Dönüb gözüm yaşı manəndi-şətti-Bağdadə (4, s.146).

Dilsuz qəzəlinin misralarında daxili qafiyələrdən məharətlə istifadə edir ki, bu da şeirin daha da axıcı oxunaqlı olmasına yardım edir:

Ey məh, nolu bir bax mənə sari, səm Tari!
Salma nəzəründən məni-zari, səni Tari!

Əğyar ilə yar olmagilə, durma, oturma,
İncitmə məni-zari-fikari, səni Tari! (4, s. 148).

Dilsuzun qəzəllərinin həcmi nisbətən böyükdür, onun 15, 20, daha çox beytlərdən ibarət qəzəlləri vardır. Şairin elə qəzəlləri vardır ki, gözəlin ayrı-ayrı bədən üzvlərinin, gözlərinin, qaşlarının, saçının və s. vəsfinə həsr edilmişdir.

Məhəmməd Əmin bir sıra şeirlərində təbrizli olduğunu, təsvir etdiyi əhvalatların məhz Təbrizdə baş verdiyini xüsusi olaraq vurğulayır ki, bu da onun əsərlərinə yaşadığı dövr haqqında bir sənəd xüsusiyyəti verir. Şair Təbriz şeyxül, islamına ünvanladığı şeirinə maraqlı bir forma tapmışdır. O, yoxsulluğu ucbatından buğda ala bilmədiyini, aclığa məruz qaldığını belə ifadə edir: Şeyxülislma müraciət edir ki, hara gedirəmsə buğda məndən qaçır, indi də sənün anbarındadır. Pulsuz məni yaxın qoymur. Mən onu məhkəməyə vermək istəyirəm:

Deyir: əl vurma çəkub səbt qapandaridən.
Günəh heç kəsdə degil, dirhəmü dinardədir.
Neçə müddətdi əlimdən qaçıb ol zalimi-dur,
Duymuşam indi sorağın, sizin anbardədir.

İltimasım budu səndən, tutub ol səng dili,
Verəsən bəndəyə çox qəsdi dili-zaridədir.
Aparım mən də dəgirmanə, onun başın əzim,
Dönmüyüb ta ki, dəgirman, nə qədər karidədir (4, s.163).

Azərbaycan ədəbiyyatında Molla Pənah Vaqif, Qasım bəy Zakir, Mirzə İsmayıl Qasir və bir sıra digərlərinin şeir yazaraq imkanlı şəxslərdən nəsə istəmələri məlumdur. Bu şeirdə isə Dilsuz yoxsulların əlinədn qaçıb varlıların, şeyxülislamın anbarına girən, daha doğrusu, kasıbları deyil, varlıları sevən buğdadan danışır. Başqa sözlə, bu şeir XIX əsr Azərbaycan satirasının dəyərli nümunələrindəndir. Xüsusi olaraq qeyd edək ki, Məhəmməd əMin satirik şair kimi böyük istedada malik olan bir sənətkar olmuşdur. Görkəmli ədəbiyyatşünas alim Firudun bəy Köçərli "Azərbaycan ədəbiyyatı" adı ilə tanınan əsərində bildirir ki, XIX əsr ədəbiyyatımızın digər görkəmli nümayəndəsi Seyid Əzim Şirvani onun əsərini oxumuş və ondan təsirlənmişdir: "Mərhum Seyid Əzim Şirvani dəxi Dilsuz kimi fəqir olduğundan buğdadan zəfəranə şikayət edib onun sorağına düşür və Mahmud ağanın anbarında onu tapır və ol cənabdan ilhah edib deyir...

Məlum olur ki, Hacı Seyid Əzim Dilsuzun buğdanın haqqında yazdığı əşarını oxuyub, nəzirə şəbkində haman məzmunda özü dəxi Mahmud ağadan buğda təmənna edibdir. Amma Hacı Seyid Əzim əşarı Dilsuzunkundan rəvan və abdardır" (3, s. 390-391).

Məhəmməd Əmin Dilsuzun müxəmməs janrında yazdığı şeirləri də diqqətəlayiqdir. Bu şeirlərdən şairin müxəmməs yazmaq sahəsindəki ustalığı aşkar şəkildə görünməkdədir. Dilsuzun müxəmməsləri lirik-aşiqanə, ibrətamiz-nəsihətamiz və satirik mövzulardadır.

Lirik-aşiqanə müxəmməslərindən birində şair əvvəldən axıra qədər məşuqəyə müraciət edir, onun gözəlliyini, mənəvi-əxlaqi keyfiyyətlərini vəsf edir. Real, həyati gözələ həsr edilmiş bu şeir axıcılığı ilə seçilir.

Məstanə sözün nərgisi-şəhlayə bərabər,
Əbrulərün həm bir gecəlik ayə bərabər,
Müjganlarım səfləri yağmayə bərabər,
Məhtabi-cəmalın yədi-beyzayə bərabər,
Hüsnün çəməni olmuş əcəb baği-gülüstan (4, s.186).

Şairin "Ey əzizan bir yaman dərd içrə zarü müstərəm" misrasıyla başlanan müxəmməsi cəmiyyətdəki nöqsanları ifşa edən möhtəşəm sənət əsəridir. Dilsuz Təbriz camaatını, bütün peşə sahiblərini bir-bir nəzərdən keçirir onların hamısının əməlindəki nadürüstlükləri, hiyləni, haramı göstərir, belə qərara gəlir ki, bütün bunların əsas səbəbi insanlarda inamın, mənəvi-əxlaqi dayaqların yox olmasıdır. Müəllif kədərlə deyir ki, bu nöqsanları desəm, məni ağılsızlıqda ittiham edəcəklər, sussam, məni təkəbbürlü adlandıracaqlar.

Bəndlərdən birində şairin ittihamı çox sərt səslənir: Əgər bunlar müsəlmandırlarsa, mən kafərəm:

Müxtəsər, əlvatini gördüm təmamən bivüqar,
Bir-birinə rəng urarlar hiyləsazü əxzü kar,
Gər danışırsan deyərlər: əqli yoxdur, etməz ar,
Dinmisən, söylər təkəbbürdür, edin ondan fərar,
Gər müsəlman olsa bunlar, bilgilə mən kafərən (4, s. 193)

Məhəmməd Əmin Dilsuz "Bütün tüccarilərin" rədifli iri həcmli müxəmməsində tacirlərin hiyləgərliklə insanları soyaraq, varlanmaq həvəsi ilə haram işlərə qarışdıqları, hər cür mənəvi-əxlaqi normalardan imtina etdikləri kəskin satirik qələmlə ifşa edilir:

Adın hacı qoyub hiylələr eylər bu qədər,
Xəlq eşitsün ki, dəgüb haciyə on şahi zərər,
Əjdaha tək hamının malını kamınə çəkər,
Ya Seyid Həmzədə Ya müctəhid evində keçər,
Həftəvü ruzü məhü sali bu tüccarlərün (4, s. 194).

Məhəmməd Əminin həyatı boyu ağır güzəran keçirdiyini onun bir sıra şeirlərindən öyrənirik. O, bu mövzulu şeirlərində zəmanədən adamların, həyatdan onu əhatə edən insanların etibarsızlığından, haqsızlıqlardan, yalnız şəxsi mənfəətə əsaslanmasından şikayətlənir və bu cür adamları tənqid atəşinə tutur. Dilsuz şeirlərində yorulmadan göstərir ki, cəmiyyətin mənəvi-əxlaqi əsasları pozulmuşdur və belə bir cəmiyyətdə yaşamaq çox çətindir.

Dilsuzun dini mövzulu şeirlərini əsasən qəsidə, sinəzən, növhə, mərsiyə janrlarında yazmışdır.

Şairin tərcibənd, müstəzad, bahariyyə, saqinamə janrlarında yazdığı dəyərli şeirləri vardır.

**Nəticə**

Məhəmməd Əmin Dilsuz XIX əsr Cənubi Azərbaycan ədəbiyyatının ən istedadlı nümayəndələrindən olmuşdur. Onun həyatı doğum və ölüm tarixləri haqqında dəqiq məlumatımız olmasa da bilirik ki, şair Təbrizdə doğulmuş, ömrü boyu burada yaşamış burada da vəfat etmişdir. Dilsuz əsasən lirik-aşiqanə, nəsihətamiz-ibrətamiz və satirik mövzularda şeirlər yazmışdır. Şair lirik şeirlərində klassik poeziyanın, xüsusilə də Füzulinin ənənələrini davam etdirmişdir. Məhəmməd Əmin satirik şeirlərində Təbrizin, demək olar ki, bütün təbəqələrini, bütün peşə sahiblərini tənqid atəşinə tutur. Cəmiyyətdə mənəvi-əxlaqi dəyərlərin əhəmiyyətini itirdiyini bildirir .

Məhəmməd Əmin Dilsuz qəzəl, qəsidə, növhə, sinəzən, mərsiyə, müxəmməs, bahariyyə, saqinamə, tərcibənd, müstəzad janrlarında dəyərli şeirlər yazmışdır.

## ƏDƏBİYYAT


1. Azərbaycan ədəbiyyatı tarixi. Altı cilddə. Dördüncü cild. Bakı: “Elm”, 2011, 860 s.
2. Tərbiyət Məhəmmədəli. Danişməndani-Azərbaycan. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1987, 409s.
3. Köçərli Firudun bəy. Azərbaycan ədəbiyatı. İki cilddə. İkinci cild. Bakı: “Elm” , 1981, 460 s.
4. Dilsuz Məhəmməd Əmin. Seçilmiş əsərləri/Transliterasiya, ön söz, izah və lüğətin müəllifi: Malik Qarazadə. Bakı: “Çıraq”, 2006, 244s.


## MƏHƏMMƏD ƏMİN DİLSUZ YARADICILIĞININ SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ

***Gəncəli Samirə***

## XÜLASƏ


XIX əsr Cənubi Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri də Məhəmməd Əmin Dilsuz olmuşdur. Şairin həyatı barədə məlumatımız çox azdır. Bildiyimiz odur ki, şair Təbriz şəhərində dünyaya gəlmiş, ömrü boyu burada yoxsulluq içində yaşamış, burada da vəfat etmişdir. Bəzi mənbələrdə Məhəmməd Əminin 1834-cü ildə vəfat etdiyi göstərilir. Üç cildlik “Cənubi Azərbaycan ədəbiyyatı” antologiyasında göstərilir ki, Dilsuz XIX əsrin ikinci yarısında yaşayıb-yaratmışdır.

Məhəmməd Əmin Dilsuzun həyatı və mühiti haqqında danışarkən onun əsərlərinə müraciət etməli oluruq. Əsərlərindən məlum olur ki, şair yoxsul həyat sürmüş, başına çoxlu bəlalar gəlmişdir. Məhəmməd Əminin harada təhsil alması barədə məlumatımız yoxdur. Şeirlərindən görünür ki, o, dövrünün savadlı, bilikli şəxslərindən olmuşdur.

M.Ə.Dilsuz təvazökar bir adam olmuş, özünü sələflərindən aşağı tutmuşdur

Şair ana dilində gözəl şeirlər yazdığı kimi, fars dilində də yazıb yaratmışdır. O, bir sıra şeirlərində ana dilində yazdığını qürurla elan edir. Dilsuz bəzi ana dilində yazdığı şeirlərə farsca misraları məharətlə əlavə etmişdir.

Son vaxtlara qədər şairin şeirlər toplusu bir kitab halında Şimali Azərbaycanda çap edilməmişdi. 2006-ci ildə Malik Qarazadə onun şeirlərini müasir əlifbada, ön söz, izahlar və lüğətlə çap etdirmişdir. Kitabın elmi redaktoru filologiya elmləri doktoru, professor Tərlan Quliyevdir. Kitabı çap etdirən 1870-ci ildə Təbrizdə nəşr edilən daşbasma kitabdan istifadə etmişdir. Kitabın birinci hissəsi farsca yazılmış şeirlərdən ibarətdir. İkinci hissə Məhəmməd Əmin Dilsuzun ana dilində divanından ibarətdir. Divan bütövlükdə 149 səhifədən ibarətdir.

Sonda onun h.1287, m.1870-ci ildə Hacı Molla Abbas Əli adlı şəxsin sifarişi ilə yazılıb tamamlandığı göstərilir. Malik Qarazadə bu kitabı müasir əlifbaya çevirmişdir.

M.Ə.Dilsuz lirik-aşiqanə, dini mövzularla bərabər cəmiyyətdəki nöqsanları, ədalətsizlikləri tənqid edən şeirlər də yazmışdır. Bir sıra şeirlərdə onun yoxsul həyatı təsvir olunmuşdur.

Şair qəsidə, mərsiyə, növhə, sinəzən, qəzəl, müstəzad, müxəmməs, tərcibənd janrlarında şeirlər yazmışdır

## ХАРАКТЕРНЫЕ ОСОБЕННОСТИ ТВОРЧЕСТВА МУХАММЕД АМИНА ДИЛСУЗА

***Гянджали Самира***

## АННОТАЦИЯ

Мухаммед Амин Дилсуз является одним из выдающихся представителей южноазербайджанской литературы XIX века. Мы имеем очень мало сведений о жизни поэта. Мы знаем, что он родился в Тебризе, всю жизнь прожил в этом городе и здесь же умер. Некоторые источники показывают, что Мухаммед Амин умер в 1834 году. В трехтомной антологии южноазербайджанской литературы говорится, что Дилсуз жил и творил во второй половине XIX века.

Говоря о жизни и окружении Мухаммед Амина Дилсуза приходится обратиться к его произведениям. Из его произведений узнаем, что поэт жил бедно, пережил немало бед. У нас нет сведений об образовании Мухаммед Амина. Из стихов становится ясно, что поэт был одним из самых образованных людей своего времени.

М.А. Дилсуз был скромным человеком, считал себя тенью своих предшественников в поэзии. В своих стихах он с гордостью заявляет, что свои произведения пишет на родном языке. Поэт писал свои стихи еще и на персидском языке. В ряде своих стихов на родном языке он искусно добавил строки на персидском языке. До последнего времени стихи поэта не были изданы отдельной книгой в Северном Азербайджане. В 2006 году Малик Гаразаде издал на современном алфавите его произведения отдельной книгой с предисловием, комментариями и словарем. Научным редактором книги был доктор филологических наук, профессор Тарлан Гулиев. Издатель использовал тебризскую литографированную книгу 1870 года. Первая часть книги состоит из стихов на персидском языке. Вторая часть состоит из дивана Мухаммед Амина Дилсуза на родном языке. В этом диване всего 149 страниц. В конце отмечено, что этот диван переписан 1870 году по заказу Гаджи Молла Аббаса Али. Малик Гаразаде издал этот диван на современном алфавите.

М.А.Дилсуз наряду с лирическо-любовными, религиозными стихами писал еще и стихи, критикующие пороки общества. В ряде стихов говорится о его бедной жизни. Поет писал свои стихи в жанрах гасыда, марсия, новха, синазан, газель, мустазад, мухаммас, таржибанд.

# CHARACTERISTIC FEATURES OF THE WORK OF MUHAMMAD AMIN DILSUZ

***Ganjali Samira***

## SUMMARY

Muhammad Amin Dilsuz is one of the outstanding representatives of the South Azerbaijani literature of the XIX century. We have very little information about the poet's life. We know that he was born in Tabriz. He lived in this city all his life and died here.  Some sources show that Muhammad Amin died in 1834. Some sources show that Muhammad Amin died in 1834. The three-volume anthology of South Azerbaijani literature says that Dilsuz lived and worked in the second half of the XIX century.

Speaking about the life and environment of Muhammad Amin Dilsuz, we have to turn to his works. From his works we learn that the poet lived poorly, went through a lot of troubles. We have no information about the education of Mohammed Amin. From the verses it becomes clear that the poet was one of the most educated people of his time.

M.A. Dilsuz was a modest man, considered himself a shadow of his predecessors in poetry. In his poems, he proudly declares that he writes his works in his native language. The poet also wrote his poems in Persian. In a number of his poems in his native language, he skillfully added lines in Persian. Until recently, the poet's poems were not published in a separate book in Northern Azerbaijan. In 2006, Malik Garazade published his works in the modern alphabet as a separate book with a preface, comments and a dictionary. The scientific editor of the book was Doctor of Philology, Professor Tarlan Guliyev. The publisher used a Tabriz lithographed book from 1870. The first part of the book consists of verses in Persian. The second part consists of the divan of Mohammed Amin Dilsuz in his native language. There are only 149 pages in this sofa. At the end it is noted that this sofa was copied in 1870 by order of Haji Molla Abbas Ali. Malik Garazade published this sofa in the modern alphabet. M.A. Dilsuz, along with lyrical, love, religious poems, also wrote poems criticizing the vices of society. A number of verses speak of his poor life. The poet wrote his poems in the genres of kasida, mersiyanova, sinazan, gazelle, mustazad, Muhammad, tarjiband.

**UOT: 82-1.512.162**

# ƏMİN ABİD MÜTƏLLİBZADƏNİN POETİK YARADICILIĞI BARƏDƏ

***Nağıyeva Zinaida***
***AMEA Əlyazmalar İnstitutu, müşayiətçi***
**zinaida.nagiyeva@mail.ru**

***Açar sözlər:*** Azərbaycan, XX əsr, yaradıcılıq,şeir.
***Ключевые слова:*** Азербайджан,XX век,творчество,стихотворение
***Keywords:*** Azerbaijan, 20th century, creativity, poem

XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatşünaslığının inkişafında mühüm rol oynamış görkəmli ədəbiyyat tarixçisi, folklorşünas, qorqudşünas, nəzəriyyəçi və tənqidçi Əmin Abid Mütəllibzadə (1898-1938) həm də "Gültəkin" imzası ilə şeirlər yazmışdır. Qırx illik ömrünün iyirmi ildən çoxunu elmi, ədəbi-bədii fəaliyyətə həsr etmiş ədib ilk gənclik illərindən şeir yazmışdır. Türkiyədə təhsil alarkən onun şeir yaradıcılığı daha geniş vüsət almışdır. Qeyd edək ki, Əmin Abid Türkiyədə iki dəfə olmuş, ilk dəfə 1919-1922-ci illərdə İstanbul Darülmüəllimində təhsil almışdır. Ə.Abid vətənə döndükdən sonra təhsilini davam etdirmək, "Azərbaycan türklərinin ədəbiyyatı tarixi" adlı əsər yazmaq üçün ikinci dəfə Türkiyəyə gedir. 1922-1926-cı illərdə, o, burada həm İstanbul Universitetində təhsil alır, həm də nəzərdə tutduğu tədqiqatı tamamlayır, digər əsərlərini yazır. Şair Türkiyədə Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra mühacirət etmiş ziyalılarla daha ətraflı tanış olur. Türkiyənin "Yeni Qafqasiya" jurnalında, "İstiqlal uğrunda" məcmuəsində "Gültəkin" imzasıyla çap etdirdiyi şeirlərində, o, xalqın istiqlal arzularını tərənnüm edir, sovet rejiminin mahiyyətini açır. Azərbaycanın siyasi mühacirətinin təşkilatlanmasında bu şeirlərin də rolu olmuşdur. "Azərbaycan istiqlalı" (1919), "Sevgili Bakıya" (1924), "Bayrağım və istiqlalım" (1924), "Vətənim və eşqim" (1924), "Qürbətdə bayram" (1925), "Moskva" (1924), "Çeka" (1924), "Azərbaycan gəncliyinə" (1925), "Qızıl rus şairinə" (1926), "Canavar" (1925) və s. şeirlərində müstəqilliyini itirmiş xalqın azadlıq ideyaları təbliğ edilir, işıqlı gələcəyə inam ifadə olunur. Tədqiqatçılar göstərirlər ki, bu əsərlər çətin şəraitdə istiqlal ideyalarını yaşatmış, unutmağa qoymamışdır: "Uzun müddət bu şeirlər Azərbaycan mühacirətinin ideoloji, siyasi və mənəvi təşəkkülündə Mayak rolunu oynamışdır" (1, s.5). M.Ə.Rəsulzadə "Çağdaş Azərbaycan ədəbiyyatı" adlı məqaləsində Gültəkinin şeirlərini təqdir etmiş, burada milli inqilab mübarizəsinin nəşidələrini gördüyünü yazmışdır (2, s.81).

Ə.Abidin Türkiyəyə qədərki poetik yaradıcılığında iki ədəbi məktəbin – "Füyuzat" və "Molla Nəsrəddin"in təsiri görünməkdədir. Onun kiçik həcmli şeirlərində N.Kamal, Ə.Həmid, T.Fikrət, M.A.Ərsoy, M.Ə.Yurdaqul və başqalarının təsiri duyulmaqdadır. Əmin Abidin satirik şeirlərinə "Molla Nəsrəddin" ruhu hakim olmuşdur. Onun şeirlərində ictimai motivlər, azadlıq və istiqlalçılıq duyğuları, xalqın mübarizə əzminin, dəyanətinin təsviri və tərənnümü mühüm yer tutur:

Könül, bəsdir daha, artıq oyan bu xabi-qəflətdən,
Özünü sən də qurtar bunca zillətdən, zəlalətdən,
Bu gün bir öylə dəmdir kim, himmət eylə himmət ilə,
Özün türk oğlu türk əlbət xilas eylə əsarətdən (3, s.8).

Şair bir sıra şeirlərində I Dünya Müharibəsi zamanı məğlub vəziyyətə düşmüş Osmanlı dövlətinin, yerli əhalinin halından narahatlıq ifadə olunur. Onun 1917-ci ilin 11 avqustunda yazdığı "Türkün dərdi" şeirində oxuyuruq:

Qərb istəməz türkün gözəl simasında
Qalibiyyət təbəssümü hiss olunsun.
Qərb istəməz türk ocağı, türk dünyası
Mənəviyyat günəşilə işıqlansın.
Qərb istəməz türkün gözəl bağçasında,
Maarifin əlvan gülü çiçəklənsin (4, s.10).

Əmin Abid xalqın azadlığı, müstəqilliyə gedən yolunda onun tarixi keçmişindən güc almağa, böyük türk dünyası ilə fəxr etməyə çağıran şair olmuşdur. "Qafqasiya" adlı şeirində, o, vətənini "Oğuz xanın ölkəsi", "türk diyarı" adlandırır:

Xarab olan əyalətlər,
Parçalanan doğma yurdlar, -
Türkün, türkün deyil bəlkə?...
Bu gün insafsız qartalın kölgəsində yaşamaqda,
Unutmuşlar Timurçini, Atillanı, Orxon bəyi (4, s.14).

"İnsafsız qartal" dedikdə müəllif Azərbaycan, eləcə də bir çox türk ellərini işğal etmiş, bayrağında ikibaşlı qartal rəsmi olan çar Rusiyasını nəzərdə tuturdu.

Əmin Abidin şeirlərində onun gəncliyi, vətənpərvərlik, türkçülük ruhunda tərbiyə edilməsinə, xalqın tarixi keçmişini bilməsinə çalışdığını görürük:

Əcdadımız şanlı olmuş, dünyaları titrətmişdir,
Çalışmaqdan usanmamış, uyumağı sevməmişdir.
Hər saniyə, hər dəqiqə çarpışmış, qeyrət etmişdir,
Eyşü işrət şərqisini oxumağı sevməmişdir (4, s.13).

"İntiqam" adlı şeirini müəllif I Dünya Müharibəsi zamanı əsir edilərək Bakıya gətirilmiş, burada vəfat edərək dəfn edilmiş türk əsgərlərinə həsr etmişdir. Şeirdə deyilir ki, bu əsgərlərin qəbirləri bizi intiqama çağırır:

Artıq dağıldı qaili dəhşət avəri,
Övladın indi axtarıyor ərşə məqam.
Mümkün degil unutmaq o məzlum türkləri,
Titrər gözdə bariqeyi-kinü intiqam (4, s.15).

Ə.Abid Qərb, xristian dünyasının türklüyə, islama mənfi münasibətini, türklərin tərəqqisinə hər vəchlə mane olmaq cəhdlərini çox yaxşı görürdü və bunu şeirləri vasitəsi ilə hamıya çatdırmaq istəyirdi:

Bu gün türklük yoxalırsa – Qərbə bayram!
İslamımız ucalırsa – Qərbə matəm!...
Şərq elləri canlanırsa, şanlanırsa
Qərbin gözü həp ovulub kor olur.
Qərbə atəş, zülm, intiqam kini dolur,
Xaçlı çıxmaq istər kəhkəşana (4, s.28).

Əmin Abidin şeirləri nikbin bir ruhla aşılanmışdır, o, Azərbaycan xalqının, bütün türk dünyasının istiqlalına, işıqlı gələcəyinə bütün varlığı ilə inanmış və bu inamı əsərlərində ifadə etmişdir.

## ƏDƏBİYYAT


1. Əhmədov Bədirxan. Görkəmli ədəbiyyatşünas / Əmin Abid. Seçilmiş əsərləri. Bakı: "Şərq-Qərb", 2007.
2. Rəsulzadə Məhəmməd Əmin. Əsrimizin Səyavuşu. Çağdaş Azərbaycan ədəbiyyatı. Çağdaş Azərbaycan tarixi. Bakı: "Gənclik", 1991.
3. Abid Əmin. Seçilmiş əsərləri. Bakı: "Şərq-Qərb", 2007.
4. Mütəllibzadə Əmin Abid. Seçilmiş əsərləri. Bakı: "Nurlan", 2007.


## ƏMİN ABİD MÜTƏLLİBZADƏNİN POETİK YARADICILIĞI BARƏDƏ

***Nağıyeva Zinaida***

### XÜLASƏ

XX əsrin əvvəllərində Azərbaycan ədəbiyyatşünaslığının inkişafında mühüm rol oynamış görkəmli ədəbiyyatşünas, folklorşünas, qorqudşünas, tənqidçi Əmin Abid Mütəllibzadə (1898-1938) həm də "Gültəkin" imzası ilə şeirlər yazmışdır. Onun Azərbaycanda və Türkiyədə çap edilmiş, qardaşı Ə.Müznibin arxivində rast gəldiyimiz şeirləri sovet dövründə ətraflı araşdırılmamışdır. Əmin Abid şeirlərində Azərbaycan türklərinin, bütün türk dünyasının azad,müstəqil həyatını arzulayan, xalqımızın tarixi keçmışı ilə fəxr edən sənətkar kimi çıxış etmişdir. Şair türk dünyasını birləşməyə, tərəqiyyə çağırır,türkülüyün Qərb,xristian aləmindəki düşmənlərini pisləyir. Əmin Abid şeirlərində xalqın azad, müstəqil, xoşbəxt gələcəyinə sarsılmaz bir inam vardır.

## О ПОЭТИЧЕСКОМ ТВОРЧЕСТВЕ АМИНА АБИДА МУТАЛЛИБЗАДЕ

***Нагиева Зинаида***

### АННОТАЦИЯ

Амин Абид Муталлибзаде (1898-1938) выдающийся литературовед, фольклорист, критик, сыгравший важную роль в развитии азербайджанской литературной критики в начале XX века, также писал стихи за подписью Гюльтекина.Его стихи, опубликованные в Азербайджане и Турции и найденные в архивах его брата А. Музниба, в советское время подробно не изучались.В своих стихах Амин Абид выступил как художник, который желал азербайджанским тюркам, всему тюркскому миру свободной и независимой жизни, гордился историческим прошлым нашего народа. Поэт призывает тюркский мир к объединению и прогрессу, осуждает врагов тюркизма в западном и христианском мирах. В стихотворениях Амин Абид есть непоколебимая вера в свободное, независимое и счастливое будущее народа.

## ABOUT THE POETIC WORK OF AMIN ABID MUTALLIBZADE

***Naghieva Zinaida***

### SUMMARY

Amin Abid Mutallibzadeh (1898-1938), a prominent literary critic, folklorist, fear-monger and critic who played an important role in the development of Azerbaijani literary criticism in the early twentieth century, also wrote poems under the signature of Gultekin. His poems, published in Azerbaijan and Turkey and found in the archives of his brother A. Muznib, were not studied in detail during the Soviet era. In his poems, Amin Abid acted as an artist who wished the Azerbaijani Turks, the whole Turkic world a free and independent life, and was proud of the historical past of our people. The poet calls the Turkic world to unite and progress, condemns the enemies of Turkism in the Western and Christian worlds. In Amin Abid's poems, there is an unshakable belief in the free, independent and happy future of the people.

## İQTİSADİYYAT VƏ İDARƏETMƏ

# İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİN EDİLMƏSİNDƏ XARİCİ İQTİSADİ ƏLAQƏLƏRİN DÜZGÜN QURULMASININ ƏHƏMİYYƏTİ

***Mikayılova Gülcan Mikayıl qızı***
***BDU-nun II kurs magistrantı***
***gulcanmikayilova7@gmail.com***

***Açar sözlər:*** İqtisadi təhlükəsizlik, xarici ticarət siyasəti, BƏB, gömrük xidməti
***Ключевые слова:*** Экономическая безопасность, внешнеторговая политика, Международное разделение труда, таможенная служба
***Keywords:*** Economical security, foreign trade policy, new international division of labour (NIDL), customs service.

Təhlükəsizliyin təmin edilməsi çətin və mürəkkəb prosesdir. Beynəlxalq iqtisadi inteqrasiyanın və qloballaşmanın geniş miqyas aldığı hazırkı şəraitdə təhlükəsizlik anlayışlarına sistemli yanaşmaq mütləqdir. İqtisadi təhlükəsizlik milli təhlükəsizlik sisteminin bir hissəsidir.

Azərbaycan Respublikasının xarici ticarət siyasəti, gömrük xidməti dövlətin iqtisadi təhlükəsizliyinin təmin edilməsinə xidmət etməlidir. Azərbaycan gömrük xidməti ölkədə fiskal siyasəti həyata keçirir, respublikanın iqtisadi mənafeyini və təhlükəsizliyini qoruyur. İqtisadi təhlükəsizliyin təmin olunması dövlətin mühüm funksiyalarının biridir. İqtisadi təhlükəsizliyin təmin olunması üçün dövlət sosial-iqtisadi inkişafin maksimum həddə çatdırılması üçün çalışmalıdır. Sosial-iqtisadi inkişafın dinamikliyi ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi üçün ilkin zəruri şərtlərdəndir.

Ölkənin iqtisadi inkişafı, onun xarici iqtisadi siyasətindən birbaşa asılıdır. Hər bir ölkənin xarici iqtisadi əlaqələrinin inkişaf etdirilməsi, beynəlxalq əmək bölgüsündə iştirakının maksimum səviyyəyə çatdırılması onun inkişafı üçün mühüm əhəmiyyət kəsb edir. Biz bilirik ki, hər bir ölkə BƏB-də müəyyən səviyyədə iştirak edir. Çünki müasir dövrdə BƏB-də iştirak etmək ölkələr üçün daha faydalı və məqsədəuyğundur. Bu ondan irəli gəlir ki, dünyanın hər hansı bir ölkəsindəki heç bir müəssisə bu ölkə üçün lazım olan bütün məhsulları ən az xərclə istehsal etmək iqtidarında deyildir. Yəni, bir ölkə bir neçə məhsul istehsalı üzrə ixtisaslaşa bilər, lakin bütün məhsul istehsalı sahələrində ixtisaslaşması mümkün deyildir. Buna görə də, ölkə öz ixtisaslaşdığı məhsulu yəni, daha az xərclə istehsal etdiyi məhsulu ixrac edir və istehsalı daha baha başa gələn məhsulu həmin məhsulun istehsalı üzrə ixtisaslaşmiş digər ölkədən idxal edir. Bununla da o, daha az xərc ilə ölkəni lazım olan məhsullarla təmin edir. Həmçinin, bəzi ölkələr təbii sərvətlətlə zəngin olsa da, bəziləri həmin təbii sərvətləri digər ölkələrdən idxal etmək məcburiyyətindədir.Praktika sübut edir ki, eyni təbii ehtiyatlara, təbii iqlim şəraitinə malik olan ölkələr belə əmtəə mübadiləsi edərək qarşılıqlı fayda götürə bilərlər. Bu onunla əlaqədardır ki, bu ölkələr hazır məhsul istehsal etmək üçün müxtəlif istehsal, texnoloji və əmək vasitələrinə malikdirlər, yəni ölkələr arasında əmək bölgüsünün başlıca hərəkətverici qüvvəsi elmi texniki tərəqqidir.

Buradan da belə bir nəticəyə gəlirik ki, hər bir ölkənin BƏB-də iştirak etməyə ehtiyacı vardır. Bunun üçün isə ölkə, öz xarici iqtisadi əlaqələrini məharətlə tənzimləməlidir. Göründüyü kimi, BƏB-də iştirak ölkənin iqtisadiyyatının inkişaf etdirilməsi baxımından mühüm rola malikdir. BƏB-in əsas xarakterik xüsusiyyəti də məhz istehsalın ixtisaslaşması və mübadiləsidir. BƏB-in mahiyyəti tam olaraq bundan ibarətdir. Bir nüansı da nəzərə almaq lazımdır ki, bir ölkə yalnız bir

neçə məhsul istehsalı sahəsində ixtisaslaşsa belə, digər məhsul istehsalı sahələrinin inkişafına nail olmağa çalışmalıdır. Yəni, idxalı əvəz edəcək istehsal sahələrinin təşkili ilə bağlı bir sıra fəaliyyətlərin həyata keçirilməsi daha məqsədəuyğun ola bilər. Çünki, hər hansı məhsul üzrə xarici bazardan asılılıq iqtisadi təhlükəsizliyin təmin edilməsində bir sıra problemlərin yaranmasına gətirib çıxaracaqdır. Bütün bu problemlərin qarşısının alınması, həmçinin bu tip problemlərin əvvəlcədən proqnozlaşdırılması üçün dövlət öz xarici iqtisadi siyasətini düzgün şəkildə qurmalıdır.

İqtisadi təhlükəsizlik sistemində dövlətin xarici ticarət siyasətinin bir neçə mühüm istiqamətləri vardır. Bunlardan biri də məhz ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsinə və dövlət büdcəsinin artırılmasına yönəldilmiş səmərəli ixrac siyasəti kimi ifadə olunur. Səmərəli ixrac siyasəti xarici ticarət siyasətinin tərkib hissəsidir. Burada mahiyyət etibarilə ixracın tərkibində xammal-yanacaq məhsullarının çəkisinin azaldılması nəzərdə tutulur. Bunun əvəzinə elm və kapital tutumlu məhsulların istehsalını inkişaf etdirərək, onların ixracı hesabına daha çox gəlir əldə edilməsi və bununla da vergilər formasında dövlət büdcəsinə daxil olan gəlirlərin artırılmasını qarşıya məqsəd qoyur.

Xarici ticarət siyasətində məqsədli dövlət maliyyələşdirməsi proqramları da mühüm əhəmiyyətə malikdir. Bu vasitələrlə dövlət öz istehsalçılarını məhsullarının ixracı üçün həvəsləndirir. Bu vasitələrə müəssisə və təşkilatların ixrac yönümlü fəaliyyətinin genişləndirilməsi məqsədilə dövlət təminatlı kredit resurslarının verilməsi, istehsalçıların məhsullarının dünya bazarına çıxışını asanlaşdırmaq məqsədilə ixrac kontraktlarının dövlət tərəfindən sığorta olunması və s. aid etmək olar.

İqtisadi təhlükəsizlik ölkənin resurslarının qorunması, tarazlaşdırılmış və dinamik artımın, sosial inkişafın, iqtisadi təhlükəsizliyin qorunmasını təmin edən iqtisadi, siyasi və hüquqi kompleks şərtləri əhatə edir. Bu şərtlərin hər birində olan problem iqtisadi təhlükəsizliyin pozulmasıdır. Qeyd edək ki, ölkənin resurslarının (bura həm enerji, həm ərzaq, həm də digər mallar daxildir) nəzarətdə saxlanılması, həmçinin ekologiyanın qorunması kimi vacib məsələlər iqtisadi təhlükəsizliyin təmin olunmasına bərabərdir. Yəni, əgər ölkədə ərzaq problemi yaranarsa, ekoloji vəziyyət dəyişərsə bu iqtisadiyyatın təhlükə riskinin artmasına səbəb olar.

Hər bir ölkədə keçirilən gömrük siyasəti ölkədaxili bazarın beynəlxalq normalara uyğunlaşması və milli iqtisadiyyatın inkişafının təmin olunması, milli mənafelərin qorunması və s. kimi məsələlər üzərində hazırlanmışdır.

İqtisadi təhlükəsizlik–ümumilikdə iqtisadiyyatın ölkənin sosial, siyasi, müdafiə qabiliyyətinin və mütərəqqi inkişafının kifayət edəcək səviyyəsini təmin edə bilən vəziyyətini, mümkün xarici və daxili təhlükələrə, onun iqtisadi maraqlarının xarici təsirlərdən azad olması və kifayət qədər zərərdən qoruna bilməsi qabiliyyətini nəzərdə tutur."

Gömrük xidməti iqtisadi təhlükəsizlikdə beynəlxalq ticarət əlaqələri zamanı qarşıya çıxa biləcək riskin aradan qaldırılmasıdır.

Dünyada iqtisadiyyatdan bir silah kimi istifadə olunması, başqa sözlə desək iqtisadi savaşların yayılması hər bir ölkə üçün iqtisadi təhlükəsizliyin vacibliyini artırır. Bugün bir ölkəni, bir dövləti yıxmaq üçün onun iqtisadiyyatını zədələyirlər.

Gömrük xidmətinin iqtisadi təhlükəsizliyə təsir imkanlarından biri də hər bir idxal olunan malın hansı ölkəyə göndərilməsidir. Gömrük sahəsində belə bir fikir var: "hər bir malı istənilən ölkəyə göndərilməsi mümkün deyil". Yəni, hər bir ölkə gömrük xidməti vasitəsilə iqtisadiyyatı üçün təhlükə yaradacaq malların idxal və ixracına nəzarət edə bilir.

Qloballaşan dünya ticarətində istehsal imkanlarının rəqabətli bir hala gətirilməsi hər hansı bir malın ucuz başa gələn ölkədə istehsal olunub digər ölkələrə idxal edilməsinə imkan yaradır.

Beynəlxalq şirkətlərin bu avantajlardan istifadə edə bilməsi üçün hər bir ölkənin iqtisadiyyatı və gömrük xidməti bu prosesə nəzarət edir.

Respublikamızda Dövlət Gömrük Komitəsinin (DGK) əsasnaməsində iqtisadi təhlükəsizliyin təmin olunması probleminə aşağıdakı kimi yanaşılmışdır:

1. Gömrük Komitəsinin əsas funksiyaları istiqamətində və səlahiyyətləri daxilində Azərbaycan Respublikasının iqtisadi mənafeyini və təhlükəsizliyini qorumaq;
2. Gömrük Komitəsinin hüquqları əsasında-milli təhlükəsizliyinin, ictimai asayişin, əhalinin mənəviyyatının, insanların həyat və sağlamlığının qorunması, daxili bazarın və Azərbaycan istehlakçılarının mənafeyinin müdafiəsi üzrə tədbirlərin həyata keçirilməsində Azərbaycan Respublikası gömrük orqanlarının iştirakını təmin etmək və s. (1).

Dövlət sərhət gömrük keçid məntəqəsində də aparılan hər bir xidmətin məqsədi iqtisadi təhlükəsizliyin təmin olunmasıdır.

Ölkəmizdə iqtisadi təhlükəsizliyin təmin edilməsinin hüquqi əsasları 2004-cü ilin iyulunda qəbul edilmiş “Milli təhlükəsizlik haqqında Azərbaycan Respublikası Qanunu”nda qeyd olunduğu kimi ölkənin iqtisadi sahədə milli maraqları artırılmasından və iqtisadiyyatın inkişafı onun hüquqi əsaslarının təkmilləşdirilməsindən ibarətdir (7).

Bildiyimiz kimi iqtisadi təhlükəsizliyin hərtərəfli təmin olunması ölkədə yürüdülən siyasətdən və gömrük sərhəd xidmətindən çox asılıdır. Yəni ölkəyə daxil və xaric olunan malların müəyyənləşdirilməsi, onlara rüsumları və qaydaların qoyulması kimi məsələlər iqtisadi təhlükəsizliyin təmin olunmasına bir başa təsir edir.

Azərbaycan Respublikasının gömrük xidməti xarici iqtisadi fəaliyyətin tənzimlənməsi və gömrük siyasətinin həyata keçirilməsinin ən mühüm qurumudur. Respublika icra hakimiyyəti sisteminə daxil olan gömrük xidməti Prezident və hökumət tərəfindən gömrük orqanları qarşısında qoyulan məsələləri həll etməyə qabil olan hüquqi baza və gömrük infrastrukturuna malikdir. Gömrük xidmətinin dövlət büdcəsinin gəlir hissəsinin formalaşdırılmasında rolu ildən-ilə artır və belə ki, dövlətin iqtisadi təhlükəsizliyinin, eləcə də, xarici ticarət əlaqələrinin inkişaf etdirilməsinin tə'min edilməsində mühüm faktora çevrilir.

## ƏDƏBİYYAT

1. İsmayılov F. Azərbaycanda iqtisadiyyatın hərtərəfli inkişaf etdirilməsinin bəzi problemləri, Gəncə: “Gəncə Poliqrafiya”, 2006, 208 s.
2. Heydərov K.F “Gömrük işinin əsasları, gömrük işinin idarə edilməsi və inkişafı” 4-cu cild.Bakı 2000
3. Məmmədov N.M., Bərxudarov M.İ. İqtisadi təhlükəsizlik Bakı: İqtisad Universiteti nəşriyyatı, 2006, 452 s.
4. Şəkərəliyev A.Ş., Şəkərəliyeva Z.A. «İqtisadi təhlükəsizlik və onun strateci təminatı» «Qloballaşma və regional iqtisadi inkişaf» mövzusunda keçirilən beynəlxalq konfransın məqalələr toplusu. Bakı 2004 «Nurlar»
5. Şəkərəliyev A.Ş. , Şəkərəliyeva Z.A. Xarici iqtisadi fəaliyyətin gömrük tarif tənzimlənməsi. Bakı, Azərnəşr, 2006.
6. Şəkərəliyev A.Ş., Nuriyev C.Q., Əliyev A.Ə. Gömrük işinin təşkili və idarə edilməsi. Bakı, Qanun, 2003, 332səh.
7. Azərbaycan Respublikasının “Milli təhlükəsizlik haqqında” 29 iyun 2004-cü il tarixli Qanunu. Bakı, “Azərbaycan” qəzetində dərc edilmişdir (6 avqusta 2004-cü il, № 181)
8. http://gomruk.gov.az/az/news-1606.html

# İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİN EDİLMƏSİNDƏ XARİCİ İQTİSADİ ƏLAQƏLƏRİN DÜZGÜN QURULMASININ ƏHƏMİYYƏTİ

***Gülcan Mikayılova***

## XÜLASƏ

Bu məqalədə Azərbaycanın xarici iqtisadi əlaqələrində iqtisadi təhlükəsizlik problemləri və iqtisadi təhlükəsizliyin təmin olunmasında xarici iqtisadi əlaqələrin düzgün qurulması meyarları öz əksini tapmışdır. Həmçinin son dövrlərdə ölkədə baş verən hadisələrin iqtisadi təhlükəsizliyə təsiri ilə bağlı məsələlər işlənilir.

## ЗНАЧЕНИЕ НАДЛЕЖАЩЕГО УСТАНОВЛЕНИЯ ВНЕШНЕЭКОНОМИЧЕСКИХ СВЯЗЕЙ ДЛЯ ОБЕСПЕЧЕНИЯ ЭКОНОМИЧЕСКОЙ БЕЗОПАСНОСТИ

***Гюльджан Микаилова***

## АННОТАЦИЯ

В данной статье отражены проблемы экономической безопасности во внешнеэкономических связях Азербайджана и критерии надлежащего установления внешнеэкономических связей в обеспечении экономической безопасности. Также были исследованы вопросы, связанные с влиянием последних событий в стране на экономическую безопасность.

## THE IMPORTANCE OF PROPER ESTABLISHMENT OF FOREIGN ECONOMIC RELATIONS TO ENSURE ECONOMIC SECURITY

***Gulcan Mikayilova***

## SUMMARY

This article reflects the problems of economic security in Azerbaijan's foreign economic relations and the criteria for the proper establishment of foreign economic relations in ensuring economic security. Issues related to the impact of recent events in the country on economic security were also investigated.

# AQRAR SAHƏDƏ TƏŞKILATI-IQTISADI MÜNASIBƏTLƏRIN TƏNZIMLƏNMƏ MEXANIZMLƏRININ TƏKMILLƏŞDIRILMƏSI

***İbrahimli Xəzər Kamran oğlu***
***BDU-nun II kurs magistrantı***
***Elmi rəhbər: i.ü.f.d, dos. Vahid Abbasov***
***ibrahimxezer@gmail.com***

***Açar sözlər:*** Aqrar sektor, tənzimlənmə mexanizmi, normativ-hüquqi baza, dövlət müdaxiləsi.
***Ключевые слова:*** аграрный сектор, механизм регулирования, нормативно-правовая база, государственное вмешательство.
***Keywords:*** Agrarian sector, regulatory mechanism, regulatory framework, government intervention.

Republikamızın iqtisadi üsullara arxalanan tənzimlənmə mexanizmlərinin formalaşdırılması mərhələsi ilk dəfə "1999-2000-ci illərdə Azərbaycan Respublikasında aqrar islahatların dərinləşdirilməsi və kənd təsərrüfatında sahibkarlığın inkişafına kömək göstərilməsinə dair Dövlət Proqramı" adı altında həyata keçirilmisdir. Kənd Təsərrüfatı sahəsində davamlı inkişafın təmin edilməsi, bu inkişafın dövlət tərəfindən tənzimlənməsi, o cümlədən davamlı inkişafın formalaşdırılmasına yönəlmiş tədbirlərin həyata keçirilməsi məsələləri bu strategiyanın prinsipləri içərisində həll edilməlidir.Bütövlükdə baxsaq, kənd təsərrüfatına keçid prosesinin Azərbaycan modeli respublikanın özünə xas, təkrarolunmaz keyfiyyətlərini və cəmiyyətdəki hakim motivasiyaları, dövlətçiliyin möhkəmləndirilməsi təminatını, aparıcı sosial qrupların üstün maraqlarını yetərincə özündə cəmləşdirmiş və bu sahədə geniş mənada milli təhlükəsizliyin qarşılanmaslna xidmət etmişdir. Vurğulunan tezisə istinadən davamlı aqrar islahat prosesinin normativ hüquqi bazasının yaradılmasında dövlətin milli maraqları optimal səviyyədə qarşılanmış və islahatın ilkin mərhələlərində hazırkı aqrar istehsal potensialının optimal yönləndirillməsi həyata keçirilmişdir.

Republikamızın iqtisadi üsullara arxalanan tənzimlənmə mexanizmlərinin formalaşdırılması mərhələsi ilk dəfə "1999-2000-ci illərdə Azərbaycan Respublikasında aqrar islahatların dərinləşdirilməsi və kənd təsərrüfatında sahibkarlığın inkişafına kömək göstərilməsinə dair Dövlət Proqramı" adı altında həyata keçirilmisdir. Bu prosesin davamı olaraq, hökumət 1999-cu ildə kənd təsərrüfatı məhsullarının istehsalçılarına neft məhsullarının (yük avtomobilləri üçün benzin, dizel yanacağı və motor yağlarının) sərfəli qiymətlərlə satışına dair qərar qəbul etdi.Ancaq, həm də elə bütün ictimaiyyətin, həm mütəxəssislərin birgə fikrinə görə bu siyasət gözlənilən dərəcədə özünü doğrultmadı. Ona görə ki, birincisi, güzəştli qiymətlərlə satılması planlaşdırılan yanacağın həcmi tələb olunan ehtiyaclarla müqayisədə az idi. İkincisi, güzəştli qiymətlərlə satılması nəzərdə tutulan yanacaq çox vaxt istifadə ediləcəyi məqsədindən kənarlaşırdı. Belə olduğu halda, istehsalçıların əksəriyyəti bu güzəştlərdən yararlana bilmədilər. Hətta kənd təsərrüfatı istehsaçılarının özləri də güzəştli verilən yanacağı sonralar bazar qiymətinə satması hallarıda müşhidə edilirdi. Beləliklə, 2001-ci ildən sonra doğru icra mexanizmi və dəqiq məqsədi olmayan bu siyasət özünü isbat etmədiyinə görə artıq uyğulanmadı.

Azərbaycanda aqrar islahatların birinci mərhələsində həlli mümkün olmayan problemlərin aradan götürmək üçün bu islahatların ikinci mərhələsi çərçivəsində bir sıra tədbirlər həyata keçirilib və müvafiq siyasət tədbirləri müəyyən edilib. Belə ki, Kənd təsərrüfatı islahatların ikinci mərhələsinin start verdiyi 1999-cu ildən bu yana həmin istiqamətdə müvafiq tədbirlərin

həyata keçirilməsini qarşılamaq məqsədilə ölkənin sosialiqtisadi inkişaf siyasətinin, o cümlədən də aqrar siyasətinin başlıca hədəflərini ümumi şəkildə çevrələyən vacib əhəmiyyətli proqramlar hazırlanaraq qəbul edilmişdir.

Həmçinin, aqrar siyasətin institusional mexanizmlərinin təkmilləşdirilməsi, buna paralel olaraq iqtisadi alətlərə əsaslanan tənzimləmə mexanizmlərinin mərhələli formalaşdırılması yönündə də bir sıra addımlar atılıb. Aqrar islahatların birinci mərhələsini çevrələyən dövrdə aqrar siyasətin reallaşması ilə bilavasitə məşğul olan müxtəlif dövlət qurumları fəaliyyət göstərirdi. İslahatların ikinci tətbiq edildiyi dövrdən başlayaraq kənd təsərrüfatı siyasətini həyata keçirən təşkilati-idarəetmə sistemində bəzi dəyişikliklər olunmuşdur. Bu yöndən, 2004-cü ilin oktyabr ayında aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi hədəfi ilə ölkə Prezidenti tərəfindən qəbul edilmiş Sərəncam xüsusilə əhəmiyyət daşıyır. Həmin sərəncama görə aqrar sahənin idarə edilməsində hgazırkı pərakəndəliyi qarşısını almaq, bu sahənin artan inkişafını qarşılayan idarəetmə sistemini qurmaq üçün aşağıdakılar qərara alındı:

1. Kənd Təsərrüfatı Nazirliyi yenidən təşkil edilərək müəyyənləsdirildi ki, bu Nazirlik kənd təsərrüfatı məhsullarının istehsalı və emalı, bitki karantini, istehsalçılara zəruri xidmətlərin göstərilməsi , baytarlıq, meliorasiya və su təsərrüfatı ,orpaqların səmərəli istifadəsi də daxil olmaqla aqrar bölmədə dövlət siyasətini və iqtisadi münasibətlərin tənzimlənməsini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

2. Eyni zamanda, Kənd Təsərrüfatı Nazirliyi ııə yanaşı aşağıdakı Qurumlar yaradıldı:

Dövlət Meliorasiya və Su Təsərrüfatı Agentliyi;

Dövlət Baytarlıq Xidməti;Dövlət Fitosanitar Nəzarəti Xidməti;

Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyi.

Dövlət ərazisində realllaşdırılan aqrar siyasətin səmərəliliyinin və sistemliliyinin təmin edilməsi yönündən bu struktur dəyişikliyi çox vacib addım hesab edilməlidir.

Həmçinin, bir çox beynəlxalq və yerli mütəxəssislərin düşüncəsi belədir ki, hələ də kənd təsərrüfatı üzrə institutsional tənzimlənmənin təkmilləşdirilməsinə işləri zəruridir. Belədir ki, “ aqrar sektorun bu günə qədər qarşısında duran ən ciddi əgəllərdən biri də siyasəti formalaşdırmalı olan təşkilatların potensialılıq cəhətdən gücsüz olmasıdır. Zəif təşkilati bacarıqların olması dövlətin aqrar sahənin ehtiyaclarına uyğun siyasətlər aparmaq, investisiyalar və xidmətlərin qarşılanması imkanını azaldır.

Bu birbaşa olaraq Kənd Təsərrüfatı Nazirliyinə aiddir. Kənd təsərrüfatının kompleks problemləri ilə bağlı sualların Kənd Təsərrüfatı Nazirliyində cavablandırılması, siyasətin seçilməsi və onları icraetmə qabiliyyətinin yetərliliyini müəyyən səviyyəyə çatdırmaq üçün tədbirlər görülməlidir.” Bir daha vurğulamaq lazımdır ki, bütün bunlarla belə, kənd təsərrüfatı islahatların ikinci mərhələsində hökumət aqrar siyasətin təkmilləşdirilməsi yönündə bəzi cəhtlər etmiş, əlavə olaraq ölkə daxilində aqrar siyasətin iqtisadi və qeyri iqtisadi yöntəmlərə əsaslanan tənzimləmə mexanizmləri tədricən formalaşdırılmışdır.

İrəli sürülən mülahizələrə dayanaraq Azərbaycan Respublikasında gerçəkləşməkdə olan aqrar siyasətin hədəflərinə dair aparılan tədqiqatlarda, belə qənaətə vara bilir ki, hazırda açıq iqtisadi sistemin təşəkkülü səraitində aqrar siyasət aşağıdakı hədəflərə kompleks şəkildə nail olunması nəzərdə tutulmaqla formalaşdırılmalı və həyata keçirilməlidir:

1) Ölkədəki aqrar təsərrüfatı mallarının istehsalı və emalı sahəsində hazırda olan potensialın konkret şəraitin imkanları çərçivəsində səmərəli istifadə olunması və bu potensialın artan şəkildə gücləndirilməsi;

2) Ölkə daxilində kənd təsərrüfatı məhsullarına (onların emalı məhsulları dadaxil olmaqla) yerli tələbatın daha intensiv ödənilməsi, xüsusi olaraq da ölkənin ərzaq təhlükəsizliyinin qarşılanması;

3) Kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sahələrinin inkişafının kənd yerlərində yaşayan əhalinin həyat səviyyəsinin yüksəldilməsi,o cümlədən onların gəlir əldə etmə imkanlarının artırılmasının əsas vasitələrindən biri olmasının təmin edilməsi;

4) Ölkənin dünya aqrar bazarında faydalı mal mübadiləsini təmin edəbiləcək aqrar istehsal sahələrinin inkişafına üstünlük verilməsi;

5) Kənd təsərrüfatı istehsalının ekoloji tarazlıgın pozulmasına göstərəbiləcəyi mənfi təsirlərin tənzimlənməsi.

Kənd Təsərrüfatı sahəsində davamlı inkişafın təmin edilməsi, bu inkişafın dövlət tərəfindən tənzimlənməsi, o cümlədən davamlı inkişafın formalaşdırılmasına yönəlmiş tədbirlərin həyata keçirilməsi məsələləri bu strategiyanın prinsipləri içərisində həll edilməlidir. Belə düşünürük ki, söhbətini etdiyimiz strategiyanın var olması, bir yöndən davamlı inkişafa dair dövlət strategiyasının və digər fəaliyyət startegiyalarının daha dəqiq və işlək şəkildə hazırlanmasını təmin edə bilər, digər yöndən isə, bu istiqamətdə həyata keçirilən tədbirlərin üzvi formada kommunikasiyalşdırılmas mümkün olar.

"2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" və "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın müddəalarına uyğun olaraq əhəmiyyətli tədbirlər reallaşdırılır. "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" çərçivəsində ölkə Prezidentinin tapşırığına uyğun olaraq, müvafiq mərkəzi və yerli icra hakimiyyəti orqanları tərəfindən təsdiq edilmiş qrafiklərə uyğun olaraq ölkədə ərzaq istehsalının artırılması, əhalinin təhlükəsiz və keyfiyyətli ərzaq məhsulları ilə təmin edilməsi istiqamətində vacib tədbirlər həyata keçirilir..

Kənd təsərrüfatı islahatların başlandığı vaxtdan təməlləri qoyulmuş normativ-hüquqi baza aqrar sahənin büün bölmələrində bazar iqtisadiyyatına keçid prinsiplərinin reallaşdırılmas şəraiti yaratmışdır. Həmçinin bu baza çox ukladlı təsərrüfatçılıq sisteminin formalasdırılmasını və inkişafını aqrar bölmədə təmin etməklə, çox mülkiyyətçiliyə transferindəki qısa zaman çərçivəsində cəmiyyətdə sosial çaxnaşma yaratmadan təmin etməyi bacarmışdır.

Bütövlükdə baxsaq, kənd təsərrüfatına keçid prosesinin Azərbaycan modeli respublikanın özünə xas, təkrarolunmaz keyfiyyətlərini və cəmiyyətdəki hakim motivasiyaları, dövlətçiliyin möhkəmləndirilməsi təminatını, aparıcı sosial qrupların üstün maraqlarını yetərincə özündə cəmləşdirmiş və bu sahədə geniş mənada milli təhlükəsizliyin qarşılanmaslna xidmət etmişdir. Vurğulunan tezisə istinadən davamlı aqrar islahat prosesinin normativ hüquqi bazasının yaradılmasında dövlətin milli maraqları optimal səviyyədə qarşılanmış və islahatın ilkin mərhələlərində hazırkı aqrar istehsal potensialının özəlləşdirmə prosesinə optimal yönləndirillməsi həyata keçirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin "Kənd təsərrüfatı məhsulları istehsalçılarının kənd təsərrüfatı texnikası ilə təminatına əlavə dəstək haqqında" 4 iyun 2014-cü il tarixli sərəncamı ilə bu sahəyə əlavə büdcə vəsaitinin ayrılması, habelə 2015-ci ilin dövlət büdcəsində "Aqrolizinq" ASC-nin fəaliyyəti üçün nəzərdə tutulan vəsaitin artımı hesabına ölkənin kənd təsərrüfatı texnikası parkının müasir masın və avadanlıqlarla təchizi davam etdiriləcək. Aqrar sahənin davamlı inkişafını dəstəklənməsi, o cümlədən onun maliyyə təminatı sahəsində aşağıdakı tədbirlər nəzərdə tutulmalıdır:

- torpaq bazarının inkişaf etdirilməsi, fermerlər arasında könüllülük əsasında birgə təsərrüfatçılıgın təsviqi;
- kənd təsərrüfatının maddi-texniki təminatını yaxsılasdırmaq üçün lizinqlə məsgul olan qurumların fəaliyyətinin genişləndirilməsi və bu sahədə yeni təşkilatların yaradılmasının stimullasdırılması;

- aqrar sahədə sıgortanın stimullasdırılması üçün mövcud qanunvericilik bazasının təkmilləşdirilməsi;

- sahibkarların maliyyə resurslarına olan ehtiyaclarının ödənilməsini təmin etmək məqsədilə kənd yerlərində maliyyə-kredit institutlarının (aqrar bankların yaradılması) yaradılması və inkişafı;

- aqrar sahədə vergi siyasətinin, sahibkarlığın inkişafına və ərzaq bazarında məhsul bollugu yaradılmasına istiqamətləndirilməsi;

- daxili aqrar bazarın xarici bazarların təsirindən qorunması üçün bir sıra ərzaq məhsullarına tətbiq edilən gömrük idxal tarif dərəcələrinə yenidən baxılması, o cümlədən mövsümi rüsumların tətbiq edilməsi.

Aqrar sahənin maddi-texniki bazasını möhkəmləndirmək və xidmətlərin səviyyəsini yaxsılasdırmaq üçün aşağıdakı tədbirlərin prioritetliyi təmin edilməlidir:

- kənd təsərrüfatı məhsullarının uzunmüddətli saxlanılması sisteminin təkmilləşdirilməsi məqsədilə regionlarda soyuducu kameraların, anbarların, elevatorların və s. tikintisinin davam etdirilməsi;

- kənd təsərrüfatı texnikalarının və onun ehtiyat hissələrinin, gübrələr və bitki mühafizəsi vasitələrinin istehsalı və topdansatıs ticarəti ilə məsgul olan qurumların yaradılmasının dəstəklənməsi;

- ölkədə və xaricdə aqrar sahənin tələblərinə uygun yüksək ixtisaslı kadrların hazırlanması istiqamətində islərin gücləndirilməsi.

## ƏDƏBİYYAT


1. Alıyev ə. Aqrar sahənin idarəetmə problemləri. Azərbaycan MilliElmlər Akademiyasının Xəbərləri, Humanitar və əctimai Elmlər Seriyası (əqtisadiyyat), Bakı 2005(1)
2. Alıyev ə. Azərbaycan Respublikasında aqrar sahədə iqtisadi idarəetmə mexanizminin təkmilləsdirilməsi, Bakı 2003;
3. Bagırzadə E. Aqrar islahatların hüquqi tənzimlənməsi, Referat isi, Bakı, 2004
4. “1999-2000-ci illərdə Azərbaycan Respublikasında aqrar islahatların dərinləşdirilməsi və kənd təsərrüfatında sahibkarlığın inkişafına kömək göstərilməsinə dair Dövlət Proqramı”
5. Azərbaycan Respublikası Prezidentinin "Kənd təsərrüfatı məhsulları istehsalçılarının kənd təsərrüfatı texnikası ilə təminatına əlavə dəstək haqqında" 4 iyun 2014-cü il tarixli sərəncamı


# AQRAR SAHƏDƏ TƏŞKILATI-IQTISADI MÜNASIBƏTLƏRIN TƏNZIMLƏNMƏ MEXANIZMLƏRININ TƏKMILLƏŞDIRILMƏSI

***İbrahimli Xəzər***

## XÜLASƏ

Təşkilati-iqtisadi münasibətlərin tənzimlənməsi məsləsi hər bir sahədə olduğu kimi aqrar sektorda da əhəmiyyətini qorumaqdadır. Dövlətin bu sahəyə birbaşa olaraq müdaxiləsi hər zaman qaçınılmaz olaraq qalmaqda və bu yöndə daima starteji yol hədəfləri seçilərək proseslərin həllinə dair məsələlərdə ciddi iştirak etməlidir. Həmçinin tənzimləmə ilə birəbir əlaqəsi olan normativ-hüquqi bazanın da təkmilləşdirilməsi Azərbyacan republikasının aqrar sektorun bu yöndən inkişaf etdirilməsində mühüm yer tutur.

## СОВЕРШЕНСТВОВАНИЕ МЕХАНИЗМОВ СЕЛЬСКОХОЗЯЙСТВЕННЫХ ОРГАНИЗАЦИОННО-ЭКОНОМИЧЕСКИХ ОТНОШЕНИЙ

***Ибрагимли Хазар***

**АННОТАЦИЯ**

Вопрос регулирования организационно-экономических отношений остается актуальным в аграрном секторе, как и в любой другой сфере. Прямое вмешательство государства в эту сферу всегда было неизбежным, и в связи с этим необходимо всегда выбирать стратегические дорожные объекты и серьезно вовлекать их в решение процесса. Совершенствование нормативно-правовой базы, тесно связанной с регулированием, также играет важную роль в развитии сельскохозяйственного сектора Азербайджанской Республики в этом направлении.

## IMPROVEMENT OF MECHANIZATION MECHANISMS OF AGRICULTURAL ORGANIZATIONAL-ECONOMIC RELATIONS

***Ibrahimli Khazar***

**SUMMARY**

The issue of regulation of organizational and economic relations remains important in the agricultural sector as well as in any other field. Direct state intervention in this area has always been inevitable, and in this regard, strategic road targets must always be selected and seriously involved in resolving the process. Improvement of the regulatory framework, which is closely related to regulation, also plays an important role in the development of the agricultural sector of the Republic of Azerbaijan in this direction.

# QARABAĞ REGİONAL İNNOVASİYA MƏRKƏZİNİN YARADILMASININ ƏSAS İSTİQAMƏTLƏRİ

***Elmi rəhbər: dos. Mehriban Yadulla***
***Qazibahadır Fatimə Arif qızı***
***BDU-nun II kurs magistrantı***
***Allafata98@gmail.com***

***Açar sözlər:*** Qarabağ, iqtisadiyyat, innovasiya mərkəzi, ağıllı kənd.
***Ключевые слова:*** Карабах, экономика, инновационный центр.
***Keywords:*** Karabakh, economy, innovation center, smart village.

Əvvəlcə bunu vurğulamaq lazımdır ki, Qarabağ bizim "Qan Yaddaşı"mızdır. Qarabağın itirilməsi ilə iqtisadiyyatımızda yaranan boşluqların aradan qaldırılması və müəyyən qədər kompensasiya edilməsi üçün hal-hazırda burada iqtisadiyyatın bərpası və inkişaf etdirilməsi məsələləri önə qoyulur. İşğaldan azad edilmiş ərazilərin ölkə iqtisadiyyatına reinteqrasiyası "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də göstərilmiş 5 milli prioritetdən biridir. Zəngilan rayonunda artıq "ağıllı kənd"in təməli qoyulub. Layihənin icrası 5 komponent üzrə həyata keçiriləcək: yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı" və alternativ enerji sahələri.

İşğaldan azad edilmiş ərazilərin ölkə iqtisadiyyatına reinteqrasiyası məsələsi araşdırılarkən innovativ metodlardan istifadə, innovasiya əsaslı iqtisadi inkişafdan danışmamaq olmaz. Ümumiyyətlə Qarabağın coğrafi mövqeyi, potensial imkanları, həmçinin, Azərbaycanın müasir iqtisadi vəziyyəti nəzərə alındıqda Qarabağ regional innovasiya mərkəzinin yaradılmasının vacibliyi məsələsi ortaya çıxır. Regional innovasiya mərkəzinin yaradılması üçün isə, innovasiyaya gedən yolun aydın başa düşülməsi vacibir.

İnnovasiya qısaca olaraq yeni ideyaların məhsullara, istehsal prosesinə və ya istehsalçı firmanın bazar dəyərini artıracaq hər hansı bir fəaliyyətə tətbiqi kimi xarakterizə olunur. Yəni burada innovasiya dedikdə prosesin iştirakçıları olaraq yeni ideyalar, istehsal olunan məhsul, istehsal prosesi və firmanın bazar dəyəri nəzərdə tutulur. Başqa sözlə, innovasiya üçün yeni ideyalar bir başlanğıcdır. Bu yeni ideyalar istehsal olunan məhsullara və ya istehsal prosesinə tətbiq olunduğu zaman innovasiya prosesi başa çatmış sayılır.

Bazar iqtisadiyyatı sistemində firma daxili fəaliyyətlərin son hədəfi firmaların bazar dəyərini artırmaq olduğu üçün bu məqsədə xidmət edəcək istənilən yeni ideyanın tətbiqi də innovasiya sayılır. İnnovasiya ilə ixtira və ya kəşflər arasındakı fərqin bilinməsi vacibdir. Hər hansı yenilik, ixtira və ya kəşf yalnız tətbiq olunduğu, bazara çıxarıldığı və alıcılar və digər firmaların bu yeniliklərdən faydalana biləcəyi şərait yaradıldığı halda innovasiya prosesi reallaşmış sayılır. Qloballaşan dünyada kəskinləşən rəqabət mübarizəsində o ölkələr qalib gəlir ki, onlar elmi-texniki və informasiya inqilablarının sürətlənməsi, bu inqilabların ən yeni nəticələrinin maneyəsiz tətbiqi üçün şərait yaradır.

Bununla da, innovasiya amilindən maksimum istifadə olunması müasir iqtisadi sistemlərin, o cümlədən milli sənayenin davamlı inkişafının təmin olunmasının həlledici şərtidir. Bütün bunlar isə, yalnız mövcud imkanların texnoloji yeniliklərin prioritet istiqamətlərinə yönəldilməsini, bazar mühitinin kriminal ünsürlərdən azad olunmasını və sağlam rəqabətin təmin olunmasını, innovasiya aktivliyinin ciddi şəkildə artırılmasını, dövlət tənzimləmələrinin köklü şəkildə yaxşılaşdırılmasını, iş qüvvəsinin məhsuldarlığının yüksəldilməsini, insanların yaradıcılıq və təşəbbüskar fəaliyyətinin stimullaşdırılmasını tələb edir.

İnnovasiya əsaslı iqtisadiyyat yüksək keyfiyyətli əmək amilinə sahib olması, sənaye sahələrinin sürətli inkişafı və nəticə olaraq da dünya bazarlarında rəqabətə davamlı məhsulların istehsalı və ixracı ilə xarakterizə olunur. Yəni, innovasiya əsaslı iqtisadiyyata sahib olmaq istəyən dövlət davamlı olaraq innovasiyaları təqib etməli, başqa dövlətlərin təcrübələrini öyrənməli və innovasiyaların iqtisadiyyatda tətbiqinə münbit şərait yaratmalıdır.

2007-ci ildə Azərbaycan 7 üzərindən 2.40 balla dünya sıralamasında innovasiyalaşma dərəcəsinə görə 64-cü yerdə qərarlaşmışdır. 2008-2009-cu illərdə ölkənin innovasiyalaşma balını 3.14-ə yüksələrək dünya sıralamasında 57-ci yerə yüksəlmişdir. 2009-2010 nəticələri üçün ciddi bir dəyişiklik baş verməmişdir və dünya sıralamasında əvvəlki yerini qorumuşdur. Bununla belə sonrakı illərdə 100 üzərindən hesablanan innovasiyalaşma dərəcəsində Azərbaycanın dünya sıralamasında yeri ciddi şəkildə geriləyərək müvafiq olaraq 2011-ci ildə 29.17 balla 88-ci, 2012-ci ildə 30.4 balla 89-cu, və 2013-cü ildə 28.99 balla 105-ci yerdə qərarlaşmışdır.

Statistikadan göründüyü kimi, innovasiyaya aparan yolu bilmək və bu yolu izləmək öz vacibliyini zaman keçdikcə daha da artırır. Bu yol 4 mərhələdən ibarətdir:

1. Mövzu ilə əlaqədar ekspertlərin yeni kəşflər üçün qaynaqlarla təmin edilməsi;
2. Əlaqədar mütəxəssislərin fikir mübadiləsi aparmaları üçün münbit şərait;
3. İdeya sahibləri və bu ideyaların tətbiqi ilə məşğul olan mütəxəssislərin müzakirələri;
4. Həyata keçirilmə mərhələsi.

Hal- hazırda Qarabağın ölkə iqtisadiyyatındakı payı dəqiq müəyyən edilməsə də, işğaldan öncəki dövrdə bu 15-20% idi. Azərbaycan Dövlət İqtisad Universitetində "Qarabağ Müzakirələri" adlı tədbir çərçivəsində Milli Məclisin komitə sədri T.Mirkişili hazırda isə Qarabağ regionunun iqtisadi potensialının daha geniş olduğunu vurğulayıb, həmçinin bu imkanların 8%-ə qədər artırılmasının mümkünlüyünü də qeyd edib. UNEC ekspert Mart 2021 – jurnalına istinadən Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycanın məruz qaldığı itki və tələfatların qiymətləndirilməsi üçün hələ vaxtilə ölkə rəhbərinin göstərişi ilə yaradılmış işçi qrupu 2014-cü ildən başlayaraq, bu işlə ciddi məşğul olmuş, konkret nəticələr əldə etmişdir. Müəyyən edilmişdir ki, işğal olunmuş ərazilərdə 1988-1994-cü illərdə 2,4 min sənaye, aqrar sahə obyektləri və digər müəssisələr tamamilə məhv edilmiş, 5,2 min km avtomobil yolu, 350-ə yaxın körpü, 286 km dəmir yolu xətti, 116 dəmir yolu körpüsü, 224 su anbarı, 7,6 min km su xətti, 2 min km qaz kəməri xətti, 76,9 min km elektrik xətti, 2,5 min ədəd transformator və s. infrastruktur obyektləri dağıdılmış və talan edilmişdir.

Bununla yanaşı, kənd təsərrüfatı üçün mühüm əhəmiyyət kəsb edən iqtisadi potensiala ciddi ziyan vurulmuş, təqribən 1 milyon hektar suvarılan torpaq, 34,6 min hektar üzüm və meyvə bağları işğalçılar tərəfindən ələ keçirilmiş, böyük həcmdə əkin sahələri üçün yararlı torpaqlar suvarılmayaraq faktiki olaraq iqtisadi dövriyyədən çıxarılmış, 220 min baş mal-qara işğalçıların əlinə keçmişdir. Bütövlükdə isə işçi qrupu tərəfindən 2017-ci il üçün verilmiş məlumata görə, hərbi təcavüz və işğal nəticəsində ölkəmizə dəymiş itki və ziyanların ümumi dəyəri 820 milyard dollar olaraq qiymətləndirilmişdir. Heç şübhəsiz ki, 2020-ci ilin sentyabrında başlamış Vətən müharibəsi dövründə ölkəmizə vurulmuş ziyanın və tələfatların həcmini, həmçinin Qarabağ bölgəsində vaxtilə işləyən müəssisələrin işğal nəticəsində dağıdılması səbəbindən əldə edilməsi mümkün olmayan, itirilmiş gəlirləri və mənfəətləri nəzərə alsaq, bu rəqəm xeyli yüksək olacaqdır.

Məlumdur ki, hazırda işğaldan azad olmuş ərazilər zəngin yeraltı və yerüstü sərvətlərə: filiz, əlvan metallar, qızıl, civə, xromit, əhəng, mərmər, əqiq, mineral sular və s. kimi mineral ehtiyatlara və geniş kurort rekreasiya potensialına malikdir. Bu ərazilərdə inşaat sektoru üçün zəruri olan bir çox tikinti materialları: mişar daşı, kərpic, çınqıl, sement, əhəng daşı istehsal, üçün zəruri xammallar, tikinti qumu və s. vardır. İşğaladək bu ərazilərdə fəaliyyət göstərən

sənaye sahələri respublika iqtisadiyyatında mühüm rola malik idi. Burada əsasən yeyinti, yüngül, tikinti materialları kimi sənaye sahələri güclü inkişaf tapmışdır. İşğaladək bu ərazilərin sənaye sahələri arasında daha güclü inkişaf edənləri yerli əhalinin ərzaqla təminatında mühüm əhəmiyyət daşıyırdı.

Həmin ərazilərdə İstisu və Turşsu mineral suyunun qablaşdırılması müəssisələri, Dağlıq Qarabağın və Ağdamın mərmər, mişar daşı zavodları, şərab zavodları, toxuculuq və ayaqqabı fabrikləri, Qarabağ İpək Kombinatı və s. müəssisələr fəaliyyət göstərirdi. Kənd təsərrüfatına gəldikdə, bu ərazilərdə taxılçılıq, yem istehsalı, tütünçülük, üzümçülük, pambıqçılıq, kartofçuluq, bağçılıq və bostançılıq, ətlk-südlük heyvandarlıq, xüsusən də qoyunçuluq üstünlük təşkil edirdi. Bu ərazilərdə hazırda işğal nəticəsində dağıdılmış 311 kənd təsərrüfatı müəssisəsi, o cümlədən məşhur Qarabağ cinsi cıdır atları yetişdirilən Ağdam atçılıq sovxozu, 319 kolxoz və 92 sovxoz fəaliyyət göstərirdi. Bütövlükdə isə işğaldan əvvəl bu bölgələrdə Azərbaycanın kənd təsərrüfatı məhsullarının təqribən 35-40 %-i, o cümlədən ətin 14 %-i, baramanın 17 %-i, taxılın 14 %-dən, üzümün 31 %-dən, südün 17 %-dən, yunun 19 %-dən çoxu istehsal edilirdi.

Ərazilərin işğal altında saxlanılması Ermənistana ciddi iqtisadi fayda gətirməyib. Həmin ərazilərin yeraltı və yerüstü təbii ehtiyatlarla zəngin olmasına, əlvan metal filizləri, qızıl, civə, xromit, perlit, əhəng, mərmər, əqiq, mineral sular və digər çox yayılan faydalı qazıntılara malik olmasına, habelə geniş kurort-rekreasiya potensialına malik olmasına baxmayaraq, Ermənistan bu potensialdan heç zaman tam faydalana bilməyib.

Azərbaycanın Vətən müharibəsində qələbəsindən sonra qarşıda duran mühüm məsələlərdən biri işğaldan azad edilmiş rayonlarda sosial-məişət vəziyyətinin normal hala gətirilməsi üzrə tədbirlərin görülməsi, insanların həmin ərazilərdə tədricən məskunlaşdırılması, onların məşğulluğunun təmin olunması ilə bağlıdır.

Müasir dünyamızın mühüm inkişaf amillərindən biri innovasiya və yeniliklərdir. Hansı ki, ən müasir innovasiyaların tətbiqi ilə Qarabağ regionundan maksimum iqtisadi və sosial fayda almaq mümkün olacaqdır. Maksimum iqtisadi və sosial fayda üçün ilk növbədə, hazırki vəziyyət dərindən analiz edilməlidir. İşğalan əvvəlki və sonrakı vəzyiyyət sahələr üzrə təhlil olunmalıdır. Qarabağ regionu üçün üstünlüyə malik sahələr müəyyənləşdirilməlidir, əlaqədar təşkilatlar və dövlət bir tərəfdən innovativ ideyaların ortaya çıxması və tətbiqi tədqiqatlarının aparılması üçün münbit şərait yaratmalı, digər tərəfdən də bu innovativ ideyaların istehsalatda tətbiqinin intensivləşdirilməsi üçün lazım olan mexanizmi işləyib hazırlamalı, üstünlüyə malik sahələrə investisiyalar qoyulmasını, həmçinin imtiyazlar, güzəştlər həyata keçirərək ən effektiv icrasını təmin etməlidir. Eləcə də rəqabətədavamlı, elmtutumlu, ixracyönümlü, dünya standartlarına cavab verən məhsul istesalı üçün maksimum əmək sərf olunmalıdır.

İnnovasiya modeli olaraq ənənəvi və şərqiasiya modellərinin sintezinin tətbiqinin tərəfdarıyam. Ənənəvi model dedikdə tam innovasiya dövrünün modeli başa düşülür. Bu modeli innovasiya ideyasının formalaşmasından məhsulun istehsalına qədər gedən dövr ərzində innovasiya sistemi strukturunun bütün elementlərini özündə əks etdirir. Bu elementlər fundamental və tətbiqi elmi kadr hazırlığı, istehsal, maliyyə mexanizmi və s-dir . Niderland, Almaniya, Fransa, Finlandiya, Amerika kimi ölkələrdə ənənəvi İnnovasiya sistemi formalarından istifadə edilir. Şərqi Asiya innovasiya sistemi isə ənənəvi modeldən fərqli olaraq məhz ənənəvi inteqrasiya modeli ölkələrindən götürmüş, yüksək texnoloji məhsulun ixracına istiqamətlənmişdir. İqtisadiyyatın köhnəlmiş üsullarının tətbiqinin qarşısının alınması, elmi-texniki potensialın inkişafının təmin edilməsi, rəqabətqabiliyyətli şəhərlərin salınmasının vacibliyi də vurğulanmalıdır. Qarabağ regional innovasiya mərkəzinin yaradılması istiqamətlərindən danışarkən mütləq şəkildə vurğulanmalı olan aşağıdakı məqamlar var :

- qarabağ bölgəsinin truzim destinasiyası olaraq qiymətləndirilməsi;

- kiçik və orta sahibkarlığın inkişafı;
- kommersiya fəaliyyətinin təmin edilməsi;
- Qarabağa qoyulacaq birbaşa investisiyaların sektorlar üzrə təhlili;
- distant təhsil və distant iş yerlərinin açılması.

## ƏDƏBİYYAT

1. Abdullayev K.N. İnnovasiyalı inkişafn ümumi istiqamətləri// Azərbaycan Respublikasında innovasiya yönümlü iqtisadi inkişafın problemləri və onların həlli yolları ( respublika elmi praktiki konfransının materialları) // Sumqayıt Dövlət Univcersiteti: SDU nəşr. 2010, 66 s.
2. Abbaszadə M., "Azərbaycanda müasir innovasiya siyasətinin ölkənin iqtisadi inkişafında rolu", Elm və İnnovativ Texnologiyalar Jurnalı Nömrə 14, 2020. 32-45
3. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı
4. Mehriban Yadulla, "İqtisadiyyatın milli modelləri və səmərəlilik göstəricisinin əldə edilməsində onların rolu", Bakı Dövlət universitetinin "Xəbərlər" jurnalı 2012 №1
5. UNEC Ekspert MART 2021
6. Hüseynova A.D. Azərbaycanda innovasiya potensialının təhlili. Bakı: Elm, 2013, 385 s
7. "İşğaldan azad edilmiş ərazilərin Azərbaycan iqtisadiyyatına inteqrasiyası" elmi konfrans, 10 Fevral 2021
8. Ələskərov A., Əhmədova A. Müstəqil Azərbaycan Respublikası bazar iqtisadiyyatına keçid yollarında. Azərbaycan EA-mn Xəbərləri. ''İqtisadiyyat" seriyası, № 4, Bakı, 2016.

## QARABAĞ REGİONAL İNNOVASİYA MƏRKƏZİNİN YARADILMASININ ƏSAS İSTİQAMƏTLƏRİ

***Mehriban Yadulla, Qazibahadır Fatimə***

## XÜLASƏ

Azərbaycanın ərazi bütövlüyünün təmin olunması xalqımızın çoxəsrlik tarixində möhtəşəm yer tutur. Dövlət sərhədlərinin bərpası ilə işğaldan azad olunmuş ərazilərin ölkə iqtisadiyyatına reinteqrasiyası məsələsi aktuallaşdı. Bunun üçün əvvəlcə Ermənistanın hərbi təcavüzü nəticəsində iqtisadiyyatımıza dəyən zərərin, işğal altında olan bölgələrimiz tərəfindən itirilmiş iqtisadi potensialın vəziyyətini araşdırdıq. İşğal olunmuş ərazilərdə 1988-1994-cü illərdə 2,4 min sənaye, aqrar sahə obyektləri və digər müəssisələr tamamilə məhv edilmiş, 5,2 min km avtomobil yolu, 350-ə yaxın körpü, 286 km dəmir yolu xətti, 116 dəmir yolu körpüsü, 224 su anbarı, 7,6 min km su xətti, 2 min km qaz kəməri xətti, 76,9 min km elektrik xətti, 2,5 min ədəd transformator və s. infrastruktur obyektləri dağıdılmış və talan edilmişdir.

Hazırda dövlətimiz tərəfindən işğaldan azad olmuş bölgələrin bərpası və inkişafı ilə bağlı konsepsiya hazırlanmışdır. Onun həyata keçirilməsinin mühüm istiqaməti kimi həmin bölgələrin iqtisadi potensialı, kənd təsərrüfatının, sənayenin, turizmin və digərlərinin dirçəldilməsi və inkişafı çıxış edir. Qarabağ iqtisadiyyatı Azərbaycanın gələcək dayanıqlı və davamlı inkişafı üçün əlverişli və əvəzolunmaz şansdır. Hal-hazırda regionun İnnovasiya Mərkəzinə çevrilməsi üçün ciddi araşdırmalara ehtiyac var. Bu istiqamətdə biznes mühitin təkmilləşdirilməsi, startapların inkişaf etdirilməsi vacibdir.

# ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ СОЗДАНИЯ КАРАБАХСКОГО РЕГИОНАЛЬНОГО ИННОВАЦИОННОГО ЦЕНТРА

***Мехрибан Ядулла, Газибахадур Фатима***

## АННОТАЦИЯ

Обеспечение территориальной целостности Азербайджана занимает важное место в многовековой истории нашего народа. Восстановление государственных границ поставило вопрос о реинтеграции освобожденных территорий в экономику страны. В этом контексте мы в первую очередь рассмотрели ущерб, нанесенный нашей экономике в результате армянской военной агрессии, состояние экономического потенциала, утраченного нашими оккупированными территориями. В 1988-1994 годах на оккупированных территориях полностью разрушено 2400 объектов промышленности, сельского хозяйства и других предприятий, 5200 км автомобильных дорог, около 350 мостов, 286 км железнодорожных путей, 116 железнодорожных мостов, 224 водохранилища, 7,6 тыс. км водопроводов, Разрушено и разграблено 2 тыс. км газопроводов, 76,9 тыс. км линий электропередач, 2,5 тыс. трансформаторов и др. объектов инфраструктуры.

В настоящее время в нашем государстве разработана концепция восстановления и развития освобожденных районов. Важным направлением ее реализации является экономический потенциал этих регионов, возрождение и развитие сельского хозяйства, промышленности, туризма и других отраслей. Карабахская экономика – это благоприятная и незаменимая возможность для будущего устойчивого развития Азербайджана. В настоящее время необходимы серьезные исследования для превращения региона в инновационный центр. В связи с этим важно улучшать бизнес-среду и развивать стартапы.

# MAIN DIRECTIONS OF ESTABLISHMENT OF KARABAKH REGIONAL INNOVATION CENTER

***Mehriban Yadulla, Gazibahadur Fatima***

## SUMMARY

Ensuring the territorial integrity of Azerbaijan occupies an important place in the centuries-old history of our people. The restoration of state borders raised the issue of reintegration of the liberated territories into the country's economy. In this context, we first examined the damage caused to our economy as a result of the Armenian military aggression, the state of economic potential lost by our occupied territories. In 1988-1994, 2,400 industrial, agrarian facilities and other enterprises were completely destroyed in the occupied territories, 5,200 km of roads, about 350 bridges, 286 km of railway lines, 116 railway bridges, 224 reservoirs, 7.6 thousand km of water lines, 2 thousand km of gas pipelines, 76.9 thousand km of power lines, 2.5 thousand transformers, etc. infrastructure facilities were destroyed and looted.

At present, our state has developed a concept for the restoration and development of the liberated regions. An important direction of its implementation is the economic potential of these regions, the revival and development of agriculture, industry, tourism and other sectors. The Karabakh economy is a favorable and irreplaceable opportunity for the future sustainable development of Azerbaijan. Currently, serious research is needed to turn the region into an Innovation Center. In this regard, it is important to improve the business environment and develop startups.

İSSN 2409-0859 Sosial və humanitar elmlərin müasir problemləri. Elmi əsərlər toplusu. № 30 (I hissə), 2022

# AZƏRBAYCANDA KƏND TƏSƏRRÜFATININ ÖLKƏ İQTİSADİYYATINDAKI ROLU

***İbrahimli Vüsalə***
***BDU-nun II kurs magistrantı***
***i.ibrahimli235@gmail.com***

***Açar sözlər***: kənd təsərrüfatı, töhfə, ÜDM.
***Ключевые слова***: сельское хозяйство, вклад, ВВП.
***Keywords***: Agriculture, contribution, GDP.

**Giriş.** İnkişaf etməkdə olan hər bir ölkənin əsas məqsədlərindən biri yüksək gəlir səviyyəsinə çatmaqdır. Kənd təsərrüfatı ərzaq təhlükəsizliyinin təmin edilməsi və qidalanmanın yaxşılaşdırılması kimi digər mühüm inkişaf məqsədlərinə nail olmaq ilə yanaşı, məqsədə çatmaq üçün iqtisadiyyatların transformasiyasında mühüm rol oynayır. Odur ki, iqtisadi artımı sürətləndirərkən aclığa və qidalanmaya son qoymaq üçün kənd təsərrüfatının transformasiyası reallığa çevrilməlidir.

İqtisadi transformasiya (həmçinin struktur transformasiya adlanır) ölkənin öz texnologiya və sektorlarının ümumi Ümumi Daxili Məhsula (ÜDM) nisbi töhfəsinin Ənənəvi texnologiyadan müasir texnologiyaya, kənd təsərrüfatından sənaye və istehsala, sonra isə yüksək -gəlirli xidmət iqtisadiyyata dəyişməsi deməkdir. Bu prosesin uğurlu olması üçün aqrar sektor modernləşdirilməlidir. Həqiqətən də, kənd təsərrüfatının modernləşdirilməsi əhalini daha yaxşı qidalandırmaq və uşaqların böyüməsi kimi qida çatışmazlığının ağır nəticələrinin qarşısını almaqla insan kapitalını yaxşılaşdıra bilər. Bütövlükdə, yaxşı qidalanan uşaq daha yaxşı inkişaf edir və daha məhsuldar olur.

Qidalanmanın yaxşılaşdırılması gələcək iqtisadi transformasiyaya təkan verməyə kömək edən dövr yaradır. Kənd təsərrüfatı məhsuldarlığının və gəlirinin artması istehlakçıların istehsal olunan malları almaq və kənd təsərrüfatının modernləşdirilməsinə investisiya qoymaq imkanlarını artırır.

Kənd təsərrüfatı daha məhsuldarlaşdıqca, artıq əmək kənd təsərrüfatı işlərindən şəhər istehsal işlərinə keçir. Bu mərhələnin nəticəsi kənd təsərrüfatının ÜDM-də və işçi qüvvəsində payının azalması olsa da, kənd təsərrüfatının modernləşdirilməsi prosesi iqtisadi transformasiya və ərzaq təhlükəsizliyinə və yaxşılaşdırılmış qidalanmaya nail olmaq üçün çox vacibdir.

Kənd təsərrüfatının transformasiyasını reallığa çevirmək üçün iki əsas sahə var. Birincisi, müasir texnologiyaların əlçatan olması vacibdir. Müasir kənd təsərrüfatı texnologiyaları özəl və dövlət sektorlarından gələ bilsə də, milli hökumətlər kənd təsərrüfatı tədqiqatlarına və inkişafına sərmayə qoyuluşunda böyük rol oynamalıdırlar. Bu, özəl müəssisənin bu cür texnologiyaların inkişafının faydalarını tam şəkildə əldə etmək çətinliyi ilə bağlıdır. Milli kənd təsərrüfatı tədqiqat sistemləri yerli şəraitə uyğun yeni texnologiyalar tapmaq üçün əyalət səviyyələrində işləməlidir və dövlət bu texnologiyaları yaymaq üçün genişləndirmə sistemlərinə malik olmalıdır.

Kənd təsərrüfatının transformasiyası üçün növbəti əsas sahə müasir texnologiyaların mənimsənilməsidir, çünki fermerlər belə texnologiyalar mövcud olsa belə, istifadə edə bilməzlər. Yüksək məhsuldar toxum kimi bir çox texnologiyalar su, giriş və nou üçün ciddi şərtlər tələb edir. Buna görə də hökumətlər fermerlərin bu mənbələrə çıxışı və kənd təsərrüfatı məhsullarını satması üçün suvarma və təkmilləşdirilmiş bazar infrastrukturu da daxil olmaqla şərait hazırlamalıdır. Hökumətlər həmçinin yeni texnologiyaya yiyələnmək, logistikanı idarə etmək və dəyər zəncirinin hər bir qovşağını artırmaq üçün ixtisaslı işçi qüvvəsini təmin etmək üçün insan kapitalı yaratmalıdırlar.

**Analiz.** Bütün ölkələrdə olduğu kimi, Azərbaycanda da aqrar sektor ölkə iqtisadiyyatına müxtəlif formalarda töhfə verir. Bunlardan;

- Kənd təsərrüfatının əhaliyə verdiyi töhfə;
- Kənd təsərrüfatının işçi qüvvəsinə verdiyi töhfə;
- Kənd təsərrüfatının ÜDM-ə verdiyi töhfə.

**Kənd təsərrüfatının əhaliyə verdiyi töhfə**

Əhali həm ölkə iqtisadiyyatının bütün sahələri üçün işçi qüvvəsi yaradır, həm də bu sektorlarda istehsal olunan mal və xidmətlərə tələbat yaradır. 1990-2020-ci illər arasında Azərbaycan üzrə kənd və şəhər əhalisinin nisbətlərinə nəzər saldıqda bu nisbətlərin bir-birinə çox yaxın olduğu, lakin bu otuz illik dövr ərzində şəhər əhalisinin kənd əhalisindən həmişə yüksək olduğu görünür (cədvəl 1). Ümumiyyətlə, 1990-2020-ci illər arasında Azərbaycanda kənd əhalisinin sayında artım (2,6%), şəhər əhalisinin sayında isə (2,2%) azalma müşahidə olunmuşdur.

**Cədvəl 1. Azərbaycan əhalisi illər üzrə dəyişməsi**

| İllər | Ümumi əhali | Kənd əhalisi | Kənd əhalisinin nisbəti (%) | Şəhər əhalisi | Şəhər əhalisinin nisbəti (%) |
|---|---|---|---|---|---|
| **1990** | 7 131 900 | 3 284 600 | 46.05 | 3 847 300 | 53.94 |
| **1995** | 7 643 500 | 3 637 900 | 47.60 | 4 005 600 | 52.40 |
| **2000** | 8 032 800 | 3 925 500 | 48.87 | 4 107 300 | 51.13 |
| **2005** | 8 447 400 | 4 024 000 | 47.64 | 4 423 400 | 52.36 |
| **2010** | 8 997 600 | 4 222 700 | 46.93 | 4 774 900 | 53.07 |
| **2015** | 9 593 000 | 4 494 700 | 46.85 | 5 098 300 | 53.15 |
| **2020** | 10 067 100 | 4 755 100 | 47.23 | 5 312 000 | 52.77 |

**Mənbə:** https://www.stat.gov.az/source/demoqraphy/ əldə edilən məlumatlara əsasən müəllif tərəfindən hazırlanmışdır

**Kənd təsərrüfatının işçi qüvvəsinə verdiyi töhfə**

İşçi qüvvəsi bütün makroiqtisadi dəyişikliklərlə sıx əlaqəli olan bir anlayışdır. Bu səbəbdən həm iqtisadiyyatdan çox təsirlənən, həm də iqtisadiyyata təsir edən bir amil kimi yer alır. İşçi qüvvəsi əhalinin istehsalda fəal hissəsidir. Azərbaycanda kənd təsərrüfatı sektoru məşğulluq baxımından nəzərdən keçirildikdə onun ölkə iqtisadiyyatına mühüm töhfə verdiyi görülür (cədvəl 2).

Əslində iqtisadi inkişaf prosesində kənd təsərrüfatı sektorunun məşğulluğa töhfəsinin digər sahələrin xeyrinə azalması arzuolunandır. Burada mühüm məqam qeyri-kənd təsərrüfatı sektorlarında yaradılan yeni məşğulluq imkanları və kənd təsərrüfatı sektorunun işçi qüvvəsinə verdiyi töhfənin xarakteridir. Kənd təsərrüfatında məşğulluğun sənaye və xidmət sektoruna keçməsi ölkə iqtisadiyyatının inkişafına təsir göstərir.

**Cədvəl 2. İqtisadi fəal əhalinin sektorlar üzrə bölgüsü (%)**

| İllər | Sənaye | Kənd təsərrüfatı | Tikinti | Nəqliyyat və anbar təsərrüfatı | İnformasiya və rabitə | Digər |
|---|---|---|---|---|---|---|
| **2011** | 7,0 | 37,9 | 7,1 | 4,1 | 1,3 | 42,6 |
| **2012** | 7,0 | 37,7 | 7,2 | 4,1 | 1,3 | 42,7 |
| **2013** | 7,1 | 37,1 | 7,2 | 4,1 | 1,3 | 43,2 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **2014** | 7,0 | 36,7 | 7,2 | 4,0 | 1,3 | 43,7 |
| **2015** | 6,8 | 36,4 | 7,2 | 4,2 | 1,3 | 44,1 |
| **2016** | 7,1 | 36,3 | 7,2 | 4,2 | 1,3 | 43,9 |
| **2017** | 7,2 | 36,4 | 7,2 | 4,2 | 1,3 | 43,7 |
| **2018** | 7,4 | 36,3 | 7,3 | 4,2 | 1,3 | 43,5 |
| **2019** | 7,4 | 36,0 | 7,4 | 4,2 | 1,3 | 43,7 |
| **2020** | 7,4 | 36,3 | 7,3 | 4,2 | 1,3 | 43,5 |

**Mənbə:** https://www.stat.gov.az/source/labour/ əldə edilən məlumatlara əsasən müəllif tərəfindən hazırlanmışdır

**Kənd təsərrüfatının ÜDM-ə töhfəsi**

İqtisadi dildə məhsul hər hansı istehsal fəaliyyəti nəticəsində yaranmış əmtəə və ya məhsulların fiziki dəyərinin pul məbləği kimi ifadə edilir. Ümumi Daxili Məhsul (ÜDM), digər tərəfdən, bir ölkənin sərhədləri daxilində və müəyyən bir müddət ərzində istehsal olunan bütün son məhsul və xidmətlərin pul dəyəridir.

**Cədvəl 3. Kənd təsərrüfatı ÜDM-nin ümumi ÜDM-də payı və onun inkişaf tempi**

| | **Ümumi ÜDM** | | **ÜDM-də kənd təsərrüfatının payı** | | |
|---|---|---|---|---|---|
| | **Dəyər (milyon manat)** | **İnkişaf sürrəti (%)** | **Dəyər (milyon manat)** | **İnkişaf sürrəti (%)** | **Kənd təsərrüfatının payı (%)** |
| **2000** | 4718,1 | - | 758,9 | - | 16,1 |
| **2005** | 12522,5 | 165,4 | 1137,9 | 49,9 | 9,1 |
| **2010** | 42465,0 | 239,1 | 2344,6 | 106,0 | 5,5 |
| **2015** | 54380,0 | 28,1 | 3359,4 | 43,3 | 6,2 |
| **2019** | 81681,0 | 50,2 | 4669,6 | 39,0 | 5,7 |
| **2020** | 72432,2 | -11,3 | 4997,8 | 7,0 | 6,9 |
| **2021** | 92857,7 | 28,2 | 5478,6 | 9,6 | 5,9 |

**Mənbə:** https://www.stat.gov.az/news/index.php?id=5100 əldə edilən məlumatlara əsasən müəllif tərəfindən hazırlanmışdır

Azərbaycan Dövlət Statistika Komitəsinin hesabladığı kənd təsərrüfatı ÜDM-i aqrar sektorun ölkə iqtisadiyyatının inkişafına təsirini, başqa sözlə iqtisadiyyata verdiyi töhfəni müəyyən edir və onun ümumi ÜDM-də payı bu töhfənin həcmi haqqında məlumat verir (cədvəl 3).

Cədvəl 3 təhlil edildikdə kənd təsərrüfatı ÜDM-nin illər ərzində dəyər baxımından artdığı, sektorlar arasında nisbət baxımından isə azaldığı görünür. Kənd təsərrüfatı sektorunun ümumi ÜDM-də payı 2000-ci ildə 16,1 faiz olduğu halda, 2019-cu ildə 5,7 faizə enmişdir. Lakin dərəcələrin bu azalması aqrar sektorda istehsalın azalması demək olmamalıdır. Bu azalma azad bazar iqtisadiyyatına keçidlə yanaşı, sənaye, tikinti, xidmət və digər sahələrdə sürətli inkişaf kimi səbəblərlə bağlıdır. Ümumiyyətlə, inkişaf etməkdə olan ölkələrdə sənaye, xidmət və digər sahələrdə ÜDM-in artım tempi kənd təsərrüfatı ÜDM-in artım tempindən yüksəkdir.

**Nəticə.** Azərbaycanda kənd təsərrüfatı keçmişdən bu günə daima inkişaf edən bir sahə olmuşdur və bunla bağlı olaraq bu sahə üzrə vərdiş və bacarıqlar xeyli yüksəkdir. Lakin müasir dövr kənd təsərrüfatının modernləşməsini tələb edir. Kənd təsərrüfatının modernləşdirilməsi əmək məhsuldarlığını artırmaqla, kapital toplamaq üçün kənd təsərrüfatı profisiti artırmaqla və ixrac vasitəsilə xarici valyutanı artırmaqla sənayeləşmə üçün şərait hazırlayır. Modernləşmə həm də yoxsul fermerlərin gəlirlərini və

məhsuldarlığını artırmaq, ərzaq qiymətlərini aşağı salmaq və qidalanmanı yaxşılaşdırmaqla humanitar məqsədlərə nail olmağa kömək edir.

## ƏDƏBİYYAT

1. Beckman J., Countryman M.A. (22.02..2021) "The Importance of Agriculture in the economy: Impacts from COVID-19". American Jurnal of Agricultural Economics https://onlinelibrary.wiley.com/doi/full/10.1111/ajae.12212
2. https://www.stat.gov.az/news/index.php?id=5100 Statistika Komitəsi - ÜDM 2021 il üzrə bölgüsü
3. https://www.stat.gov.az/source/demoqraphy/ Statistika Komitəsi - Əhali
4. https://www.stat.gov.az/source/labour/ Statistika komitəsi - Məşğulluq
5. Nelson C.G., Valin H., Ronald Sands D. (16.12.2013) "Climate change effects on agriculture: Economic responses to biophysical shocks" https://www.pnas.org/doi/10.1073/pnas.1222465110
6. Yifu Lin J. (08.02.2018) "Agriculture is key for economic transformation, food security, and nutrition". İnternational Food Policy Research İnstitute https://www.ifpri.org/blog/agriculture- .

## AZƏRBAYCANDA KƏND TƏSƏRRÜFATININ ÖLKƏ İQTİSADİYYATINDAKI ROLU

*İbrahimli Vüsalə*

## XÜLASƏ

Kənd təsərrüfatı, ümumiyyətlə, torpaqdan və toxumdan istifadə edərək bitki və heyvan mənşəli məhsulların istehsalı və bu məhsulların müxtəlif mərhələlərdə qiymətləndirilməsi deməkdir. Daha geniş çərçivədə baxsaq, kənd təsərrüfatı cəmiyyətin qidalanması üçün zəruri olan bitki və heyvan mənşəli məhsulların əldə edilməsi məqsədilə müəyyən bioloji və sosial-iqtisadi mühitdə həyata keçirilən fəaliyyətlərin məcmusudur. Yaxın illərdə dünya əhalisinin sayının gözlənilən artımı və bütün dünyada insanların qidalanma vərdişlərindəki dəyişikliklər kənd təsərrüfatını dünyanın ən mühüm strateji sektorlarından birinə çevirir.

## РОЛЬ СЕЛЬСКОГО ХОЗЯЙСТВА АЗЕРБАЙДЖАНА В ЭКОНОМИКЕ СТРАНЫ

*Ибрагимли Вюсаля*

## АННОТАЦИЯ

Сельское хозяйство обычно означает производство продуктов растительного и животного происхождения с использованием земли и семян и оценку этих продуктов на различных этапах. В широком смысле сельское хозяйство представляет собой совокупность видов деятельности, осуществляемых в определенной биологической и социально-экономической среде с целью получения продуктов растительного и животного происхождения, необходимых для питания общества. Ожидаемый рост населения мира в ближайшие годы и изменения пищевых привычек людей во всем мире делают сельское хозяйство одним из важнейших стратегических секторов в мире.

## THE ROLE OF AGRICULTURE IN AZERBAIJAN IN THE COUNTRY'S ECONOMY

*İbrahimli Vusala*

## SUMMARY

Agriculture generally means the production of plant and animal products using land and seeds and the evaluation of these products at different stages. Broadly speaking, agriculture is a set of activities carried out in a certain biological and socio-economic environment in order to obtain the products of plant and animal origin necessary for the nutrition of society. The expected growth of the world's population in the coming years and changes in people's eating habits around the world make agriculture one of the most important strategic sectors in the world.

# İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİN EDİLMƏSİ VƏ DAXİLİ BAZARIN QORUNMASINDA GÖMRÜK XİDMƏTİNİN ROLU

***Mikayılova Gülcan Mikayıl qızı***
***BDU-nun II kurs magistrantı***
***gulcanmikayilova7@gmail.com***

***Açar sözlər:*** Gömrük sistemi, xarici ticarət siyasəti, gömrük siyasəti, iqtisadi təhlükəsizlik,
***Ключевые слова:*** таможенная система, внешнеторговая политика, таможенная полити-ка, экономическая безопасность,
***Keywords:*** customs system, foreign trade policy, customs policy, economical security.

Gömrük xidməti bütün dünya ölkələrində xüsusi səlahiyyətli dövlət idarəetmə orqanı kimi çıxış edir. Azərbaycan Respublikasında da bu xidmət xüsusi səlahiyyətli hesab edilir və gömrük xidməti əsasında idarəetmə qəbul edilir. Nəzərə almalıyıq ki, bazar iqtisadiyatına keçid dövründə iqtisadi təhlükəsizlik çox önəmli rola malikdir. İqtisadi təhlükəsizliyin təmin edilməsində gömrük xidmətinin özünəməxsus yeri vardır. Çünki, gömrük xidmətinin inkişaf etdirilib, təmin olunması həm milli, həm də iqtisadi təhlükəsizliyin həyata keçirilməsində çox mühüm rola malikdir. Bütün bunları nəzərə alsaq deyə bilərik ki, bu mövzu çox aktualdır. Ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlər ilk növbədə strateji milli maraqların müdafiəsinə, milli mənafelərin qorunmasına xidmət edir və bir sıra istiqamətləri özündə əks etdirir.

Bunlara davamlı iqtisadi artımın təmin edilməsi; milli iqtisadiyyatın, o cümlədən sahələr üzrə məhsul istehsalının rəqabət qabiliyyətinin yüksəldilməsi; əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması, etibarlı məşğulluğun təmin edilməsi, əhalinin gəlirlərinin artırılmasını aid etmək olar. Bütün sahələrdə olduğu kimi iqtisadi sahədə də ölkəmizdə müstəqillik əldə etdikdən sonra islahat və innovasiyaların yarandığı bir dövr başlamış oldu. Qeyd edək ki, bu islahatlar Azərbaycanın dünya və Avropa iqtisadiyyatına inteqrasiya olunmasına, beynəlxalq aləmin bərabər hüquqlu üzvünə çevrilməsinə, qloballaşma dövründə BƏB-də iştirakının artırılmasına və s. şərait yaratmışdır. Bir nüansı da qeyd etmək lazımdır ki, xarici rəqabətdən müdafiə, iqtisadi artımın təmin edilməsi, daxili iqtisadi sabitliyin təmin edilməsi, dövlət büdcəsinin gəlirlə təmin edilməsi və s. birbaşa olaraq ölkənin xarici ticarət siyasətindən asılıdır. Buna görə də ölkənin xarici ticarət siyasəti düzgün şəkildə tənzimlənməlidir.

Xarici ticarətin dövlət tənzimlənməsinin vasitələri və ya alətləri öz xarakterinə görə tarif vasitələrinə (gömrük tarifinin istifadə olunmasına əsaslanır) və qeyri-tarif vasitələrinə (bütün digər metodları özündə cəmləşdirir) bölünür. Tənzimlənmənin qeyri-tarif metodları kəmiyyət vasitələrinə, gizli proteksionizm metodlarına və maliyyə alətlərinə bölünür.

Tarif vasitələri xarici ticarət siyasətini həyata keçirərkən əsas istifadə olunan vasitələrdəndir ki, bu da gömrük tarifinin müxtəlif cür tətbiq edilməsində öz əksini tapır. Gömrük tarifinin bir-birini tamamlayan bir neçə tərifini vermək olar: Gömrük tarifi ticarət siyasətinin və dünya bazarı ilə qarşılıqlı fəaliyyətdə olan daxili bazarın dövlət tənzimlənməsinin alətidir; gömrük sərhəddindən keçirilən əmtəələrə tətbiq edilən və xarici iqtisadi fəaliyyətin əmtəə nomenklaturasına uyğun olaraq sistemləşdirilən gömrük rüsumları dərəcəsinin məcmusudur; müəyyən bir əmtəənin ölkənin gömrük ərazisindən çıxarılması və ya bu əraziyə gətirilməsi zamanı ödənilən gömrük rüsumunun konkret dərəcəsidir; bu halda gömrük tarifi anlayışı gömrük rüsumu anlayışı ilə tam üst-üstə düşür.

Qeyd edək ki, beynəlxalq ticarətin dövlət tənzimlənməsinin tarif metodları ilə yanaşı, hökumətlər qeyri-tarif metodlarından – kəmiyyət, gizli və maliyyə vasitələrindən də geniş istifadə edirlər. Tariflərdən fərqli olaraq qeyri-tarif metodlarının əksəriyyətini kəmiyyət baxımından ölçmək çətin olduğundan, onları statistikada əks etdirmək mürəkkəb məsələdir. Qeyri-tarif metodlarının məhz bu xüsusiyyəti ticarət siyasətinin müəyyən edilmiş məqsədlərinə çatmaq üçün ölkələri onlardan istifadə etməyə sövq edir. Kəmiyyət məhdudiyyətləri qeyri-tarif metodlarının ən geniş yayılmış növüdür. Kəmiyyət məhdudiyyəti dedikdə ixracına və idxalına icazə verilən əmtəələrin nomenklaturasını və kəmiyyətini müəyyən edən qeyri-tarif forması nəzərdə tutulur. Kəmiyyət məhdudiyyətlərinə kvotalaşdırma, lisenziyalaşdırma və ixracın ―könüllü məhdudlaşdırılması aiddir.

Gömrük orqanlarının əsas vəzifəsi ölkənin iqtisadi təhlükəsizliyini təmin etməkdir. Həmçinin Azərbaycan gömrük orqanlarının qarşısında yeni vəzifə yaranır - dövlətin iqtisadi təhlükəsizliyinin təminatının gücləndirilməsi üçün gömrük-hüquq sahəsinin tənzimlənməsi.

İqtisadi təhlükəsizliyə daxili və xarici mənbədən olan təhlükənin neytrallaşdırılmasına qarşı iqtisadi siyasətin müvəffəqiyyəti ilk növbədə dövlət hakimiyyətinin möhkəmləndirilməsindən, güclü cəmiyyətin və iqtisadiyyatın formalaŞmasından əhəmiyyətli dərəcədə asılıdır. Belə ki, ölkəmizin milli iqtisadi təhlükəsizliyi iqtisadiyyatın inkiŞaf səviyyəsindən, sosial inkiŞaf istiqamətindən və ölkənin təhlükəsizliyinin təmin olunmasından asılıdır.

Dövlət gömrük orqanları vasitəsilə xarici ticarət fəaliyyətinin tənzimlənməsinə nəzarət etməlidir, bununla yanaŞı prioritet iqtisadi metodların hüquqi metodların üzərində aparılmasına üstünlük verməlidir. Təsərrüfat fəaliyyətinin yeni şəraitində dövlət nəzarəti xarici ticarət fəaliyyəti sahəsində büdcənin doldurulma mənbəyi kimi ona mane olmamalıdır, əksinə xarici ticarətin inkişafına kömək etməlidir.

Mövzunun aktuallığı, eləcə də ondan ibarətdir ki, son vaxtlar gömrük qanunvericiliyində, gömrük ittifaqının təhsillə bağlı mühüm dəyişikliklərə məruz qalması diqqətdə olmuŞdur.

Azərbaycanda həyata keçirilən islahatlar, qlobal şəkildə xarici iqtisadi fəaliyyət sahəsinə və gömrük tənzimlənməsi sisteminə toxunmuşdur.

1980-cı ilin II-ci yarısından başlayan bazar iqtisadiyyatının islahatları özünün baŞlıca istiqamətlərindən biri kimi, xarici ticarət fəaliyyətinin liberallaşdırılmasını güman edirdi. Hal-hazırki mövzu, eləcə də onunla aktualdır ki, son vaxtlar, gömrük qanunvericiliyi və gömrük ittifaqı təhsillə bağlı mühüm dəyişikliklərə məruz qalmışdır.

Azərbaycan Respublikasının 29 iyun 2004-cü il tarixli ― Milli təhlükəsizlik haqqında Qanununda Azərbaycan Respublikasının iqtisadi təhlükəsizliyinin təmin olunmasının əsas istiqamətləri kimi aşağıdakılar qeyd edilir:

1) Dövlətin iqtisadi potensialının artırılması;
2) Təbii ehtiyyatların energetika əsaslarının, tranzit imkanlarının qorunması;
3) Daxili və xarici maliyyə ehtiyyatlarının ölkə iqtisadiyyatına yönəldilməsi;
4) Büdcə vəsaitlərinin və dövlət ehtiyyatlarının səmərəsiz istifadəsinə yol verilməməsi;
5) Bank sisteminin təkmilləşdirilməsi;
6) İqtisadiyyatda dövlət idarəetməsinin təkmilləşdirilməsi və s. (4, s.5)

Gömrük xidmətinin təmin olunması iqtisadi təhlükəsizlik üçün əsas şərtdir. Belə ki, istər ölkəyə daxil olan, istər də ölkədən xaric olan hər bir malın iqtisadiyyat üçün təhlükəsi vardır. Yəni, həddən artıq malın daxil və ya xaric olması, əksinə, lazımi səviyyədən az malın daxil və ya xaric olması,habelə, qadağan olunan malların (Məsələn, silah, narkotik maddələr və s.) ölkəyə daxil olması ölkə iqtisadiyyatının zəifləməsi və çökməsi üçün zəmin yaradır. Bütün bunların tənzimlənməsi gömrük xidmətinin üzərinə düşür. Azərbaycan öz suverenliyini bərpa etdikdən sonra 1992-ci il yanvarın 30-da Dövlət Gömrük Komitəsi yaradılmışdır. Lakin o zaman

mürəkkəb ictimai-siyasi vəziyyət hər bir sahədə olduğu kimi, gömrük orqanlarının da formalaşmasına imkan verməmişdir. Yalnız xalqımızın ümummilli lideri Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra bütün sahələrdə olduğu kimi, gömrük sistemində də islahatlar aparılmış, Dövlət Gömrük Komitəsinin fəaliyyətində ciddi dönüş yaranmışdır. Respublikamızın iqtisadi artım tempinə uyğun mühüm tədbirlərin davamlı görülməsi məqsədilə Azərbaycan Respublikasının qanunvericiliyi ilə gömrük orqanları qarşısında da bir sıra mühüm vəzifələrin yerinə yetirilməsi qoyulmuşdur. Bu, əsasən ölkənin iqtisadi təhlükəsizliyinin qorunması və dünya təsərrüfatı ilə geniş əlaqələrin qurulmasından ibarətdir.

2009-cu ildə Dövlət Gömrük Komitəsinin beynəlxalq əməkdaşlığının inkişaf etdirilməsi və möhkəmləndirilməsi istiqamətində də bir sıra məqsədyönlü tədbirlər həyata keçirilmişdir. Bir çox qabaqcıl ölkələrin gömrük təşkilatları ilə əməkdaşlığa və qarşılıqlı yardıma dair sənədlər imzalanmış və Dövlət Gömrük Komitəsində bir neçə regional və beynəlxalq səviyyəli tədbirlər keçirilmiŞdir. 2009-cu ilin aprelində Bakı Şəhərində Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilat - GUAM Ticarətə və Nəqletməyə Yardım layihəsinin həyata keçirilməsi üzrə Rəhbəredici Komitənin 10-cu iclası, mayda Müstəqil Dövlətlər Birliyi iŞtirakçı dövlətlərin Gömrük Xidməti Rəhbərləri şurasının Hüquq-mühafizə Bölməsi Başçıları Komitəsinin iclası, iyunda isə Qəbələ Şəhərində Müstəqil Dövlətlər Birliyi İştirakçı Dövlətlərin Gömrük Xidməti Rəhbərləri şurasının 49-cu iclası keçirilmiŞdir.

Dövlətin gömrük siyasəti xarici ticarət fəaliyyətinin dövlət tənzimlənməsinin əsas prinsipləri ilə müəyyən edilir.

Dövlət Gömrük Komitəsi və onun yerli strukturları tərəfindən ötən dövr ərzində idxal-ixrac əməliyyatları üzrə gömrük nəzarətinin təkmilləşdirilməsi, xarici-iqtisadi fəaliyyətdə gömrük tarif tənzimlənməsinin və gömrük orqanlarında maliyyə-vergi mexanizminin təkmilləşdirilməsi, Gömrük Məcəlləsinin yeni layihəsinin hazırlanması, gömrük-vergi qanunvericiliyinə dair normativ-hüquqi bazanın möhkəmləndirilməsi istiqamətində müvafiq işlər görülmüş, qaçaqmalçılıq və gömrük qaydalarının pozulması halları ilə mübarizənin gücləndirilməsi, statistika və avtomatlaşdırılma işində müasir texnologiyanın imkanlarından geniş istifadə olunmaqla Azərbaycan Respublikası gömrük xidmətinin vahid avtomatlaşdırılmış idarəetmə sisteminin (VAİS) yaradılması, məlumatların yoxlanılması və emalı məqsədilə yeni proqram təminatlarının yaradılması, beynəlxalq gömrük əməkdaşlığının genişləndirilməsi, gömrük orqanlarının maddi-texniki bazasının inkişaf etdirilməsi, kadrların keyfiyyət tərkibinin yaxşılaşdırılması və onların peşəkarlıq səviyyəsinin yüksəldilməsi sahəsində bir sıra mühüm tədbirlər həyata keçirilmişdir.

Gömrük siyasətinin təşkil olunması, onun nəticəliliyi və keyfiyyəti, bizim fikrimizcə, gömrük fəaliyyəti sahəsində ümumi və ya qadağan olunmuş davranış normalarının adekvatlığı, dövlət və digər subyektlərin mənfəətinin əldə edilməsi ilə, qanun təsərrüfat subyektlərinin fəaliyyətinin məqsəd və dövlətin maraqları arasında kompromisin əldə olunmasından, iqtisadi maraq, tarazlığının dərəcəsindən birbaşa asılıdır.

Bu fonda daha tez inteqrasiya üçün hüquq-mühafizə bölmələrinin transsərhəd cinayətkarlıqla mübarizə üzrə dövlətlərin GX üzrə ortaq proqramların reallaşdırılması və beynəlxalq qurumların aktiv fəaliyyətinin rolu, gömrük orqanlarının hüquq mühafizə qurumları arasında operativ informasiya mübadiləsi üzrə işçi əlaqələrin qurulmasını təmin edən vahid gömrük məkanının çərçivəsində davamlı əməliyyat kanallarının yaradılması sürətlə artır.

Hazırda gömrük orqanları idarəetmə sistemində təşkilati-yerləşdirilən və hüquqi idarəetmə üsullarının fəal keçidi baş verir ki, bu da onların yanında fəaliyyətin qiymətləndirilməsi üzrə meyarlar baxımından dəqiq və tam əməl edilməsinə, gömrük nəzarəti prosedurlarının həyata keçirilməsinə, proqram-məqsədli idarəetmə metodlarına doğru təxmin edilən dərəcədə

nailiyyətlərin qoyulmasına, gömrük orqanlarının fəaliyyətində ictimai əhəmiyyətli nəticələrə gətirib çıxarır.

## ƏDƏBİYYAT


1. Hacızadə Ə.M. Sosial iqtisadi sistemin formalaşması və inkişafı problemləri. Bakı, BDU, 1989
2. Şəkərəliyev A.Ş., Şəkərəliyeva Z.A. «İqtisadi təhlükəsizlik və onun strateci təminatı» «Qloballaşma və regional iqtisadi inkişaf» mövzusunda keçirilən beynəlxalq konfransın məqalələr toplusu. Bakı 2004 «Nurlar»
3. Məmmədov N.M., Bərxudarov M.İ. İqtisadi təhlükəsizlik Bakı: İqtisad Universiteti nəşriyyatı, 2006, 452 s.
4. Azərbaycan Respublikasının "Milli təhlükəsizlik haqqında" 29 iyun 2004-cü il tarixli Qanunu. Bakı, "Azərbaycan" qəzetində dərc edilmişdir (6 avqusta 2004-cü il, № 181)
5. http://gomruk.gov.az/az/news-1606.html


## İQTİSADİ TƏHLÜKƏSİZLİYİN TƏMİN EDİLMƏSİ VƏ DAXİLİ BAZARIN QORUNMASINDA GÖMRÜK XİDMƏTİNİN ROLU

*Gülcan Mikayılova*

### XÜLASƏ

Bu məqalədə Azərbaycan Respublikasının gömrük xidmətinin qarşısında duran problemlərin aradan qaldırılması üçün ticarətin və başqa ölkələrlə qarşılıqlı faydalı əməkdaşlığın təkmilləşdirilməsi, texniki və əlaqəli gömrük maneələrinin azaldılmasının təmin edilməsi məsələləri əks etdirilmişdir. Ölkəmizin daxili bazarının qorunması ilə bağlı məsələlər də araşdırılıb.

## РОЛЬ ТАМОЖЕННЫХ СЛУЖБ В ОБЕСПЕЧЕНИИ ЭКОНОМИЧЕСКОЙ БЕЗОПАСНОСТИ И ЗАЩИТЫ ВНУТРЕННЕГО РЫНКА

*Гулькан Микаилова*

### АННОТАЦИЯ

В данной статье отражены вопросы совершенствования торговли и взаимовыгодного сотрудничества с другими странами, обеспечения снижения технических и связанных с ними таможенных барьеров для устранения проблем, стоящих перед таможенной службой Азербайджанской Республики. Также были изучены вопросы, связанные с защитой внутреннего рынка нашей страны.

## THE ROLE OF CUSTOMS SERVICES IN ENSURING ECONOMIC SECURITY AND DEFENSE OF THE DOMESTIC MARKET

*Gulcan Mikayilova*

### SUMMARY

This article reflects the issues of improving trade and mutually beneficial cooperation with other countries, ensuring the reduction of technical and related customs barriers to eliminate the problems facing the customs service of the Republic of Azerbaijan. Issues related to the protection of the domestic market of our country were also investigated.

# NATO-NUN ENERJİ TƏHLÜKƏSİZLİYİNDƏ AZƏRBAYCANIN ROLU

***Elmi rəhbər: dos Xatirə Əfəndiyeva***
***BDU-nun Politologiya və Sosiologiya kafedrası***
***Sona Quliyeva***
***BDU-nun II kurs magistrantı***
***sonakuliyevaa@gmail.com***

***Açar sözlər:*** enerji təhlükəsizliyi, beynəlxalq əməkdaşlıq, enerji dəhlizləri, enerji istehsalçıları.
***Keywords:*** energy security, international cooperation, energy corridors, energy producers.
***Ключевые слова:*** энергетическая безопасность, международное сотрудничество, энергетические коридоры, производители энергии.

Azərbaycanda potensial enerji infrastrukturu bu ölkə üçün olduğu qədər Avropa İttifaqı və NATO üçün də vacibdir. Nəqliyyat şəbəkələrinin və resurslarının Xəzər regionunun enerji ehtiyatlarına necə ötürülməsi Azərbaycan-NATO münasibətləri üçün əsas məsələdir. Azərbaycan Rusiyanın təsirini azaltmaq üçün Qərb ölkələri, xüsusilə NATO və Aİ ilə əməkdaşlığı xeyli genişləndirir. NATO ilə güclü əlaqələr Aİ-yə üzv dövlətlərlə güclü əlaqələr deməkdir. Digər tərəfdən, enerji təhlükəsizliyi enerji sektorunda getdikcə daha vacib məsələyə çevrilir. Azərbaycanın milli təhlükəsizliyinin mühüm məsələlərindən biri də enerji dəhlizlərinin təhlükəsizliyinin və enerji ehtiyatlarının nəqlinin təmin edilməsidir.

Yaxın gələcəkdə Azərbaycanın bu istiqamətdə gördüyü işlər geniş arenanı əhatə edəcək: "Bu gün 20-yə yaxın NATO ölkəsi Azərbaycandan neft idxal edir. Alyansın dörd ölkəsi, o cümlədən Türkiyə Azərbaycandan qaz idxal edir və gələcəkdə bu ölkələrin coğrafiyası genişlənə bilər. Prezident İlham Əliyev İspaniyanın "El Pais" qəzetinə müsahibəsində bu məsələyə toxunub. O bildirib ki, Azərbaycan qazının Avropaya ixracı rəqabətədavamlı deyil. Bu, ölkəmiz üçün kommersiya layihəsidir. Azərbaycan qazı Avropaya nəql olunduqca, ölkəmiz bəzi Aİ-yə üzv dövlətlərin tələbatının əhəmiyyətli hissəsini təmin edəcək.21-ci əsrin ən mühüm infrastruktur layihələrindən biri Cənub Qaz Dəhlizinin dördüncü seqmenti Trans -Adriatik Boru Kəməri, 31 dekabr 2020-ci ildə istismara verilib. Layihənin ən böyük benefisiarları İtaliya, ikinci yerdə coğrafi genişlənmə potensialına malik Yunanıstan və Bolqarıstandır.Bu il Avropa İttifaqına 7 milyard kubmetrdən çox təbii qaz ixrac edilib.Gələn il 9 milyard kubmetr, 2023-cü ildə isə 11 milyard kubmetr qaz ixracı planlaşdırılır. Bütün bunlar onu göstərir ki, yaxın gələcəkdə Avropanın enerji təhlükəsizliyinin Azərbaycan seqmentinin göstəriciləri artacaq.

Enerji təchizatı yüksək səviyyəyə qalxmış, mühüm enerji infrastrukturunun mühafizəsi ölkə səviyyəsindən kənara çıxmışdır [1]. Bu, Azərbaycanı onun köməyi ilə sabit regional təhlükəsizlik və regional axtarışlar axtarmağa məcbur etdi. NATO alyansın enerji ehtiyatlarının təmin edilməsində mühüm rol oynayıb. Bununla belə, onlar enerji təhlükəsizliyinə yardım göstərmək üçün birlikdə işləyə bilərlər. Bir çox Aİ-yə üzv dövlətlər də NATO tərəfindən idarə olunur. Hər iki təşkilat enerji təhlükəsizliyini ümumi məsələ kimi görür.

Enerji təhlükəsizliyi son on ildə Avropa İttifaqı və NATO üçün əsas məsələyə çevrilib. Avro-Atlantika ölkələrinin əksəriyyəti enerji istehsalından uzaqdır, bu da onların enerji təchizatının şaxələndirilməsini çətinləşdirir. Onlar daha çox qısa məsafəli təchizatçılardan (Rusiya və Norveç kimi) asılıdırlar. Bu səbəbdən Avropanın NATO üzvü olması, təchizatçıların enerji resurslarından siyasi istifadə etməsi, enerji infrastrukturuna terror hücumları təhlükəsinin artması, enerji resurslarına artan tələbat və s. kimi problemlərlə üzləşmişdir

Qeyd edək ki, Azərbaycan qlobal güc mərkəzi olan Aİ-yə üzv ölkələrin üçdə biri ilə "Strateji tərəfdaşlıq" adlı sənədlər və bəyannamələr imzalayıb. Nəticədə bu nüfuzlu qurum ölkənin ticarət dövriyyəsinin yarıdan çoxunu təşkil edir. Ölkəmizlə Aİ arasında kommersiya əlaqələri Tərəfdaşlıq və Əməkdaşlıq Sazişinə tabedir. Təsadüfi deyil ki, Aİ bir nömrəli ticarət tərəfdaşıdır. Aİ Azərbaycanın ən böyük ticarət tərəfdaşıdır və ixracın 45,8 faizini və idxalın 27,89 faizini təşkil edir. Aİ-nin Azərbaycana ixracı əsasən maşın və nəqliyyat avadanlığı olduğu halda, Azərbaycanın Aİ-yə ixracı əsasən neft və qaz məhsullarıdır. Azərbaycanın Aİ ölkələri arasında ən böyük ticarət tərəfdaşları İtaliya (1,445 milyard dollar, 30,5 faiz), Almaniya (768,70 milyon dollar, 16,25 faiz) və İngiltərədir (449,71 milyon dollar, 9,5 faiz).

Bütün bunları nəzərə alan Prezident İlham Əliyev çıxışında deyib: "Avropa İttifaqı bizim üçün yaxın tərəfdaşdır. Biz uzun illərdir ki, müxtəlif sahələrdə çalışırıq. Gündəlik çox genişdir və bizim güclü siyasi əlaqələrimiz, əlbəttə ki, əməkdaşlığımızın şaxələndirilməsi üçün çox yaxşı əsasdır. Avropa İttifaqı bizim əsas ticarət tərəfdaşımızdır. Ticarətimizin təxminən 40 faizi Avropa İttifaqı ilədir. Ötən il ticarət dövriyyəsi 9,5 milyard dollar təşkil edib. Azərbaycanın Aİ-yə üzv dövlətlərə ixracı 6,8 milyard dollar təşkil edir. Azərbaycanda üzv ölkələrdən 1700-dən çox şirkət fəaliyyət göstərir. Bu, həm də iqtisadi fəaliyyətimizin miqyasını göstərir".

Enerji təchizatının artan əhəmiyyəti və NATO-nun Avropa üzv dövlətlərinin üçüncü tərəf təchizatçılarından və təhlükəsizlik təhdidlərindən güclü asılılığı Alyansın enerji təhlükəsizliyi üçün konkret siyasət çərçivəsi hazırlamasını tələb edir. Yeni enerji təhlükəsizliyi çərçivəsi mövcud enerji təchizatçılarını diversifikasiya etməkdir. Avropa İttifaqı bütün dünyanı enerji ilə təmin edir, lakin Rusiya və Norveç ən böyük paya malikdir. 2012-ci ildə Norveç qazı Aİ təbii qazının 31%-ni və Aİ-nin xam neft idxalının 11%-ni təşkil edirdi. Digər tərəfdən, 2013-cü ildə Aİ-nin təbii qaz idxalının 39%-ni Rusiya qazı təşkil edib.

Norveç qazından yüksək asılılıq Aİ və NATO-ya üzv ölkələr üçün təhlükə yaratmır. Norveç 1949-cu ildən NATO-nun üzvüdür. Bu kontekstdə enerji təhlükəsizliyi Qafqazla beynəlxalq əməkdaşlığın dərinləşdirilməsində mühüm amil olmuşdur. Regionda təhlükəsizliyin və sabitliyin təmin edilməsi, ixrac marşrutlarının yaradılması digər amillərdən idi.

Zəngin karbohidrogen ehtiyatlarının istehsalçısı kimi Azərbaycan dünya bazarına neft və qaz tədarükünün şaxələndirilməsində mühüm rol oynayır. Birlik üçün Azərbaycanın təhlükəsizliyi də önəmlidir. Azərbaycan mövcud enerji infrastrukturu və artan enerji potensialı ilə Avro-Atlantik regionun enerji təchizatında mühüm rol oynayır. Oil & Gas Journal-ın (OGJ) məlumatına görə, 2015-ci ilin sonunda Azərbaycanda təsdiqlənmiş xam neft ehtiyatları 7 milyard barel səviyyəsində qiymətləndirilir. 2015-ci ildə Azərbaycan 850 min barel neft və digər maye istehsal edib. Hasil edilən xam neft və təbii qazın böyük hissəsi Gürcüstan və Türkiyə vasitəsilə beynəlxalq bazarlara çıxarılır. Daşınma zamanı boru kəmərləri və ya neft platformaları üçün hər hansı təhlükə tədarük zəncirini poza bilər [3].

Bununla belə, ölkənin kritik enerji infrastrukturunun qorunması hər bir ölkənin öz təhlükəsizlik konsepsiyasında öz əksini tapıb. Hər bir ölkə öz təhdidləri ilə üzləşir və milli təhlükəsizlik strategiyasının bir hissəsi olaraq belə təhlükələrin qarşısını almaq üçün öz qərarlarını verməlidir. Amma bu gün enerji xəritəsi çoxmillətli olub və kritik enerji infrastrukturunun qorunması milli səviyyədən kənara çıxıb.

Enerji təhlükəsizliyinin vacibliyi ondan ibarətdir ki, enerji resurslarının Azərbaycandan son təyinat məntəqəsinə rahat nəqlini təmin etməkdir. Bu, kritik enerji infrastrukturunun qorunması ilə bağlıdır. Mövcud qaz və neft kəmərlərinin və ya yenilərinin (məsələn, 2018-ci ildə istifadəyə veriləcək Trans-Xəzər Boru Kəməri və TANAP Boru Kəməri) mühafizəsi də daxil olmaqla, mühüm enerji infrastrukturunun mühafizəsinə böyük diqqət yetirilməlidir.

NATO ilə Azərbaycan arasındakı əlaqələr NATO-nun enerji təhlükəsizliyi üçün mühüm gündəmi formalaşdırıb. Çünki Azərbaycan öz enerji resursları ilə Rusiya qazına alternativ ola bilər. NATO-nun enerji təhlükəsizliyi siyasətinin transformasiyası Azərbaycanın mühüm enerji infrastrukturunun daha geniş mühafizəsi üçün daha çox təminat və imkanlar yaratmışdır. 2008-ci ildə Riqa sammitindən tutmuş 2016-cı ildə Varşava sammitinə qədər NATO mühüm enerji infrastrukturlarının qorunmasında üzv dövlətlərə və tərəfdaşlara dəstək olmaq üçün müxtəlif üsullar işləyib hazırlayıb. NATO-nun Azərbaycan kimi tərəfdaş dövlətləri dəstəkləmək üzrə gündəliyinə aşağıdakılar daxildir: məlumat və kəşfiyyat məlumatlarının paylaşılması və paylaşılması, regional sabitliyin təşviqi, regional və beynəlxalq əməkdaşlığın təşviqi və mühüm infrastrukturun qorunması.

Digər tərəfdən, unutmaq olmaz ki, NATO enerji strukturu deyil və enerji dəhlizlərinin və boru kəmərlərinin yaradılması və tikintisi ilə məşğul deyil. Bununla belə, kritik enerji infrastrukturunun təmin edilməsi də NATO ilə birbaşa əlaqəli məsələdir. Layihələrin icrası ölkələrin öz əlindədir. Bu o deməkdir ki, Aİ-də enerji bazarının şaxələndirilməsinə yönəlmiş Azərbaycan boru kəməri layihələri Azərbaycanın, Aİ-nin və belə layihələrdə iştirak edən ölkələrin əsas məsuliyyətidir. Bununla belə, NATO və Aİ daha çox enerji təhlükəsizliyi ilə maraqlanır. 2014-cü il Uels Sammiti zamanı Alyans sabit və etibarlı enerji mənbələrinin, marşrutların (boru kəmərlərinin), enerji təchizatçılarının və resurslarının bölüşdürülməsinin NATO üçün mühüm əhəmiyyət kəsb etdiyini bildirdi. Bu kontekstdə Aİ bazarını şaxələndirən enerji layihələri həm də NATO-nun enerji təhlükəsizliyini təmin edəcək.

NATO-Azərbaycan münasibətlərinin gücləndirilməsi Azərbaycan dövlətinin mühüm enerji infrastrukturunun qorunması üçün vacib olan əlavə təminat verəcək. Neft və təbii qaz ehtiyatlarının şaxələndirilməsi NATO-ya üzv ölkələrin, xüsusilə də Avropa İttifaqının enerji təhlükəsizliyinə mühüm təsir göstərəcək. Bu mənada ikitərəfli əlaqələr çox önəmlidir. NATO-nun Azərbaycanın enerji təhlükəsizliyinə verdiyi dəstəyə aşağıdakılar daxildir: enerji infrastrukturunun təhlükəsizliyi üçün ən yaxşı təcrübələr, yaranan infrastruktur təhdidlərinin (məsələn, kiberhücumlar) təhlili üzrə konfranslar və seminarlar, dayanıqlılıq üzrə həllər, regional enerji məsləhətləşmələri, NATO komitələrində təhlükəsizlik sahəsində əməkdaşlıq, həmçinin enerji sahəsində təhsil və təlim fəaliyyətləri və s. [2].

Azərbaycan müstəqilliyinin ilk illərində enerji resurslarını beynəlxalq bazarlara çıxarmaq üçün nəqliyyat marşrutlarının şaxələndirilməsi siyasətini seçmişdir. Bu, xarici kapitalın enerji bazarına qeyri-adi axınına səbəb olub. Azərbaycanın milli təhlükəsizliyinin əsas vəzifələrindən biri də enerji dəhlizlərinin təhlükəsizliyini və enerji resurslarının nəqlini təmin etməkdir. Bu məqsədlə Azərbaycan regional əməkdaşlığa və sabit regional təhlükəsizliyə sadiqdir. Azərbaycanın enerji təchizatının keçidindən danışarkən Gürcüstanı xüsusi qeyd etmək lazımdır. Gürcüstan Azərbaycanın Cənubi Qafqazda mühüm tranzit və strateji müttəfiqidir. Gürcüstan Azərbaycanın təbii sərvətlərinin Avropaya və Türkiyəyə tranzit ölkəsidir. Odur ki, Gürcüstanda siyasi və ya regional qeyri-sabitlik (Rusiya işğalı) Azərbaycan iqtisadiyyatına mənfi təsir göstərə bilər. Enerji ixracatçıları və tranzit ölkələr arasında təhlükəsizlik məsələlərinin qarşılıqlı anlaşması vacibdir.

Bundan əlavə, Rusiya Gürcüstanın NATO-ya üzvlüyünün qəti əleyhinədir. Çox güman ki, Rusiya Dağlıq Qarabağ münaqişəsində Ermənistana açıq dəstəyi ilə Gürcüstanla qarşı-qarşıya gələcək və Azərbaycana birbaşa deyil, birbaşa təsir göstərməyə çalışacaq. Bundan əlavə, Rusiya iqtisadiyyatı federal büdcənin təxminən yarısını təşkil edən xam neft, neft məhsulları və təbii qaz ixracından çox asılıdır (Ticarət İqtisadiyyatı, 2017). Rusiyanın təbii sərvətlər bazarında öz üstünlüyünü saxlamaq ehtiyacı Qərb tədarükçülərinin diversifikasiyada maraqlarını üstələyir.

Gürcüstan və Ukraynadan fərqli olaraq Azərbaycanda sabitlik həmişə özünü göstərib. Onun üstünlükləri arasında NATO ilə möhkəm əlaqələr qurmaq cəhdi də var. Həmçinin, Türkiyə ilə güclü əlaqələr planlaşdırılan istənilən boru kəməri layihəsi üçün strateji əhəmiyyət kəsb edir. Bununla belə, Gürcüstan və Ukrayna nümunələri və Rusiyanın Dağlıq Qarabağ münaqişəsinə təsirini nəzərə alsaq, Gürcüstan və Ukrayna ssenarilərindən qaçmaq üçün Azərbaycanın NATO və Türkiyə ilə əlaqələrini gücləndirməsi həmişə müsbət siyasətdir. Bir təşkilata və ya təşkilata qoşulmaq qərarı müəyyən bir problemi həll etmək üçün digər dövlətlərlə səmərəli və məqsədyönlü qarşılıqlı əlaqə nəticəsində yaranır. Məqsədli təşkilat kimi NATO Azərbaycana mühüm enerji infrastrukturunu qorumaqda kömək edə bilər. Birlik üzv və tərəfdaş dövlətlər üçün müxtəlif təhdidlərə cavab verən hərtərəfli təhlükəsizlik təşkilatı kimi inkişaf etmişdir. Bu təhdidlərə həm beynəlxalq, həm də milli təhlükəsizlik siyasətləri tərəfindən geniş spektrli təhlükə hesab edilən enerji təhlükəsizliyi daxildir [4].

NATO-nun Azərbaycanın mühüm enerji infrastrukturunun qorunmasında necə və hansı şəraitdə rol oynayacağı dəqiq strategiya ilə müəyyən edilməlidir. 2008-ci il Rusiya-Gürcüstan müharibəsi göstərdi ki, NATO-nun Qafqaz regionu üçün dəqiq təhlükəsizlik strategiyası yoxdur. NATO-nun yeni strategiyasının olmaması 2014-cü ildə Rusiya-Ukrayna müharibəsində də eyni effekti verdi [4].

Ümumilikdə Azərbaycanın təhlükəsizliyi və mühüm enerji infrastrukturu NATO üçün vacibdir. Çünki Azərbaycanın alternativ enerji dəhlizləri Avropanı Rusiya qazının təzyiqindən qorumağa kömək edəcək. Azərbaycanın Avropa bazarına güclü enerji töhfəsi NATO-nun Azərbaycanın enerji təhlükəsizliyində iştirakını daha da artıracaq. Bununla belə, daha əvvəl qeyd edildiyi kimi, İttifaqın aydın strategiyası müvafiq siyasət alətləri vasitəsilə effektiv şəkildə həyata keçirilməlidir. Azərbaycanın NATO-ya üzv olmaq üçün hələ çox yolu var. Ancaq aydındır ki, inteqrasiya prosesi daha çox Cənubi Qafqazda Azərbaycana xidmət edir. Azərbaycan təbii ehtiyat təchizatçılarının çatışmazlığı səbəbindən NATO-nun diversifikasiyası problemi ilə məşğul olduğu halda, Azərbaycan da dünyanın ən böyük bazarına inteqrasiya edir.

Hazırda ixrac etdiyimiz qazın həcmi ilə bağlı müqavilələr kəmər istifadəyə verilməmişdən əvvəl bağlanıb və qaz işi bu şəkildə aparılır. Odur ki, hasilatın artırılması üçün praktiki səviyyədə danışıqlar aparılmalı və ya Avropa İttifaqının yeni üzvləri ilə əməkdaşlıq planlaşdırılmalı, bu bazarın potensialı və Avropanın qaz infrastruktur sistemlərinin bir-birinə bağlılığı qiymətləndirilməlidir. Bilirəm ki, Avropada yeni əlaqələr üzərində iş gedir. Ona görə də planlaşdırma lazımdır ki, qazımız uzunmüddətli müqavilələrlə satılır və biz müqavilələri 100% yerinə yetiririk. Azərbaycan Avropa İttifaqı üçün etibarlı tərəfdaşdır və təbii ki, bu məsələ həmişə gündəmimizdədir.

## ƏDƏBİYYAT

1. Azərbaycan və NATO Parlament Assambleyası, Azərbaycan Respublikasının NATO yanında Nümayəndəliyi, http://nato-pfp.mfa.gov.az/content/30 .

2 Azərbaycan və NATO əməkdaşlığı haqqında arayış, Azərbaycan Respublikası, http://www.mfa.gov.az/content/560 .

3. Azərbaycanın Xarici Siyasəti, http://azrbaycannxaricisiyasti.blogspot.com/ , 04.04.2009

4. Azərbaycan-NATO əməkdaşlığının gələcək perspektivləri müzakirə olunub, https://www.amerikaninsesi.org/a/a-56-aze-natoazerbdanisiqlar88618852/704938.html , 28.09.2007.

5. Aybet, Gülnur, NATO's Developing Role in Collective Security, Ankara, SAM Papers No. 4/99, June 1999.

6. Bailes, Alyson J., "NATO: Towards A New Synthesis", Survival, 3 (1996), p. 33- 39.

7. Аббасов А.Ф. Роль внутреннего производства в обес- печении продовольственной безопасности Азербайд- жанской Республики. //Проблемы современной эконо- мики, 2005, № 3-4.

8. Ахмедов Э.И. Важный этап динамичного развития Азербайджана в современных геополитических усло- виях (2003-2013 годы) // "Кавказ и Мир" Международ- ный научный журнал, Грузия,Тбилиси, 2014, №18, стр.61-67.

9. Багирли В.Д. К вопросу о полномочиях президентов Азербайджанской Республики и США в сфере обеспе- чения национальной безопасности //Юридические науки, 2009, № 3.

10. Барсегов Ю.Г. Каспий: вопросы международного пра- ва // Европа и Россия: проблемы южного направления. Сб. статей, Отв. ред. Шаболин И.А., Москва, «Ин- тердиалект», 1999, с. 323-343.

## NATO-NUN ENERJİ TƏHLÜKƏSİZLİYİNDƏ AZƏRBAYCANIN ROLU

***Xatirə Əfəndiyeva, Sona Quliyeva***

### XÜLASƏ

NATO-Azərbaycan əlaqələrinin gücləndirilməsi Azərbaycanın mühüm enerji infrastrukturunun qorunması üçün lazımi əlavə təminatları təmin edəcək. Neft və təbii qaz ehtiyatlarının şaxələndirilməsi NATO-ya üzv ölkələrin, xüsusilə də Avropa İttifaqının enerji təhlükəsizliyinə mühüm təsir göstərəcək. Bu mənada ikitərəfli əlaqələr çox önəmlidir. Azərbaycanın enerji təhlükəsizliyinə NATO dəstəyi daxildir: enerji infrastrukturunun təhlükəsizliyi üçün ən yaxşı təcrübələr, yaranan infrastruktur təhdidləri (məsələn, kiberhücumlar), davamlı inkişaf həlləri, regional enerji məsləhətləşmələri, NATO komitələrində təhlükəsizlik sahəsində əməkdaşlıq, enerji konfransları və seminarlar, təhsil və təlim fəaliyyəti.

## РОЛЬ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ В ЭНЕРГЕТИЧЕСКОЙ БЕЗОПАСНОСТИ НАТО

***Хатира Эфендиева, Сона Кулиева***

### АННОТАЦИЯ

Укрепление отношений между НАТО и Азербайджаном обеспечит необходимые дополнительные гарантии защиты важной энергетической инфраструктуры Азербайджана. Диверсификация запасов нефти и природного газа окажет значительное влияние на энергетическую безопасность стран-членов НАТО, особенно Европейского Союза. В этом смысле двусторонние отношения очень важны. Энергетическая безопасность Азербайджана включает поддержку со стороны НАТО: передовой опыт обеспечения безопасности энергетической инфраструктуры, возникающие угрозы инфраструктуре (например, кибератаки), решения в области устойчивого развития, региональные энергетические консультации, сотрудничество в области безопасности в комитетах НАТО, энергетические конференции и семинары, образовательные и обучающие мероприятия.

## THE ROLE OF THE AZERBAİJAN REPUBLİC İN THE ENERGY SECURİTY OF NATO

***Xatira Afandiyeva, Sona Guliyeva***

### SUMMARY

The strengthening of NATO-Azerbaijan relations will provide the necessary additional guarantees for the protection of Azerbaijan's important energy infrastructure. Diversification of oil and natural gas reserves will have a significant impact on the energy security of NATO member states, especially the European Union. In this sense, bilateral relations are very important. Azerbaijan's energy security includes NATO support: best practices for energy infrastructure security, emerging infrastructure threats (eg cyber attacks), sustainable development solutions, regional energy consultations, security cooperation in NATO committees, energy conferences and seminars, education and training activities.

# MALLARIN GÖMRÜK DƏYƏRİNİN MÜƏYYƏN EDİLMƏSİ MEXANİZMLƏRİ

***dos.Fərid Babayev***
***Mustafazadə Mətanət***
***Bdu-nun I kurs magistrantı***
***mustafazadehh@bk.ru***

***Açar sözlər:*** gömrük dəyəri, mallar, rüsum, əlavə gəlir vergisi, gömrük qeydiyyatı, yığımlar.
***Ключевые слова:*** таможенная стоимость, товары, пошлины, налог на дополнительный доход, таможенное оформление, сборы.
***Keywords***: customs value, goods, duties, additional income tax, customs clearance, fees.

Gömrük dəyəri- bu mallara gömrük vergisinin qoyulması üçün malların dəyəridir. Gömrük dəyəri başlanğıc hesablama bazasıdır. Burada rüsum , əlavə gəlir vergisi, gömrük qeydiyyatı, yığımlar və s. nəzərə alınır. Malların gömrük dəyərinin əsas təyinatı – gömrük vergiləri üçün baza olmaqdan ibarətdir.

"Gömrük qanunları" haqqında qanunda göstərilir ki, "Malların gömrük dəyəri" struktur göstəricilərinin qanunauyğun müəyyənləşdirilməsi və onun dəqiq reqlament qaydası ilə müəyyənləşdirilməsi məqsədinə xidmət edir. Bundan başqa əsas təyinatdan əlavə gömrük dəyərindən birbaşa və ya dolayı yolla digər gömrük məqsədləri üçün, gömrük statistikasının aparılması, barter işlərində malların qiymət xüsusiyyətlərinin yoxlanılmasında, ekvivalent mal göndərişlərində idxal-ixrac əməliyyatları həyata keçirərkən valyuta nəzarətinin həyata keçirilməsində qoyulmuş dəyər kvotasına nəzarətdə özünü göstərir.

Malların gömrük dəyəri — gömrük ödənişlərinin hesablanması, başqa gömrük məqsədləri üçün malların dəyərinin müəyyən edilməsi, o cümlədən cərimələrin tutulması və gömrük qaydalarının pozulmasına görə Azərbaycan Respublikasının gömrük qanunvericiliyinə uyğun olaraq məsuliyyətin tətbiq edilməsi və gömrük statistikasını aparmaq üçün istifadə olunur. Malın gömrük dəyərinin müəyyən edilməsi (gömrük dəyərləndirilməsi) sistemi beynəlxalq təcrübədə qəbul olunmuş ümumi prinsiplərə (1994-cü il Tariflər və Ticarət üzrə Baş Sazişin (GATT) VII maddəsinə, GATT-ın VII maddəsinin Tətbiq edilməsinə dair Razılaşmaya və onun əlavələrinə) əsaslanır və gömrük ərazisinə gətirilən mallara şamil edilir.

Mal gömrük sərhədindən keçirilərkən, gömrük dəyəri bəyannaməçi tərəfindən Azərbaycan Respublikasının gömrük orqanına (bundan sonra — gömrük orqanı) bəyan edilir. Gömrük əməliyyatlarının aparılmasında malın gömrük dəyərini bəyanetmə məsələsi olduqca vacibdir. Gömrük sərhədindən keçirilən malların bəyan edilməsi qaydalarını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir. Gömrük dəyərinin bəyannaməçi tərəfindən müəyyən edilməsi Qanunda nəzərdə tutulmuş üsullara uyğun həyata keçirilir.Gömrük dəyərinin müəyyən edilməsinin düzgünlüyünə gömrük orqanı nəzarət edir.

Gömrük ərazisinə gətirilən malların gömrük dəyəri "Gömrük Tarifi" haqqında qanunun 12-ci maddəsinə uyğun olaraq aşağıdakı üsullarla müəyyən edilir:

1. malların sövdələşmə qiyməti ilə;
2. eyni malların sövdələşmə qiyməti ilə;
3. eynicinsli malların sövdələşmə qiyməti ilə;
4. dəyərin çıxılması üsulu ilə;
5. dəyərin toplanması üsulu ilə;
6. ehtiyat üsulu ilə.

Malların sövdələşmə qiyməti ilə dəyərləndirilməsi gömrük dəyərinin müəyyən edilməsinin əsas üsuludur. Əsas üsuldan istifadə etmək mümkün olmadıqda, qalan beş üsuldan biri tətbiq edilir. Bu zaman hər bir sonrakı üsul gömrük dəyərini əvvəlki üsulla təyin etmək mümkün olmadıqda tətbiq edilir.Sonrakı qiymətləndirmə üsulunun tətbiq edilməsinin səbəblərindən biri də odur ki, ondan əvvəlki üsul gözlənilən səmərəni verməsin. İkinci və üçüncü üsullar gömrük dəyərinin təyin edilməsində ilkin baza kimi eyni malların və eynicinsli malların sövdələşmə qiymətləndirmə söykənir. Bu zaman həm gömrük orqanlarında olan məlumatlar, həm də deklarant tərəfindən sənədli təsdiq edilmiş məlumatlar istifadə olunur. Məlumatların seçilməsində əsas meyar dəyərləndirilən sövdələşmənin şərtlərinə yaxınlıq dərəcəsidir. Dəyərin çıxılması və toplanması üsulları gəmrük dəyərinin hesablanmasının prinsipcə fərqli bazasını olmasını göstərir. Bəyannaməçinin seçimi əsasında dəyərin çıxılması üsulu və dəyərin toplanması üsulu istənilən ardıcıllıqla tətbiq edilir.

Gömrük ərazisinə gətirilən malların gömrük dəyəri, "Gömrük tarifi haqqında " qanunun 13.2-ci maddəsinə müvafiq qiymət tənzimlənməsi aparılmaqla, Azərbaycan Respublikasına ixrac məqsədi ilə satılan mallar üçün faktiki ödənilmiş və ya ödənilməli olan qiymət sövdələşmə qiyməti hesab olunur. Lakin bununda bəzi şərtləri vardır:

1. alıcının dəyərləndirilən mallara dair sərəncam və ya istifadə hüququna məhdudiyyətlər nəzərdə tutulmasın (qanunvericilikdə nəzərdə tutulmuş məhdudiyyətlər, malların təkrar satıla biləcəyi coğrafi ərazi məhdudiyyətləri, malların dəyərinə əhəmiyyətli dərəcədə təsir etməyən məhdudiyyətlər istisna olmaqla);
2. satış və ya malların qiyməti həmin mallara münasibətdə dəyəri müəyyən edilə bilməyən hər hansı şərt və öhdəliklərdən asılı olmasın;
3. alıcı tərəfindən mallara dair sərəncam verilməsindən və ya onların istifadəsindən satıcı birbaşa və ya dolayı yolla mənfəət əldə etməsin, əgər bu Qanunun 13.2-ci maddəsinə müvafiq qiymət tənzimlənməsinin aparılması mümkün deyilsə;
4. . bu Qanunun 13.1.5-ci maddəsinin tələbləri nəzərə alınmaqla, malların alıcısı və satıcısı əlaqəli şəxslər olmasınlar;
5. alıcı ilə satıcı əlaqəli şəxslər olduğu halda, onlar arasındakı münasibətlər mallar üçün faktiki ödənilmiş və ya ödənilməli olan qiymətə təsir etməsin və ya idxalatçı malların sövdələşmə qiymətinin bu Qanunun 13.7-ci maddəsinin tələblərinə cavab verdiyini sübut etsin.

Malların gömrük dəyəri malların sövdələşmə qiyməti üsulu ilə müəyyənləşdirilərkən, mallar üçün faktiki olaraq ödənilmiş və ya ödənilməli olan qiymətə aşağıdakılar əlavə edilir:

1.Alıcı tərəfindən çəkilmiş, lakin mallara görə faktiki ödənilmiş və ya ödənilməli olan qiymətə daxil edilməmiş aşağıdakı xərclər;

2. idxal edilən malların istehsalı və ixrac üçün satılması məqsədi ilə alıcı tərəfindən satıcıya birbaşa və ya dolayısı ilə pulsuz və ya aşağı qiymətlə verilmiş aşağıdakı hər hansı malın və xidmətin faktiki ödənilmiş və ya ödənilməli olan qiymətə daxil edilməmiş dəyəri;

3. patentlər, ticarət nişanları və müəlliflik hüquqları üçün ödənişlər də daxil olmaqla, dəyərləndirilən malların satışı ilə əlaqədar alıcının birbaşa və ya dolayısı ilə ödəməli olduğu royalti və lisenziya haqqı, əgər bunlar faktiki olaraq ödənilmiş və ya ödənilməli olan qiymətə daxil edilməmişdirsə;

4. alıcı tərəfindən mallar barədə sərəncam verilməsindən və ya onların istifadəsindən satıcıya birbaşa və ya dolayısı ilə çatan və ya çatmalı olan hər hansı gəlir hissəsinin dəyəri;

5. idxal olunan malların sığorta xərcləri, həmçinin hava və dəniz limanınadək, yaxud gömrük ərazisinə daxil olduğu digər hər hansı yerədək nəqliyyat xərcləri, həmin yerədək malın yüklənmə və boşaldılma xərcləri.

Bunuda qeyd edək ki, mallar üçün ödənilmiş və ya ödənilməli olan qiymətdən ayrı müəyyənləşdirilmiş aşağıdakı xərclər gömrük dəyərinə daxil edilmir:

1) sənaye qurğuları, maşın və avadanlıq kimi mallar idxal edildikdən sonra həmin mallarla əlaqədar tikinti-inşaat, yığılma, quraşdırma, istismar və texniki yardım xərcləri; aşağıdakı şərtlər daxilində malın alınması ilə əlaqədar maliyyələşmə razılaşması çərçivəsində alıcının faiz ödəmələri

2) malların gömrük ərazisində daşınması ilə əlaqədar yaranan əsaslandırılmış xərclər;

3) gömrük ərazisində ödənilməli olan rüsum və digər ödənişlər;

4) aşağıdakı şərtlər daxilində malın alınması ilə əlaqədar maliyyələşmə razılaşması çərçivəsində alıcının faiz ödəmələri .

Yuxarıda da qeyd etdiyimiz kimi, malların gömrük dəyərini malların sövdələşmə qiyməti üsulu ilə müəyyən etmək mümkün olmadıqda, dəyərləndirilən mallarla eyni və ya təqribən eyni vaxtda Azərbaycan Respublikasına ixrac məqsədi ilə satılan eyni malların sövdələşmə qiyməti qəbul edilir.Bu zaman dəyərləndirilən mallarla eyni kommersiya səviyyəsində və eyni və ya təqribən eyni miqdarda satılan eyni malların sövdələşmə qiymətindən istifadə olunur.

Qeyd etmək lazımdır ki, dəyərin çıxılmasına əsaslanan dördüncü üsul özündən əvvəlki üsülların tətbiq edilməsi mümkün olmadığı halda müstəsna hal kimi tətbiq olunur. Dəyərləndirilən malın çıxılmış dəyərini müəyyən edərkən, bu mallarla eyni və ya təqribən eyni vaxtda idxal olunmuş və ən böyük həcmdə, idxal olunduğu vəziyyətdə və əlaqəli olmayan şəxsə satılmış eyni və ya eynicinsli malların bir vahidinin Azərbaycan Respublikasındakı satış qiyməti müqayisə üçün əsas kimi götürülür və həmin qiymətdən aşağıdakı məbləğlər çıxılır: 1) idxal edilmiş eyni sinif və ya növ malların gömrük ərazisində satışı ilə əlaqədar ödənilən və ya ödənilməli olan komissiya haqları və ya həmin malların satışı ilə əlaqədar gəlir götürmək və ümumi xərcləri ödəmək üçün adətən edilən əlavələr; 2) gömrük ərazisində daşınma, yüklənmə, boşaldılma işlərinə və sığortaya adətən sərf olunan xərclər; 3) malların idxalı və satışı ilə əlaqədar gömrük ərazisində ödənilməli olan gömrük rüsumlarının, vergilərin və digər ödənişlərin məbləği.

Malların toplanmış dəyəri üsulu isə aşağıdakı məbləğlərin toplanması yolu ilə hesablanır:

1. idxal edilən malların hazırlanmasında istifadə edilən materiallara, həmin malların istehsalına və ya emalına çəkilən xərclər və ya bunların dəyəri;
2. Azərbaycan Respublikasına ixrac etmək məqsədi ilə ixrac ölkəsində istehsalçılar tərəfindən hazırlanan və dəyərləndirilən mallarla eyni sinif və ya növdən olan malların satışı zamanı adətən nəzərə alınan mənfəətə və ümumi xərclərə bərabər mənfəət və ümumi xərclərin həcmi;
3. idxal olunan malların sığorta xərcləri, həmçinin hava və dəniz limanınadək, yaxud gömrük ərazisinə daxil olduğu digər yerədək nəqliyyat xərcləri, həmin yerədək malın yüklənmə, boşaldılma xərcləri.

AR-ın “Gömrük tarifi” haqqında qanunun 18-ci maddəsinin birinci maddəsinə görə Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən malın gömrük dəyəri əmtəənin gömrük sərhədindən keçildiyi anda bu əmtəə üçün faktiki ödənilmiş və ya ödəniləcək sövdələşmə qiymətidir . Sövdələşmə qiyməti müəyyən edilmiş və hesabdan çıxmalar nəzərə alınmalıdır.
Gömrük dəyərini aşağıdakı formula ilə hesablamaq olar:

**Gömrük dəyəri**

=

Gətirilən əmtəəyə görə ödənilmiş və (ödənilməmiş)
ödənilməli olan sövdələşmə qiyməti

+

1.əmtəənin hava və dəniz limanınadək , yaxud respublikanın gömrük ərazisinə daxil olduğu digər yerə qədər çəkilən

2.nəqliyyat xərcləri

3.yüklənmə xərcləri

4. sığorta xərcləri.

Burada qeyd etdiyim faktiki ödənilmiş və ya ödənilməli olan qiymət- alıcının satıcıya idxal əmtəələri üçün ödədiyi, yaxud ödəyəcəyi, lakin gömrük rəsmiləşdirilməsi anınadək hələ ödənilməmiş olduğu ödənc məbləğlərinin məchuludur. Ödəniş köçürmə, akkreditiv,inkasso, qarışıq və digər qanuni hesablaşma formasında olur.

Bir məsələni də vurğuluyaq ki, Respublikamızda malların gömrük dəyərinin düzgün müəyyən edilməsində labaratoriyaların rolu böyükdür. Bu məqsədlə qida məhsullarının keyfiyyətinə nəzarət Agentliyi malların ekspertizası mərkəzində ərzaq məhsullarının keyfiyyətinə nəzarət məqsədilə texniki, kimyəvi, toksikoloji və mikrobioloji tədqiqatların aparılması üçün Arbitraj labarotoriyası fəaliyyət göstərir.Onu da qeyd edək ki, ölkə prezidenti İlham Əliyevin fərmanı ilə təsdiq edilmiş 2014-2018-ci illərdə Azərbaycan Respublikasının Regionlarının sosial –iqtisadi inkişafı Dövlət proqramında nəzərdə tutulan vəzifələrdən biri də istehlak mallarının keyfiyyətinə nəzarətin gücləndirilməsi, müasir tipli labaratoriylarının yaradılmasını göstərmək vacibdir

## ƏDƏBİYYAT

1.A.Ş.Şəkərəliyev, A.Ə.Əliyev, C.Q.Nuriyev, Z.A.Şəkərəliyeva "Gömrük işinin təşkili və idarə edilməsi".

2.C.Q.Nuriyev "Gömrük hüququ".

3.http://customs.gov.az

4.https://www.taxes.gov.az

# MALLARIN GÖMRÜK DƏYƏRİNİN MÜƏYYƏN EDİLMƏSİ MEXANİZMLƏRİ

***Fərid Babayev, Mustafazadə Mətanət***

## XÜLASƏ

Gömrük dəyərinin mahiyyəti, təyin edilməsi üsulları "Gömrük tarifi" haqqında qanun da öz əksini tapmışdır . Respublikanın gömrük ərazisinə gətirilən məhsulların, nəqliyyat vasitələrinin gömrük dəyəri onları Azərbaycanın gömrük sərhədindən keçirərkən faktiki ödənilmiş , ya da ödənilməlin olan sövdələşmə qiymətidir.Gömrük tarifi haqqında qanuna əsasən, respublikanın gömrük ərazisinə gətirilən məhsulların gömrük dəyəri üçün 6 üsuldan istifadə olunur. Azərbaycanda idxal olunan məhsulların gömrük qiymətləndirilməsinin normativ baza sistemi "Gömrük tarifi" haqqında Ar qanunu, "Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilən və bu ərazidən çıxarılan məhsulların gömrük qiymətləndirilməsi sisteminin tətbiqi qaydaları", "Gömrük dəyər bəyənnaməsinin doldurulmasına dair Təlimat" təşkil edir.

Ümumiyyətlə dünyada gömrük xidməti uzun illərdir ki, fəaliyyət göstərir. Dünyanın istənilən dövlətinin əsas struktur elementlərindən biri hesab olunur.Dövlət gəlirinin formalaşması, ölkənin təhlükəsizliyinin təmin edilməsində gömrük işinin təşkili müstəsna rol oynayır. Dünya dövlətlərində əldə edilən gəlirlərin payı, daxili bazarın qorunması tədbirləri müxtəlif olsa da gömrük xidməti hər yerdə əsas rol oynayır.Ölkədə gömrük işinin təşkilində əsas yeri gömrük dəyərinin müəyyən edilməsi,gömrük ödənişlərinin yığılması tutur.

# МЕХАНИЗМЫ ОПРЕДЕЛЕНИЯ ТАМОЖЕННОЙ СТОИМОСТИ ТОВАРОВ

***Фарид Бабаев, Мустафазаде Матанат***

## АННОТАЦИЯ

Сущность таможенной стоимости, методы ее определения также отражены в законе «О таможенном тарифе». Таможенной стоимостью товаров и транспортных средств, ввозимых на таможенную территорию Республики, является цена сделки, фактически уплаченная или подлежащая уплате при пересечении таможенной границы Азербайджанской Республики. Нормативно-правовой базой системы таможенной оценки ввозимой продукции в Азербайджане являются Закон «О таможенном тарифе», «Правила применения системы таможенной оценки ввозимой на таможенную территорию и вывозимой с таможенной территории Азербайджанской Республики продукции», «Инструкция по заполнение декларации таможенной стоимости».

Вообще таможенная служба в мире работает уже много лет. Она считается одним из основных структурных элементов любого государства мира.Формирование государственных доходов, организация таможенной работы играет исключительную роль в обеспечении безопасности страны. Хотя доля доходов в странах мира и меры по защите внутреннего рынка разные, таможенная служба везде играет ключевую роль.

# MECHANISMS FOR DETERMINING THE CUSTOMS VALUE OF GOODS

***Farid Babayev, Mustafazade Matanat***

## SUMMARY

The essence of customs value, methods of determination are also reflected in the law on "Customs Tarif". The customs value of products and means of transport imported into the customs territory of the Republic is the transaction price actually paid or to be paid when crossing the customs border of Azerbaijan. The normative base system of customs valuation of imported products in Azerbaijan is the Law on "Customs Tariff", "Rules for applying the system of customs valuation of products imported into and exported from the customs territory of the Republic of Azerbaijan", "Instructions for filling out the customs value declaration".

In general, the customs service in the world has been working for many years. It is considered one of the main structural elements of any state in the world. The formation of state revenues and the organization of customs work play an exceptional role in ensuring the security of the country. Although the share of revenues in the world and measures to protect the domestic market are different, the customs service plays a key role everywhere.

# VALYUTA ƏMƏLİYYATLARININ İQTİSADİ TƏSNİFATI VƏ TƏHLİLİ

***dos. Fərid Babayev***
***Rəşid Zəbərcət Rəşid qızı***
***BDU-nun I-kurs magistrantı***
***zrashd@list.ru***

***Açar sözlər:*** valyuta vahidi, valyuta əməliyyatları, qiymətli kağızların dövriyyəsi, pul münasibətlərinin təşkili, valyuta dəyəri.
***Ключевые слова:*** денежная единица, валютные операции, оборот ценных бумаг, организация денежных отношений, стоимость валюты.
***Keywords:*** currency unit, currency operations, securities turnover, organization of monetary relations, currency value.

Valyuta əməliyyatları valyuta bazarlarında formalaşan, valyuta vahidi üzrə və valyutada qiymətli kağızların dövriyyəsi zamanı yaranan pul münasibətlərinin təşkili və idarə olunması üzrə fəaliyyət hesab edilir. Başqa sözlə desək, valyuta əməliyyatları bir ölkə valyutasının digər ölkənin valyutasına dəyişdirilməsidir.

Valyuta əməliyyatları Azərbaycan Respublikasının 21 oktyabr 1994-cü il tarixli “Valyuta tənzimi haqqında” qanunda ümumi halda öz əksini tapmışdır.

İlk olaraq, valyuta dəyərinə mülkiyyət hüququnun və digər hüquqların keçməsi ilə əlaqədar olan əməliyyatların aparılması aiddir. Bu əməliyyat kapitalın hərəkəti ilə bağlı olan bir əməliyyatdır və hüquqi şəxs olan rezidentlər tərəfindən Mərkəzi Bankın müəyyən etdiyi qaydada aparılır. Digər bir məsələdə vardır ki, Azərbaycan Respublikasına valyuta dəyərlərinin idxalı və göndərilməsi, habelə Azərbaycan Respublikasından valyuta dəyərlərinin ixracı və göndərilməsi həmçinin, beynəlxalq pul köçürmələrinin həyata keçirilməsi bu qanunda göstərilmişdir.

Ölkənin valyuta ehtiyatlarının formalaşmasında valyuta əməliyyatlarının rolu vardır. Belə ki, valyuta ehtiyatları birbaşa ölkə büdcəsinin valyuta gəlirlərindən və sabitləşdirmə fondundan ibarətdir. Valyuta ehtiyatlarını formalaşdıran valyuta gəlirlərinin yaranıb ölkə büdcəsinə daxil olması isə valyuta əməliyyatları ilə sıx bağlıdır. Valyuta əməliyyatlarını səlahiyyətli bank statusuna malik olan banklar həyata keçirir. Azərbaycan Respublikasının Mərkəzi Bankından xarici valyuta ilə əməliyyatları həyata keçrimək hüququ verən lisenziyanı əldə etmiş səlahiyyətli bankdır. Xarici valyuta əməliyyatlarını həyata keçirən hüquqi və fiziki şəxslər olmaqla rezident və qeyri-rezidentlərə bölünürlər.

Azərbaycanın valyuta əməliyyatlarının formalaşdığı valyuta bazarında rezident və qeyri-rezidentlər iştirak edirlər. Həm rezident həm də qeyri-rezident olan hüquqi şəxslərin valyuta vəsaiti xarici iqtisadi fəaliyyətdən, daxili valyuta bazarında valyuta alınmasından, həmçinin qanunvericiliyə zidd olmayan digər formalarda əldə edilən valyuta hasilatı hesabına formalaşır. Rezidentlər Mərkəzi Bank tərəfindən başqa hallar müəyyən edilmədikdə əldə etdikləri xarici valyutanı məcburi qaydada müvəkkil banklardakı öz hesablarına köçürməlidirlər. Eyni zamanda rezidentlər Mərkəzi Bankın müəyyən etdiyi qaydada ölkə hüdudlarından kənarda xarici valyuta hesabı aça bilər. Hüquqi şəxs olan rezidentlər üçün Azərbaycan Respublikasında valyuta əməliyyatlarının həyata keçirilməsi üçün heç bir məhdudiyyət qoyulmur. Rezidentlərə məxsus xarici valyutanın və xarici valyutada qiymətli kağızların, Azərbaycan Respublikasına köçürülməsi və göndərilməsi, habelə Azərbaycan Respublikasından köçürülməsi və göndərilməsi üzrə qaydanı Mərkəzi Bank müəyyən edir.

Fiziki şəxs olan rezidentlərin Azərbaycan Respublikasında valyuta əməliyyatları, eyni zamanda əvvəllər köçürülmüş, gətirilmiş və göndərilmiş valyuta sərvətlərini gömrük qaydalarına əməl etmək şərti ilə onlar tərəfindən təqdim olunan bəyannaməyə müvafiq surətdə respublikadan kənara köçürmək, çıxarmaq və göndərmək hüququna malikdirlər. Həmçinin fiziki çəxs olan rezidentlərin xarici valyuta vəsaiti, o cümlədən ölkə ərazisində əldə etdikləri vəsait müvəkkil banklardakı valyuta hesablarına sərbəst köçürülməlidir. Fiziki şəxs mövcud qanunvericiliyə uyğun olaraq, Azərbaycan Respublikasına köçürülmüş və ya nəğd gətirilmiş valyuta sərvətləri istisna olmaqla fiziki şəxs olan rezidentlərin digər valyuta sərvətlərinin Azərbaycan Respublikasından köçürülməsi və gömrük prosedurlarına əməl etməklə nəğd çıxarılması qaydalarını Azərbaycan Respublikasının Mərkəzi Bankı müəyyən edir [1.s.149].

Qeyri-rezidentlərə gəldikdə isə onlar müvəkkil banklarda xarici valyutada və milli valyutada hesablarını aça bilərlər. Onlar gömrük qaydalarına əməl etmək şərti ilə valyuta sərvətlərini ölkəyə köçürmək, gətirmək həmçinin göndərmə hüququna malikdir. Buradakı əsas məsələ isə əgər qeyri-rezidentlər tərəfindən respublikaya əvvəllər gətirilmiş və ya göndərilmiş valyuta vəsaitləri varsa, o zaman qeyri-rezidentlərin həmin göndərilmiş və ya gətirilmiş valyuta vəsaitlərini ölkədən maneəsiz köçürmək, çıxarmaq hüququna malikdirlər. Həmçinin, onu da qeyd edək ki, valyuta sərvətlərinin qeyri-rezidentlər tərəfindən ölkədən köçürülməsi qaydalarım müvafiq olaraq «Valyuta tənzimi haqqında» qanunun 11-ci maddəsinin III bəndində gösətərilən hallar istisna olmaqla Mərkəzi Bank Dövlət Gömrük Komitəsi ilə birlikdə müəyyən edir.

Valyuta əməliyyatlarının əsas iştirakçıları haqqında məlumatları verdikdən sonra əsas məsələlərdən biri olan valyuta əməliyyatlarının təsnifatı məsələsidir. Valyuta əməliyyatlarının təsnifatı əsasən 4 qrup üzrə müəyyənləşdirilir.

İlk olaraq valyuta vəsaitlərini köçürmək ilə bağlı əməliyyatlardır. Valyuta vəsaitlərini əsasən köçürülməsi debet kartı, kredit kartı, sənədli inkasso, sənədli akkreditivlər, açıq hesab üzrə hesablaşmalar, transfertin yardımı ilə həyata keçirilə bilər. Bu əməliyyat ümumi olaraq bank hesablaşmaları əməliyyatlarına daxildir.

İkinci qrup valyuta əməliyyatlarına möhtəkirlik əməliyyatları aid edilir. Valyuta ilə möhtəkirlik əməliyyatları dedikdə mübadilə məzənnəsindən gəlir gətirən əməliyyatlar aiddir. Möhtəkirlik əməliyyatlarının əsasını mübadilə təşil edir. Möhtəkirlik əməliyyatlarının növləri vardır.

Forvard əqdi- forvard əqdinin açıqlaması valyuta müqaviləsinin bağlanması anına uyğun olaraq, həmin anda qeydə alınmış kurs üzrə bir neçə gün ərzində mövcud olan müqavilə mənasına gəlir. Forvard məzənnə birbaşa spot məzənnə ilə bağlıdır. Çünki forvarda məzənnəsinin hesablaşması əsasında spot məzənnəsi durur.

Spot əqdi- Fiziki şəxslər tərəfindən əqd bağlanan gün nəzərə alınmadan ikigün ərzində ödənilən valyuta mübadiləsini ifadə edir. Valyutanın cari məzənnəsi spot kursu adlanır. Həmçinin spot xidmətidə mövcuddur. Belə ki, SPOT xidməti digər xidmətlərə oxşardır. Laкin fərq ondan ibarətdir кi, qeydə alınmış məzənnə üzrə кonvertasiya barədə sövdələşmə müştəri ilə banк arasında müqavilə bağlandığı vaxtdan sonra üçüncü gün həyata кeçirilir.

Svop əqdi- Bu əqd forması digərlərindən fərqli olaraq bir mənalı deyildir. Çünki iki əqdin yəni spot və forvard əqdinin bağlanmasını ifadə edir. Yəni bunun məzmunu ondan ibarətdir ki, spot şərti ilə iki valyuta ilə mübadilədir. Sonradan isə forvard şərtindən istifadə edilərək əks mübadilə mübadiləsi baş verir.

Svop= Spot+Forvard

Arbitraj əqdi- Möhtəkirlik əməliyyatlarının bir növü olan arbitraj valyuta əməliyyatlarında mənfəət əldə etmək məqsədilə valyutaların alqı-satqısı sazişidir. Arbitrajın öz daxilində bir neçə müxtəlif növləri fərqləndirilir.




Cədvəl 1: Arbitraj əqdinin növləri

Mənbə: Bəyalı Ataşov [1.s 153].

Arbitraj əsas növlərindən olan valyuta arbitrajıdır. Bu növ arbitrajda müəyyən zaman kəsiyində, yaxud müxtəlif valyuta birjalarında xarici valyuta kursları arxasındakı fərqlərlə bağlı mənfəət əldə edilməsi məqsədi ilə valyutaların alqı-satqısıdır. Valyuta arbitrajı iki valyuta ilə aparıldıqda sadə valyuta arbitrajı, daha çox valyuta ilə aparıldıqda isə mürəkkəb valyuta arbitrajı adlanır.

Valyuta möhtəkirliyi dedikdə isə möhtəkirliyin bir forması olan məzənnə fərqindən istifadə edərək mənfəət əldə etmək məqsədi ilə valyutalanın alqı-satqısıdır. Beynəlxalq maliyyə-kredit, yaxud ticarət münasibətləri zamanı ödənişlərin xarici valyutanın qarşıda gözlənilən məzənnə fərqinə görə məqsədli şəkildə tezləşdirilməsi, yaxud ləngidilməsi valyuta möhtəkirliyinin bir formasıdır. Valyuta möhtəkirliyi hüquqi, yaxud fiziki şəxslər xüsusilə də bank və digər kredit təşkilatları tərəfindən həyata keçirilir.

Valyuta fyuçersi- Valyutanın alqı-satqısı üçün pul məbləğinin müqavilə bağlandıqdan sonra müqavilədə nzəərdə tutulan qiymətlərlə ödənilməsini nəzərdə tutan birja sazişidir. Fyuçers sazişində başlıca məqsəd müqavilə müddətindən sonra alqı-satqı obyektinin müqavilə qiyməti ilə faktiki məzənnəsi arasında fərqin əldə edilməsidir. Fyuçers münasibətlərində uduzan tərəf hazırki birja qiymətləri arasında valyutanın məzənnə fərqi məbləğində alışını, yaxud satışını həyata keçirir. Bundan əlavə olaraq valyuta fyuçersi bazarda valyuta kursunun qeyri-əlverişli dəyişilməsi ilə əlaqədar investorlara riskin hedcerləşdirilməsinə və valyuta kursunun dəyişməsindən birja möhtəkirliyindən mənfəət götürməyə imkan verir. Həmçinin, valyuta fyuçersi yalnız birja ticarətinin obyekti hesab edilir.

Üçüncü qrup isə valyutada kapitalın artması məqsədilə onun hərəkətilə əlaqədar valyuta əməliyyatlarıdır. Bu əməliyyatlara depozitlər, əmanətlər, aksept krediti, forfeytinq, faktorinq, overdraft, veksel krediti, onkol krediti, açıq hesab üzrə kreditlər aiddir. Bu əməliyyatların hər biri valyuta həyata keçirilən bank kredit əməliyyatlarına aiddir.

Faktorinq- Bir mal və xidmət satışı edən müəssisənin borcalanlarının ödənişlərinin "faktor" adlanan quruluşa təhvil verilməsi əməliyyatıdır. Faktoring əməliyyatları maliyyə öhdəliklərinizi sürətlə yerinə yetirməyinizə və işinizdə inkişaf üçün dəstəyini təmin edir. Əgər nağd pul

çətinliyiniz varsa inkişaf çətin olar. Bu səbəblə Faktoring satışlarınızı nağda çevirər və sağlam inkişaf imkanı təqdim edər. Dünyada bankçılıqdan sonra ən məşhur maliyyə idarə forması olan faktorinq, istər iqtisadi inkişaf mərhələsindəki bütün irili xırdalı müəssisələr, istərsə də şirkətlər və sahibkarlar üçün uğurlu maliyyə vasitəsidir. İqtisadiyyatın müasir inkişaf mərhələsində bankların apardıqları vasitəçilik əməliyyatlarından biri faktorinq əməliyyatlarıdır.

Forfeytinq – Bank və ya maliyyə şirkəti tərəfindən alıcının ticarət əməliyyatları üzrə borc öhdəliklərinin satıcılardan alması yolu ilə ticarət əməliyyatlarının kreditləşdirilməsi forması. Forfeytinqdən xarici ticarət əməliyyatlarının kreditləşdirilməsində geniş istifadə olunur. Belə kreditləşdirmə müvafiq maliyyə agentinin idxal edən tərəfindən akseptləşmiş veksellərin ixrac edəndən satın alınması formasında həyata keçirilir. Forfeytinqin şərtlərinə uyğun olaraq satıcı özünün alıcıya qarşı tələblərini konkret maliyyə agentinə güzəştə gedir. Bu halda satıcı faizlər çıxılmaqla veksellərin bütün məbləğini dərhal alır. Borclu isə özünün öhdəliklərini bir qayda olaraq yarım illik ödəniş yolu ilə ləğv edir.

Dördüncü qrup valyuta əməliyyatları- kapitalın gəlir gətirmək qabiliyyətini saxlamaq məqsədilə yönəldilən əməliyyatlardır. Kapitalın valyutada yüksək gəlir gətirmək qabiliyyətini saxlamaq məqsədilə valyuta riskini aşağı salmaq mümkün olan əməliyyat vasitəs ilə həyata keçirilir. Belə əməliyyatın həyata keçirilməsi valyuta riskinin siğortalanması və yaxud xarici təcrübədə-hedcerləşdirmə adlanır. Hedcerləşdirmə ümumi olaraq gələcək dövrlərdə valyuta kursunun gözlənilmədən bir anda qeyri-əlverişli bir şəkildə dəyişdirilməsindən sığortalanması metodu başa düşülür. Məzənnənin dəyişməsi riskindən sığortalanma məqsədi ilə bağlanan müqavilə hedc adlanır. Hedcerləşməni həyata keçirən təsərrüfatçı subyektə hedcer deyilir.

Rezidentlərin və qeyri-rezidentlərin valyuta ilə əməliyyatlar aparmaları üçün onların hər hansı bir müvəkkil bankda hesaba malik olmaları lazımdır. Rezidentlər müvəkkil banklarda xarici valyuta hesablarına malik ola bilərlər. Dövlətin Mərkəzi Bankı tərəfindən başqa hal müəyyən edilmədikdə rezident müəssisə və təşkilatlar əldə etdikləri xarici valyutanı məcburi şəkildə müvəkkil banklardakı öz hesablarına köçürməlidirlər. Bundan başqa rezidentlər dövlətin Mərkəzi Bankının müəyyən etdiyi hallarda ölkə hüdudlarından kənarda da xarici valyutada hesab aça bilərlər. Qeyri-rezidentlərə gəldikdə isə onlar müvəkkil banklarda xarici valyutada və milli valyutada öz hesablarını aça bilərlər. Rezidentlərin və qeyri-rezidentlərin bank hesablarını aşağıdakı növlərə bölmək olar:

Cari subhesablar - huqüqi şəxslərə onların regional fəaliyyətləri ilə əlaqədar filial və nümayəndəlik statusu daşımayan və olduğu yerdən kənarda yerləşən struktur bölmələrinə açılır. Bu hesablara daxil olan vəsaitlər həmin struktur bölmələrinin işçilərinin əmək haqları və əmək haqqı ilə bağlı digər məcburi köçürmələrin, habelə bu qurumların fəaliyyətini təmin edən zəruri kommunal xərclərin ödənilməsi üzrə ödənişləri istisna olmaqla, baş təşkilatın cari hesabına köçürülməlidir.

Əmanət (depozit) hesabları bank əmanəti (depozit) müqaviləsinə əsasən müştərilərin (hesab sahiblərinin) əmanətlərinin uçotu, pul vəsaitlərinin əmanətlərə cəlb edilməsi və müvafiq əməliyyatların aparılması üçün açılır.

Ssuda hesabları - bankın müştərilərə verdiyi kreditlərin uçotu üçün, kredit müqaviləsində nəzərdə tutulduğu hallarda isə, həmçinin kredit vəsaitlərinnin istifadəsi və ödənilməsi ilə bağlı bank əməliyyatlarının aparılması üçün açılır.

Müxbir hesablar - bankların özlərinin və müştərilərinin bank əməliyyatlarının aparılması məqsədilə yerli və xarici banklar üçün açılır.

Onu da qeyd edək ki, qüvvədə olan qanunvericilik normalarının tələblərinə görə müştərilər (hesab sahibləri) bank hesabları açarkən, bankları seçməkdə müstəqildirlər, habelə onlar bir və

ya bir neçə bankda hesab aça bilərlər, lakin xarici valyutada bank hesabları yalnız və yalnız müvəkkil banklarda açıla bilər.

əlavə olaraq isə TOD və TOM sövdələşmələri vardır ki, valyuta əməliyyatlarında istifadə edilir.

TOD sövdələşməsi zamanı həmin gün üçün bank məzənnəsinə əsasən valyutanın конvertasiyası barədə ərizə verilir və bütün hesablaşmalar həmin günü həyata кeçirilir [3].

TOM xidməti sövdələşmə imzalanana кimi bir gün əvvəl valyutanın alışı və satışı barədə müqavilə bağlamaq imкanı yaradır. Bu zaman banк sabahкı valyutanın конvertasiya məzənnəsini bildirir [3].

### ƏDƏBİYYAT

1. Bəyalı Ataşov.Maliyyə bazarları. Bakı 2016
2. Memmedov Z.F. Beynelxalq valyuta-kredit münasibetleri ve xarici ölkelerin pul-kredit sistemi. Derslik, Bakı 2012
3. https://banco.az
4. https://banker.az
5. https://e-qanun.az

## VALYUTA ƏMƏLİYYATLARININ İQTİSADİ TƏSNİFATI VƏ TƏHLİLİ

***Rəşid Zəbərcət***

### XÜLASƏ

Valyuta əməliyyatları valyuta bazarlarında formalaşır. Valyuta əməliyyatlarını səlahiyyətli bank statusuna malik olan banklar həyata keçirir. Azərbaycan Respublikasının Mərkəzi Bankından xarici valyuta ilə əməliyyatları həyata keçrimək hüququ verən lisenziyanı əldə etmiş səlahiyyətli bankdır. Məqalədə valyuta əməliyyatlarının iştirakçıları, valyuta əməliyyatlarının qruplaşma təsnifatı və valyuta əməliyyatlarında iştirak edən şəxslərin lazımi hesablarında bəhs edilir. Həmçinin valyuta əməliyyatlarının valyuta ehtiyatlarının formalaşmasında mühüm rolundan qısa formada bəhs olunmuşdur.

## ЭКОНОМИЧЕСКАЯ КЛАССИФИКАЦИЯ И АНАЛИЗ ВАЛЮТНЫХ ОПЕРАЦИЙ

***Рашид Забарджат***

### АННОТАЦИЯ

Валютные операции формируются на валютных рынках. Валютные операции осуществляют банки со статусом уполномоченных банков. Это уполномоченный банк, получивший лицензию Центрального банка Азербайджанской Республики на проведение операций в иностранной валюте. В статье рассматриваются участники валютных операций, групповая классификация валютных операций и необходимые счета лиц, участвующих в валютных операциях. Также была кратко рассмотрена важная роль операций с иностранной валютой в формировании валютных резервов.

## ECONOMIC CLASSIFICATION AND ANALYSIS OF CURRENCY OPERATIONS

***Rashid Zabarjat***

### SUMMARY

Currency transactions are formed in the foreign exchange markets. Currency transactions are carried out by banks with the status of authorized banks. It is an authorized bank that has received a license from the Central Bank of the Republic of Azerbaijan to conduct operations in foreign currency. The article discusses the participants in foreign exchange transactions, the classification of foreign exchange transactions and the necessary accounts of persons involved in foreign exchange transactions. The important role of foreign exchange transactions in the formation of foreign exchange reserves was also briefly discussed.

# SOSİAL ŞƏBƏKƏLƏR: YARANMASI, İNKİŞAFI, ƏHƏMİYYƏTİ VƏ PROBLEMLƏRİ

***Zeynalova Fidan Fariz qızı***
***BDU –nun II kurs magistrantı***
***fidashzeyn998@gmail.com***

***Açar sözlər:*** Sosial şəbəkə, computer, distant təhsil, faydalar, zərərlər.
***Ключевые слова:*** Социальные сети, компьютер, дистанционное обучение, польза, вред.
***Keywords:*** Social networks, computer, distance learning, benefit, harm.

"Sosial şəbəkə" analyışı 1954-cü ildə meydana gəldiyini iddia edirlər. Bu anlayış sosioloq Ceyms Barnes tərəfindən insanlara təqdim edilmişidr. 1969 –cu ildə isə internetin meydana gəlməsi ilə sosial şəbəkələr daha da inkişaf e tmiş və şəbəkəsi genişlənmişdir.

Sosial şəbəkələrin və İnternetin yaranmasını hələ 1835-ci ildə rus yazıçısı və filosofu Vladimir Fedoroviç Odoevski öncədən düşünmüşdü. Bu zaman o, "338-ci il" adlı utopik romanını yazmağı başa vurdu. Müəllifin təsvir etdiyi dünya müasir 21-ci əsri xatırladır: "... maqnetik teleqraflar uzaq məsafələrdə yaşayan insanların bir-birləri ilə danışa bildikləri tanış evlər arasında qurulur" Odoevski bir çox evlərdə, xüsusən də böyük tanışlığı olanlar arasında nəşr olunan "ev qəzetləri" haqqında danışır; onlar adi yazışmalarla əvəz olunur. Vladimir Fedoroviçi reallıqdan uzaq olmadığını qeyd etmək lazımdır. Ancaq əlbəttə ki, o, sosial şəbəkələr, bloglar və İnternet haqqında məlumat ala bilmirdi.

17 il sonra, 1988-ci ildə Fin alimi Jarko Ojkarinen IRC protokolunu - ötürülən İnternet söhbəti və onun həyata keçirilməsi üçün proqram təminatını ixtira etdi. İndi bir-biri ilə real vaxtda ünsiyyət qurmaq mümkündür.

Sonra Amerikalı Randy Conrads müasir mənada ilk sosial şəbəkə olan Classmates.com-u yaratdı. Onda qeydiyyatdan keçmiş istifadəçilər müxtəlif təhsil müəssisələrinin məzunlarının kataloqu ilə tanış ola bilərdilər. Beləliklə, hər kəs sinif yoldaşlarını və ya sinif yoldaşlarını tapa bilərdi. Classmates.com-un dərhal çox məşhur olduğu ortaya çıxdı. Yeri gəlmişkən, deyək ki, məşhurluğu bu gün düşmür - sosial şəbəkədən 50 milyondan çox insan istifadə edir. Maraqlıdır zki, Odnoklassniki, Classmates.com-un rus analoqudur. Hal hazırda 290 milyondan çox istifadəçi qeydiyyata alınıb.

Ən populyar sosial şəbəkələr - Facebook, VKontakte, Twitter və İnstaqramlardır.

Facebook Inc 4 Fevral 2004-cü ildə Harvard Universitetində oxuyan dörd tələbə tərəfindən qurulmuşdur: Mark Zuckerberg, Eduardo Saverin, Dastin Moskowitz və Chris Hughes. Eyni zamanda eyni adlı veb sayt da meydana çıxdı. Əvvəlcə bu yalnız Harvard tələbələri üçün mövcud idi. Bir az sonra Boston universitetləri, sonra isə .edu domenində bir e-poçt ünvanı olan bütün Amerikalılar üçün qeydiyyat açıldı. 2006-cı ilin sentyabr ayından etibarən Facebook 16 yaşdan yuxarı bütün İnternet istifadəçiləri üçün əlçatan oldu. Bu gün dünyanın ən çox ziyarət edilən 5 saytından biridir. Təəccüblü deyil ki, aylıq şəbəkə auditoriyası 1.968 milyard insandır.

10 oktyabr 2006-cı ildə Rusiyada Facebook-un analoqu - VKontakte sosial şəbəkəsi ortaya çıxdı. Onun yaradıcısı Pavel Durovdur. Sayt bir çox dildə mövcuddur, lakin əsas auditoriyası rusdilli istifadəçilərdir.

Resursun əvvəlcə Rusiya universitetlərinin tələbələri və məzunları üçün nəzərdə tutulduğundan, bir müddət sonra özünü "şəbəkədə müasir, sürətli və estetik ünsiyyət üsulu" kimi göstərməyə başladı. 2017-ci ilin dekabr ayı üçün oxşarWeb görə, VKontakte dünyanın ən

populyar saytları reytinqində 11-ci yeri tutur. Yeri gəlmişkən, bu gün bu sosial şəbəkədə 410 milyondan çox istifadəçi qeydiyyatdadır.

Deyə bilərik ki, sSosial şəbəkələr insanların qarşılıqlı əlaqə və ünsiyyətini, fikir mübadiləsini təmin edən, insanların sərbəst düşüncələrini, hadisələrə şəxsi münasibətini ifadə edən, müxtəlif sosial təşkilatlar, cəmiyyətlər arasında əlaqələr yaradan, cəmiyyətdə, dünyada baş verən hadisələri, maraqlı məlumatları operativ olaraq insanlara çatdıran özünəməxsus sosial strukturlara malik bir qurumdur.

Hazırda geniş yayılmış geniş yayılmış sosial şəbəkələr – Facebook, Myspace, Synovate kimi sosial şəbəkələr geniş yayılmışdır. Milyonlarla insan bu şəbəkələrdən fəallıqla istifadə edir, fayadalanır və ya müxtəlif məqsədlər üçün istifadə edirlər. Bu gün Dünyanın ən böyük sosial şəbəkələri sırasına Reddit "Sina Weibo", "TikTok"/ "Douyin", "İnstagram", "WeChat" "Facebook", "Messenger", "WhatsApp YouTube" Facebook" daxildir.

Sosial şəbəkələr sırasında daha geniş yayılmış internet yaşadığımız əsrin fenomen hadisəsidir. İnternet sosial şəbəkələrin ən geniş yayılmış formasıdıər ki, XX əsrin 90-cı illərindən daha geniş və sürətlə inkişaf edərək yayılmışdır.

İnternet həyatımıza, hərgünkü yaşayış tərzimizə geniş daxil olaraq onu daha məlumatlı,

xəbərli və məzmunlu etmişdir. İnternet bu gün demək olar ki, bütün həyat sahələrinə, ailələrə, təhsil ocaqlarına, tibb sahələrinə, rabitə xidmətinə, sənaye və iqtisadiyyatımıza, maarif və mədəniyyitmizə müxtəlif müəssisələrə, təşkilatlara daxil olmuş, xəbərləşməni, məlumatlanmağı, tanışlığı, əlaqə və ünsiyyəti daha sadə və asan etmişdir. Bu gün demək olar ki, insanlar arasında ünsiyyət və münasibətləri, əlaqəni, həyat və fəaliyyətimizi internetsiz təsəvvür etmək çətindir.

Deyə bilərik ki, sosial şəbəkələr bizim fiziki həyatımızızn virtual formasıdır. Onlayn sosial şəbəkələr istifadəçiləri zaman və məkan məhdudiyyəti olmadan istəniılən vaxt istədikləri soaial şəbəkələrə daxil ola bilərlər. Son illərdə sosial şəbəkələrin imkanları genişləndiyindən onların istifadəçiləri də günü – gündən artır və genişlənir. Onlayn sosial şəbəkələrin yayılması ilə bu şəbəkələrdə informasiya mübadiləsi, ünsiyyət və münasibətlərə tələbat daim artan əhəmiyyətə malikdir.

İnternetin nəhəng məlumat bazası hər an yeni xəbərlərlə, məlumatlarla zənginləşir. İnternet genişləndikcə bu şəbəkə vasitəsilə dünyanın istənilən nöqtəsində yaşayan insanlarla virtual ünsiyyət qurmaq, məktublaşmaq, on-line rejimində keçirilən müxtəlif forumlarda, konfranslarda iştirak etmək, kitab, jurnal və qəzetlərin elektron versiyalarını oxumaq, alış-veriş etmək, radio dinləmək, televiziya verilişlərinə tamaşa etmək, gündəlik hadisələr haqqında operativ məlumatlar almaq mümkündür.

Bütün bu sadalananlar insanlara yeni bilik əldə etmk ücün İnternetdən ən geniş şəkildə istifadə etmək imkanları vermişdir. Bu gün İnternet mühitində ən populyar layihələrdən biri müxtılif tipli, məzmunlu sosial şəbəkələrdir.

Bu baxımdan bir sıra qabaqcıl ölkələrdə informatika, xarici dil, coğrafiya , pedaqoji, psxiloji biliklər, tibb və digər sahələrin mütəxəssiləri İnternet resurslarından təhsil və təlim məqsədi ilə, yeni bilik və məlumatlar əldə etmək üçün geniş istifadə etməyə başlamışlar.

Əgər bir neçə il öncə sosial şəbəkə serverləri gənclərin əyləncə, vaxt keçirmə yeri sayılırdısa və onlara çox ziyanlı, gənclərin tərbiyəsinə mənfi təsir göstərən layihələr kimi, İnternetə isə kefiyyətsiz referatlar və düzgün olmayan informasiya mənbəyi kimi baxılırdısa, son zamanlar İnternet şəbəkəsinə münasibət tamamilə dəyişmişdir.

Artıq yeniləşdirilmiş virtual elektron kitabxanalar, elektron dərsliklər, virtual ensiklopediyalar, distant və virtual təhsil internet xidməti və sosial şəbəkələr hesabına xeyli müsbət xarakter almış və xüsusilə pandemiya şəraitində təhsil sistemində geniş istifadə

olunmağa başlamışdır.”Distant təhsil informasiya cəmiyyətinin məhsuludur.Bu öyrətmə və öyrənmə prosesi məsafədən olaraq computer vasitəsilə Həyata keçirilir” (1, 144).

Müasir dövrümüzdə demək olar ki, hər kəs sosial şəbəkələrdən, internet resurslarından itifadə edir. Son 10 illər ərzində onlayn sosial şəbəkələr isə həyatın ayrılmaz parçasına çevirilmişdir. Şəbəkələrin informasiya bolluğu və əlçatana olması ünsiyyət prosesinin daha optimal və rahat olmasına şərait yaradır. Bütün bunlar social işin müxtəlif formalarını əhatə edir. ”Sosial iş müasir dövrün mədəni fenomeni hesab edilir” (2, 35).

Sosial şəbəkə həm də gözəl bir əyləncə növüdür. Burada musiqi dinləmək olar, filmə tamaşa etmək, idman yarışlarını seyr etmək olar. Bənzər mnaraq dünyası olan insanlar tanış olub, görüşə bilir, maraqlı söhbətlər edə bilirlər. Sosial şəbəkələrdə biznes, sahibkarlar, yazıçılar, aktyorlar, musiqiçilər və ya rəssamlar üçün də çox faydalı, təsirli təklif və təqdimatlar da ola bilər.

Çoxumuz üçün həvəs və ya kitablar, televiziya, video oyunlar və ya filmlər kimi bizi maraqlandıran şeylər var. Sosial şəbəkələr eyni maraqlara sahib olan digər insanlarla ünsiyyət qurmağa da əlverişli imkan və şərait yaradır.

Amma, bunu da qeyd edək ki, sosial şəbəkələrdən istifadə müsbət və ya mənfi isiqamətdə də ola bilər. Sosial şəbəkələr insanların fiziki təhlükəsizliyinə, informasiya təhlükəsizliyinə təhdid formalaşdıra bilər.

Sosial şəbəkələr ictimai mühitə də qüvvətli təsir göstərə bilər sosial mühiti dəyişdirə bilər. Sosial şəbəkələr artıq qlobal döyüş meydanına və dəyişikliklərin məkanına çevrilir. Ərəb Baharı dövründə, sosial medianın böyük bir siyasi dəyişikliyə səbəb olmaq gücünü hər kəs gördü. Həmin vaxt “Twitter” və “Facebook” etiraz aksiyalarının təşkil edilməsində ən əsas vasitələrdən birinə çevrilmişdir.

Sosial şəbəkələr həmçinin bəzi hallarda bir çox insanların əxlaqına da mənfi təsir göstərə bilir. Cənubi Kaliforniya Universitetinin (ABŞ) alimləri bildiriblər ki, bu başlıca olaraq hələ psixikası tam formalaşmamış uşaqlar və yeniyetmələrə daha çox aiddir. Alimlərin məlumatlarına görə, əgər istifadəçi sosail şəbəkədə hər hansı fiziki ağrıdan, fəlakət və faciələrdən bəhs edən məlumatı və ya xəbərləri görürsə, bu zaman onun beyni buna bir neçə saniyə içərisində reaksiya verir. Bu reaksiyalar insanı narahat edir, həyəcanlandırır, psixikasına qüvvətli təsir göstərir. İnsanda heyranlıq və ya mərhəmət hissi oyadan hər hansı bir məlumatı və ya informasiyanı emal etmək üçün isə insane daha çox vaxt lazımdır.

Alimlər bu kimi halları böyük narahatlıq və qayğı ilə qeyd edirlər, belə halların aradan qaldırılması yolları haqda düşünürlər.

Həkimlər xəbərdarlıq edirlər ki, sosial internet-saytlara olan maraq, intihar, aqressivlik riskini artıra bilir və autizm, daun kimi xəstəliklərin yaranmasına da səbəb ola bilir. Onların dediklərinə əlavə olaraq bildirək ki, “MySpace” şəbəkəsini ziyarət edən istifadəçilərdən biri davamlı olaraq həyəcanlı məlumatları izləmiş və sponunda hətta intihar edərək həyatına son qoymuşdur.

Sosial şəbəkələrin yaratdığı bu kimi problemlər artıq bəzi dövlətləri və iri şirkətləri də narahat etməyə başlamış və onların aradn qaldırlıması istiqmətində müəyyən çalışmalar aparırlar.

## ƏDƏBİYYAT


1. İnnovativ təlim metodları və texnologiyaların tezaurusu. Bakı: - 2014
2. Əlizadə H.Ə., Mahmudova R,M. Sosial pedaqogika. Dərslik

# SOSİAL ŞƏBƏKƏLƏR: YARANMASI, İNKİŞAFI, ƏHƏMİYYƏTİ VƏ PROBLEMLƏRİ

***Zeynalova Fidan***

## XÜLASƏ

"Sosial şəbəkə" analyışı 1954-cü ildə meydana gəldiyini iddia edirlər. Bu anlayış sosioloq Ceyms Barnes tərəfindən insanlara təqdim edilmişidr. 1969-cu ildə isə internetin meydana gəlməsi ilə sosial şəbəkələr daha da inkişaf e tmiş və şəbəkəsi genişlənmişdir.

Sosial şəbəkələr insanların qarşılıqlı əlaqə və ünsiyyətini, fikir mübadiləsini təmin edən, insanların sərbəst düşüncələrini, hadisələrə şəxsi münasibətini ifadə edən, müxtəlif sosial təşkilatlar, cəmiyyətlər arasında əlaqələr yaradan, cəmiyyətdə, dünyada baş verən hadisələri, maraqlı məlumatları operativ olaraq insanlara çatdıran özünəməxsus sosial strukturlara malik bir qurumdur. Geniş yayılmış sosial şəbəkələr – Facebook, Myspace, Synovate kimi social şəbəkələr geniş yayılmışdır ki, milyonlarla insan bu şəbəkələrdən fəallıqla istifadə edir, fayadalanır və ya müxtəlif məqsədlər üçün istifadə edirlər. Bu gün Dünyanın ən böyük sosial şəbəkələri sırasına Reddit "Sina Weibo", "TikTok"/ "Douyin", "İnstagram", "WeChat" "Facebook", "Messenger", "WhatsApp YouTube" Facebook" daxildir. Sosial şəbəkələrin müsbət və mənfi cəhətləri haqqında məqalədə danışılır.

# СОЦИАЛЬНЫЕ СЕТИ: О ПРЕИМУЩЕСТВАХ И УБЫТКАХ

***Фидан Зейналова***

## АННОТАЦИЯ

Утверждается, что анализ «социальной сети» возник в 1954 году. Это понятие было введено людям социологом Джеймсом Барнсом. В 1969 году, с появлением Интернета, социальные сети получили дальнейшее развитие и расширение.

Социальные сети обладают уникальной социальной структурой, которая позволяет людям взаимодействовать и общаться, обмениваться идеями, выражать свободные мысли людей, личное отношение к событиям, создавать отношения между различными социальными организациями, обществами, событиями в обществе, мире, оперативно доносить интересную информацию до людей, это учреждение. Широко распространенные социальные сети - такие как Facebook, Myspace, Synovate - настолько распространены, что миллионы людей активно используют, извлекают из них пользу или используют их в различных целях. Сегодня крупнейшие социальные сети мира включают Reddit, Sina Weibo, TikTok/Douyin, Instagram, WeChat, Facebook, Messenger, WhatsApp, YouTube и Facebook. В статье рассматриваются плюсы и минусы социальных сетей.

# SOCIAL NETWORKS: BENEFITS AND LOSSES

***Fidan Zeynalova***

## SUMMARY

It is claimed that the "social network" analysis originated in 1954. This concept was introduced to people by sociologist James Barnes. In 1969, with the advent of the Internet, social networks further developed and expan.

Social networks have a unique social structure that allows people to interact and communicate, exchange ideas, express free thoughts of people, personal attitude to events, create relationships between various social organizations, societies, events in society, the world, quickly convey interesting information to people. is an institution. Widespread social networks such as Facebook, Myspace, Synovate are so pervasive that millions of people are actively using, benefiting from or using them for various purposes. Today, the world's largest social networks include Reddit, Sina Weibo, TikTok/Douyin, Instagram, WeChat, Facebook, Messenger, WhatsApp, YouTube, and Facebook. The article discusses the pros and cons of social networks.

# BİZİM YUBİLYARLAR

## MÜDRİKLİK ZİRVƏSİNƏ ÇATAN İKİ ALİMİN HƏYAT YOLU

***dos.Pənahova Kəmalə Həsən qızı***
***BDU-nun Fəlsəfə kafedrasının müdiri***
***kamalapanahova@mail.ru***

Bu il Fəlsəfə kafedrasının professoru Zeynəddin Hacıyevin və dosent Arif Tağıyevin 80 illik yübileyi deyd olunur. 80 yaş insanın müdriklik səviyyəsinə çatdığı, ömür yoluna özü qarşısında hesabat verdiyi bir dövrdür. O ki, qala alim ömrü ola. Bu alim ömrünün səhifələrində ərsəyə gələn dərsliklərin, məqalələrin, yetişdirilən doktorantların, neçə-neçə tələbələrin adları vardır. Bu ömür səlnaməsini vərəqlədikcə yəqin ki, həm çətinliklərin, həm müvəffəqiyyətlərin, iz buraxan hadisələrin şahidi olmaq mümkündür. Hər iki alimimiz həm də artıq bu gün öz yetişdirmələri və həmkarlarının qəlbində öz izlərini qoymuş şəxsiyyətlərdir.

Zeynəddin Camal oğlu Hacıyev 1941-ci ildə Balakən rayonunun Tülü kəndində anadan olub. Orta məktəbi bitirdikdən sonra 1958-1960-cı illərdə kolxozda sıravi kolxozçu işləyib. 1960-cı ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) tarix fakültəsinə daxil olub, 1965-ci ildə oranı fərqlənmə diplomu ilə bitirib. 1965-1969-cu illərdə ADU-nun Fəlsəfə kafedrasında aspirantutaya qəbul olunub. O, professor Həsən Şirəliyevin ilk aspirant olub. 1969-cu ildə “Siyasət ilə əxlaqın qarşılıqlı münasibətləri” mövzusunda namizədlik, 1993-cü ildə “Elmi texniki tərəqqi və kəndin sosial strukturunun dəyişilməsi” mövzusunda doktorluq dissertasiyası müdafiə edib.

1969-1981-ci illərdə Azərbaycan Dövlət Universitetinin “Politologiya və sosiologiya” kafedrasında müəllim, baş müəllim və dosent vəzifələrində işləyib. 1982-1987-ci illərdə Gəncə şəhərində fəaliyyət göstərən Azərbaycan Texnologiya İnstitutunda Fəlsəfə kafedrasının müdiri olub. Z.Hacıyev 1988-ci ildən isə Bakı Dövlət Universitetinin Fəlsəfə kafedrasında çalışır.

Professor Zeynəddin Hacıyev “Sosial fəlsəfə”, “Fəlsəfə”, “Ontologiya və idrak nəzəriyyəsi”, “Məntiq” adlı dörd dərsliyin, “Kəndin sosial inkişafı” adlı monoqrafiyanın, 60-a qədər məqalənin və tezisin müəllifidir.

Zeynəddin müəllim Fəlsəfə kafedrasında bakalavr pilləsində “Fəlsəfə”, “Ontologiya və idrak nəzəriyyəsi”, “Tarixi şüur və tarixi idrak”, magistratura pilləsində isə “Cəmiyyətin mənəvi həyatı”, “Cəmiyyətin maddi həyatı”, “Sosial idrakın mahiyyəti və xüsusiyyətləri” fənlərini tədris edir, buraxılış işlərinə və magistr dissertasiyalarına rəhbərlik edir. Professor Z.Hacıyevi tələbələrə tələbkarlığı ilə tanınsa da, bu tələbkarlıq onun həm də onlara qayğısı və humanist münasibətilə müşayət olunur.

Zeynəddin Hacıyevin həm də doktorluq işinin mövzusunu əhatə edən “Kəndin sosial inkişafı” adlı monoqrafiyasında müasir Elmi Texniki Tərəqqinin aqrar istehsalın geoloji və bioloji quruluşuna təsiri fonunda, daha dəqiq, bio-texniki inqilab fonunda, kənd əhalisinin strukturunda baş verən dəyişikliklər, kolxozçu kəndlilər ilə fəhlə sinfinin kənd dəstəsi (sovxoz fəhlələri, kənd sənaye fəhlələri, ayrı-ayrı sənayə fəhlələri) arasında sosial fərqlərin silinməsi təhlil olunur. Digər tərəfdən aqrar əməyin xarakteri və məzmununda baş verən irəliləyişlər zəminində kolxozçu kəndlilərin sinif daxili strukturunda baş verən daxili dəyişikliklər araşdırılır.

Ölkəmiz müstəqillik əldə etdikdən sonra sosial fəlsəfənin qarşısında duran, fəlsəfi təhlilə ehtiyacı olan problemlərin sayı çoxaldı. Professor Z. Hacıyev də sosial fəlsəfə sahəsində görkəmli mütəxəssis kimi son illərdə həmin problemlərin tədqiqi ilə məşğul olmuşdur. Zeynəddin Hacıyev sosial strukturun dəyişilməsi, sosial fəlsəfədə mənəvilik, şəxsiyyətin azadlığı

problemləri üzrə elmi tədqiqat aparır. XXI əsrin əvvəllərində baş verən trasformasiya prosesləri dəyərlər sisteminə təsir etdiyi kimi, dəyərlər də öz növbəsində siyasi, sosial və iqtisadi həyata və münasibətlərə dəyişdirici təsir etdi. Artıq əvvəlki dəyərlər sistemi müasir reallıqların tələblərinə cavab vermirdi.

Zeynəddin müəllimin dəyərlərin sosial, siyasi, iqtisadi həyatdakı dəyişiklərə təsirini tədqiq etməsinin nəticəsi kimi "Keçid dövrü və sosial dəyərlər", "Azadlığın strukturunda dəyərlər seçiminin rolu", "Sosial-iqtisadi proseslərdə dəyərlərin rolu" adlı məqalələri yazıldı. Məlumdur ki, müstəqillik qazanıldıqdan sonra ictimai həyatın bütün sferalarında baş verən transformasiya prosesləri sosial struktura da təsirsiz ötüşməmişdir. Bu prosesin təhlili öz əksini professorun "Müasir cəmiyyətin sosial strukturunun dəyişilməsinin əsas meylləri" məqaləsində tapmışdır.

Alimin "Azadlığın strukturunda dəyərlər seçiminin rolu", "Azadlıq sosial birliklərin və fərdin maraqları kontekstində", "Azadlıq anlayışının strukturuna dair" məqalələrində isə azadlıq anlayışının strukturu təhlil olunur.

Zeynəddin Hacıyev Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitunun nəzdində fəaliyyət göstərən Dissertasiya şurasının sədr müavini kimi də fəaliyyət göstərir. Zeynəddin müəllim səkkiz nəfər fəlsəfə üzrə fəlsəfə doktoru yetişdirib.

Fəlsəfə kafedrasının digər bir yubilyarı fəlsəfə üzrə fəlsəfə doktoru, dosent Arif Islam oğlu Tağıyev 26 may 1940-cı ildə Ordubad rayonunda anadan olub. 1958-ci ildə orta məktəbi əla qiymətlərlə bitirib. 1965-ci ildə Azərbaycan Dövlət Universitetinin Biologiya fakültəsinə daxil olub, 1970-ci ildə həmin fakültəni əla qiymətlərlə bitirdikdən sonar, 1971-ci ildə BDU-nun Fəlsəfə kafedrasına aspirant qəbul edilib. Professor Fuad Qasımzadənin rəhbərliyi ilə Arif Tağıyev 1975-ci ildə "Dialektik inkişaf prinsipi və biologiyada nəzəri sintez" mövzusunda namizədlik dissertasiyasını müdafiə edib. Arif müəllim 1976-cı ildən Bakı Dövlət Universitetinin Fəlsəfə kafedrasının dosentidir.

Dosent A.Tağıyevin 2011-ci ildə "Müasir təbiətşünaslığın konsepsiyaları", 2014-cü ildə "Antropologiya", 2018-ci ildə "Fəlsəfə" dərslikləri nəşr olunmuşdur. Arif Tağıyevin "Ontologiya" dərsliyi isə hal-hazırda nəşr olunmaq ərəfəsindədir.

Arif müəllim bakalavr pilləsi səviyyəsində "Ontologiya", "Fəlsəfə", "Müasir təbiətşünaslığın konsepsiyaları", "Təfəkkür tiplərinin tarixi dinamikası", "Ontropologiya", "Fəlsəfədə insan problem" fənnləri üzrə mühazirə və məşğələlər aparır. Arif Tağıyev həm də magistratura səviyyəsində Təbiətşünaslıq fəlsəfəsi ixtisası üzrə dərs deyən aparıcı müəllimlərdən biridir. Onun "Təbiətşünaslığın keçdiyi tarixi yol və paradiqmaları", "Yerdə həyatın yaranması konsepsiyaları", "Dünyanın müasir təbii-elmi mənzərəsinin əsas konsepsiyaları" fənlərindən mühazirələri tələbələr tərəfindən maraqla qarşılanır. Arif müəllim uzun müddətdir ki, kafedramızda buraxılış işlərinə və magistr dissertasiyalarına rəhbərlik edir. Onun tələbələrə təqdim etdiyi mövzular həmişə öz aktuallığı ilə seçilir.

Arif Tağıyev fəlsəfə ilə təbiətşünaslığın, xüsusilə biologiyanın əlaqələri, eləcə də davamlı iqtisadi inkişaf strategiyası üzrə tədqiqatlar aparır. Arif Tağıyev Azərbaycan Respublikasının iqtisadi inkişaf prespektivlərin təhlil edən "Azərbaycan Respublikasının davamlı iqtisadi inkişaf strategiyası haqqında" məqalələrin müəllifidir. Arif Tağıyevi maraqlandıran məsələlərdən biri də dünyanın müasir təbii-elmi mənzərəsidir. O, bu istiqamətdə "Dünyanın təbii-elmi mənzərəsi: metodoloji analiz", "Dünyanın post-qeyri klassik mənzərəsində qlobal təkamül" kimi məqalələr yazmışdır.

A.Tağıyevin "Antropologiya" dərsliyində çağdaş elmin mühüm və müxtəlif istiqamətlərini özündə birləşdirən bir sahənin - antropologiyanın ən aktual məsələləri izah edilir, həmçinin bu elmin tarixi, predmeti və metodoloji məsələləri, müzakirəsi indi də davam edən antropososiogenez, yaxud insanın biososial təkamülü, cəmiyyətin sosial və siyasi inkişafının

ilkin mərhələləri, eləcə də cəmiyyət tarixinin dövrləşdirilməsinin prinsip və meyarları və s. problemlər öz şərhini tapır. Oxucu bu dərslikdə antropoloji tədqiqatın çox müxtəlif - sosiomədəni antropologiya, psixoloji antropologiya, vizual, kibernetik antropologiya və başqa sahələri ilə tanış olur.

Arif Tağıyev fəlsəfə klassiklərindən Platonun “Dövlət”, Aristotelin “Politika” və “Metafizika”, Hegelin “Ruh fəlsəfəsi”, “Məntiq elmi”, “Hüquq fəlsəfəsi” adlı əsərlərini Azərbaycanda ilk dəfə ana dilimizə çevirib nəşr etdirmiş, fəlsəfə klassiklərinin tərcümə etdiyi əsərlərinə həm də iri həcmlı şərhlər yazaraq, onları təhlil etmişdir.

Platonun “Dövlət” və Aristotelin “Politika” əsərlərinin müsəlman mütəfəkkirlərinin yaradıcılığına da güclü təsiri olmuşdur. Böyük türk filosofu, Şərqdə ikinci “İkinci müəllim” adlandırılan Əbu Nəsr əl-Farabi özünün “Fəzilət şəhəri sakinlərinin baxışlarına dair traktatını”ını , XIII əsrdə N.Tusi “Əxlaqi-Nasiri” əsərini, Xacə Nizamülmülk Həsən Əli “Siyasətnamə” əsərini (XI əsr) məhz Platon və Aristotelin ideyalarından bəhrələnərək yazmışlar. Nizaminin “İsgəndərnaməsi”nə də Platon və Aristotelin siyasi-fəlsəfi ideyalarının təsiri başlanğıcdan sonadək duyulur. Orta əsrlər İslam bölgəsində Şərq peripatetizmi nümayəndələri tərəfindən həmin əsərlər ərəb dilinə tərcümə və şərh edilmişdir. Mənəvi atalarımızın klassik yunan fəlsəfi irsini yüksək dəyərləndirməsinə, ondan daha çox bəhərlənməsinə və bizlərə ərməğan etdikləri əsərləri ilə o zəngin mənəvi mədəniyyəti mənimsəməyi tövsiyə etmələrinə baxmayaraq, bu əsərlərin ana dilimizə çevrilməsi kimi çətin bir işin öhdəsindən məhz Arif Tağıyev gəlmişdir.

Azərbaycan respublikası müstəqillik əldə etdikdən sonra marksisit metodologiyadan üzaqlaşma meylləri nəticəsində fəlsəfi, hüquqi, filoloji sahələrdə tədqiqatlar artıq marksisit ideologiyadan kənar aparılmağa başlandı. Buna görə Arif müəllim də Hegelin fəlsəfi sistemini, eləcə də onun “Hüquq fəlsəfəsi”ni marksisit metodologiyası əsasında dəyərləndirmənin həqiqəti heç də tam əks etdirməyəcəyi qənaətinə gələrək, Hegelin “Hüquq fəlsəfəsi”nin şərhində də “Ruh fəlsəfəsi” və “Məntiq elmi” əsərlərinin Azərbaycan türkcəsində nəşrində istifadə etdiyi şərh üsulundan, başlıca olaraq Hegelin özündən və onun hüquq və dövlət fəlsəfəsində qaldırdığı problemlərdən, prinsiplərdən, xüsusilə də onun özünün işləyib hazırladığı və sözü gedən əsərdə daha da inkişaf etdirdiyi dialektik metoddan istifadə edir. Arif Tağıyev söhbətlərində “Ruhun özünə səyahəti” adlı kitabı üzərində işləyərək başa çatdırmaq arzusunda olduğunu dilə gətirir.

Bu gün Azərbaycanda fəlsəfə elminin inkişaf etməsində və bu sahədə kadrların hazırlanmasında böyük xidmətləri olan Zeynəddin Hacıyevi və Arif Tağıyevi bir daha təbrik edirik. Sizin fəlsəfi yaradıcılığınız, humanizminiz, ümumiyyətlə zəhmətlə yoğrulmuş həyat yolunuz bu gün aralarında olduğunuz gənclik üçün bir nümunədir. Sevinməliyik ki, belə insanlar bizimlə çiyiç-çiyinə çalışır, öz məsləhətlərini bizdən əsirgəmirlər!

# MÜNDƏRİCAT

## SOSİOLOGİYA

***Musayeva Pəri.*** Azərbaycan Xalq Cümhuriyyəti – mədəni siyasətin inkişafi...............................3
***Bayraməli Şaxanım.*** Azərbaycanda şəhərlərə miqrasiya proseslərinin dinamikası..................7
***Ömərzadə Nəzrin.*** Gənclik anlayışına ümumi baxış – tarixi və müasir yanaşmalar...............15
***Муталлимова Лейла.*** Риски в современном Азербайджане................................................20
***Qədirova Gülnar.*** İslam dinində haramlar: narkomaniya və alkoqolizm.............................23
***Дамирова Эльвира.*** Теоретические проблемы досуга..................................................30
***Əzimova Günel.*** Xüsusi qayğıya ehtiyacı olan uşaqlar və ailələri......................................34
***Bayramova Nurşən.*** Demoqrafiya sahəsində beynəlxalq və milli prioritetlər........................39

## PEDAQOGİKA

***Г.Абдуллаева, Т.Гашимова.*** Переход от традиционного урока к интерактивному на педагогической практике..........................................................................................44
***Məmmədova Aysel.*** Onlayn dərslərdə təlim göstəricilərinə təsir edən amillər.....................48
***Aygün Umarova.*** Avropa humanist pedaqogikasinda tərbiyənin rolunun tarixi və nəzəri əsasları......................................................................................................................52
***Muradova Lamiyə.*** Qadın təhsili və azadlığı uğrunda mübarizədə Şəfiqə Əfəndizadənin rolu..........................................................................................................................56
***Qubadova Ülkər.*** Milli-mənəvi dəyərlər sistemi və Azərbaycançılıq ideologiyasının formalaşması...............................................................................................................59
***Санг Жике.*** О взаимодействиях в интерактивном обучении.......................................64
***Məmmədova Aysun.*** Təhsildə yeni pedaqoji texnologiyalardan istifadə dövrün tələbidir..........68
***Hacıyeva Pınar.*** Uşaqların vətənə məhəbbət ruhunda tərbiyəsində ailənin rolu................72

## PSİXOLOGİYA

***Eyyubova Mehriban, Səhrabova Səkinə.*** Tələbələrin təlim prosesində ünsiyyət və kommunikativ fəaliyyətinin təzahür xüsusiyyətləri.......................................................75
***Наджафова Пярвин.*** Влияние искусства на развитие личности школьника…………..88
***Məmmədova Aysel.*** Onlayn dərslərdə təlim göstəricilərinə təsir edən amillər……………....82
***Джабарова Малейка.*** Особенности изучения проблемы гиперактивности и синдрома дефицита внимания…………………………………………………………..........86
***ƏləkbərzadəPərvin.*** Yeniyetmələrdə aqressiv davranişin xüsusiyyətləri………………....93
***Qəribova Leyla.*** Blogerlərin peşəkar identiklik problemində özünü dərketmənin psixoloji xüsusiyyətləri…………………………………………………………………...........96
***Исмайылова Гюльниса.*** Дистанционное образование и методологические принципы образования, основанного на высоких технологиях.....................................................101
***Аббасзаде Фарах.*** Вопросы самооценки в современной психологической литературе....................................................................................................104
***Hüseynova Nurlana.*** Şəxsiyyətin formalaşmasinda mədəniyyətin təsiri.............................109
***Fəxrəddin Fəridə.*** COVID-19 pandemiyasi və psixososial təsirləri...................................113
***Наджафова Пярвин.*** Взаимодействие искусства и действительности как принцип эстетического воспитания........................................................................................116

***Hüseynova Gülnarə, Əlizadə Günəş.*** Gender stereotiplərinin formalaşmasında təhsil mühitinin rolu.......................................................................................................................120
***Mənsumova İlkanə.*** Xocalı qatillərinin davranışının sosial-psixoloji analizi......................125
***Гусейнова Гюльнара, Джабраилова Раксана.*** Роль семьи в адаптации детей младшего школьного возраста.......................................................................................131
***Həbilova Xatimət.*** Azərbaycan ailələrində yeniyetmə və valideyn münasibətlərinin psixoloji təhlili……………………………………………………………………………136
***Həsənova Aytəkin.*** Uşaqların psixi, fiziki və intellektual inkişafında oyunların rolu................140

## FİLOLOGİYA

***Санани Гюляр.*** Формы речевого общения...................................................................144
***Gəncəli Samirə.*** Məhəmməd Əmin Dilsuz yaradıcılığının səciyyəvi xüsusiyyətləri.................149
***Nağıyeva Zinaida.*** Əmin Abid Mütəllibzadənin poetik yaradıcılığı barədə........................157

## İQTİSADİYYAT VƏ İDARƏETMƏ

***Mikayılova Gülcan.*** İqtisadi təhlükəsizliyin təmin edilməsində xarici iqtisadi əlaqələrin düzgün qurulmasinın əhəmiyyəti.......................................................................................160
***İbrahimli Xəzər.*** Aqrar sahədə təşkilati-iqtisadi münasibətlərin tənzimlənmə mexanizmlərinin təkmilləşdirilməsi...........................................................................................164
***Mehriban Yadulla, Qazibahadır Fatimə.*** Qarabağ Regional İnnovasiya Mərkəzinin yaradılmasının əsas istiqamətləri.......................................................................................169
***İbrahimli Vüsalə.*** Azərbaycanda kənd təsərrüfatinin ölkə iqtisadiyyatindakı rolu.................174
***Mikayılova Gülcan.*** İqtisadi təhlükəsizliyin təmin edilməsi və daxili bazarın qorunmasında gömrük xidmətinin rolu.......................................................................................178
***Əfəndiyeva Xatirə, Quliyeva Sona.*** NATO-nun enerji təhlükəsizliyində Azərbaycanın rolu...182
***Babayev Fərid, Mustafazadə Mətanət.*** Malların gömrük dəyərinin müəyyən edilməsi mexanizmləri..............................................................................................187
***Babayev Fərid, Rəşid Zəbərcət.*** Valyuta əməliyyatlarının iqtisadi təsnifati və təhlili..........192
***Zeynalova Fidan.*** Sosial şəbəkələr: yaranmasi, inkişafi, əhəmiyyəti və problemləri...........197

## BİZİM YUBİLİYARLAR

***Pənahova Kəmalə.*** Müdriklik zirvəsinə çatan iki alimin həyat yolu...............................201

## Müəlliflərin nəzərinə!

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin 30 aprel 2010-cu il tarixli iclasında (protokol №10-R) «**Azərbaycan Respublikasında dissertasiyaların əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlər qarşısında qoyulan tələblər**» təsdiq edilmiş və bu məsələ ilə bağlı dövri elmi nəşrlərin baş redaktorlarının iştirakı ilə keçirilmiş elmi-praktik seminarda qeyd olunan faydalı tövsiyələr nəzərə alınmışdır.

Onlardan bəzilərini nəzərinizə çatdırırıq:

1. Məqalələr dövri elmi nəşrin təsis sənədlərində qeyd edilmiş dildə və ya dillərdə (məsələn, Azərbaycan, ingilis və rus dillərində) dərc oluna bilər. Xarici dildə məqalələr dərc edən dövri elmi nəşrin redaksiya heyəti üzvlərinin sırasında dərc olunan məqalənin aid olduğu elm sahəsi üzrə xarici dili bilən tanınmış mütəxəssis olmalıdır.
2. Dövri elmi nəşr hansı dillərdə məqalə dərc edirsə, həmin dillərin hər birində məqalə müəllifləri üçün qaydalar verilməlidir.
3. Dövri elmi nəşrdə baxılan elm və ya texnologiya sahəsində qabaqçıl olan dünya ölkələrindən daxil olan məqalələrin çapına yer verilməlidir.
4. Məqalələrin mətnləri Times New Roman-12 şrifti ilə (məsələn, Azərbaycan dilində latın əlifbası, rus dilində kiril əlifbası, ingilis dilində ingilis əli fbası ilə) 1 intervalla çap olunmalıdır.
5. Hər bir məqalə yeni səhifədə verilməli və səhifənin yuxarısında dövri elmi nəşrin adını, ilini, cildini, sayını, məqalənin başlanğıc və son səhifələrini bildirən başlıq (zastavka) olmalıdır.
6. Məqalədə müəllif(lər)in işlədiyi müəssisə(lər) və həmin müəssisənin (müəssisələrin) ünvan(lar)ı, müəllif(lər)in elektron poçt ünvan(lar)ı göstərilməlidir.
7. Elmi məqalənin sonunda elm sahəsinin və məqalənin xarakterinə uyğun olaraq, müəllif(lər)in gəldiyi elmi nəticə, işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti, iqtisadi səmərəsi və s. aydın şəkildə verilməlidir.
8. Məqalənin mövzusu ilə bağlı elmi mənbələrə istinadlar olmalıdır.

Məqalənin sonunda verilən ədəbiyyat siyahısı ya istinad olunan ədəbiyyatların mətndə rast gəlindiyi ardıcıllıqla (məsələn, [1] və ya [1, s.119] kimi işarə olunmalı) ya da əlifba ardıcıllığı ilə nömrələnməlidir. Eyni ədəbiyyata mətndə başqa bir yerdə təkrar istinad olunarsa, onda istinad olunan həmin ədəbiyyat əvvəlki nömrə ilə göstərilməlidir.

9. Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Elmi məqalələrə, simpozium, konfrans və digər nüfuzlu elmi tədbirlərin materiallarına və ya tezislərinə istinad edərkən məqalənin, məruzənin və ya tezisin adı göstərilməlidir. İstinad olunan mənbənin biblioqrafik təsviri verilərkən Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının «Dissertasiyaların tərtibi qaydaları» barədə qüvvədə olan təlimatının «İstifadə edilmiş ədəbiyyat» bölməsinin 10.2-10.4.6 tələbləri əsas götürülməlidir.
10. Məqalənin sonundakı ədəbiyyat siyahısında son 5-10 ilin elmi məqalələrinə, monoqrafiyalarına və digər etibarlı mənbələrinə üstünlük verilməlidir.
11. Dərc olunduğu dildən əlavə başqa iki dildə məqalənin xülasəsi verilməlidir. Məqalələnin müxtəlif dillərdə olan xülasələri bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun olmalıdır. Məqalədə müəllifin və ya müəlliflərin gəldiyi elmi nəticə, işin elmi yeniliyi, tətbiqi əhəmiyyəti və s.

xülasədə yıgcam şəkildə öz əksini tapmalıdır. Xülasələr elmi və qramatik baxımdan ciddi redaktə olunmalıdır. Hər bir xülasədə məqalənin adı, müəllifin və ya müəlliflərin tam adı göstərilməlidir.

12. Hər bir məqalədə UOT indekslər və ya PAJS tipli kodlar və açar sözlər göstərilməlidir. Açar sözlər üç dildə (məqalənin və xülasələrin yazıldığı dillərdə) verilməlidir.

13. Məqalənin redaksiyaya daxil olma, təkrar işlənməyə göndərilmə və çapa qəbul olunma tarixləri sonda göstərilməlidir.

14. Dövri elmi nəşrin redaksiyası məqalənin dərc olunması ilə əlaqədar olaraq müəllif və ya müəlliflərin razılığını, göndərilən məqalənin əvvəllər dərc olunmadığını (məqalənin tezis şəklində dərc olunmuş variantı istisna olmaqla), məqalənin hər hansı bir dildəki variantının eyni zamanda digər dövri elmi nəşrlərə göndərilmədiyini və məqalə ilə bağlı elmi-tədqiqat işinin hansı müəssisədə yerinə yetirildiyini əks etdirən anket hazırlamalıdır. Bu anketi müəllif(lər) imzalayıb redaksiyaya göndərməli və ya dövri elmi nəşrin saytına daxil olub anketin elektron variantını doldurmalı və onu elektron təsdiqləməlidir(lər).

15. Elmi curnallarda «əvvəli ötən saylarımızda», «ardı növbəti nömrədə» adı altında seriya məqalələrin dərc olunmasına icazə verilmir.

16. Dövri elmi nəşrin əvvəlki nömrələrində dərc olunmuş məqalələrdə rast gəlinən ciddi səhvlər və ya texniki qüsurlara dair düzəliş və qeydlər elmi nəşrin növbəti nömrələrindən birində müəllif(lər) tərəfindən yenidən verilə bilər. Bu halda əvvəlki məqalə ilə «DÜZƏLİŞ» bölməsində verilən məqalənin adı eyni olmalıdır.

Həm də xatırlatmaq istəyirik ki, Azərbaycan Respublikasında elmi əsərlərin tərtibinə tələblərinə uyğun olaraq, məqalənin mətni aşağıdakı əsas elementləri özündə ehtiva etməlidir:

- *Ümumi problem və mühüm elmi və ya praktiki vəzifələri ilə bağlı problemin qoyuluşu;*
- *Bu problemin həllində müəllif üçün təməl rolunu oynayan son tədqiqatlar və nəşrlərin qısa təhlili;*
- *Bu məqalədə həlli nəzərdə tutulmuş məsələyə aid daha ümumi problemin hələ də həllini tapmayan tərəflərin aşkar edilməsi;*
- *Məqalənin məqsədlərinin göstərilməsi;*
- *Elmi nəticələrin tam əsaslandırılması ilə əsas tədqiqat materialın təqdimatı;*
- *Tədqiqatın nəticələri və bu istiqamətdə işin daha da inkişaf etdirilməsi perspektivləri.*

# SOSİAL VƏ HUMANİTAR ELMLƏRİN MÜASIR PROBLEMLƏRİ

ELMİ ƏSƏRLƏR TOPLUSU

BURAXILIŞ № 30
(I HİSSƏ)

Təsisçi: fəlsəfə üzrə elmlər doktoru, prof. **Qızılgül Yasin qızı Abbasova**
Kompüter dizaynı – **Vüsalə Kərəm qızı Musayeva**

Yığılmağa verilmişdir: 25.11.2020

Çapa imzalanmışdır: 25.11.2020
Format: 60 ×84 1/8
Şərti çap vərəqi – 38
Sifariş № 45
Tiraj – 100 nüsxə
---------------------------------------------